**ASLAN BAYRAMOV**
**YASƏMƏN BAYRAMOVA**

# *AĞBABA, ŞÖRƏYEL, PƏMBƏK və ONA YAXIN OLAN BÖLĞƏLƏRİN MİKROTOPONİMLƏRİ*

**Bakı - 2024**

**İdeya rəhbəri:** ***Akademik Abel Məhərrəmov,***
*QAİ-nin Amasiya rayon icmasının sədri*

**Redaktor:** ***dos. Əziz Ələkbərli,***
*Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin üzvü*

**Məsləhətçilər:** ***prof.Mahirə Nağıyeva,***
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, QAİ-nin rəyasət heyətinin üzvü*
***Avtandil Ağbaba,***
*SDU-nun Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının professoru, QAİ-nin Ziyalılar Şurasının üzvü*
***dos. Şahbaz Balakişiyev,***
*"Peşə təhsili və insan kapitalı" jurnalının baş redaktoru, QAİ-nin Ziyalılar Şurasının üzvü*

**Kompüter tərtibatçısı:** ***Aynurə Nizami qızı,***
*SDU-nun Folklorşünaslıq elmi-tədqiqat laboratoriyasının əməkdaşı*

Kitabda "Qərbi Azərbaycana qayıdış" konsepsiyasına və mənəvi mədəniyyətimiz olan mikrotoponimlərin bərpası istiqamətində araşdırmalar əks olunur. 1988-ci ilədək Azərbaycan türkləri yaşamış Ağbaba-Şörəyel (Amasiya rayonu) və Pəmbək bölgələri (Quqar//Gögər və Hamamlı rayonları) kəndlərində əhalinin gündəlik həyatında, məişət və təsərrüfat işlərində çox aktiv işlənmiş mikrotoponimlər informatorlardan toplanaraq tədqiqata cəlb olunmuşdur. Kitabda mikrooronim (relyef adları), mikrohidronim (su mənbəyi adları) və mikrooykonimlər (məhəllə adları0 linqvistik cəhətdən təhlil olunur, yeri lokalizə edilir, yəni yeri təyin edilir, leksik-semantik, morfoloji və sintaktik xüsusiyyətləri göstərilir. Bunlardan başqa, kəndlərdə yaşamış tayfa və nəsillər, təsərrüfat, əhali və ailələrin sayı statistik formada təqdim olunur. Burada verilən mikrotoponimlər lüğəti daha çox əhəmiyyət kəsb edəcəyi ümidindəyik. Çünki kənd adlarının müxtəlif mənbələrdə qeydləri vardır. Ancaq mikrotoponimlər işlənmədiyindən "məhv" olmuş, daha doğrusu, soyqırıma məruz qalmışlar.

1988, 1989-cu illərədək Ağbaba, Şörəyel və Pəmbək bölgəsində yaşamış qaçqın soydaşlarımız bu kitabı oxuyanda onun bədənindən bir gizilti keçəcək, nostalji hisslər yaşayacaq. Kitabdakı lüğətləri oxuyanda dağların əzəmətini, biçənəklərdəki gül-çiçəyin ətrini duyacaq, dağ çaylarının şırıltısını və bulaqların zümzüməsini eşidəcəkdir.

$$B\,\frac{4400600000 \quad 0-013}{2024}$$

© Aslan Bayramov, Yasəmən Bayramova, 2024

# Qərbi Azərbaycan İcmasının binasında Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı etdiyi çıxışından seçmələr:

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır,bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi,dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

1980-cı illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən o vaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə

azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yasamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi.

Təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi,güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ·ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırq və dünyaya göstərməyə çalışırıq ki, gəlin,baxın,gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər.

Hesab edirəm ki, Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün. Hesab edirəm ki, biz bu işi bundan sonra daha məqsədyönlü şəkildə aparmalıyıq. Yəni, təşkilat qurulub, İcma qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq

üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır. Məsələn, indi bunu artıq dünyada da bilməyə başlayırlar və sual olunur, bu sualı biz qoymuşuq, Azərbaycan nümayəndələri, bu məsələ ilə məşğul olan insanlar qoyublar, indi göstərin görək İrəvanın tarixi mərkəzi haradır? Haradadır İrəvanın tarixi mərkəzi? Əgər deyirsiniz ki, guya bu, dünyanın ən qədim şəhəridir. Haradadır bunun tarixi mərkəzi? Bəs, necə ola bilər ki, İrəvanda tarixi mərkəz yoxdur? Qoy, bu sadə suala cavab versinlər. Cavab da gün kimi aydındır. Ona görə ki, bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən Irəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni, bütün bunlar göstərilməlidir. Yəni, siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır.

Erməni xalqı nə vaxt bizim torpaqlarmıza köçürülüb? Hamımız yaxşı bilirik. Qarabağa nə vaxt köçürülüb? Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən köçürülub? Necə köçürülüb və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövləti olmayıb.Əgər nə vaxtsa olubsa, hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada,düzgün formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq.

Fürsətdən istifadə edərək mənim haqqımda dediyiniz bütün xoş sözlərinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən əvvəlki dövrdə adətən 24 dekabr günündə məcburi köçkünlərlə bir yerdə olurdum, doğum günümü heç vaxt qeyd etməmişəm, ancaq ailə üzvlərimlə qeyd etmişəm. Hesab edirəm ki, bugünkü gündə istisna deyil, yenə də ailə üzvlərimlə birlikdə qeyd edirəm.

***24 dekabr 2022-ci il***

## *ÖN SÖZ*
## *TARİXİ-COĞRAFİ YADDAŞ*

Azərbaycan toponimlərinin, istər makrotoponim, istərsə də mikrotoponim olsun, harada, hansı sərhədlər daxilində olmasından asılı olmayaraq dil vahidi kimi – onun mənşəyi, quruluşu, coğrafi arealı və s. öyrənilməlidir. Ona görə ki, dil sərhəd tanımır. Bildiyimiz kimi, ulu babalarımız coğrafi obyektlərə təsadüfi adlar verməmişlər. Onların taleyüklü tarixi, dili, təbiətə baxışı – etnik düşüncəsi bir sistem kimi torpağın danışan dili olan toponimlərdə əks olunmuşdur. Yer-yurd adları müəyyən bir şəxsiyyətin və ya tayfanın fəaliyyəti, yerin relyefi, fauna və florası ilə əlaqədar olaraq yaranır. Ona görə də toponimlərin fonetik, leksik-semantik və qrammatik quruluşu, yerləşdiyi ərazi (coğrafiyası) və tarixini öyrənib araşdırmaq Azərbaycanşünaslıq üçün aktual məsələlərdən biridir. Azərbaycan türkcəsinin qayda-qanunlar əsasında yaranmış bu qədim dil ünsürləri torpağın dili olaraq xalqın qədim mədəniyyəti, dilini, tarixi coğrafiyası və etnoqrafiyasını (bura məişət və məşğuliyyət də daxildir) öyrənmək baxımından mənəvi mədəniyyətimizi əks etdirən qiymətli mənbələrdir. Torpağın, dağın, daşın sahibini təsdiq edən faktlardır.

Hələ BDU-nun dissertantı olanda rəhmətliklər – prof. Kamil Vəliyev, prof. Əlövsət Abdullayev, prof. Tofiq Əhmədov və dos. Ağamalı Həsənovun tapşırıqları ilə dəfələrlə Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində oldum. Makro və mikrotoponimləri toplayıb onun əsasında dissertasiya yazıb müdafiə etdim.

Budaq Budaqovun təbirincə desək, dilçilik, tarix və coğrafiya elmlərinin qovşağında yaranan toponimlər bizim etnik kimliyimizdir. Bu etnik kimlik nəinki yaşayış məntəqəsi adlarında, eləcə də kənd ərazilərində, əkin-biçin, maldarlıq və qoyunçuluq sahələri ilə bağlı olaraq, bütövlükdə təsərrüfat işlərin-

də aktiv işlənən mikrotoponimlər və mikrohidronimlərdə əks olunur. Bu qədər məhəllə, əkin-biçin sahələri, biçənək və otlaqlar, eniş-yoxuş, dağ, dərə, təpə, qayalıq, qumluq, arxaç, ağıl, yataq, bulaq, göl, çay, arx, quyu, qoruq, yal, yamac və s. coğrafi obyektləri adlandırmaq və fərqləndirmək üçün mikro-oronim, mikrohidronim və mikrooykonimlərin (məhəllə adları) rolu böyükdür. Bunların hər biri ünvandır. Bu ünvanlar olmasa, təsərrüfat işi dayanar, toplu yaşayan insanların həyat fəaliyyəti pozular. Məsələn: Sürü otlayır. –Harada? Kombaynlar biçin edir. –Harada? Qoyun-quzu dincəlir. –Hansı bulağın başında? Qəza baş verib. –Hansı yolda? Təcili yardım gəlir. –Hara? Qadınlar ziyarətə gedirlər. –Hansı ziyarətə və s.

Amma çox təəssüf ki, Rusiya-İran (1828) və Rusiya-Osmanlı (1829, 1878, 1914) savaşları zamanı çar hökuməti erməniləri İran və Türkiyənin ucqarlarından gətirib Cənubi Qafqaza – Azərbaycan türkləri yaşayan ərazilərə yerləşdirmişlər. Bolşevik Rusiyası zamanında da gəlmə ermənilərin münbit torpaqlara yerləşdirilməsi davam etdirilmiş, nəhayət, İran və Türkiyə sərhədlərində tompon bölgə kimi, İrəvan xanlığı ərazisində monoetnik "Ermənistan" yaratmağa nail olmuşlar. Bu azmış kimi, hələ Qarabağda da ermənilərə muxtariyyət verilmişdir. Yaxşı ki, Azərbaycan dövlətinin siyasi qüdrəti ilə bu muxtariyyət ləğv edildi.

Ermənilər Cənubi Qafqaza yerləşdirildikdən sonra "Böyük Ermənistan" yaratmaq xülyasında oldular. Millətçilik azarına tutulan ermənilər Qərbi Azərbaycanın bütün mahallarından oranın avtoxton sakini olan soydaşlarımızı gah terror, gah da "köçürmə" adı ilə didərgin saldılar. Ardıcıl olaraq 1828, 1829, 1878, 1914, 1918, 1988-ci illərdə Azərbaycan türklərinə qarşı deportasiyalar və soyqırımlar törədildi. İndi qədim İrəvan xanlığı ərazisində nə bir Azərbaycan türkü yaşayır, nə də ki, onların yaratdığı maddi-mənəvi mədəniyyət abidələri qalıb. Bu baxımdan, toponimlərin toplanıb tədqiqata cəlb edilməsi etnik tariximiz üçün əsas məsələlərdəndir.

Kənd adları, onların rəsmi qaydada ermənilər tərəfindən dəyişdirilməsi tarixi mənbələrdə vardır, məlumdur. Mikrotoponimlər isə toplanmadığından və məlum səbəblərə görə qədim yurd yerlərimizdə indi Azərbaycan türkləri yaşamadığından "məhv olub"lar. Onları – dağı, təpəni, yalı-yamacı, çayı, bulağı, çayır-çəməni öz dilində danışdıran olmadığına görə "məhv olublar". Daha doğrusu, soyqırıma məruz qalıblar. Unudulmaqda olan bu mikrotoponimləri sabahkı nəslə çatdırmaq üçün toplayıb cild-cild lüğətlər hazırlanmalıdır.

İndiki şəraitdə kəndlərdə mövcud olmuş mikrotoponimləri informatorlardan toplayıb yazıya almaqla iş bitmir. Gərəkdir ki, hər bir mikrotoponimin yeri, coğrafi hüdudu, mütləq hündürlüyü, uzunluğu, hövzəsi və s. qeyd olunsun. Onun yeri lokalizə edilməsə, yəni yeri təyin olunmasa, elmi əsası olmaz. Coğrafi obyektlərin, nəzərə çarpan təbiət hadisələrinin də şəkilləri lüğətlərə salınsa, yaxşı olar.

Oxucular üçün təqdim olunan ***"Ağbaba, Şörəyel, Pəmbək və ona yaxın olan bölgələrinin mikrotoponimləri"*** adlanan kitabın "Giriş" hissəsində Qərbi Azərbaycanın tarixi bölgələrindən olan Ağbaba, Şörəyel, Pəmbək bölgələri və ona yaxın olan ərazilərin relyefi, dağ silsilələri, keçidlər, çaylar, göllər və suayrıcıları şərh olunur.

***"Linqvistik səviyyədə oronimlərin leksik-semantik və qrammatik xüsusiyyətləri"*** adlanan I fəsildə göstərilən ərazilərin kəndlərində çox geniş yayılmış türkmənşəli toponimik qatın leksik-semantik və qrammatik xüsusiyyətləri göstərilir. Ondan sonra mikrooronimlərə aid sözlük təqdim edilir.

***"Linqvistik səviyyədə hidronimlərin leksik-semantik və qrammatik xüsusiyyətləri"*** adlanan II fəsildə göstərilən ərazilərin kəndlərində su mənbəyi kimi çox geniş işlənmiş türkmənşəli hidronimlərin türk qatı, onların leksik-semantik və qrammatik xüsusiyyətləri göstərilir. Ondan sonra hidronimlərə aid sözlük təqdim edilir.

***"Linqvistik səviyyədə mikrooykonimlərin, yəni məhəllə***

***adlarının leksik-semantik və qrammatik xüsusiyyətləri"*** adlanan III fəsildə kəndlərdə mövcud olmuş məhəllə adlarının leksik-semantik və qrammatik xüsusiyyətləri göstərilir.

***"1988-1989-cu illərin deportasiyasınadək Ağbaba, Şörəyel və Pəmbək bölgələrində yaşayan ailələrin və əhalinin sayı, tayfa və nəsil adları"*** adlanan IV fəsildə statistik formada təqdim edilir. Bunlardan başqa, ərazilərə aid tarixi mənbələrdə qeydə alınmış inzibati-ərazi vahidlərindən də örnəklər verilmişdir.

***"Qara, ağ, sarı, göy və qızıl (qırmızı) komponentli toponim və hidronimləri, türk ellərindəki paralelləri"*** adlanan V fəsildə türk xalqları yaşayan ərazilərdə çox geniş yayılmış qara, ağ, göy, sarı və qızıl (qırmızı) komponentli toponimlərdən xeyli miqdarda nümunələr verərək müqayisələr aparılmışdır.

Bu kitabı oxuyan hər bir kəsin xəyalında o ərazilərin təbiəti – başıqarlı uca dağların əzəməti, gül-çiçəyə bürünən geniş biçənəklərin ətri, dəniz kimi dalğalanan kəhrəbarəngli taxıl zəmiləri, dərin dərələrdən axan dağ çaylarının şırıltısı, dişgöynədən bulaqların zümzüməsi və s. mənzərələr canlanacaq.

Kitab Azərbaycan dili və onun tədrisi metodikası kafedrası və Folklorşünaslıq elmi-tədqiqat laboratoriyasının iş planına uyğun olaraq işlənib hazırlanmışdır.

Kitabın ərsəyə gəlməsində SDU-nun Folklorşünaslıq elmi-tədqiqat laboratoriyasının əməkdaşları – Aynurə Babayeva, Şeyda Quluyeva, Balakişi İsgəndərova minnətdarlığımı bildirirəm.

***Müəlliflərdən***

# GİRİŞ. QƏRBİ AZƏRBAYCANIN AĞBABA, ŞÖRƏYEL, PƏMBƏK BÖLGƏLƏRİ VƏ ONA YAXIN OLAN ƏRAZİLƏRİN RELYEFİ

Qərbi Azərbaycanın şimal-qərbdən cənub-şərqə uzunluğu təqribən 360 km. eni isə 150 kilometrədir. Bura dağlıq ərazidir. Burada qarışıq dağlar qüdrətli Alp, Qafqaz və Himalay dağ sistemləri formalaşdığı zamanlarda əmələ gəlmişdir. Kiçik Asiya və İran dağ qırışıqlarının bir-birilə toqquşaraq parçalandıqları və öz ilk istiqamətlərini itirdikləri sahə ilə təxminən uyğun gəlir. Buna görə də Qərbi Azərbaycan ərazisində dağların həm də dərələrin vahid istiqaməti yoxdur. Onlar həm şərqdən-qərbə, həm də şimaldan cənuba doğru uzanırlar. Burada müxtəlif vaxtlarda güclü vulkan püskürmələri baş verdiyindən konusvari dağ zirvələri və püskürmə materialları ilə örtülmüş geniş dağ ovalıqları (Şörəyel, Abaran, Ərtik) yaranmışdır [13].

Qərbi Azərbaycanda "Şörəyel düzü" adlanan ovalıq Şörəyel və Pəmbək dağ silsilələri ilə Ələyəz dağının arasında yerləşir. Tuf qatları ilə zəngin olan bu ovalığın orta ucalığı 1500 metrdir. Yeraltı tuf daşı qatları çox olduğu üçün rütubət azdır.

Arpa çay Şörəyel düzündən axaraq Araza qovuşur. Ağbaba dağ ovalığı Şörəyel yüksəkliyinin şimala doğru davamıdır. Ağbaba yaylasının orta yüksəkliyi 2000 metrdən çoxdur. Ərazi Alp çəmənliyi ilə örtülüdür. İlin 5-6 ayı qarla örtülü olan dağlardakı qarın əriməsi və yağıntı bol olduğu üçün ərazilər bulaqlarla zəngindir. Arpa çayı boyu bataqlıqlar – torf yataqları vardır. Bu ovalığın qərb hissəsində Arpa gölü yerləşir. Arpa çayı da mənbəyini bu göldən alır. Ağbaba yaylasında ilin 6 ayı qarla örtülü olur. Mənbələrdə yanvar ayında 42 dərəcə soyuqluğun olması qeydə alınmışdır [4, s.22]. Erməni xəritə və coğrafiya kitablarında Ağbaba yaylası adlanan coğrafi ərazini 1960-cı illərdən sonra "Qukasyan dağ ovalığı" kimi yazırlar. 1990-cı ildən sonra inqilabçı Qukasyan adından əl çəkib, indi də Aşosk

etmişlər. Ağbaba ilə Borçalını birləşdirən Qaraxan keçidi də Ağbaba yaylasındadır. 1903-cü ilin kartoqrafik xəritəsində də Qaraxan kimi qeydə alınmışdır. Bu keçidi ermənilər xəritələrdə "Qaraxac" kimi təhrif edib yazırlar. Ağbaba və Şörəyel ərazisində olan bir çox makrotoponimlər rus mənbələrində, rəsmi sənədlərdə qeydə alınmışdır. Məsələn, 13.10.1921-ci ildə RSFSR-in iştirakı ilə Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları ilə Türkiyə arasında bağlanan "Qars müqaviləsi"ndə Ağbaba və ona yaxın olan ərazilərin sərhəd zolağına düşən toponimləri qeyd edilir: "Sərhəd xətti Qaraoğlu dağının (7259) gədiyindən keçməklə Kür çayından aralanır. Oradan Xozapini (Xəncərli) gölünü iki yerə bölərək 7582 m yüksəkliyinə, oradan Göydağa (9152 m) çıxır və Üçtəpələrdə (9783) Gürcüstanın sərhədi bitir və Ermənistanın sərhədi başlayır: Taya qaya (9716) (burada Taya qala yazılıb). Böyük Ağbaba dağından (9973) düz xətlə İbiş kəndinin şərqindən, sonra Qızıldaş dağından (7439), Yeni Qızıldaş kəndindən keçir, daha sonra Qaraməmməd kəndinin şimal-qərbindən gedir. Dilavər, Böyük Qımılı, Kiçik Qımılı və Tikinis kəndlərindən Şərqdə yerləşən camışçı çayına çıxır. Vardanlı və Baş Şörəyel kəndlərindən keçir. Kəlala və Qalalıdan şimalda Arpa çayı ilə gedərək Araza çıxır.

Pəmbək dağ silsiləsi Boz Abdal dağ silsiləsindən cənubda şimal-qərbdən cənub-şərq istiqamətində ona paralel olaraq uzanır. Bu silsilənin uzunluğu tərqibən 85 kilometrdir. Pəmbək çayı bu silsilənin dərəsindən – Pəmbək dərəsindən axır. Tej (3101 m) və Maymaq (3082 m) dağları bu silsilənin ən uca dağlarıdır. Bu silsilənin bir neçə qolu vardır. Çətin, Babakar və Misxana dağları onun başlıca qollarındandır.

Misxana dağ silsiləsi Pəmbək silsiləsinin mərkəzi hissəsindən başlayaraq cənub-şərqə – Zəngi çayı vadisinədək uzanır. Bu silsilə Zəngi çayın əsas qolu olan kiçik Mərmərik çayı dərəsi ilə ayrılır. Cənub-qərbə doğru ara dağı (2577 m.) yerləşir. Bu konusvarı dağa "Qarnıyarıq" da deyilir. Bu dağın vulkan nəticə-

sində əmələ gəlməsi mənbələrdə göstərilir [4, s.9]. Dağın görüntüsündən, həm də informatorların məlumatlarından aydın olur ki, dağın döşündə dərin bir vulkanik çökəklik vardır. Ona görə də metaforik olaraq Qarnıyarıq (dağ) demişlər.

Pəmbək dağ silsiləsinin şimal ətəkləri meşə ilə örtülüdür. Misxana dağlarının şərq qurtaracağında Dərəçiçək və "Kitabi-Dədə Qorqud"da xatırlanan Altun taxt zirvəsi ucalır. Bu o zirvədir ki, Qazan xan onunla öyünür. Pəmbək dağ silsiləsinin Hamamlı və Pəmbək dağ keçidlərindən Qarakilsə – İrəvan şose yolu Artik aşırımından adlayaraq keçir. Elə Artik//Ərtik "sərt aşırım" mənasında qədim türkmənşəli oronimdir.

Boz Abdal dağ silsiləsi əsas etibarı ilə iki hissədən – qərb və şərq hissələrindən ibarətdir. Qərb hissəsi Dərə çay və Pəmbək çaylarının, şərq hissəsi isə Debet (Tona) və Ağstafa çaylarının suayrıcıları hesab olunur. Bu iki hissə Qarakilsə yaxınlığında Pəmbək çay dərəsi ilə ayrılır.

Boz Abdal dağ silsiləsinin qərb tərəfindən paralel olaraq Şörəyel dağ silsiləsi (30 km) Arpaçayadək uzanır. Boz Abdal dağ silsiləsinin ən yüksək zirvələri Hələb (3016 m) və Zamanlı (2038) dağlarıdır. Hələb dağ silsiləsindən sonra Babakar dağ silsiləsi başlayır. Zamanlı zirvəsi "Puşkin dağ keçidi" də adlanır. Bu keçiddən Qarakilsə ilə Calaloğlunu birləşdirən yol keçirdi. 1970-ci illərdə ermənilər bu yolu tunel vasitəsilə kəsələşdirmişlər.

Boz Abdal dağ silsiləsinin yamacları yaşıl Alp çəmənliklərinə bürünmüşdür. Bu çəmənliklər şimalda meşə ilə birləşir. Çox təəssüf ki, ermənilər bu silsilənin adını xəritələrdə Bazum kimi qeyd edilir. Bu ərazilərdəki dağların mənşəyi də müxtəlifdir. Məsələn, tədqiq etdiyimiz ərazilərdə olan Ələyəz, Qarnıyarıq, Qızılziyarət dağları vulkanik süxurlardan yaranmışdır.

Tədqiqat işində Şörəyel vadisinə yaxın olduğu üçün Ələyəz dağı hövzəsinə daxil olan Abaran ərazisindəki toponimlərdən də qismən məlumat verilir. Coğrafiya kitablarında Abaran çölü kimi xatırlanan bu ərazi Şörəyel vadisindən şərqdə

yerləşir. Ərazinin 2000-2100 metr ucalığı vardır. Onun səthi demək olar ki, başdan-başa vulkan və tuf daşlarla örtülüdür. Çölün mərkəz hissəsi tamamilə hamar sahədən ibarətdir. Çöl Alp çəmənliyi ilə örtülüdür. Kasak çayı bu çöl ilə axır. Bu çaya Abaran çayı da deyilir. Həm ərazinin (abar+an=avarlar), həm də çayın adı etnonim mənşəlidir. Məsələn: Kas+ak, Ala+kas, Kas+bek toponimlərində əks olunan kas tayfa adını Ə.Dəmirçizadə Xəzərlərlə bağlaması düzgün və inandırıcıdır.

Göstərilən ərazilərin coğrafi adları hələ XV və XVIII əsrlərdə Osmanlılar tərəfindən tərtib edilən "İrəvan əyalətinin icmal dəftəri" (Bakı: 1996), "Tiflis əyalətinin müfəssəl dəftəri" (Bakı: 2001), 1831-ci ildə İ.Şopen tərəfindən tərtib edilən "İrəvan əyalətinin kameral təsviri" (Tərcümə edəni: Nazir Əhmədli. Bakı: 2022, 480 s.) – vergi dəftərlərində oykonim, oronim və hidronimlər haqqında xeyli məlumat vardır.

Bunlardan başqa, D.Paqırevin "Qafqazın 5 verstlik xəritəsinin əlifba göstəricisi" (1913), Cənubi Qafqazın hərbi-topoqrafik xəritəsi (1903) və digər tarixi sənəd və toplularda yüzlərlə oykonim, oronim və hidronim qeydə alınmışdır. Torpağın, dağın, daşın, çayın, çeşmənin dili olan bu toponim və hidronimlər Azərbaycan türkcəsində danışır. Ərazilərin, həm də orada olan əkin-biçin sahələrinin, çayır-çəmən və otlaqların, eləcə də su obyektlərinin kimə aid olduğunu təsdiq edən dil faktorlarıdır.

Ümumiyyətlə, tədqiqata cəlb etdiyimiz Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin oxşar və fərqli-fərqli relyef quruluşları vardır. Yəni həddən çox dağ, dərə, çay bulaq, qayalıq, təpəlik, yarğan və s. bu ərazilərin landşaftını və relyefini əks etdirir. Bu müxtəliflik, həm də bənzərlik (oxşarlıq da deyə bilərik) Azərbaycan türkcəsində saysız hesabsız oronimlərin – relyef adlarının yaranmasına səbəb olmuşdur. Nəinki tədqiq etdiyimiz bölgələrin, eləcə də Zəngəzur, Göyçə, Qaraqoyunlu, Vedi, İrəvan, Barana, Mığrı və digər tarixi ərazilərimizin həm makro, həm də mikrotoponimləri Azərbaycan türkcəsində danışırdı. İndi o ərazilərdə məlum səbəb görə azərbaycan türkləri yaşamadıqları

üçün türkmənşəli zəngin toponimik qat məhv olmuşdur. Ona görə də toponimlərin linqvo-kultural və etnokultural xüsusiyyətlərini təhlil edib araşdırmaq elm adamlarının qarşısında duran başlıca problemlərdəndir. Əgər Qərbi Azərbaycan ərazisinin oronim və hidronimləri vaxtında toplanıb nəşr olunmasa, unudulub gedəcəkdir. Necə ki bu işi yaxşı bilən informatorlar yaşayırlar, onlardan istifadə edib mikrotoponim və mikrohidronimləri toplayıb tədqiqata cəlb etməliyik. Bu hər bir Qərbi Azərbaycan kökənli ziyalıların borcudur.

# I FƏSİL. LİNQVİSTİK SƏVİYYƏDƏ ORONİMLƏRİN LEKSİK-SEMANTİK VƏ QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Yer-yurd adları müxtəlif tarixi dövrlərdə yaşayan xalqlarının dillərində yarandığı hər bir ölkənin fauna və florasını, eləcə də tarixdə iz qoymuş və Azərbaycan türklərinin, həm də Azərbaycan türkcəsinin formalaşmasında iştirak edən qədim türk tayfa, nəsil və şəxs adlarını əks etdirdiyindən çox geniş informasiya mənbəyidir – milli kimliyimizi bildirən onomastik vahidlərdir.

Bir çox halda toponimlərdə həm də əhalinin tarixi miqrasiyası, qaçqınlıq, köçkünlük, soyqırım və digər məsələlər də əks olunur. Müəyyən edilmişdir ki, hər hansı bir ölkənin, eləcə də ərazinin toponimləri haqqında tam və dolğun, elmi təsəvvür əldə etmək üçün, o ölkənin, o ərazinin coğrafi adları öyrənilməlidir. Bu baxımdan, xalqı tanıdan əsas amilin, yəni dilin etnik məhsulu olan coğrafi adların öyrənilməsinin çox böyük dövlət əhəmiyyəti vardır.

Tədqiq etdiyimiz ərazilərin toponimik fonunu (oykonim, oronim və hidronimlər) Azərbaycan türkcəsində olması bir daha onu təsdiq edir ki, mövcud olmuş yer-yurda azərbaycanlılar ad vermişlər. Beləliklə, Qərbi Azərbaycan Ağbaba, Şörəyel, Pəmbək, eləcə də ona yaxın olan ərazilərdə türkmənşəli toponimlərin türk layı yaranmışdır.

Azərbaycan Respublikasının toponimiyasında olduğu kimi, tədqiq etdiyimiz ərazilərdə də zəngin mikrooronimlər olmuşdur. Bildiyimiz kimi, müasir dövrümüzdə makrooronim kimi işləməkdə olan toponimlər vaxtı ilə az bir qisim, kiçik bir qrup olan insanlara məlum olan kiçik coğrafi obyektlərin adı, yəni mikrotoponimlər olmuşdur. Lakin qaçqın və köçkünlükdən sonra mikrotoponimlər işlədilmədiyindən məhv olmuşdur.

Mikrooronimlərin makrotoponim səviyyəsində işlədilməsi

– toponimləşməsi müəyyən tarixi hadisələrlə bağlıdır. Mikrotoponimlər də makrotoponimlər kimi qiymətli məxəzdir. Bir sıra qiymətli dil vahidləri, müxtəlif coğrafi terminlər, tarixi hadisələri əks etdirən leksik vahidlər mikrotoponimlərdə daha çox qorunub saxlanılır. Rus toponimisti A.B.Superanskaya yazır ki, mikrotoponimlər təbiətin çox da böyük olmayan təbii obyektiləridir, hər hansı bir xalqın dil faktı və yaradıcılıq məhsuludur [26 1.48]. Azərbaycan toponimlərinin ən böyük tədqiqatçısı T.Əhmədov qeyd edir ki, mikrooronimlər komponentlərinin ifadə vasitələrinə görə mürəkkəb oronimlərdən fərqlənmir. Daha sonra o, mürəkkəb oronimlərin komponentlərinin qovuşuq, (Qaradağ, Şiştəpə, Ağqaya və s.) mikrooronimlərin komponentlərinin isə ayrı, (Tülkü təpəsi, Novruzun biçənəyi, Qara çayır, Taya qaya və s.) ilkin formada – söz birləşmələri kimi işlənməsini qeyd edir [12, s.211].

Tədqiq etdiyimiz Ağbaba, Şörəyel, Pəmbək və ona yaxın olan ərazilərdə mikrooronimlərin əsas aparıcı komponentləri, yəni birinci tərəfinin, həm də ikinci tərəfin ifadə vasitələrinə və semantik mənalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Birinci tərəfi cəhət, forma, keyfiyyət, miqdar, rəng, əlamət və s. sözlərlə, ikinci tərəfi isə coğrafi terminlərlə ifadə olunan I növ ismi söz birləşməsi konstruksiyası əsasında formalaşan mikrooronimlər:**

***Ağbabada:*** Dərə yerlər, Nazik dərə, Sarı yoxuş, Qırmızı qaya, Tək güney, Ağqaya (Amasiya k.), Sarı çayır, Uçuq dəyirman, İkiqat, Qara çay, Topdaş, Sallama yerlər, 4O hektar (Təpəköy k.), Yumru qaya, Top qaya (Göllü k.), Düz çayır, Haça qaya, Dar boğaz, Köndələn yer, Düz xam (Qara Namaz k.), Qızıl məzar, Sarı çayır, Qara çayır (İbiş k.), Keçəl təpə, Qızıl qaya, Bala təpə, Çətin dərə, 30 hektar, Əyri yal (Balıqlı k.), Dərə yalı, Qızıldağ, Qumlu təpə, Daşlı güney, Kəsik yerlər və s. (Düzkənd). Qırmızı təpə, Haça dağ, Ara yer, Daşlı koma. Parça yerlər, Boz qır, Dərə yerlər (İlanlı k.), Top qaya, Köhnə qəbir, Dağarxac, Kal dağ, Dağ arxacı, Qartof yeri və s. (Öksüz k.), Düz

dağ, Dam qaya, Sarı təpə, Sarı dağ, Səngər qaya, Çeyilli təpə, Qara güney dağ (Güllücə k.), Orta yal, Qanlı yer, Daşdı xam (Ellərkənd k.), Dal çayır, Qabaq yer, Yumru çayır, Kədik tap, Süddaşı ocağı (Quzukənd k.), Orta qılıc, Üçqardaş ocağı, Naxoş dağ, Köhnə yurd (Çivinli k.), Birinci qobu, İkinci qobu, Üçüncü qobu // (Daşkörpü k.) və s.

***Şörəyeldə:*** Ocaq qaya, Şiş dağ, Oyuq dag, Sərt dolay, Qara kaha, Kəvənli təpə, Ara təpə (Çaxmaq k.), Uzun yerlər, Qaşqa yer, Sarı yer, Sarı karxana, Qara karxana, Şorax yer, Ara təpə, Göy təpə (Mağaracıq k.), Qara çayır, Böyük yer, Ağ yol, Daşlı yolaq, Küllü xaraba, Batdaq yer (Oxçuoğlu k.), Üç təpə, Orta təpə, Yasdı dağ, San qaya, San karxana, Qara karxana (Mağaracıq k.), Top qaya, Köhnə yaylaq, Aşağı dəyirman (Qaraçanta k.), Yumru təpə, Qara poşt, Düzüm qaya, San yer, Ağ qumluq, Quylu qaya (Güllübulaq k.), Sarı yar (İlli) və s.

***Pəmbəkdə:*** Qara yurd, Ködək yal, Yovşannı örənə, Quru yurd, Moda təpə (Vardanlı // Vərdənə), Böyük qaya, Taxça qaya, Mumlu dərə, Daşlı çuxur, Dərə yurd, Dəlik daş, Əyri qol, Daşlı tap, Ağ qanuş ( (kanyuşna-kom, pəyə) / Sarımsaqlı dağ (Xancığaz k.), Sarı yar (Qızılörən), Oyuqlu dağ, Quru dərə, Şeşən dərə (Hollavar k.), Qara dərə, Gen qobu (Saral k.), Aşağı kalafa, Bala təpə, Büküm yerlər (Qursalı k.), Kəmənd dağ, Böyük quzey, Kiçik quzey, Orta yurd( Arçut k.), Kiçik tap, Göl təpə, Böyük təpə (Dızman k.), Telli qaya (Haydarlı) və s.

Göründüyü kimi, yuxarıda qeyd olunan mikrooronimlərin ikinci tərəfindəki coğrafi obyektlərin növlərini bildirən müxtəlif coğrafi terminlər adlıq halda işlənir. Burada birləşməni təşkil edən hər bir sözün müstəqil vurğusu vardır.

**2. Birinci tərəfi antroponim və etnonim səciyyəli sadə, düzətmə və mürəkkəb sözlərlə qeyri-müəyyən yiyəlik halla ifadə olunan, ikinci tərəfi yerli coğrafi terminlərdən ibarət II növ ismi söz birləşməsi konstruksiyası əsasında formalaşan mikrooronimlər:**

***Ağbabada:*** Baba yolağı, Astanaoglu körpüsü, Ənnagı

təpəsi, Paşa napzarı (Amasiya k.), Astanaoğlu körpüsü (Arpagölün altımda qalıb), Keçəttəpə, Quş adası ( Sultanabad k.), Rəhimin arxaçı, Cin dərəsi, Quluağanın çayırı, İsgəndər ağanın çayırı (Təpəköy k.), Ələm ocağı, İmamyeri, Xalxal binəsi, Hacı Aloğlu çayırı, Qabaq yeri, Usuflu düzü (Qara Namaz k.), Abutalıb dərəsi, Xazeyin yeri, Cin qayası, Tatlı biçənəyi, Urus yatağı (malakanlar yaşayan Qorlovka kəndinin mal-qoyun yatağı), Xatmoğlu təpəsi, Xatınoğlu xamı, Xatınoğlu arxacı, Əlləzoğlu qırı, Molla Avdı dağı, Məşədi Hasan heriyi, Ziyarət dağı - Ağababadağ (Çivinli k.), Kareit ocağı, Taclı çayırı, Seyidli qın (Küllüm k.), Koroğlu qayası, Şiştəpə ocağı, Xırman yeri (İlanlı k.), Almöylü biçənəyi, Zamanoglu arxacı, Koroğlu zağası, Vəliuşağı diki ( Balıqlı k.) və s.

***Şörəyeldə:*** Arıxlı yatağı, Nisə dərəsi, Kürd qəbri, Hacı Salman tapı, Ağsaqqala çayın (Mağaracıq k.), Qaraqoyun yeri, Körkün binəsi, Ordu yeri, Paşa körpüsü, Başmaqçı dərəsi, Kərəm keçidi, Hacıman çayırı (Oxçuoğlu k.), Kazım dərəsi, Seyid Məhəmməd ocağı, Omar dərəsi, Seyid Ağa çayırı, Seyid Məhəmməd gümbəzi, Məmmədağa dərəsi (Qaraçanta k.), Hacı Mamoy karxanası, Sünnü təpəsi, Dığırlı biçənəyi (Güllübulaq k.) və s.

***Pəmbəkdə:*** Miskinli dərəsi, Miskinli yurdu, Miskinti biçənəyi, Seyidli təpəsi (Bardanlı k.), Axsaqlı tapı, Alöyü yurdu, Oxlu dərə, Oxlu düzü, Piri ocağı, Kərəm qayası (Gözəldərə - Xancığaz k.), Doluxan çuxuru, Əmirxan yaylağı, (Hallavar k.), Telli qayası, Kəndirbaz yaylağı (Haydarlı k.), Koxalı yurdu, Məşədi yurdu, Araz yurdu (Arçut k.), Qaranqu qobusu, Muradbəyli təpəsi, Məmmədxanlı dəyirmanı, Xıdırlı yatağı (Dızman k.) və s. Bu quruluşda formalaşan mikrooronimlərin II tərəfindəki oronimik terminlər coğrafi obyektin növünü bildirməklə yanaşı, həm də III şəxsin mənsubiyyətini bildirən şəkilçi qəbul edərək mənsubluq – aidlik bildirir.

**3. Birinci tərəfi fitonim, zoonim və digər sözlərlə ifadə olunan, II tərəfi isə coğrafi terminlərdən ibarət olan I və II**

**növ sintaktik konstruksiya əsasında formalaşan mikro-oronimlər:**

***Ağbabada:*** İnək dağı, Ayı dərəsi, Tülkü dərəsi, Quş qayası, Maral yatağı (Daşkörpü k.), Tülkü tapı, Pazı yeri, Porsuq dəlməyi, Kartof yeri, Qurd yuvası, Baldırğan yeri, Naxır yolu, Qəntəpərli dərə (Təpəköy k.). Qartal yeri, Durna yuvası, Çalağan daşı (Qara Namaz k.), Dəvə dərəsi, Quş qayası (Qönçəli k.), Qımı təpəsi, Ayı çınqılı (İbiş k.), Öküz dağı, İnək dağı, Ayı kahası (Düzkənd k.), Çaşır təpəsi, Yemlik dərəsi (İlanlık.), Maral yatağı, Zəyərək yeri, Çalağan qayası, An qayası (Küllücə k.), İnək təpəsi, Öküz arxacı (Amasiya k.) və s.

***Şörəyeldə:*** Mırçalıq dağı, Çalağan qayası, İlanlı qayası, Tülkü təpəsi, (Mağaracıq k.), Quzu dağı, Zəyərək yeri (Oxçuoğlu k.), Çalğı dağı, Maral yatağı (Qaraçanta k.), Saqqızlı dağ, Pazı (çuğundur) yeri, Düz (Güllübulaq k.) və s.

Qeyd edək ki, Ağbaba və Şörəyeldə ayı, maral kimi çöl heyvanları son vaxtlar yox idi. Dəvə də saxlanılmırdı. Lakin 1970-ci ildə Şörəyel vadisində qazıntı işləri zamanı mamont skeleti aşkar edilmişdir. Həmin mamont skeleti Gümrü ölkəşünaslıq muzeyində saxlanılırdı. Görünür, ayı, maral, dəvə ilə bağlı olan yer adları qədimlərdə yaranmış, sonralar antropogen təsir nəticəsində bu heyvanlar (ayı, maral) bu ərazilərdə yaşamamış, dəvə də saxlamamışlar.

***Pəmbəkdə:*** Sarımsaqlı dağ, Buğa dağı, Ayı dərəsi, Armud piri (Gözəldərə - Xancığaz k.), Ayı qayası, Palıdlı güney, Ayğır dərəsi (Vardanlı k.), Dəvə daşı, Qoyun binəsi (Hallavar k.), Armudlu ocağı, Dıbır (erkək keçi ) qayası (Saral k.), Bozdar yaylası (Qursalı) və s.

**4. Birinci tərəfi oronim, hidronim və oykonimlərlə, II tərəfi coğrafi terminlərdən ibarət olan II növ ismi birləşmə konstruksiyası əsasımda formalaşan mikrooronimlər. Bu tipdə olan mikrooronimlərin bəzisi (xüsusi yol, karxana, qumluq və s.) makroarealda da işlənmişlər.**

***Ağbabada:*** Bozqala dərəsi, İlli – Baytar yolu, Cızıqlar

yolu, Sınıq yolu, Ağbaba yolu, Güllübulaq yolu (Amasiya k.), Sınıq dərəsi, Bəzırgan yolu, Yayla yolu, Çaldaş çayırı(Qönçəli k.), Qönçəli yolu, Göllü yolu, Düzkənd yolu, Balıqlı yolu, Sultanabad yolu, Gümrü yolu (Təpəköy k.), Rus yolu – Axırkələk yolu, Öksüzün ocağı, Xəncərlinin düzü (Öksüz k.), Şiştəpə yolu, Qara Namaz yolu, Şiştəpə yoxuşu (İlanlı k.), Dərindərə yolu, Ellərkənd yolu (Güllücə), Seldağılan düzü, Baxçəli çökəyi, Çildir yolu, Qızılkilsə yolu, Mustuqlu qəbirsənliyi, Qızılkilsə qəbirsənliyi, Molla Musa yaylası, Daharlı yaylası, Ç'ilovxan yaylası (Çivinli k.), Ələyəz yaylası, Ocaqqulu yaylası (Qönçəli), Bəndovan yaylası (Təpəköy), Qazançı yolu, Dəliçay dərəsi, Təpəköy yolu (Qara Namaz k.) və s.

***Şörəyeldə:*** Çaxmaq dərəsi, Qalaça dərəsi, Sarıdağ tapı, Qara Məmməd dərəsi, Zastav yolu (Mağaracıq k.), Qızıldaş düzü, Məmmədabad talası, Ocaqquiu tapı, Bacıoğlu tapı, Ocaqqulu dərəsi, Bacıoğlu dərəsi, Qımıl yolu (Oxçuoğlu k.), Cələb yolu, Cələb dərəsi, Amasiya yolu (Qaraçanta k.), Qaraxan yolu, Tiflis yolu (Qızılqoç), Qıpçaq çölü, Abaran çölü (Ərtik), Qızılqoç yolu, Yasoul düzü (Gümrü) və s.

***Pəmbəkdə:*** Çardaxlı təpəsi, Maymaq meşəsi, Maymaq ocağı, Dərə ocağı (Qarakilsə şəhəri), Qızıldaş biçənəyi, Boz Abdal aşırımı, Boz Abdal keçidi (Xancığaz k.), Qaraboyun dağı, Arazyurd dağı, Şırşır dərəsi (Arçut k.), Hacı Qara yalı, Qursalı yerləri, Çubuqlu dağı (Saral k.), Borçalı yolu, Gümrü yolu (Qursalı k.), Cacur tuneli (Qonaqqıran), Diknələr sərnəsi, Qənsər sərnəsi, Gödəklər sərnəsi (Qursalı k.) və s.

**5. Feili sifət tərkibləri ilə ifadə olunan mikrooronimlər. Bu tipdə olan mikroronimlər elliptik formada deyilir, həm də müəyyən bir tarixi və ya təbiət hadisəsi ilə bağlı olur. Bununla belə, bu tip oronimlərdə feili sifət əsas sözə qovuşuq halda işlənir, bir vurğu ilə deyilir və bitişik də yazılır.**

***Ağbabada:*** Omarölən (biçənək), Çəyirtkəkəsən (əkin yeri), Qızbaxan (otlaq), Rusəkən (əkin yeri), Musaölən (biçənək), Qumqazılan (qumluq – Təpəköy k.), Əliölən (təpə), Göbəyatan

(çayır), Dəvəölən (yer – Daşkörpü k.), Tazıuçan (qaya), Atuçan (qayalıq), Məmmədölən (otlaq), Yabıqırılan (dərə), Ağakişibiçən (çayır – Amasiya k.), Şeytanyatan (çayır), Selbasan (çayır – Düzkənd k.), Qulamölən//Qulamvurulan (biçənək, otlaq), Usufvurulan (qayalıq), Qumeşilən (dağ – Öksüz k.), İsəəkən (yer), Quzuqırılan (uçurum – Balıqh k.) Qızbaxan (napzar), Talib vurulan (biçənək), Salmanbiçən (təpəlik – Quzukənd k.), Əmirəkən (yer), Yolkeçən (oğlaq, biçənək), Isgəndərölən (yer), Arabaaşan (eniş – Ellərkənd k.), Bostançıölən dərə (Quzukənd k.).

***Şörəyeldə:*** Dostabaxan (əkin yeri), Daşqıran (karxana), Həbibəkən (yer – Güllübulaq), Hodeməz (eniş), Dostabaxan (əkin yeri), Tezəkilən (yer – Oxçuoğlu), Çobangörməz (dağ), Kürdölən (otlaq), İldırımvuran (qayalıq – Mağaracıq k.) və s.

***Pəmbəkdə:*** Qasımölən (biçənək), Hənifəsoyulan (yol), (Xancığaz k.), Mustafabuğavuran (yer), Əlidaşqılıclayan (ziyarət – Hallavar k.), Arxaşan (yaylaq, dağ – Saral k.), Palantökülən (dağ), Xaşaldüşən (yayla), Cocuqandüşən (yayla – Dızman k.) və s. Göründüyü kimi, mürəkkəb söz formasında formalaşan bu mikrooronimlərin birinci tərəfində müxtəlif semantik mənalı sözlər. II tərəfə isə indiki zaman bildirən ***-an, -ən*** şəkilçili feili sifətlərdən ibarətdir.

Göstərilən mikrooronimləri araşdırarkən aydm olur ki, müəyyən bir kənd, bəzən də rayon ərazisində bu tipli mikrotoponimlər elliptik formada, yeni coğrafi termin işlənmədən deyilir. Söhbətin hansı coğrafi obyektdən getdiyi kənd əhalisinə, eləcə də rayon əhalisinə məlum olur. Maraqlıdır ki, kəndlərin bir çoxunda "Dostabaxan", "Qızdarbaxan" mikrotoponimlərinin paralelləri vardır. İnformatorlar qeyd etdilər ki, kəndin görkəm yerlərindəki əkin sahələrinə adətən «Qızdarbaxan» deyilməsi keçmişdə əkin işlərində hodax (öküz sürən) kimi iştirak edən cavanların əzab-əziyyətlərini, işdən qayıtmalarım gözləyən kənd qızlarının narahatlığı həmin mikrotoponimlərdə ifadə olunmuşdur. Bir neçə kənddə isə bol buğda, arpa məhsulu verən ənənəvi əkin sahələrinə məhsuldarlığına görə "Dostabaxan"

demişlər. İctimai-siyasi, tarixi hadisələri əks etdirən "Usufvurulan", "Ömərölər", "Musavurulan" və s. mikrotoponimlər həqiqi mənada substantivləşərək toponimləşmişdir. Məsələn, Ağbabalı Qaçaq Usub haqqında hələ "Kafqazskiy kalendar"da (Qafqaz təqvimi) məlumat vardır. "Qaçaq Usub" dastanından parçalar ilk dəfə bu yazıların müəllifi tərəfindən Azərbaycan mətbuatında çap edilib. Öksüz kəndinin dağında çar kazaklan tərəfindən 1912-ci ilin yayında vurulan Qaçaq Yusifin qəbri 1989-cu ilə qədər Göllü kəndinin qəbiristanlığında idi [7, s.241].

Bundan başqa, "Qızyetərölən" mikrotoponimi də tarixi bir hadisə ilə əlaqədar yaranmışdır. 1931-ci ildə Qars tərəfə, qohumlarının yanına köçüb gedən təpəköylü İsgəndər gecənin birində qayıdıb gəlir, istəyir ki, arvadı Qızyetəri və kiçik uşaqlarını da atla Türkiyə tərəfə aparsın. Bunu bilən təhlükəsizlik idarəsinin əməkdaşları əvvəldən duyuq düşüb onları yaxalayırlar. Atışma vaxtı Qnzyetərlə kiçik qızını güllə ilə atdan vurub salırlar. İsgəndər isə oğlunu götürüb aradan çıxır və sərhəddi keçə bilir. Səhərisi gün kəndin xəbəri olsa da, sərhədçilər meyidləri kəndə aparmağa icazə vermirlər. Kənd adamları meyidləri elə əkin yerindəcə yuyub, kəfənə bükərək dəfn edirlər. Sonra həlak olanların qohumları qəbirlərə sinədaşı və başdaşı düzəltdirirlər. 25 hektar buğda sərnəsinə elə o vaxtdan "Qızyetərölən" deyirdilər. 1989-cu ilədək həmin qəbirlər qalırdı.

Göstərdiyimiz misallardan aydın olur ki, bu cür yer adlarım mikrotoponim hesab etsək də, lakin onların bəzilərinin məzmunu dəyərli və tarixi məlumlarla zəngindir. Deportasiyalarla bağlıdır. Bu tip mikrotoponimləri makrotoponimlər kimi məşhurdur.

Göstərilən feilisifət modelində olan mikrotoponimlərin bir qismi təbiət hadisələri ilə (Qumeşilən (Öksüz), Qumqazılan (Təpəköy), Selbasan (Düzkənd), Selovan (Qönçəli), Bəndovan (Amasiya), Əhəngyanan (Qursalı), bir qismi isə kəndlərdə yaşayanların həyat və ya təsərrüfat həyatı ilə Daşqıran (Qaraçanta), Salmanbiçən (Quzukənd), Əmirəkən (Elləroyuğu), Həbibəkən

(Güllübulaq), Alıbiçən (Haydarlı) və s. Bununla belə müəyyən tarixi hadisələri əks etdirən toponimlər də (Usufvurulan (Öksüz), Əhmədbatan (Göllü), Qızyetərölən (Təpəköy), Baxşəliölən (Güllübulaq) və s.

**6. Sadə, düzəltmə sözlərdən ibarət və coğrafi nomensiz işlənən mikrooronimlər.** Tədqiq olunan bölgələrdə elə mikrotoponimlərə rast gəlinir ki, onların da birinci tərəfi sadə, düzəltmə, mürəkkəb sözlərlə ifadə olunur, amma çox vaxt coğrafi nomensiz deyilir, yəni coğrafi nomen ellipsiyaya uğrayır. Ellipsiyaya uğrayan termin səciyyəli sözlərdə kəmiyyət şəkilçiləri əsas sözlə işlənir. Sözün birinci tərəfi topluluq bildirən şəkilçilər qəbul edir. Bəzən də şəkilçisiz işlənir. Məsələn:

***Ağbabada:*** Yurddar (Yurd yerləri), Quzeylər (Quzey yerlər), Cumbuzduq // Cumbuzluq, Selov // Seloy, (Amasiya k.), Sallamalar (sallama yerlər), Qumluq, Selovlar, Əyri, Düz, Köndələnlər (köndələn yerler), Ağıllar, Qalaça, Ləpiklik, Cillik (Göllü k.), Domba, Xalxal, Napzarlar, Darboğaz (Qara Namaz k.): Camırrı // Çamırlı, Körpələr - Gecəkilənnər (İbiş k.), Örənə, Napzarlar, Qoltuq) // ( Qoltux, (Balıqlı k.), Napzarlar, Dikinə, Bostanlar, Sallıq, Səngər (Düzkənd к.): Cələflər, Otuzaltılar (Öksüz к.), Taxça: Turşalıq, Qımılıq (Güllücə k.), Qalaça, Örtülü (Ellərkənd k.), Çataq, Qalaca, Yeddilər (Çivinli k.) və s.

***Şörəyeldə:*** Napzarlar, Sallar, Xamlar (Qaraçanta k.): Dolayı, Yanıq. Qumluq (Çaxmaq к), Kors, Poştdar // Postlar ( sərhəd zastavası), Qalaça, Tapı. Quzey (dağ), Güney (dağ), Nadirxanlar (əkin yeri), (Mağaracıq k.), Zazalar, Şoraxlar, Zağa, Dəlmələr (Öxçuoğlu k.): Xarabalar, Qumluq (Güllübulaq k.) və s.

***Pəmbəkdə:*** Bayda (dərə), Mədən (Dibəkli (Vardanlı k.), Yovşannıx (Qızılörən), Bostanlar, Ətək, Seloylar (Qusarlı k.), Todar, Hellındi (Saral k. ): Tozduq, Duzdaq (qaya), Haçalar (əkin yerləri), (Xancığaz k.), Səngər, Tap, Fıstıqlı, Mədikli (təpə) (Hallavar k.), Çala-çuxur, Kəməş (dağ), Qorxulu (Dızman k.) və s. Göründüyü kimi, bəzi mikrooronimlərin ikinci tərəfin-

dəki coğrafi termin işlənmir, lakin onun şəkilçisi əsas sözə qoşularaq işlənir. Məsələn: Sallama yerlər//Sallamalar, Köndələn yerlər//Köndələnlər, Bostan yerləri//Bostanlar və s.

Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində Ш növ ismi birləşmə formasında sintaktik konstruksiyalı mikrooronimüər də çoxdur. Lakin bu modeldə olan mikrooronimlər ümumi söz səviyyəsində özünü göstərir, yəni III növ ismi biriəşmə formasmda olan mikrooronimlər əşyavilik xüsusiyyəti daşıyır, sahiblik və mənsubluq ifadə edir [12, 211]. Belə birləşmələrin tərkibindəki sözlər arasında sintaktik konstraksiyalı biriəşmələr mürəkkəb söz kimi formalaşmır.

III növ sintaktik konstruksiyalı mikrotoponimlər də II növ sintaktik konstruksiyalı mikrotoponimlər kimi birinci tərəfi müxtəlif semantik qruplu sözlərdən ibarət olur. Ziyarətin altı, Qəriblərin arxacı, Kərimin çayırı, Cindağın dərəsi, Paşanın yeri, Rəşidin biçənəyi, Şərifin qobusu və s.

Qeyd edək ki, I və II növ ismi birləşmələrin I tərəfı II tərəfi konkret məkanca təyin edir, yəni coğrafi obyektin səmtini formasını, miqdarını, əlamətini və s. bildirir. Xüsusilə II növ ismi birləşmələrin tərəfləri arasında sintaktik əlaqə (idarə əlaqəsi), o qədər möhkəmdir ki, həmin söz birləşməsi mürəkkəb söz kimi də formalaşır. Tam lüğəti vahidə, bir anlayış ifadə edən sözə çevrilir [12, 47]. Doğrudan da, belə söz birləşmələrinin arasında hətta başqa söz də əlavə etmək mümkün olmur.

**7. III növ ismi birləşmə konstruksiyasında olan mikrooronimlər. Bu növdə olan mikrooronimlər III növ ismi birləşmənin tam formasını əks etdirir.** Yəni söz birləşməsi modelində olan toponimin birinci tərəfindəki söz müəyyən yiyəlik halda (sahiblik), II tərəfindəki coğrafi termin isə III şəxsə aid mənsubluq bildirir. Bunların çoxluğunu nəzərə alıb ərazilər üzrə qarışıq nümunələr verməyi lazım bildik.

***Ağbabada:*** Təmrazın arxacı, Qulu ağanın çayırı, Rəhimin arxacı, İsgəndər ağanın çayırı, Həbibin arxacı, Teyubun qayası, Xəlilin qayası, Torfun qabağı, Torfun dalı, Torfun altı, Ziyarətin

altı, Ziyarətm üstü, Qumluğun döşü (böyük əkin yerləri – Təpəköy k.), Topal Hacı Xəlilin çayırı, Simuzərin qın, Pərim oğlunun çayırı, Qırroyların çayırı (Qara Namaz k.), Xıdır N-əbinin ocağı, Hacı Alıoğlunun yatağı (Güllü k.), Hacı Abbasın çayırı, Həmzənin yeri, Hacı Məhəmmədin yatağı, Hacı Abbas-oğlunun quyuları (taxıl doldurmaq üçün – İbiş k.), Alı öyünün biçənəyi, Hacı Əhməd oğlunun qəbri, Osmanın arxacı, Qəmbə-rin çayırı, Hilloylanın dəyirmanı (Balıqlı k.), Əfəndinin qayası, Tomardaşın yaylası, Əlləzoğlunun arxacı, Şivillərin yatağı, Saatlının döşü (Ellərkənd k.), Babaşın güneyi, Bəzirxananın xarabası, Şüyürün//Şükürün güneyi (Güllücə k.) və s.

***Şörəyeldə:*** Camalın xarabası, Qannıcanın düzü, Yasovu-lun düzü, Dərviş ocağının tapı, Şişin ziyarəti, Qəmərənin təpəsi, Kürdün yurdu (Mağaracıq k.), Şişin dibi, Qara Məmmədin dərəsi// Qarammədin dərəsi (Çaxmaq k.), Kəblə Əsgərin söyüt-lüyü, Hacı Manın (İmanın) çayırı, Kəblə Namazın dəyirmanı, Hacı Manın məcidi, Urustamın qoruğu (Oxçuoğlu k.), Abbas-qululların xırmanı, Məşədi Namazın arxacı, Nəsiblərin xırmanı (Qaraçanta k.) və s.

***Pəmbəkdə:*** Qocanın yalı, Məmişin yalı, Rəhimin təpəsi, Xıdıroğlunun biçənəyi, Sadığın yalı, Sirxananın yolu (Xancığaz k.); Qaranqunun qobusu, Üskükitənin binəsi, Kərəntökülənin bi-nəsi (yaylaq, biçənək, otlaq sahələri - Dızman k.), Keçəlin biçə-nəyi, Gəlin qayası, Miskininin arxacı (Vardanlı k.), Əhmədalının çökəyi, Novruzlunun rəndi, Sarının komu, Yolçunun təpəsi, Qaraların yatağı (Qızılörən k.), Məsimin dəyirmanı, Qədimin dəyirmanı, Qara Novruzun dəyirmanı, Gölün təpəsi (Hallavar k.), Köyrüşün təpəsi, Qəbirsənniyin altı (otlaq – Mollaqışlaq k.), Çatdağın meşəsi, Cilliyin meşəsi, Qaraçobanın meşəsi (Qursalı) və s.

Təqdim olunan coğrafi terminli yer-yurd adlarının toponi-myaratma əsasları da müxtəlifdir. Toplanmış materiallara əsasla-naraq mikrotoponimlərin müxtəlif leksik-semantik mənalı söz-lərdən törəndiyini nəzərə alaraq aşağıdakı qaydada təsnif etmək

mümkündür.

a) Antroponim əsaslı sözlərdən törənən antropooronimlər: Abbasın çayırı (İlanlı), Əşrəfin qabağı (Təpəköy), Qara Çoban meşəsi (Qursalı) və s.

b) Etnonim əsaslı sözlərdən törənən etnotoponimlər: Mirillərin arxacı (Çivinli), Boz Abdal silsiləsi (Pəmbək), Miskinlərin yurdu (Hallavar) və s.

c) Oykonim və oronim əsaslı sözlərdən törənən toponimlər: Ballıcanın tili (Ballıca), Balıqlının qalaçası (Balıqlı), Bacıoğlunun tapı (Oxçuoğlu), Hamasa dərəsi (Amasiya) və s.

ç) Zoonim əsaslı sözlərdən törənən zoonimlər: Laçın dağı ( Qızılörən), Çalağan yuvası (Çaxmaq), Dovşancıq (Qursalı), İlanlı qaya (Mağaracıq), Quş qayası (İbiş), Porsuq dəlməyi, Tülkü təpəsi (Təpəköy) və s.

d) Fitonim əsaslı sözlərdən törənən fitooronimlər: Almalı çala (Qursalı), Baldırğanlı (Qarakilsə), Baldırğanlıq (İbiş), Bandalıq (Xəncərli), Çiçəkli yurd (Saral), Kartoflu yurd (Aşağı Kilsə), Qartallı dağ (Qaraçanta) və s.

Göründüyü kimi, Coğrafi obyektlərin tipini bildirən yerli xalq coğrafi terminlərinin demək olar ki, hamısı bölgələrin Azərbaycan türkləri yaşayan kəndlərin toponimiyasında öz əksini tapmışdır. Həmin coğrafi terminlər bunlardır: dağ, dərə, təpə, yar, qaya, daş, yol, dəyə, kom, yal, kədik, dolay, zağa, kaha, qobu, yayla, çayır, qat, biçənək, qobu, eniş, çala, yoxuş, çayır, çəmən, xam, qır, daş, koma, yurd, çuxur, quzey, güney, zağa, binə, aşırım, dəyirman, xalxal, arxac, yataq, ağıl, ocaq, ziyarət, məscid, karxana, düz, cillik, kors, kalafa, xaraba, çökək, napzar, tap, irənd, rənd,yolaq, binə, kox, quyu və s.

Bu terminlərdən başqa, digər areallarda çox az təsadüf edilən napzar, tap, irənd, örənə, yolaq, gav, qılıc və s. coğrafi nomenlər daha maraqlıdır. Bunların bir qismi geniş arealda, hətta kənd adlarında belə işlənir. Məsələn:

RƏND//İRƏND - Ən çox Pəmbək bölgəsinin Hallavar, Dızman, Haydarlı, Arçut kəndlərinin mikrotoponimiyasında

işlənirdi. Məsələn, Novruzun irəndi, Vəlləzdi irəndi, Saral irəndi və s. bu mikrooronimlərin tərkibində nomen kimi işlənən irənd // rənd əkin yerinin, biçənəyin arası (sərhəd) kimi başa düşülür. Elə həmin bölgənin folklorunda da həmin termin öz əksini tapmışdır. Hollavarlı Aşıq Məhər 30-cu illərdə xüsusi mülkiyyətə aid pay torpaqlarının rəndlərinin qarışdırılaraq kolxoz üçün əkilməsinə öz etirazını belə bildirmişdir:

*Aşıq Məhər yalan sözü söyləməz,*
*Sel gələndə torpaq onu əyləməz.*
*Doğru yola gedən nahaqdan ölməz,*
*Kaftar kimi qəbir sökən gəlibdi,*
*İrəndi dağıdıb tökən gəlibdi.*

Talin və Dərələyəzdəki İrənd//Irind adlı kənd adları da həmin coğrafi termindən törənmişdir. Şörəyel bölgəsinin bəzi kəndlərində də irənd sözü işlənərdi.

**Napzar.** Göstərilən hər üç bölgədə coğrafi termin, həm də müstəqil mikrotoponim kimi işlənmişdir. Ümumiyyətlə, kəndlərin görkəmli yerlərindəki, yəni kəndin önündə olan əkin yerlərinə və ya biçənəklərə deyilirdi. İrformatorların dediyinə görə, hələ kolxoz quruluşundan əvvəl kəndlərin önündə müxtəlif tayfalara aid pay torpaqları olarmış. Həmin pay torpaqlarına Napzar//Napzarlar, Kəlbə Qasımın napzarı, Urustamın napzarı və s. demişlər. Bu torpaqlar 1939- cu ildən sonra kolxozlara qatılsa da, ancaq yenə də napzar termini köhnə sahibkarların adları ilə işlənməkdə idi: Ağsaqqalların napzarı, Musaların napzarı, Paşa napzarı və s. (Amasiya k.).

**Tap**. Bu termin də hər üç bölgənin mikrotoponimiyasında işlənirdi. Şörəyel bölgəsinin Oxçuoğlu kəndinin sərnələrində, yəni əkin yerlərində Ocaqqulu tapı, Bacıoğlu tapı adlı (hər biri təqribən 80 hektar) əkin yerləri, Ağbabanın Çivinli və Quzukənd kəndlərində Tapılar, Xatınoğlu tapı biçənək, əkin yeri, otlaq adlan, Pəmbəyin Hallavar və Dızman kəndlərində və Böyük tap, Kiçik tap, Tapın düzü, adlı biçənək, əkin sahəsi və otlaqlar vardı. Tap coğrafi termini ilə işlənən həmin sahələr təpəliklər

arasında olan düzən sahələrdir. Daha doğrusu, becərilmə üçün əlverişli olan məhsuldar əkin sahələridir.

L.Budaqov qeyd etmişdir ki, tapı//tapu türkmənşəli sözdür. Orta əsrlərdə İstambuldan torpaq mülkiyyətçisinə sahibkarlıq hüququ verən rəsmi sənədə «tapu» deyilmişdir [174, s.33]. Qramotaya bənzər belə sənədlər Türkiyə və Balkan muzeylərində qalmaqdadır. Tapu sözü indi də Türkiyədə işlənməkdədir.

1878-ci ildə Qars vilayətini ruslar zəbt etdikdən sonra Şörəyel vadisinin türklər yaşayan bir çox kəndlərinin əhalisi kazak və erməni gülləsinin qurbanı olmuşlar. On minlərlə türkü isə köçürmək adı ilə Türkiyənin içərilərinə tərəf qovmuşlar. Tarixi bir mənbədə bu barədə belə yazılmışdır:

"Hər bir ailə başçısı bir də həmin köhnə yurduna geri qayıtmamaq şərti ilə vəkilə qolkağızı və öz tapusunu (torpaq mülkiyyəti sənədini) verməlidir". Rusca olan bu arxiv sənədində tapu kimi işlədilmişdir [25, s.93]. Sözsüz ki, tapu həmin yuxarıda göstərilən coğrafi terminlə (tap) bağlı rəsmi sənəd olmuşdur. Dilimizdə ***-ı, -u, -i, -ü*** şəkilçiləri ilə düzələn sözləri nəzərə alsaq, *(yaz-ı, poz-u, küs-ü, üt-ü və s.)* deyə bilərik ki, ***tap-u*** da düzəltmə sözdür. Elə tapan, tapdaq (düzən, hamar yer) leksik vahidinin kökü də həmin coğrafi terminlə – tapla homogendir.

H.Hubşman 6-cı əsr erməni mənbələrinə əsaslanaraq göstərir ki, Taşiratap (daşlı tap yer(, Tikinatap (diginə tap( toponimlərinin tərkibindəki «tap» düz sahəni bildirir. Lakin o, həmin terminin kökünü erməni dilinə bağlamağa çalışmışdır [4, s.102]. Xalq coğrafi terminlərindən yazan M.Murzayev də tap terminini Hind-Avropa dillərinə bağlamaqla həmin sözü ermənilərə yaxınlaşdırmaq istəmişdir [21, s.543].

R.Yüzbaşov tap terminini «dağ ətəyində düzən yer», Qeybullayev isə «düzən yerdə yüksəklik» kimi izah etmişlər. Lakin tədqiq etdiyimiz mikrooronimlərin coğrafi relyefi və şəxsi müşahidələrimiz əsasında deyə bilərik ki, tap təpələrlə əhatə

edilmiş düzən sahələri bildirən coğrafi termindir.

**Yolaq**. Ağbaba və Şörəyel bölgələrinin kəndlərinin mikrotoponim kimi işlənirdi. Məsələn: Amasiya kəndindən Arpaçayı dərəsindəki bostanlara enmək üçün hər bir tayfanın məhəlləsindən dərəyə Arpaçayın kanyonuna kəsə gedib-gəlmək üçün yollar, cığırlar vardı. Həmin cığırlar tayfaların adı ilə adlanardı: Babakişilərin yolağı, Hacı Həmzənin yolağı, Şabanların yolağı, Kosaların yolağı və s.

Bundan başqa, Yolaqlar adlı mikrooronim Mağaracıq kəndində qeydə alınmışdır. Deməli, daşdan, kəsəkdən, koldan-kosdan təmizlənib qaydaya salınan kəsə cığıra yolax((yolaq deyilmişdir. Çox düzgün olaraq E.Mehrəliyev Yevlaq oykoniminin həmin yolaq coğrafi terminindən törəndiyini yazır [6, s.395].

**Qılıc.** Qarabulaq kəndində iki dağ silsiləsini bir-birinə H şəklində birləşdirən silsilə Orta qılıc adlanır. Silsilə düz və kəskin olduğu üçün metaforik olaraq qılıc adlandırılmışdır.

**Gav.** Göstərilən bölgələrdə dialekt söz olaraq daşlı yoxuş mənasında işlənirdi. Məsələn, Güneyin gavı, Çaldaşın gavı, (Ağbaba). Qeyd olunmalıdır ki, Şörəyeldə – Amasiya – Gümrü yolunun 20-ci kilometrliyində 1878-ci ildən Ərzurum tərəfdən gələn ermənilərin yaşadığı Gav kəndi vardı. 1935-ci ildən kəndin adını ermənilər Kaps etmişlər. Qeyd edək ki, kəndin yerləşdiyi ərazi (daşlı yoxuş) relyefi əks etdirdiyi üçün Gav demişlər [9, s.112].

**Yar.** Qızılörən, İlli kəndləri ərazisində dərə, yarğan mənasında işlənirdi. İlli ərazisində həmin sarı gilli dərədən torpaq çıxarıb təndir hazırlayardılar. Ağbaba bölgəsində Sarıyar adlı kənd vardır. Ermənilər bu oykonimi təhrif edərək Sariar kimi xəritələrdə qeyd edirlər. Yar türk xalqları yaşayan ərazilərdə də geniş yayılmışdır. Məsələn, Şimali Qafqazda – Kızılyar, Uzaq Şərqdə – Krasnoyarsk (Qırmızı yar) toponimləri də bununla bağlıdır. Ağbaba folklorunda bir bayatıda da yar xatırlanır:

*Əzizim, Sarıyardan,*
*Su gələr Sarı yardan.*
*Fələyə nə qaydadır,*
*Ayırar yarı yardan.*

**Örənə.** Mənbələrdə dialekt söz olaraq “torpaq”, “otlaq sahəsi” mənalarında işlədildiyi bildirilir. Bir neçə kəndin ərazisində örüş, örənə coğrafi terminləri də nəzərə çarpır. Bununla belə, Pəmbək bölgəsinin Qızılörən kənd adında da əks olunur. Burada qızıl “qırmızı” mənasında torpağın və ya süxurun rəngini bildirir. Orta Asiya, Anadolu, Krım və Balkan ölkələrində də örən // örənə coğrafi termini torpaq mənasında toponimlərdə mühafizə olunmuşdur.

**Xan.** Türk dünyasında, karvan yollarının üstündə hər cür tikilisi – məscid, qonaq evi, hamam, bazar, at, dəvə, mal-qara, qoyun-quzunu salmaq üçün tövlə və s. tikililəri olan karvansaray kompleksinə deyilir. Anadolu, Krım və Balkan ölkələrində bu cür tikililər qalmaqdadır.

Gümrü şəhərində də Xan deyilən karvansaray kompleksi 1960-cı illərədək qalmaqda idi. Ermənilər şərq üslubunda tikilmiş və azərbaycanlılara aid olan bu qədim abidəni sökərək yerində avtovağzal tikmişlər. Azərbaycanlılar yenə də ora “xan yeri” deyərdilər.

Bundan başqa, baş, ayaq, qol, kürək, döş, boyun, qoltuq və s. metaforik terminlər və təyinedici sözlər də mikrooronimlərdə işlənmişdir.

Ümumiyyətlə, Qərbi Azərbaycanın mikrooronimləri xüsusi tədqiqat işidir. Çünki Qərbi Azərbaycanın relyefi o qədər müxtəlifdir ki, bu müxtəliflik yüz minlərlə oronimik adın yaranmasına səbəb olmuşdur. Bunları toplayıb lüğət halında çap edilməsi günümüzün vacib məsələlərindəndir.

## ORONİMLƏR SÖZLÜYÜ

**ABBASQULUNUN YERİ** – Qaraçanta kəndinin cənubunda, keçmişdə kəndin varlısı Abbasquluya aid olan əkin yerlərinə deyilirdi.

**ABBASIN ARXACI** – Çivinli kəndi şimalında, Göy dağın ətəyində kəndin keçmiş varlısı olmuş Abbas kişiyə aid arxac olmuşdur.

**ABBASIN ÇAYIRI** – İlanlı kəndinin şimalında, Qara Namaz kəndinə doğru uzanan çayırlığın adı idi.

**ABBASQULU ELLƏZOĞLUNUN ÇAYIRI** – Güllücə kəndinin cənubunda olub. 1948-ci ildə Arpagölün sahəsini genişləndirərkən çayır gölün altında qalmışdır.

**ABUTALIB DƏRƏSİ** – Öksüz kəndində olan yeganə dərənin adı idi. Keçmişdə kəndin varlı sakini Abutalıba aid olduğu üçün elə deyilmişdir.

**ADA** – Təpəköy kəndinin ortasındakı məhəllənin adı idi.Arpaçayın 1961-ci ilədək olan yatağı kəndin içində fırlanaraq ada əmələ gətirdiyi üçün həmin məhəlləyə Ada məhəlləsi demişlər. Arpagölün ortasındakı təpəyə də Ada deyilirdi.

**AĞAKİŞİBİÇƏN** – Amasiya kəndinin şimalında dərə və biçənək adı idi. Ağakişinin keçmişdə Amasiya kəndində yaşayan Ağakişi adlı bir varlı adam olması söylənilir.

**AĞBABA** – Dağ, ziyarət, əyalət, mahal adı kimi rus, həm də türk mənbələrində xatırlanır. 1878-1918-ci illərdə - rus işğalı dövründə 40-dan çox kəndi əhatə edən Ağbaba nahiyyə və ya sahə kimi Qars vilayətinin tərkibində inzibati-ərazi vahidi kimi mövcud olmuşdur. Ağbaba Oğuz türklərinin Qayı tayfasının onqonu, qartalın bir növü olan Ağbaba quşunun adındandır.

**AĞBABA YAYLASI** – 1930-cu ildə yaradılan Amasiya və Qızılqoç rayonlarının ərazisi, bundan başqa, həm də Düzkənd, Ağin, Kalinino, Ələyəz, Artik rayonları kəndlərinin yaylaq yerləri olan bölgənin adıdır. Etnikmənşəlidir.

El şairi Avtandil Ağbabanın bir çox şeirində bu toponim xatırlanır:

*Ağbaba, Şörəyel, Təpəköy, Göllü*
*Balıqlı, Oxçuoğlu, Güllücə, İlli.*
*Atilla əsilli, Oğuz əsilli,*
*Birdimi, beşdimi ... ondumu, qaytar.*

**AĞBABADAĞ SİLSİLƏSİ** – Böyük Ağbaba dağından başlayaraq Türkiyə sərhəddi boyu şimala tərəfə uzanır, sonra isə şərqə tərəf-Gürcüstan sərhəddiboyu dağ silsiləsi davam edir. Göydağ, Tayaqaya, Qısırdağ, Keçəldağ, Naxoşdağ, İkiqat, Kalloy, Baş Güney, Qara Güney və s. Ağbabadağ silsiləsinə daxil olan dağlardır.

Bəxtiyar Xəlilovun yurd-nisgilli bir çox şeirlərində Ağbaba toponimi belə xatırlanır. Məsələn:

*Ulu babaların izini gördüm,*
*Köhnə qalçada, əski türbədə.*
*Şörəyel, Ağbaba... bu yerlər bütün,*
*Oğuzların olub dedin o vədə.*

**AĞBULAQ** – Quqar rayonunda, Həmzəçimən kəndi yaxınlığında, 1920-ci ildən xaraba qalan kənd yerinə deyirdilər.

**AĞDAŞ** – Pəmbək bölgəsinin Mollaqışlaq kəndinin qərbində qədim yurd yerinin adı idi.

**AĞDƏVƏ** – Gümrü şəhərinin cənub-qərbində, Qars sərhəddində dağ adıdır. İnformarorlar qeyd edirlər ki, dağın beli dəvə belinə oxşadığı üçün Ağdəvə demişlər. Metaforik oronimdir.

Bir Ağbaba bayatısında dağın adı xatırlanmaqdadır:

*Ağdərədə sar olar,*
*Quzeyində qar olar.*
*Qərib eldə ölənin,*
*Ürəyində qor olar.*

**AĞIL QAYA** – Gümrüdən, Qarsa gedən yolun sağ tərəfində olan dağın adıdır. Erməni mənbələrində hündürlüyü 1788 metr göstərilir. İnfomatorlar oronimin birinci tərəfindəki

"ağıl" sözünü "mal-qara yatırılan yer" kimi başa düşüldüyünü bildirdilər [6, 88].

**AĞILLAR** – Göllü kəndinin şimal-qərbindəki dağda yan-yana olan qoyun arxaclarının adı idi. Ağıl(lar) mal-qara, qoyun-quzu yatağını bildirir. Bu termin "Kitabi-Dədə Qorqud" dastanında işlənmişdir.

**AĞIN DAĞI** – Şörəyel vadisində, Arpaçayın sol tərəfində – Ağın kəndi yaxınlığında olan dağın adıdır. Ağin oroniminin (belə bir oykonim də var) tərkibindəki -in şəkilçisini S.Mollazadə şəkilçiləşmiş söz hesab edir və qədim türk dilində *"kaha", "mağara"* bildirdiyini qeyd edir. Dibin, Dağın, Talin toponimlərinin tərkibində də -in şəkilçiləşmiş sözlər qorunmaqdadır. Müasir dilimizdə işlətdiyimiz *hin* sözü də həmin mənanı əks etdirir.

**AĞQAYA//AĞQAA** – Daşkörpü kəndinin cənub-şərqindəki qayalığın adı idi. Qayalıqdakı daşların rəngi ağa çaldığı üçün Ağqaya demişlər.

**AĞ QUMLUQ//AĞ QUMLUX** – Güllübulaq kəndinin şərq tərəfindəki qumluğun adı idi. Tikintidə, xüsusilə suvaq işində geniş istifadə olunan bu qum narın, rəngi isə ağ idi.

**AĞLAĞAN** – Boz Abdal dağ silsiləsində olan, Ağbaba yaylasının şərq qurtaracağındakı dağın adıdır. Hündürlüyü 2992 metr olan bu dağın adı "Kitabi- Dədə Qorqud" dastanında da xatırlanır. Dağda və dağı əhatə edən ərazidə daha çox yağıntı olduğu üçün Ağlağan demişlər. Rus mənbələrində səhv olaraq oronimi tərcümə edib "Mokrıy" kimi yazılır. Ermənilər oronimi dəyişdirib xəritə və rəsmi sənədlərdə "Urasar" kimi qeyd edirlər.

Ağbaba folklorunda Ağlağan dağ, yaylaq adı kimi bir bayatıda da xatırlanmaqdadır.

*Əzizim, Ağlağandı,*
*Qaraxan, Ağlağandı.*
*Gedək dərdli yanına*
*Görək kim ağlağandı.*

**AĞSAQQALIN ÇAYIRI** – Çaxmaq kəndinin cənub

qırağında çayırlığın adı idi. Deyilənə görə, bu çayırlıq keçmişdə kənd ağsaqqalına aid olduğu üçün elə demişlər.

**AĞYOL** – Oxçuoğlu kəndindən Türkiyə sərhəddinə tərəf gedən ağgilli torpaq yolun adı idi.

**AĞZIGEN** – Xancığaz kəndində dərə və yaylaq adı olmuşdur. Dərənin ağzı gen olduğu üçün Ağzıgen demişlər.

**AXAR-BAXAR** – Çaxmaq kəndinin cənub-qərbində, iki dağ arasında, sahəsi 15 ha olan biçənək sahəsinin adıdır. Gül-çiçəkli bitki örtüyü olduğu üçün elə demişlər.

**ALA DAĞ** – Mənbələrdə Əlyəz dağının başqa bir adı kimi qeyd edilir. Dağda əriməyən buzlaq olduğu üçün dağın başı həmişə ala görünür. "Oğuznamədə"də də belə bir dağın adı çəkilir.

**ALAGÖZ//ALAYÖZ//ƏLƏYƏZ** – Dağın adı Ə.Cavadın şeirində də çəkilir.Erməni şair və yazıçılarından çoxu həmin dağ adını "Alagöz" kimi bədii əsərlərində işlətmişlər.

**ALAXANÇALOĞLUNUN YERİ** – Oxçuoğlu kəndi ərazisində, keçmişdə Alaxançaloğlulara aid olan əkin yerlərinə deyilirdi.

**ALCƏFƏR SƏRNƏSİ** – Qursalı kəndində ərazi adı idi. Sərnə dialekt söz olaraq sahə mənasında işlənirdi.

**ALÇALININ TİLİ** – Kiçik Kilsə kəndinin ərazisində təpəlik adı idi.Oronimin tərkibindəki "til" dağın, təpənin uzanan hissəsini bildirən coğrafi termindir.

**ALI AĞANIN YAYLASI** – İlanlı kəndinin cənub-qərbində gümrülü Alı ağanın yaylaq yerləri olmuşdur.

**ALIBİÇƏN** – Haydarlı kəndi ilə Hacı Qara kəndi arasında, keçmişdə Alı adlı şəxsə aid olan biçənəyə deyirdilər.

**ALILIDƏYİRMAN//ALULU DƏYİRMANI** – Vərdənə kəndində, Pəmbəkçayın üstündəki əsgi dəyirmanın adı olmuşdur.

**ALIŞDARIN KOMU** – Qursalı kəndinin şərqində Alışdar tayfasına aid olan biçənəyin adı idi. Orada, keçmişdə Alışdar // Alışlar tayfasına aid komlar olmuşdur.

**ALIŞIN YERİ** – Qursalı ərazisində, Söyüdlü ilə Sarı yarğan deyilən biçənəyin arasında idi.

**ALLAHQULUNUN ÇUMBUZDUĞU** – Çivinli kəndindəki çayırlıqda Allahqulu kişinin bataqlıq təhər olan biçənəyinə deyərdilər.

**AMASİYA QALAÇASI** – Qəsəbənin şərq tərəfindəki Şişdağda olan qədim qalaça. Uçuq divarları hələ də qalırdı. Erməni mənbələrində şəkli də göstərilir [2, s.310].

**AMASİYA QƏBİRİSTANLIĞI** – Amasiyanın köhnə məhəlləsində olan qədim qəbiristanlıq. 1970-ci illərdə ermənilər yol çəkmək adı ilə plana salıb yerlə yeksan etmişlər. Qəbiristanlıqda bir neçə məqbərə də olmuşdur. Bu yaxınlarda video materiallardan aydın oldu ki, ermənilər yeni qəbiristanlığı da söküb dağıdıblar. Bir çox qəbirlərdə qızıl axtardıqlarının görüntüləri də vardır.

**ARABA KEÇİDİ//HARAVA KEÇƏN** – İlanlı kəndinin şimalında, Arpaçayın köhnə yatağında Qara Namaz kəndinə tərəf olan keçidə deyirdilər.

**ARABA YOLU** – Xancığaz kəndindən Qarakilsə şəhərinə gedən qədim yolun adı idi. Düzdür, son vaxtlar oradan araba əvəzinə avtomobillər gedib-gəlsə də , ancaq yenə də köhnə adı ilə Arabayolu deyilərdi.

**ARALIQ** – Qursalı kəndində düzün (biçənəyin) adı idi. Yastı təpəliklərin arasında olduğu üçün elə deyilmişdir.

**ARAVULDAĞ** – Talin rayonu ərazisində, Əşinək kəndinin yanındakı dağın adı idi. Oronim qədim türk leksik vahidlərini (ara-avul) əks etdirir.

**ARAZ YURDU** – Arçut kəndində dağ və yaylaq adı olmuşdur.

**ARXAŞAN** – Pəmbək silsiləsində olan dağlardan birinin adıdır. Bu oronimi (arx+aşan) də ermənilər dəyişdirərək rəsmi sənədlərdə və xəritələrdə "Ampasır" kimi yazırlar [2, s.151].

**ARXAŞAN** – Ələyəz dağ silsiləsində, daha doğrusu, Ələyəzin uca zirvələrindən birinin adıdır. Erməni mənbələrində

Arxaşen kimi qeyd edilir. İnformatorlar oronimin adını dağda olan qədim arxla əlaqələndirirlər (arx+aşan).

**ARXAŞ TALA** – Pəmbək dərəsində, meşə talasında olan qoyun arxacına deyilirdi. Toponimiyada tala coğrafi termini, əsasən, meşəlik sahələr üçün xarakterikdir.

**ARIXLAR YATAĞI** – Mağaracıq kəndi ərazisində, arıxlar tayfasına aid qoyun yatağı idi. Etnooronimdir.

**ARIQÖLDÜRƏN** – Marağacıq kəndində dağ adı idi. Bitdiyi ota görə, yəni orada bitən ot heyvanı daha da arıqlatdığı üçün o dağa Arıqölən//Arıqöldürən demişlər.

**ARMUDAĞACI PİRİ** – Arçut kəndində, yol qırağında olan pirin adı idi. Bu pirə Pəmbək və Borçalı kəndlərindən ziyarətə gələrdilər.

**ARMUDAĞACI PİRİ** – Saral kəndində olan pirin adı idi. Pəmbək və Ağababa kəndlərindən bu pirə nəzir-niyaz gətirərdilər.

**ARMUDLU** – Vardana kəndi yaxınlığında, 1920-ci illərdə ermənilər tərəfindən yandırılmış kənd yerinə deyirdilər.

**ARPAÇAY DƏRƏSİ** – Qızılqoç rayonu ərazisindən başlanan bu dərə – kanyon Amasiya rayon mərkəzi yaxınlığında davam edərək Gümrü şəhərinin qərb tərəfindən keçib Ani şəhərinədək uzanır. Uzunluğu 80 kilometrədəkdir. Həmin dərə ilə Arpaçay axdığı üçün elə demişlər.

**ARPA ÇAYIRI** – Ağababada, Təpəköy kəndi ərazisindən – Arpaçayın mənbəyinə yaxın yerdən başlanan bu çayırlıq Qızıqoç rayonu ərazisinədək uzanır. Eni 6-7 km, uzunluğu 22 km olan bu çayırlığın ortasından Arpaçay qıvrıla-qıvrıla axırdı. 1961-ci ildə həmin çayrılığın ortası ilə kanal qazıb çayın əyri-üyrü yatağını kəsələşdirdilər. Mənbələrdə adı çəkilərək Qars vilayətinə aid edilir [2, s.143].

**ARTƏPƏ // AR(T) TƏPƏ** – Mağaracıq kəndi ərazisində təpə adıdır. İnformatorlar bu təpəni Aratəpə kimi izah etsələr də, ancaq təpənin yerləşdiyi ərazi bunu deməyə imkan vermir. Oronim qədim, eləcə də müasir türk dillərində işlənən ***art***

sözlərindən (art – yüksək təpə ) ibarətdir.

**ARTİK KARXANASI** – Artik rayonunda qədim tuf daş karxanasının adıdır. Burada zəngin, qırmızı tuf daşı karxanası vardır. Karxana indi də istifadə edilir. Hətta ora dəmiryolu çəkilmişdir.

**ASDANIN DƏRƏSİ** – Öksüz kəndinin şimal-qərbində dərənin adı idi. Keçmişdə kənd sakini Aslana aid olduğu üçün elə deyilmişdir.

**ASLAN-XARABA** – Şahalı dəmir yolu stansiyasının yaxınlığında xaraba qalmış kənd yerinə deyirdilər.

**ASLANOĞLU KÖRPÜSÜ** – 1948-1950-ci illərdə Arpagölün sahəsi genişləndirilərkən həmin körpü su altında qalmışdır. Sultanabad kəndindən Xozu,Güllücə, Ellərkənd , Çivinli kəndləri tərəfə getmək üçün həmin körpüdən keçmək lazım gəlirmiş.

**AŞAĞI ÇEYİLLİK** – Köllü kəndinin cənubundakı çayırlığın adı idi. Ağbabada 'çeyil' sulu çayırlıqda bitən ota deyilirdi.

**AŞAĞI DƏYİRMAN//AŞAĞI DƏRMAN** – Qaraçanta kəndindən 3 km cənubda, Arpaçay dərəsindəki qədim su dəyirmanının adı idi. 1970-ci ildən işləmirdi.

**AŞAĞI KARXANA** – Güllübulaq kəndinin cənub-şərqindəki tuf daşı karxanasının adı idi.

**AŞAĞI YURD** – Qızılörən kəndindən aşağı istiqamətdə olan yurd yerinin adı idi.

**AŞIĞIN TƏPƏSİ** – Keçmişdə Öksüz kəndində yaşamış Aşıq Məhəmmədə aid olan biçənək və təpənin adı olmuşdur.

**AŞIQ ALI//AŞQALI** – Şirak düzünün cənub -şərq tərəfində,Ələyəz dağının yanında olan dağlardan birinin adıdır.Erməni xəritə və lüğətlərində AŞXAL kimi də yazılır. Bir neçə informator dağın adının Aşıq Alı olduğunu bildirsələr də, lakin Hacı Xəlil kəndinə yaxın olan həmin dağ adının da Hacı Xəlil olduğu anlaşılır. Şörəyel kəndlərində Hacı Xəlil onomastik vahidi Hajıxalıl//Haşxal//Aşxal kimi tələffüz edilərdi [2, s.210].

**AŞIRIN ÇAYIRI//AŞIRIN ÇAARI** – Amasiya kəndinin şimalında, yuxarı dağ kəndlərinə gedən yolun sol tərəfindəki çayırın adı idi.Oronim şəxs adı ilə bağlı antropooronimdir.

**ATUÇAN** – Amasiya rayon mərkəzinin qərb tərəfində, Sınığa gedən yolun sol tərəfindəki sıldırım qayalığın adı idi.

**AVDININ YATAĞI** – Qönçəli kəndinin şimal-şərqindəki mal-qoyun yatağının adı idi. Deyilənə görə, yataq sahibinin adı Əbdül imiş.

**AVDITƏPƏ** – Şörəyel düzündə dağ adı olmuşdur.Erməni mənbələrində dağın hündürlüyü 1723 metr göstərilir [2, s.181].

**AYIBASAN** – Həmzəçimən kəndindən 3 km cənub-qərbdə olan yurd yerinə deyirdilər. Bu bölgədə meşə olduğu üçün ərazidə ayının olması mümkündür.

**AYIÇINQILI** – Düzkəndin cənub-qərbindəki Qızıldağın şimalındakı çınqıllı təpənin adı idi.

**AYIÇINQILI** – İbiş kəndinin cənub tərəfdən söykəndiyi təpənin adı idi. Bəzi rus və erməni mənbələrində bu oronim kənd adı kimi də qeyd edilir.

**AYI DƏRƏSİ** – Daşkörpü kəndində, şimal-qərbdə olan dərənin adı idi.

**AYIQAYASI** – Vardana kəndində qayalığın adı idi. Qayalıqdakı qədim mağaralara görə Ayıqayası demişlər.

**AYQIR BAĞ(I)** – Pəmbək bölgəsində dağ adı olmuşdur.

**AYQIR YURDU** – Pəmbək bölgəsində, Maymaq dağının ətəyində yaylaq,yurd yerinin adı idi. Pəmbək bölgəsində yaşayan Azərbaycan türklərinin qədim yurd yeri sayılırdı. Deyilənə görə, burada cins atlar bəslənərmiş.

**AYRICA** – Pəmbək bölgəsində, Aşağı Kilsə kəndinin şərqində olan dağın və biçənəklərin adı idi.

**BABAKAR DAĞI** – Boz Abdal dağ silsiləsinə daxil olan dağın adı idi. Erməni xəritə və rəsmi sənədlərində oronim dəyişdirilərək “Quqaradız” kimi yazılır [2, s.346].

**BABAKİŞİNİN GÜNEYİ** – Güllücə kəndinin şimalında təpə və biçənəyin adı idi.

**BABAŞIN YOLAĞI** – Amasiya kəndindəki Köhnə məhlə adlanan məhəllədən Arpaçayı dərəsinə enmek üçün düzəldilmiş yolun, cığırın adı idi.Ağbabada 'yolaq' qısaldılmış (kəsə) yola deyilirdi.

**BACOĞLUNUN DƏRƏSİ** – Oxçuoğlu kəndindən Bacıoğlu kəndinə gedən yolun keçdiyi dərəyə (3 km) deyirdilər.

**BACOĞLU TAPI** – Oxçuoğlu kəndinin cənub-şərqində, Bacoğlu kəndinin yaxınlığında olan böyük əkin sahələrinin adı idi.80 hektardan çox olan bu düzən sahə təpələrlə əhatə olunmuşdur.

**BAĞDAD DAĞI** – Şörəyel vadisinin şərqində, Böyük Kəpənəkçi kəndi yaxınlığında - Artəpə dağının yanındakı dağın adı olmuşdur. İnformatorlar Bağdad dağ adını miqrativ oronim hesab edirlər.

**BAĞIRBABA** – Şörəyel vadisinin şərqində dağ adı olmuşdur.Ermәni mənbələrində bu dağın hündürlüyü 3268 metr göstərilir [2, s.210].

**BAXŞƏLİÖLƏN** – Oxçuoğlu kəndinin cənubundakı düzün adı idi. Qocayaşlı informatorlar dediyinə görə,keçmişdə həmin düzdə Baxşəli adlı bir nəfər borana düşüb öldüyü üçün həmin düzə Baxşəliölən demişlər.

**BAKU//BAQU** – Ələyəz//Alakas dağının cənub-qərb tərəfindəki zirvənin adı olmusdur. Oronim qədim türk sözü olan zirvə, təpə, yüksəklik mənasını bildirən ***baqu*** sözündən törənmişdir. Türkmənşəli olduğu üçün ermənilər həmin zirvə adını Amberd (Buludqala) əvəz etmişlər [2, s.200].

**BAQARAN DƏRƏSİ** – Ağin rayonu ərazisində, uzunluğu 1 km, eni isə 500 metr olan dərənin adıdır. Oronim Baharlı//Baharlılar etnonimini əks etdirməkdədir.

**BAQARAN//BAHARAN** – Ağin rayonunda, keçmiş Dərəkənd (Baqravan) kəndi yaxınlığında, hündürlüyü 1656 metr olan dağın adıdır. Fikrimizcə, Baqaran dağı Baharlı tayfa adını əks etdirir. Bu oronimdə ***-an*** şəkilçisi cəmlik ***(-lar)*** bildirir.

**BAQU//BAKU** – Ələyəz dağının 3128 metr hündürlüyü

olan zirvələrindən birinin adı olmuşdur. Eyniadlı çay və göl də vardır. Baqu bir çox qədim və müasir türk dillərində "zirvə", yüksəklik mənasında işlənir. Ona görə də ermənilər həmin toponimləri dəyişdirib Amberdlə əvəz etmişlər.

**BALA TƏPƏ** – Kiçik Təpəköydən 1 km şimalda, Göllü yolunun sağ tərəfindəki kiçik təpəyə deyərdilər.

**BALA TƏPƏ** – Güllücə kəndinin şimal tərəfindəki təpənin adı idi.

**BALA TƏPƏ** – Balıqlı kəndinin cənub-şərqindəki təpəyə deyirdilər. Burada bala kiçik mənasındadır.

Avtandil Ağbabanın bir şeirində Bala təpə cinas qafiyə kimi işlədilmişdir:

*Eləmi, Bala təpə,*
*Harda var, belə təpə.*
*Arılar gül üstündə,*
*Batıbdı bala təpə.*

**BALA TƏPƏ** – Quzukəndin cənubunda təpə adı olmuşdur. 1948-ci ildə Arpagölün sahəsi genişləndirilərkən suyun ortasında qalmışdır.

**BALDIRĞANLI** – Qarakilsə ərazisinə yaxın yerdə, Göyər dağının ətəyində xaraba kənd yerinə deyilirdi. Deyilənə görə, 1795-ci ildə Ağa Məhəmməd Qacarın Tiflisə hücumu zamanı kənd dağıdılmışdır.

**BALDIRĞANNIX//BALDIRĞANLIĞ** – İbiş kəndində, cənub-şərq tərəfdə zəngin baldırğan bitən otlaq sahəsi idi. Fitotoponimdir.

**BALIQLININ QALAÇASI** – Balıqlı kəndinin söykəndiyi dağda olan qalacanın adı idi. Qalaçanın yanında sal daşlardan ibarət qəbirlər var idi.

**BALININ TƏPƏSİ** – Güllübulaq kəndinin şərqindəki təpənin adı idi. Deyilənə görə, Balı kəndin keçmiş sakini imiş.

**BALLICA** – Aşağı Kilsə ərazisində yaylaq yerinin adı idi. Bu yurd yeri ilin yaz- yay aylarında gül-çiçəyə bürünərdi.

**BALLICANIN DİLİ** – Pənbək bölgəsində, Ballıca yay-

lağında təpəliyin adı idi.

**BALLI QAYA** – Saral kəndinin yaylaq yerinin adı idi. Çoxlu arı yuvaları olduğu üçün belə demişlər.

**BANDALI DAĞ** – Güllübulaq kəndində təpəlik və biçənəyin adı idi.Təpədə dəlibanda adlanan bitki çox bitdiyi üçün Bandalı dağ demişlər.

**BANDALIQ//BANDALIX** – Xaraba Xançallı kəndinin yanındakı təpənin adı idi.Oronim fitonimlə əlaqədar yaranmışdır.

**BASİN DƏRƏSİ** – Amasiya kəndinin cənub tərəfindən Arpaçayı dərəsinədək uzanan dərənin adıdır. Mənbələrdə Pasin formasında işlənir. “Kitabi-Dədə Qorqud”da Paşinik qara Dərbənd toponiminin tərkibində nəzərə çarpır.

**BAŞBAŞA** – Düzkənd kəndinin yaxınlığında yamacda, başbaşa olan əkin sahələrinin adı idi.

**BATDAXLI DƏRƏSİ** – Saral kəndinin cənub-qərb tərəfindəki sulu dərəyə deyilirdi.

**BAYAT DAĞI** – Pəmbək bölgəsində, Yuxarı Kilsə (Dızman) kəndinin cənub tərəfində dağ adı olmuşdur. Oğuzlarla əlaqədar olan etnooronimdir. 1960-cı ildə dağ sürüşərək azərbaycanlılar yaşayan Bayat kəndinin bir hissəsini basmışdır.

**BAYATDAR** – Hallavar və Haydarlı kəndlərinin arasında, Ley və Ağbulaq dağlarının qənşərindəki xaraba kənd yerinə deyirdilər.

**BAYDA YURD** – Gədə Maymaq dağının ətəklərində təpəlik və qədim yurd yerinin adı idi. Deyilənə görə, yurd yerinin adı Baydar yurd olmuşdur.

**BAYRAM TƏPƏ** – Öksüz kəndində təpənin adı idi. Deyilənə görə, bu təpə keçmişdə Bayram kişinin biçənəyində olduğu üçün elə deyilmişdir.

**BAYTAR DAĞI** – Amasiya kəndinin şimal- şərqində, Baytar kəndinin söykəndiyi dağın adıdır.

**BAYTAR DƏRƏSİ** – Baytar kəndinin yerləşdiyi və Arpaçaya qədər uzanan (5km.) dərənin adıdır. Etnik adla bağlı

etnooronimdir.

**BƏDƏLOĞLU BOYUNU** – Aşağı Kilsə kəndi ərazisində dağ çıxıntısının adıdır. Oronim etnikmənşəlidir.

**BƏXTİYAR** – Quqar rayonu ərazisində xaraba kənd yerinə deyirdilər.

**BƏXTİYARIN ÇAYIRI** – Çivinli kəndinin şimal-şərqindəki çayırlığın adı idi.

**BƏKİRTƏPƏSİ** – Göllü kəndinin şimalındakı təpəliyin adı idi.

**BƏNDOVAN DƏRƏSİ** – Arpaçaydan Bəndovan kəndinədək uzanan dərənin adı idi.

**BƏZƏK DƏRƏSİ** – Mənbələrdə (D.Paqirev) Şörəyel vadisində göstərilsə də,ancaq lokalizə edilmədi.

**BƏZİRGAN YOLU** – İbiş kəndindən Türkiyə ərazisində olan Bəzirgan kəndinə tərəf gedən qədim yola deyilirdi.

**BƏZİRXANA** – Güllücə kəndində mövcud olmuş bəzirxananın uçub dağılmış yerinə deyərdilər. Keçmişdə burada zəyərək bitkisindən bəzir çəkərlərmiş.

**BIĞ ƏLİNİN TƏPƏSİ** – İbiş kəndindən şimal-qərbində təpənin adı olmuşdur. Bu təpəyə Bığelli deyərdilər.

**BİNƏ YERİ** – Qara Namaz kəndinin şimal-şərqində – dağda qədim yurd yerinin adına deyərdilər.

**BİRYANA** – Güllübulaq kəndində birtərəfə əkilən əkin sahəsinin adı idi.

**BOSTAN DƏRƏSİ** – Amasiya rayonun Oxçoxğlu kəndinin cənubunda olan dərənin adı idi. Sututar və küləksiz yer olduğu üçün ta qədimdən orada bostan bitkiləri əkilərmiş.

**BOSTANLAR** – Gümrü şəhərinin cənubunda tərəvəz bitkiləri əkilən yerlərə deyilmişdir. Ermənilər "Bostanner" formasında adlandırırdılar.

**BOSTAN YERİ** – Bozqala kəndində, Arpaçayın sol tərəfində keçmişdə bostan əkilən yerə deyərdilər.

**BOSTANÇIÖLƏN** – Quzukəndin şimal qurtaracağında, qədim dəyirman xarabasının yanındakı çökəkliyin adı idi.

**BOZ ABDAL KEÇİDİ** – Qarakilsə şəhəri ilə Calaloğlu (Stepanavan) şəhərini birləşdirən,Boz Abdal dağının altından keçən yeraltı keçidin adıdır.Uzunluğu 1830 metr olan bu yeraltı keçid 1970-ci illərdə tikilmişdir. Tunel olmamışdan əvvəl bu dağ keçidinə "Puşkin perevalı" deyərdilər. Puşkin 1829-cu ildə Ərzuruma gedərkən bu dağın başında Qribaedovun Tiflisə aparılan cənazəsi ilə rastlaşıbmış. Orada memorial bulaq da vardır.

**BOZ ABDAL DAĞ SİLSİLƏSİ//BOZ AVDAL SİLSİLƏSİ** – Ağbaba dağ silsiləsindən Pəmbəyə doğru uzanan dağ silsiləsinin adıdır. Bu silsilənin uzunluği 66 km,eni isə 15-20 kilometrdir.Silsilənin ən hündür dağı Ağlağan (2992 m) dağıdır. Boz Abdal oronimi son dövrlərdə çap olunan erməni xəritələrində təhrif olunaraq Bazum kimi qeyd edilir. Boz Abdal dağ silsiləsinin çatdığı Debet çayına doğru uzanan Babakar dağ silsiləsi başlayır. Bu silsilənin qurtaracağındakı dağ zirvəsi "çətin" (2246 m) adlanırdı [2, s.213]. Boz Abdal, Qara Abdal, Ağ Abdal qədim türk tayfalarındandır və bir çox yerlərdə toponimlərdə əks olunmuşdur.

**BOZDAR** – Qursalı kəndinin şimal-şərqindəki yaylağın adı idi. Keçmişdə bu sahə Bozdar tayfasına aid olub.

**BOZDAR MƏHƏLLƏSİ** – Göllü kəndində məhəllə və tayfa adı idi. Deyilənə görə, 300 il əvvəl bu tayfanın adamları Qazax tərəfdən gəlib bu kənddə məskən salmışlar. Onlar özlərini dilbozların törəmələri hesab edirlər.

**BOZQALA** – İlanlı kəndinin cənub-şərqində, Arpaçayı dərəsində, Arpaçayın sağ tərəfində olan qala və kəndə deyirdilər. Kənd 1940-cı ildə ləğv edilmişdir. Şair Avtandil Ağbabanın bayatı formalı bir şeirində xatırlanır:

*Ağdaş, Bozqala,*
*Yurdun daşları.*
*Saymaqla bitməz*
*Dağ adaşları.*

**BOZQALA TUNELİ** – Bozqala kəndindən Daşkörpü kəndinə qədər qazılan və 5 km uzunluğunda olan bu tunel

Arpaçayın suyundan suvarmada istifadə etmək üçün 1970-ci ildə qazılmışdır.

**BOZLUBABA** – Erməni mənbələrində Şörəyel vadisində göstərilsə də,lakin lokalizə edilmədi [2, s.212].

**BOZ TƏPƏ** – Əştərək (Üçdaraq) rayonunda dağ adı olmuşdur. Təpənin otu tez bozardığı üçün belə demişlər.

**BOZYAR** – Ağbabada Qaraarxac dağının yanındakı dağlardan birinin adı idi. Burada yar dərə mənasındadır.

**BOZYAR DƏRƏSİ** – Bozyar dağından başlanan dərəyə deyirdilər.

**BOZYOXUŞ** – Qızılqoç rayonunda, Bozyoxuş kəndinin söykəndiyi dağın adı olmuşdur.Rus hərbi sənədlərində "Bozyoxuş" kimi qeyd edilir.

**BÖYÜK DÜZ** – Qızılörən kəndində geniş əkin və biçənək sahələri olan düzə deyərdilər.

**BÖYÜK XAMLAR** – Oxçuoğlu yaxınlığında əkilməyən böyük sahəyə deyilirdi.

**BÖYÜK QAYA** – Xancığaz kəndinin ərazisində qayalığln adı idi.

**BÖYÜK QUZEY** – Arçut kəndi yaxınlığında dağ adı idi.

**BÖYÜK TAP** – Qursalı kəndinin cənubunda yaylaq və biçənək yerinin adı idi.

**BÖYÜK TAP** – Yuxarı Kilsə (Dızman) kəndi ərazisində təpəliklərin arasındakı geniş düzənliyin adı idi. Oronimin tərkibindəki "tap" türk dilinin leksik elementi olub,hətta bir neçə leksik vahidin tərkibində indi də işlənir. Məsələn:tapan, tapdala və s.

**BÖYÜK TƏHMƏZ** – Qursalı kəndi ərazisində olan böyük bir düzün adı olmuşdur.İnformatorlar "təhməz" terminini aydınlaşdıra bilmədilər.

**BÖYÜK TƏPƏKÖYÜN QƏBİRSTANNIĞI //BÖYÜK TƏPƏKÖYÜN QƏBİRSƏNNİYİ** – Kəndin cənub-qərb ətəyində, Amasiya yolunun sağ tərəfindədir.

**BÖYÜK YER** – Oxçuoğlu kəndində, Gümrü yolunun

ətrafındakı əkin yerlərinə deyilirdi.

**BÖYÜK YOL** – Mollaqışlaq kəndindən başlayaraq Aşağı Kilsə,Yuxarı Kilsə,Hallavar kəndlərindən keçib Qarpakilsə şəhərinə birləşən qədim yolun adı idi.

**BUĞABATAN** – Böyük Təpəköydən Torfa qədər olan məsafədə gözəliyə – bataqlığa deyərdilər. Keçmişdə bu gözəlikdə buğa batıbmış.

**BUĞABÖYÜRƏN** – Ördəkli yaylasındakı çayırlığa deyərdilər.

**CAMININ YERİ** – Sultanabad kəndinin şimal-şərq tərəfindəki köhnə məscidin xaraba yerinə deyərdilər.

**CAVADIN KOMU** – Qursalı kəndinin şərq tərəfində keçmişdə Cavad kişiyə aid olan yaylağa deyərdilər.

**CEYİLLİ TƏPƏ** – Ellərkəndin qərbi ətəyində cil (ceyil) bitən təpəliyə deyirdilər. Sonralar bir neçə ailə təpənin üstündə ev də tikmişdilər.

**CƏLƏB YERİ** – Öksüz kəndində, zəif düşmüş mal-qara, qoyun-quzunun kəndə yaxın bu yerdə otarıldığı üçün belə demişlər. İnformatorlar cələb//cələf sözünün «arıq» mənasını bildirdiyini qeyd etdilər. Oronimin ümumi mənası «arıq mal-qaranın otarıldığı yer»dir. Lakin cələb sözünün başqa mənaları da vardır.

**CƏLƏBİN YAYLASI** – Xancığaz kəndi ərazisində yaylaq adı idi.

**CƏLƏBİN DAĞI** – Amasiya rayonundakı Cələb kəndinin söykəndiyi dağın adı idi.

**CƏLƏF KEÇİDİ // CƏLƏB KEÇİDİ** – Qaraçanta kəndi tərəfdən Çələb kəndinə kəsə gedib-gəlmək üçün Arpaçay dərəsindən keçilən çətin keçidin adı idi.

**CƏNNƏT GÜNEY** – Dızman kəndində dağ adı idi. İnformatorlar qeyd edirlər ki, həmin dağ yaz-yay aylarında gül-çiçəyə bürünür və daha gec olaraq gül çiçək solur. Gözəlliyinə görə Cənnət güney demişlər.

**CIR-CIR** – Holavar kəndində kiçik şəlaləsi olan biçənəyə deyirdilər.

**CIZIXLAR QALASI** – Cızıxlar kəndinin söykəndiyi dağda oğuzların Cızıxlar qalası olmuşdur və "Kitabi-Dədə Qorqud"da xatırlanır. Qoşa cızıq (xətt) qıpçaq türklərində simvol – damğa bildirmiş və zaman-zaman toponimdə əks olunmuşdur.

**CIZIQLAR DAĞI** – Cızıqlar kəndinin şimalında olan dağın adı idi.

**CIZIQLAR YOLU** – Amasiya kəndindən Gümrü-Qızılqoç yoluna birləşən şose yolunun (12 km) adıdır. Yol Cızıqlar kəndinin sağ yanından keçir.

**CİBREYİLİN ARXACI//CƏBRAYILIN ARXACI** – Çivinlidən 6 km qərbdə - Göydağın ətəyində, keçmişdə kənd varlısı Cəbrayıl kişiyə aid olduğu üçün elə demişlər.

**CİN ƏLİNİN HASARI** – Daşkörpü şimal-şərqindəki, Böyük Dərədə Cin Əliyə aid daş hasara alınmış əraziyə deyərdilər.

**CİN DAĞI** – Təpəköy kəndinin cənub-qərbindəki dağın adıdır. İnformatorlardan bir neçəsi oronimi çin//çön tayfa adı ilə əlaqəli olduğunu söylədilər.

**CİN DƏRƏSİ** – Təpəköy kəndinin cənub-qərbində Cin dağının şimal tərəfində olan dərin dərənin adı idi.

El şairi Bəxtiyar Xəlilovun bir qoşmasında bu oronim xatırlanmaqdadır:

*Gəlmir İskəndərin sazının səsi,*
*Bağlanıb yolların bəndi, bərəsi.*
*Ay Aydın bulağı, ay Cin dərəsi,*
*Deməyin ki, Sizdən dönüb gedirəm.*

**COMUŞBATAN** – Quzukəndin qərb hissəsindəki bataqlığın adıdır. Keçmişdə orada comuş batıb öldüyü üçün elə demişlər.

**CÜT TƏPƏLƏR** – Ellərkəndin şimal tərəfində yan-yana olan təpələrə deyilərdi.

**ÇAXMAQ DƏRƏSİ** – Çaxmaq kəndindən Mağaracıq kəndinə tərəf uzanan dərənin adı idi.

**ÇALA** – Çaxmaq kəndinin şimal-şərqində, külək tutmayan çökəklikdə olan biçənəyin adıdır. Çökəkdə, yəni çalada olduğu üçün elə deyilmişdir.

**ÇAL DAŞ** – Amasiya rayon mərkəzindən 10 km şimalda olan dağın adıdır. Dağ ağ suxurlardan ibarətdir. Keçmişdə ətraf kəndlərdə yaşayanlar bu suxurları aparıb yandırar və suya salıb tikinti üçün keyfiyyətli əhəng hazırlayardılar.

**ÇALĞI DAĞI** – Qaraçanta kəndinin şimalında dağ adıdır. Çox çalğı kolu bitdiyi üçün Çalğı dağı demişlər. Kənd adamları həmin kolların budaqlarından kəsib tövləni və həyət-bacanı süpürmək üçün çalğı düzəldərdilər.

**ÇALIN YURDU** – Qursalı kəndinin cənub tərəfindəki yurd yerinə deyilirdi. Burada çal əhəng daşı mənasındadır.

**ÇALAĞAN YUVASI** – Amasiya rayonunun çaxmaq kəndi ərazisindəki daşlı dağa deyirdilər. Orada çalağan quşları yuva salıb bala çıxarırdılar.

**ÇAMIRLI ÇAYIR** – Qara Namaz kəndinin cənubundakı bataqlı çayırlığa deyərdilər.

**ÇAMIRRI** – Qaraçanta kəndinin qərb tərəfindəki birinci dərəyə deyilirdi. Yaz aylarında sel sularından dərədə çamırlıq əmələ gəlsə də, sonra bura güllü-çiçəkli bir vadiyə çevrilərdi. Qaraçantalı həkim Əmirxanın bir şeirində bu oronim belə xatırlanır:

*Çamırrıdan Göy bulağa gedərdik,*
*Acı tərəni ləçək-ləçək edərdik.*
*Göy pendirdən yaxşı dürmək edərdik,*
*Bulaqbaşı kef eləyib yatardıq,*
*Qəlbimizdə xoş arzuya çatardıq.*

**ÇARDAQLI TƏPƏ** – Pəmbək bölgəsindəki Ayqırdağda olan təpəlik və yaylağın adı idi.

**ÇAŞIRLI-ÇAYIR** – Qara Namaz kəndinin cənubundakı sulu çayırlıqda çaşır bitdiyi üçün elə deyilmişdir.

**ÇATAQ // ÇATAX** – Qursalı kəndindən cənub-şərqdə yaylaq yeri idi. Burada dağlar bir-birinə birləşdiyi üçün belə

deyilmişdir.

**ÇATAXLAR** – Qaraçanta kəndindən Amasiyaya gedən yolun sol tərəfində, Məşədi Namazın yataqlarının yanında olan əkin yerlərinə deyirdilər.

**ÇATAX MƏHƏLLƏ** – Güllübulaq kəndinin ortasında, iki məhəllənin birləşdiyi yerə deyilirdi.

**ÇATAQ//ÇATAX** – Çivinli kəndinin qərbində, baş-başa olan dağın və dərənin adı idi.

**ÇEYİLLİ DAĞ** – Güllücə kəndinin şimalında, ətəyində çeyil bitən dağa deyilirdi.

**ÇEYİLLİK** – Göllü kəndinin şərqində çoxlu çeyil bitən sulu çayırlığa deyilirdi.

**ÇƏTİN DƏRƏ** – Ələyəz dağının şimal tərəfindəki daş kanyonlu dərəyə deyirdilər.

**ÇƏTİN DƏRƏ** – Bozqala kəndindən başlayan və Amasiya kəndinədək uzanan dərəyə deyilirdi.

**ÇƏTİN DƏRƏ** – Ellərkənddən başlayıb Türkiyənin şimal-qərb tərəfinə uzanan dərənin adı idi. Sərhəd zolağına düşürdü.

**ÇİÇƏKLİ BİNƏ** – Pəmbək bölgəsində, Mustafabuğa-vuran dağın yanında olan dağ və yaylaq adıdır.

**ÇİÇƏKLİ YURD** – Saral kəndinin şərqində yurd adı idi. Fitooronimdir.

**ÇILDIR YOLU** – Quzukənddən başlanan və Taya-qayanın sağ tərəfindən Çıldıra doğru (Türkiyə) uzanan qədim yolun adı idi. Sərhəd çəkiləndən sonra işlənmirdi. Lakin həmin yolun yanındakı biçənəklərə də Çıldıryolu deyilirdi. Çıldır həm də gölün adıdır.

Avtandil Ağbabanın Vətən həsrətli bir şeirində də Çıldır toponimi xatırlanır:

*Babamın doğma yurdu,*
*Bilirsənmi haradadır?*
*Bir kökü Ağbabada,*
*Bir ucu Çıldırdadır.*

Bir Ağbaba bayatısında da Cıldır xatırlanır:

*Ağbabadan Çıldıra*
*Yol gedir sıra-sıra.*
*Qorxuram qəriflikdə*
*Ağlım mənim çıldıra.*

**ÇINQIL** – Erməni mənbələrində Ələyəz dağının dörd zirvəsindən birinin adı kimi göstərilir. İnformatorların dediyinə görə dağın zirvəsi çınqıldan ibarət olduğu üçün belə deyilmişdir.

**ÇINQILALTI** – Güllücə kəndinin şimalında biçənək və otlaq adı idi.

**ÇINQIL YAYLASI** – Qızılörən kəndindəki yaylaq yerinə deyirdilər.

**ÇOBANGÖRMƏZ** – Mağaracıq kəndinin qərb tərəfində sivri formada dağ idi. Sürü çobanın nəzarətindən tez çıxdığı üçün elə demişlər.

**ÇORLU ÇAYIR** – Göllü kəndinin şimalında biçənək və otlaq adıdır. İnformatorlar həmin sahədə otun az bitməsini və oronimin də onunla əlaqədar olmasını söyləyirdilər. Burada «çorlu» məhsul verməyən mənasında başa düşülməlidir.

**ÇÖL DAĞI** – Qursalı kəndinin yaxınlığında dağ və yaylaq yeri idi. Kəndin, həm də sovxoz təsərrüfatının mal-qarası və qoyun-quzusu burada yaylayırdı.

**ÇUBUQLU // ÇUBUXLU** – Qızılörən kəndi ərazisində dağ və yaylaq adı idi.

**ÇUMBUZDUĞ** – Amasiya kəndinin qərbində bataqlıqdan yaranan cumbuzlu sahəyə deyərdilər.

**ÇUMBUZDUX // ÇİMBİZDİK** – Güllücə kəndinin şimalında çayırlığın adı idi. Şivə söz olaraq cumbuz torflu çayırlıq sahələrində yaranan torpaq quruluşudur.

**DAHARLI YAYLASI** – Qarabulaq kəndindən 2 km qərb tərəfdə olan yaylaq yerinin adı idi. Düzkənd rayonunun Daharlı kəndinə aid olduğu üçün elə adlanmışdır.

**DAL ÇAYIR** – Quzukəndin arxa hissəsində şimal tərəfdə olan çayırlığa deyilərdi.

**DAM QAYA** – Güllücə kəndinin şimalındakı qayalığın adı idi. Qayalıqda ev şəkilli mağara olduğu üçün "Damqaya" demişlər. Ağbabada "əv damı", "toyuq damı", "it damı" söz birləşmələri aktiv işlənərdi.

El şairi Məcnun Ağbabalının bir gəraylısında Dam qaya oronimi xatırlanır:

*Dam qayanın başına qalx,*
*Sarı yalın döşünə bax.*
*Ölüm-itim olsun uzaq,*
*Ömrümüzün xoş çağıdı.*

**DAMQAYA** – Quzukənd kəndində qayalıq adı idi. Qayalıqda daldalanmaq üçün damşəkilli mağara vardı.

**DARBOĞAZ** – Qara Namaz kəndinin cənub-qərbində olan dağın və dərənin adı idi.

**DAR DƏRƏ** – Quqar rayonunun Holavar və Aşağıkilsə kəndlərinin arasında olan dərəyə deyirdilər.

**DAŞ DAĞ** – Qursalı kəndinin cənubunda olan dağda iri daşlar olduğu üçün dağ elə adlandırılmışdır.

**DAŞDANIN DƏYİRMANI** – Quzukəndin şimal tərəfində, Çivinli suyunda sahibkar Daşdan tərəfində qurulan dəyirmanın adı idi.

**DAŞDƏLƏN** – Qaraçanta kəndində Quzu dərə ilə Kazım dərəsinin arasındakı əkin yerinə deyilirdi.

**DAŞDƏMİRİN ÇAYIRI** – Düzkəndin şimal tərəfində, Arpaçayın qırağında, keçmişdə Daşdəmirə aid olan çayırlığa deyərdilər.

**DAŞ DƏRƏ** – Qaraçanta kəndində dərə və həmin dərədə olan məhəllənin adı idi.

**DAŞ KÖRPÜ** – Qönçəli kəndinin cənub tərəfində – kəndin qırağındakı kiçik çayın üstündə, sal daşlardan düzəldilmiş qədim körpünün adı idi.

**DAŞQIRILAN** – Qaraçanta kəndinin cənub-şərqində, Arpa çayı dərəsinin sağ tərəfindəki karxanaya deyirdilər.

**DAŞLI ÇUXUR//DAŞDI ÇUXUR** – Xancığaz kəndində

olan kiçik dərə və biçənəyin adı idi. Burada kiçik daşlar çox olduğu üçün elə deyilmişdir.

**DAŞLI GÜNEY** – Daşkörpü kəndinin şimal tərəfindəki üzü güneyə baxan dağın adı idi.

**DAŞLI QOMA** – İlanlı kəndinin şərq tərəfindəki xam ot bitən biçənəyin adı idi.

**DAŞLI TƏPƏ** – Güllücə kəndinin şimalındakı təpəliyin adı idi. Çaldaş yaylağındakı təpəyə deyirdilər.

**DAŞLI TƏPƏ//DAŞDI TƏPƏ** – Güllücə kəndin cənub-qərbində daşlıq olan təpəliyə deyirdilər.

**DAŞLI DAĞ** – Təpəköy kəndinin qərbində Sultanabad kəndindən Qum dağınadək uzanan daşlı dağa deyərdilər.

**DAŞLI YER** – Xancığaz kəndində biçənək və dağa deyərdilər.

**DAŞLI YOXUŞ** – Saral kəndinin ərazisində dağa tərəf qalxan yoxuşa deyirdilər.

**DAŞOYLARIN KOMU** – Qursalı kəndinin şərq tərəfində yaylaq yeri idi.

**DAŞTƏPƏ** – Güllücə kəndinin şimalında iri qayalardan ibarət olan təpəliyə deyilərdi.

**DAVALI** – Çaxmaq kəndi ərazisində əkin sahəsinin adıdır. 15 ha olan bu sahədə vaxtı ilə torpaq sahibləri arasında dava düşdüyünə görə elə demişlər.

**DAVUDQIRAN** – Ellərkəndin şimal-qərbində cüt təpələr deyilən dağın ətəyindəki əkin yerinə deyərdilər. Keçmişdə kənd sakini Davud öküz kotanı ilə bu xam sahəni qırmışdır, yəni əkib əkin yerinə çevirmişdir.

**DƏLİDAĞ** – Ağbabanın şimalında, Cavax dağ silsiləsinin ən uca dağı sayılır. Ermənistanla Gürcüstanın sərhəddində olan bu dağ qədimdən Borçalı ellərinin yaylaq yerləri olmuşdur. Hündürlüyü 3196 m olan bu dağ bəzi mənbələrdə ***Ağçala*** kimi qeyd edilir. Ermənilər Dəlidağ oronimini də dəyişdirib “Açkasar”la əvəz etmişlər. Ağbaba kəndlərindən toplanan folklor örnəklərindən birində bu oronim xatırlanır:

*Dəlidağdan su işdim,*
*Soyuxladım büzüşdüm.*
*Yaxşı ki, yarı gördüm,*
*Yoxsa donub ölmüşdüm.*

**DƏLİDAĞ** – Saral və Qursalı kəndlərinin qərb tərəfində olan uca dağın adı idi. Yaz-yay aylarında kəskin və dəyişən havası olduğu üçün belə demişlər.

**DƏLİK DAŞ** – Xancıqaz kəndində qayalıq adı idi. Qayalardan birində iri deşik olduğu üçün Dəlik daş demişlər.

**DƏLİK QAYA** – Qursalı kəndinin şərq tərəfindəki qayalığın adı idi.

**DƏLLƏKLƏR MƏHƏLLƏSİ** – Qara Namaz kəndində, kəndin orta hissəsində dəlləklər tayfası yaşayan məhəlləyə deyərdilər. Bu tayfanın çox hissəsi 1920-ci illərdə Kiçik Təpəköyə köçmüşlər. Orada da Dəlləklər məhəlləsi vardı.

**DƏLLƏK YERİ** – Oxçuoğlu kəndində böyük əkin sahəsinin adı idi. Həmin sahə keçmişdə kənddə yaşayan dəlləklər tayfasına aid olduğu üçün elə deyilmişdir.

**DƏMİR KÖRPÜ** – Gümrü şəhərinin qırağında, Arpaçayın üstündəki körpüyə verilən ad idi. Son dövrlər beton konstruksiyalı körpü tiksələr də ancaq 1880-ci illərdə tikilən həmin körpü qalırdı. Həmin körpüyə Qara körpü də deyirdilər. Körpünün üstündə pasport rejimini yoxlayan hərbi nəzarət-buraxılış məntəqəsi vardı.

**DƏRƏ ÇAYIR** – Ellərkəndin qərb tərəfindəki dərədə olan çayırlığa deyirdilər.

**DƏRƏ MƏHLƏSİ//DƏRƏ MƏHƏLLƏSİ** – Ellərkəndin şərq tərəfindəki çökəklikdə olan məhəlləyə deyilərdi. Məsələn, M.Armen adlı erməni yazarı "Eqnar bulağı" povestində bu Gümrüdəki Dərəboğazı məhəllə adını 30 dəfə işlətmişdir.

**DƏRƏ YERLƏR** – Amasiya kəndindən şimal-qərbdə, dərədə olan parça yerlərin adı idi.

**DƏRƏ BAĞ** – Arpaçayı dərəsində, Qarakaha adlanan qayalığın çökəkliyində Qaraçanta kəndinə aid alma bağının adı idi.

1980-ci illərdə dərənin qabağını kəsib su dəryaçası elədiklərinə görə həm bağ, həm də su dəyirmanı dəryaçasının altında qalmışdır.

**DƏRƏ BOĞAZI** – Gümrü şəhərində, Türk məhləsi deyilən yerdən Arpaçayadək uzanan dərənin dar yerinə deyilərdi. Ermənilər "Daraboğaz" formasında işlədərdilər. Məsələn, M.Armen adlı erməni yazarı "Eqnar bulağı" povestində Gümrüdəki Dərəboğazı məhəllə adını 30 dəfə işlətmişdir. Bu məhəllə şəhərin tarixi mərkəzi olmuşdur.

**DƏRƏ ÇAYIR** – Ellərkəndin qərb tərəfindəki dərədə olan çayırlığa deyirdilər.

**DƏRƏ OCAĞI** – Amasiya kəndinin şimal-şərqindəki dərədə olan inamlı ocağın adı idi. Rayonun kəndlərindən ora nəzir-niyaz gətirib qurban kəsərdilər.

**DƏRƏ YERİ** – Düzkənd ərazisində, Qızıldağla Göydağın arasındakı əkin sahəsinə deyirdilər.

**DƏRƏ YOLU** – Amasiya rayon mərkəzinə Bozqala dərəsindən keçən 9 km yol.

**DƏRƏ YURD** – Xancığaz kəndində otlaq cə qədim yaylaq yerlərinin adı idi.

**DƏRİN ARXAC** – Göllü kəndinin şimal-qərbindəki dağda olan hündür qayalarla çəpərlənmiş qədim arxacın adı idi.

**DƏRİN DƏRƏ** – Quzukəndin şimal-qərbindən başlayıb, ətrafı dağlarla əhatə olunan Ermənistan, Gürcüstan və Türkiyə sərhədlərinin kəsişdiyi yerədək uzanan 7km) dərənin adıdır. Müxtəlif rayonların yaylaq yerləri bu dərəboyu yerləşirdi.

Çivinli kəndindən olan, uzun müddət hüquq-mühafizə orqanlarında işləmiş Nurəddin Nəcəfov bir şeirində o dərəni belə xatırlayır:

*Əfv edərmi bizi görən?*
*Tayaqayam, Dərin dərəm.*
*Quş tək oldu pərən-pərən,*
*Mahal, oba, el, ay dağlar.*

**DƏRVİŞ DAĞI** – Qönçəli kəndinin şərq tərəfindəki dağın adı idi.

**DƏRVİŞİN YATAĞI** – Dərviş dağındakı yatağın adı idi. Deyilənə görə, keçmişdə Dərviş adlı bir nəfərin qoyun yatağı olub.

**DƏRVİŞOĞLUNUN TAPI** – Mağaracıq kəndinin cənubunda düzənlikdə yerləşən əkin yerlərinin adı idi.

**DƏVƏ DAŞI** – İlanlı kəndinin şərqindəki bozqırda dəvəyə oxşar qayalara Dəvədaşı deyirdilər.

**DƏVƏ DAŞI** – Holavar kəndinə aid yaylaq yerinin adı idi. Fitonim mənşəlidir.

**DƏVƏ DƏRƏSİ** – İbiş kəndinin cənubunda olan dərənin adı idi. Oronim zoonimlə əlaqədar yaranmışdır.

**DƏVƏÖLƏN** – Amasiya kəndində - Dəvə yerlər adlanan ərazidə biçənək və otlaq adı idi.

**DƏVƏÖLƏN** – Oxçuoğlu kəndinin cənub-şərqində əkin-biçin sahəsinə deyilirdi.

**DƏVƏ YATAĞI** – Mağaracıq kəndinin cənub-qərbindəki qoyun yatağının adı idi. Keçmişlərdə dəvəçiliklə bağlı olaraq yaranmışdır.

**DƏVƏ YATAĞI** – Qızılörən kəndinin yaylaq yeri idi. Bu yaylaqdakı qoyun yatağına Dəvə yatağı deyirdilər.

**DƏYİRMAN DƏRƏSİ** – Hallavar kəndi ərazisində qədim su dəyirmanı olan dərənin adı idi.

**DƏYİRMAN DƏRƏSİ** – Öksüz kəndinin cənub tərəfində, keçmişdə su dəyirmanı olan dərəyə deyilmişdir. Son vaxtlar orada dəyirman olmasa da, yenə də elə adlanırdı.

**DƏYİRMANÜSTÜ** – Oxçuoğlu kəndinin köhnə dəyirmanının üst tərəfindəki əkin-biçin yerlərinə deyirdilər.

**DƏYİRMAN YERİ** – Göllü kəndinin şərq tərəfində - Qara Namaz kəndinə gedən yolun sol tərəfində dəyirman xarabalığına deyilirdi. Dəyirmanın daş holuqları hələ də qalırdı.

**DƏYİRMAN YOLU** – Xancığaz kəndindən kənd dəyirmanına gedən yolun adı idi.

**DƏYİRMAN YOLU** – Qaraçanta kəndindən Arpa çayındakı dəyirmana enən araba yoluna deyərdilər.

**DƏYİRMANIN QABAĞI** – Təpəkənd kəndinin şimal tərəfində olan qədim su dəyirmanının qabağındakı çayırlığın adı idi.

**DƏYİRMANIN SÖYÜDLÜYÜ** – Təpəköy kəndinin qərbində, süd zavodu yanında, işləməyən su dəyirmanı yanındakı söyüdlüyə deyirdilər. 1970-ci illədək bu dəyirman işlək olmuşdur.

**DƏYİRMİ ÇAYIR** – Güllücə kəndinin şimal-qərbindədir. Dairəvi şəkildə birləşən bulaq sularının ortasında olduğu üçün elə demişlər.

**DIĞIRLI MƏHƏLLƏSİ** – Güllübulaq kəndində çox qədim ənənəsi olan dığırlı tayfasına aid olan bir məhəllənin adı idi.

**DİBƏKLİ//DİVƏKLİ** – Holavar kəndinə aid yaylaq yerinə deyirdilər. Orada dibək formalı daş olduğu üçün elə demişlər.

**DİK QAYA** – Bozqala kəndi yaxınlığında, Arpa çayı dərəsindəki sıldırım qayalığa deyirdilər.

**DİKDİR** – Ellərkəndin qərb hissəsindəki yüksəkliyin adı idi.

**DİKİNƏ** – İlanlı kəndindən Amasiyaya tərəf gedən yolda əkin sahəsi.

**DİKİNƏ** – Oxçuoğlu kəndinin şərqində əkin yerinin adı idi. Dikdə olduğu üçün Dikinə demişlər.

**DİKİNƏ** – Qara Namaz kəndinin şimal tərəfindəki xam otlağın adı idi.

**DİKNƏLƏR SƏRNƏSİ** – Qursalı ərazisində ərazi adıdır. Bundan başqa, Gödəklər sərnəsi, Kəmər sərnəsi mikrooronimləri də vardır.

**DİKNƏNİN DÖŞÜ** – Düzkənddə, Amasiya yolundakı sərt yoxuşun yanında, sahəsi 75 ha olan əkin sahəsinə deyilərdi.

**DOLAMA** – Ellərkəndin şimal-qərbində, Böyük Güney dağının döşündən onun arxa tərəfinə gedib gəlmək üçün çəkilmiş yola deyirdilər.

**DOLAYI** – Mağaracıq kəndinin qərb tərəfindəki yüksəkliklərə tərəf uzanan əyri-üyrü yolun adı idi. Yol bir neçə dəfə dağın döşünə tərəf dolandığı üçün belə demişlər.

**DOLAYI YOL//DOLAYOL** – Xancığaz kəndində yol və həmin yolun ətrafındakı biçənək və otlaq sahələrinin adı idi.

**DOLAYLAR** – Saral kəndində, sahəsi 40 hektardan çox olan əkin sahəsinin adı idi.

**DOLUXANLI** – Hallavar kəndində, Miskin Abdalla bağlı olan etnonimmənşəli yaylaq yerinin adı idi. Doluxanov adlı soyad da vardır.

**DOLUXANIN GÜNEYİ** – Qursalı kəndinin ərazisində, Doluxan adlanan dağ silsiləsinin güney tərəfinə deyilirdi.

**DOSTABAXAN** – Güllübulaq kəndi ərazisində ən məhsuldar buğda zəmisinin adı idi. Məhsuldarlığına görə «Dostabaxan» demişlər.

**DOYŞANCIQ** – Qursalı kəndində dərə adı idi. Zootoponim kimi formalaşmışdır. Bu fitooronimlə bərabər, bir neçə toponim Xanım Dəmirçiyevanın bir şeirində xatırlanmaqdadır:

*Dovşancıq dərəsi, Təhməzin başı,*
*Gödəklər, Göl yeri, Ağsunun qaşı.*
*Sarı yarğanların çınqıllı daşı,*
*Məni yada salanım var, salanım.*

**DUMAN DƏRƏSİ** – Mağaracıq kəndində dərə adı idi. Qış və payız aylarında səhər tezdən həmin dərəni duman-çən basar, günortaya yaxın isə çəkilərdi.

**DURAN** – Qönçəli kəndinin qərbindəki düzdə məhsuldar və daha çox taxıl yetişdirən böyük sahənin adı idi. Burada əkilən taxıl və ya əkilmə yem məhsullarının boyu uca oldüğü üçün "Duran" demişlər.

**DUZ DAŞI** – İlanlı kəndi ərazisində - Molladağda olan ən böyük sal daşın adı idi. Onun üstünə duz töküb kəndin naxırına yedirərdilər. Ona görə də həmin daşın yanındakı otlağa da Duzdaşı deyərdilər.

**DUZLAQ//DUZDAX** – Qaraçanta (Əzizbəyov) kəndinin qərb tərəfində, sal daşlardan ibarət daşlığın adı idi. Orada mal-qaraya duz verildiyi üçün "Duzlaq" demişlər.

**DÜZ** – Təpəköy kəndində, Göllü kəndinə gedən yolun sağ tərəfində,sahəsi 150 hektar olan düzənlikdə yerləşən taxıl zəmisinin adı idi. Demək lazımdır ki, Ağbaba ərazisində dağlıq ərazi olsa da, ancaq əkinə yararlı böyük sahələr çox idi.

**DÜZ ÇAYIR** – Elləroyuğu ilə Güllücə kəndinin sərhədində yerləşən düzən çayırlığa deyirdilər.

**DÜZ ÇAYIR** – Qara Namaz kəndinin cənub tərəfində, Arpa çaya qədər uzanan səthi düz çayırlığa deyərdilər.

**DÜZÜM QAYA** – Güllübulaq kəndinin şərq tərəfindəki təpəliklərdə, sıra ilə olan qayalığa deyilərdi.

**ELLƏROYUĞUN QALAÇASI** – Ellərkəndin söykəndiyi dağın zirvəsində, yerli göy daşdan tikilmiş qədim qalanın adı idi. Divarları hələ də qalırdı.

**ELLƏZ DƏRƏSİ** – Qursalı kəndinin cənub qərbində keçmişdə Elləz kişiyə aid olan biçənəyin adı idi.

**EYİVOĞLUNUN DƏRƏSİ** – Çivinli kəndindən Axırkələk tərəfə gedən yolun keçdiyi dərə. Buradakı biçənəklər keçmişdə Eyyub oğullarına aid idi.

**EYVALLAH** – Gümrü-Amasiya yolunda, Qaraçanta kəndinə ayrılan yol. Yol maşınları ilə gəlib gedənlər burada düşüb sürücülərə "Eyvallah" dedikləri üçün bu dayanacağa "Eyvallah" demişlər.

**ƏBDÜLƏZİMLƏRİN MƏHƏLLƏSİ** – Qara Namaz kəndinin şərq tərəfində əbdüləzimlər tayfası yaşadığı məhəlləyə deyərdilər.

**ƏFƏNDİLƏRİN DÜZÜ** – Qursalı kəndinin şimal-şərq tərəfində Əfəndi kəndinə tərəf uzanan düzə deyərdilər.

**ƏFƏNDİNİN QAYABAŞISI** – Elləroyuğu kəndinin şimal-qərbindəki qayalığa deyərdilər. Keçmişdə əfəndilər adlı tayfanın ərazisində olduğu üçün Əfəndinin qayabaşısı demişlər.

**ƏHƏNGYANAN** – Qursalı kəndinin şimalında Əhəng

daşının yandırıldığı yerə deyilirdi.

**ƏHMƏDAĞA YURDU** – Boz Abdal dağ silsiləsində, hündürlüyü 2622 metr olan dağın adıdır. “Qafqazın 5 verstlik xəritəsinin əlifba göstəricisi”ndə də qeyd edilmişdir.

**ƏHMƏDALININ ÇÖKƏYİ** – Saral kəndində biçənək adı idi.

**ƏHMƏDİN ƏYRİSİ//ƏMƏTDİNİN ƏYRİSİ** – Təpəköy kəndinin şərqində, Arpaçayın döndüyü yerdə olan çayırlığın adı idi.

**ƏHMƏDİN QABAĞI//ƏMƏTDİNİN QABAĞI** – Kiçik Təpəköy kəndinin şərq qurtaracağında olan çayırlığın adı idi. Keçmişdə Əhməd adlı şəxsin evinin qabağında olduğų üçün elə demişlər.

**ƏHMƏDÖLƏN** – Göllü kəndinin cənub-qərbində, Arpaçayın köhnə yatağında olan çayırlığın adı idi. Keçmişdə Əhməd adlı bir şəxsi düşmənləri Arpa çayın bu dərin yerində boğub öldürmüşlər.

**ƏKBƏRİN ÇAYIRI** – Çaxmaq kəndində çayırlıq adı idi. Keçmişdə kənd sakini Əkbərin biçənəyi olduğu üçün elə demişlər.

**ƏLƏKBƏRSOYULAN** – İlanlı kəndinin şərqində kiçik dərə adı idi. Keçmişlərdə bu dərədə Ələkbər adlı bir nəfəri quldurlar soyduqları üçün elə adlanmışdır.

**ƏLƏMOCAĞI** – Qara Namaz kəndinin yuxarı məhəlləsində ocaq adı idi. Ocağı-ziyarəti təşkil edən qayalar üzərində günəş şəklinə bənzər işarələr vardı.

**ƏLƏSGƏRİN ÇÖKƏYİ** – Balıqlı kəndinin şərqində biçənək adı idi. Ələskər kişiyə aid olduğu üçün elə demişlər.

**ƏLƏSGƏRİN GÖZƏSİ** – Qara Namaz kəndinin cənubundakı çayırlıqda olan gözənin adı idi. Keçmisdə həmin ərazi Ələsgər adlı bir varlıya aid olduğu üçün onun adı ilə adlandırılmışdır.

**ƏLƏSGƏRİN YERLƏRİ** – Qara Namaz kəndinin cənubunda, keçmişdə Ələsgər kişiyə aid olan əkin sahələri.

**ƏLƏYƏZ//ALAGÖZ//ALAKAS//ALADAĞ** – Şörəyel vadisinin ətəklərində, hündürlüyü 4090 metr, sahəsi 8800 kvadrat kilometr olan dağın və silsilənin adıdır. M. Xorenasidə Arakas kimi qeyd edilir. Oronim qədim türkmənşəli kas//kaspi tayfa adını əks etdirir. Ələyəz Azərbaycan türklərinin yerli dialekt tələffüzündən irəli gələn dağ adıdır. Makrooronimdir.

Ələyəzin Gözəldərə kəndindən 1918-ci ildə qaçqın kimi Ağbabaya gələn gözəldərəlilərin dilindən qeydə aldığım bir neçə bayatıda dağın adı xatırlanır:

*Ələyəzin ucunnan,*
*Bir yar səvdim Ucannan.*
*Qohum-qardaş yad olar*
*El qızının ucunnan.*

(Uçan "şəlalə" mənasında kənd adıdır).

**ƏLİDAŞQILINCLAYAN** – Hallavar kəndi ərazisində pirin - ziyarət yerinin adı olmuşdur. Bu ocağa bəzən ermənilər də nəzir-niyaz gətirərdilər.

**ƏLİQULUYIXILAN** – Vərdənə kəndi ərazisində biçənək adı idi. Oronim feili sifət modelindədir.

**ƏLİYARIN ARXACI** – Amasiya kəndinin şimalındakı dağda olan arxacın adı olmuşdur. Keçmişdə kəndin varlısı Əliyara aid olduğu üçün elə demişlər.

**ƏLƏYƏZ SİLSİLƏSİ** – Ələyəz dağından başlayıb şimala doğru uzanır, sonra şərqə dönür və bu mahalı Şörəyel əyalətindən ayıran Pəmbək dağ silsiləsinə birləşir. Daha sonra yenə də şərqə dönərək Qarnıyarıq dağına çatır.

**ƏLLƏŞƏNİN KOMU/ƏLLƏŞİN KOMU** – Arçut kəndindən xeyli aralı olan qədim yurd yerinin adı idi. İnformatorlar həmin hər iki oronimi ləqəbmənşəli tayfa adı ilə əlaqələndirdilər. Feili sifət modelindədir.

**ƏLLƏŞƏN TƏPƏ//ƏLLƏŞİNTƏPƏSİ** – Arçut kəndinin qərbində yaylaq yerinin adı idi.

**ƏLLƏZDİNİN DƏRƏSİ//ƏLLƏZLİNİN DƏRƏSİ** – Çivinli kəndinin qərbində dərə adı idi.

**ƏLLƏZOĞLU YURDU** – Çivinli kəndinin qərbində olan qədim yaylaq adıdır. Oronim keçmişdə Ağbabada yaşamış və 1920-ci illərdə Türkiyəyə mühacirət etmiş Əlləzli və ya Əlləzoğlu tayfası ilə əlaqədar yaranmışdır. Həmin tayfa əsasən Elləroyuğu kəndində yaşamışdır. Tayfanın digər tirələri Quzukənddə yaşamışlar.

**ƏLLƏZOĞLUNUN ARXACI** – Ellərkəndin şimalında, Kalloy dağa gedən yolun sol tərəfindəki mal-qoyun arxacına deyərdilər.

**ƏMİRƏKƏN** – Düzkənd ərazisində, Diknənin arxasındakı əkin yerinə deyərdilər. Antroponimmənşəli feili sifətdən törənən oronimdir.

**ƏMİRXÁN** – Maymaq dağının ətəyində, Güney dağda Holavar kəndinə aid olan yaylağın adı idi.

**ƏMRAHIN ARXACI** – Daşkörpü kəndinin şimalındakı dağda olan arxacın adı idi. Arxac keçmişdə Əmrah adlı varlıya aid olduğu üçün elə deyilmişdir.

**ƏMRAHIN ARXACI** – Öksüz kəndinin cənubunda, Əmrah dərəsində olan arxacın adı idi.

**ƏMRAHIN ÇAYIRI** – Güllücə kəndinin şimali-qərb hissəsində, keçmişdə kəndin varlı sakinlərindən olan Əmraha aid biçənəkdə olduğu üçün elə adlandırılmışdır.

**ƏMRAHIN DƏRƏSİ** – Öksüz kəndinin şimal-şərqində olan dərənin adı idi. İnformatorlar keçmişdə kənddə Əmrah adlı bir şəxsin yaşadığını bildirdilər.

**ƏSƏDİN DƏYİRMANI** – Qursalı kəndindəki qədim dəyirmanın adı idi. Keçmişdə Əsəd adlı sahibkara aid olduğu üçün elə deyilmişdir.

**ƏSƏDLƏRİN GÖZƏSİ** – Qara Namaz kəndinin ərazisində, çayırlıqda olan gözəyə deyərdilər.

**ƏSƏD QALASI** – Erməni mənbələrində Şörəyel bölgəsində – Aşağı Qanlıca kəndinin yaxınlığında Əsəd qalası göstərilir. Antroponim mənşəlidir [2, 317].

**ƏSGƏR DƏRƏSİ** – Ellərkəndin cənubunda, 1-ci

zastavaya gedən yol bu dərədən keçdiyi üçün, həm də sərhədçilərin gedib-gəldiyi üçün elə demişlər.

**ƏŞNƏK** – Talin rayonunda, Ələyəz yaylasında olan dağın adıdır. Erməni mənbələrində VI əsrdə adı çəkilən həmin toponim qədim türklərin aşina tayfasi ilə əlaqədardır. Oronimin sonundakı K cəmlik bildirir. Əşnək//Aşnak «Aşinalar» deməkdir. Həmin dağın ətəyində Əşnək kəndi də vardır. 1920-ci illərdə orada yaşayan azərbaycanlılar qaçqın kimi Ağbaba kəndlərinə gəlmişlər [4, 34].

**ƏVƏLİKLƏR** – Qızılqoç rayonunda, Dərəköy kəndində biçənək və otlaq adı idi. Həmin kənddə 1878-ci ildən ermənilərin yaşamasına baxmayaraq həmin əraziyə onlar «Avalikner» - deyərdilər.

**ƏYRİ** – Təpəköy kəndində, Arpaçayın köhnə yatağının kəskin döndüyü ərazidəki çayırlığın adı idi. Bura həm də cavannarın çimmək yeri idi.

**ƏYRİTƏPƏ** – Boz Abdal silsiləsindəki dağlardan birinin adıdır. Son dövrlərdə Ermənistanda çap olunan xəritə və lüğətlərdə təhrif edilərək "Ayrisar" formasında qeyd edilmişdir.

**ƏYRİ YAR** – Ələyəz dağının şərqindəki dərələrdən birinin adıdır.

**ƏYRİ YER** – Xancığaz kəndinin şərq tərəfində olan böyük bir biçənəyin adı idi.

**ƏZİZ YURD** – Hallavar kəndi ərazisində təpəlik və yurd yeri adı idi. Əziz keçmişdə varlı adamlardan biri olmuşdur.

**FEZİNİN ÇAYIRI** – Qönçəli kəndinin şimal tərəfindəki çayırın adı idi. Deyilənə görə, keçmişdə bu ərazi Feyzulla adlı bir şəxsin biçənəyi imiş.

**FƏRHADIN ARXACI//FƏHRADIN ARXACI** – Daşkörpü kəndinin şimal-şərqindəki arxacın adı idi.

**FISDIQLI//FISTIXLI** – Hallavar kəndi ərazisində təpəlik adı idi. Fitonim mənşəli oronimdir.

**GƏDƏ MAYMAQ** – Pəmbək bölgəsində, Qarakilsə şəhərindən 6 km şimal-şərqdə olan dağın adıdır. Yerli Ayrım

ləhcəsində Gədə Baymaq da deyərdilər. Burada gədə «kiçik» mənasındadır. Bundan başqa, hündürlüyü 3082 metr olan daha bir Maymaq dağı o ərazidə vardır.

**GƏLİN DAMI** – Vardana kəndinin şimal-şərqində qayalıq və onun ətrafında olan yaylaqlara deyilirdi.

**GƏLİN QAYA** – Bir rəvayətlə bağlı olan bağlı olan Gəlin qaya Güllücə ərazisində idi. Şair Məcnun Ağbabalının şeirində həmin qayalıq xatırlanır:

*Səfdə durur Gəlin qaya,*
*Keşik çəkir Lilparlıya.*
*Xəbər verin Mehralıya,*
*Məcun gəlir, qonağıdı.*

**GƏLİN QAYASI** – Şörəyel vadisi ilə Pəmbək bölgəsini ayıran dağın adıdır. Hündürlüyü 2489 metr, zəngin alp çəmənliyi ilə örtülü olan bu dağ Düzkənd (Axuryan) rayonunun Çıraqlı kəndindən 4 km şimal-şərqdədir. Son dövrlərdə Ermənistanda çap olunmuş xətitə və atlaslarda tərcümə edilərək harsasar («hars» cəlin - «sar» zirvə) və ya harskar («hars» gəlin - «kar» daş, qaya) kimi də yazılır [2, 131].

**GƏLİNBATAN** – Keçmişdə Təpəkəndin şimal-şərqində Arpaçayın dərin bir yerində həsir toxumaq üçün cil otu yığan bir gəlin batıb boğulduğu üçün oradakı çayırlığa "Gəlinbatan" demişlər.

**GƏLİNTƏPƏ//GƏLİNTAXT** – Talin rayonu ərazisində, hündürlüyü 1748 m olan dağın adıdır. Oronimin tərkibindəki taxt, taxta toponimiyada işlənməsi məlum olsa da, ancaq «gəli» gəlin sözünün təhrifidir. Ermənicə çap olunan xəritələrdə təhrif olunaraq Qaylablur («qayl» qurd - «blur» - təpə) kimi qeyd edilir [2, s.360].

**GƏRNƏŞ DAĞI** – Yuxarı Kilsə kəndinin şərqində hövzəsi geniş bir ərazini əhatə edən dağa deyilirdi. Dağın quruluşu yastı olduğu üçün elə deyilmişdir.

**GƏVƏNLİK** – Oxçuoğlu kəndinin şərqində təpə adı idi. Təpədə gəvən bitkisi çox bitdiyi üçün elə demişlər. Ağbaba və

Şörəyel kəndlərində tikanlı gəvən bitkisi haqqında bir bayatı da vardır:

*Bu dərənin gəvəni*
*Gəvən sarmış gəvəni.*
*Allahdan arzum budu,*
*Sevən alsın sevəni.*

**GÖBƏYATAN** – Daşkörpü kəndinin şimalındakı dərənin (biçənəyin) adı idi. Otu sıx olduğuna görə kərənti ilə çətin biçilərdi. Ona görə Göbəyatan demişlər.

**GÖDƏK YAL** - Maymaq dağın ətəyində yurd yerinin adı idi.

**GÖLQOŞUN YAYLASI** – Pəmbək bölgəsində Hallavar kəndinin ərazisində yaylaq adı idi. Oronimin tərkibindəki sözlər inversiya olunub. Qoşun göl olmalıdır. Qoşun // qaşun monqol-türk paraleli olub turş, duzlu mənasındadır.

**GÖLLÜ QƏBİRSƏNNİYİ // GÖLLÜ QƏBİRSTANLIĞI** – Göllü kəndinin cənub hissəsindəki alçaq təpəlikdədir. Qaçaq Usufun da qəbri o qəbristanlıqdadır.

**GÖLLÜNÜN QALAÇASI** – Göllü kəndinin söykəndiyi Güney dağın zirvəsində olan qədim qalaça. 1950-ci illərdən sonra texnika ilə daşını daşıyıb kolxoza tövlə tikmişlər.

**GÖLÜN DÜZÜ** – Aşağı Kilsə kəndinin qərbində yaylaq adı idi.

**GÖLÜŅ TƏPƏSİ** – Hallavar kəndində yurd yerinin adı idi.

**GÖRKÜN BİNƏSİ** – Oxçuoğlu kəndində otlaq adı idi. Kəndin körkəm yerindəki təpəlik də olduğu üçün elə deyilmişdir.

**GÖYDAĞ** – Çivinli kəndinin qərbində, hündürlüyü 2950 metr olan dağın adıdır. Qışda qarla örtülü olan bu dağ digər fəsillərdə yaşıllıq olardı.

**GÖYDAĞ** – Daşkörpü kəndindən Təpəköyə gedən yolun 5-ci km-də göy daş suxurlardan ibarət olan dağın idi.

**GÖYDAĞ** – Ellərkənd kəndinin şimalında, Ermənistan,

Gürcüstan və Türkiyə sərhədlərinin kəsişdiyi yerdən xeyli şimalda olan dağın adıdır.Hündürlüyü 2871 metr olan bu dağ adını Türk mənbələrində «Kitabi -Dədə Qorqud» dastanındakı Gökçə dağla eyniləşdirirlər. Fikrimizcə, dağın adı etnik adla (gögər) bağlıdır [6, 90].

Bir Ağbaba bayatısında dağın adı cinas yaradan bir qafiyə kimi işlədilmişdir:

*Əzizinəm, Göydağdan,*
*Əysik olmaz göy dağdan.*
*Elə bir ah çəkdim ki,*
*Enif gəldi köy dağdan.*

**GÖY MƏMƏDDİLƏRİN KOMU** – Qursalı kəndinin şərq tərəfində yurd yerinə deyirdilər. Keçmişdə göyməmmədlilər burada mal-qoyun saxlayarlarmış. Etnooronim mənşəlidir.

**GÖY MƏMMƏDİN TÜRBƏSİ** – Qursalı kəndi ərazisində olan məzar-məqbərəyə deyilərdi.

**GÖZƏLDƏRƏ ÇÖLÜ** – Artik rayonunda, 1918-ci ildən ermənilər xaraba qoymuş kəndin yanındakı çölün adı imiş. Hal-hazırda hərbi atəşgahdır.

**GÖZƏLDƏRƏ DAĞI** – Ələyəzin şimal hissəsində, Artik rayonu ərazisində dağ adıdır.

**GÖZƏLDƏRƏ DƏRƏSİ** – Ələyəz dağından başlanan bu dərə (30 km) şimala tərəf uzanır. Uzunluğu 28 km olan Gözəldərə çayı da həmin dərə ilə axır [2, 218].

**GÜLLÜBULAQ DƏRƏSİ** – Oxçuoğlundan güllübulağa tərəf uzanan dərəyə deyirdilər.

**GÜLLÜBULAQ MƏSCİDİ** – Kənddə olan köhnə məscidə deyilirdi. XVIII əsrin axırlarında tikildiyi söylənilir.

**GÜLLÜCƏNİN QALAÇASI** – Güllücə kəndinin söykəndiyi dağın zirvəsində qala. Yerli daşdan tikilmiş hasarı da vardır. Çox dar bir cığırla, qayalıqların arası ilə ora gedib çıxmaq olardı.

**GÜLLÜCƏNİN QƏBİRİSTANLIĞI//GÜLLÜCƏNİN**

**QƏ-BİRSƏNNİYİ** – Kəndin şimal-qərbində - dikdə idi. Burada böyük ocaq sahibi olan övliya seyidlərin qəbirləri də vardır.

**GÜLLÜXARABA** – Oxçuoğlu kəndi ərazisində xarabalıq adı idi.

**GÜLLÜOĞLUNUN QUZEYİ** – Sınıx kəndində, keçmişdə güllüoğlu tayfasına aid biçənək və əkin sahəsi olduğu üçün elə deyilmişdir.

**GÜLLÜ YOLU** – Təpəköy kəndindən Güllücə kəndinə gedən uzunluğu 8 km olan yolun adı idi. Buna şəhər yolu da deyərdilər.

**GÜLMƏMMƏDİN BİÇƏNƏYİ** – Amasiya kəndinin şimal-şərqində qobu adı idi. Keçmişdə kəndin varlısı olan Gülməmməd kişiyə aid biçənək olmuşdur.

**GÜMRÜ DƏRƏSİ** – Gümrü şəhərində dərə adıdır. Şəhərin inkişafı ilə əlaqədar olaraq həmin dərə şəhərin içərisində qalmış və onun üstündən uzun beton konstruksiyalı körpü salınmışdır.

Şörəyel kəndlərindən Gümrü şəhərinə aid qaçqınlığı əks etdirən belə bir bayatı qələmə almışdım:

*Gümrü yanı sərt qaya,*
*Boylandım Arpaçaya,*
*Əv tikdim, yuva qurdum,*
*Əməyim getdi zaya [7].*

**GÜMRÜYOLU** – Ağbabadan Gümrü şəhərinə gedən 40 kilometrlik şose yolunun adı idi.

**GÜNEY // GÜNEYLƏR** – Balıqlı və Güllücə kəndlərinin şimal tərəfdən söykəndiyi sıra dağların adı idi. Xalq arasında bu dağlara Baş Güney və ya Güneylər də deyilirdi.

Məcnun Ağbabalının bir şeirində Güneylər kimi xatırlanır:

*Göy bulağım bərə-bərə,*
*Keçilməzdi Dərin dərə.*
*Qalxıb gedək Güneylərə*
*Qız-gəlinin yığnağıdır[7].*

**GÜNEY** – Çaxmaq kəndinin şimal-şərqindəki dağın adı idi. Güntutar olduğu üçün bu otlaq sahəsinə elə demişlər.

**GÜNEY** – Qara Namaz kəndi və Göllü kəndinin söykəndiyi dağ sırasının adıdır. Həmin dağa Qara Güney də deyirdilər.

**GÜNEYİN BƏRƏSİ** – Güllücə kəndinin söykəndiyi dağda daşdan hasarlanmış arxac-ağıl. Burada qoyunu ağıla, yəni bərəyə doldurub sağarlarmış. Belə bir bayatı da var:

*Herya, herya heriyə,*
*Qoyun doldu bəriyə.*
*Yar yaman uzax getdi,*
*Dein dönsün geriyə[7].*

**GÜNGÖRMƏZ** – Qızılörən kəndinin ərazisində dağ adı idi. Dağın çox hissəsi quzey olduğu üçün elə demişlər.

**GÜRCÜ ARXACI** – Ellərkənd kəndinin qərbində olan mal-qoyun arxacının adı idi. Qarayazı və Qaraçöpdən gələn Borçalı türklərinin mal-qoyun və qoyun-quzu sürüləri bu arxacın ətrafındakı otlaqlarda yaylayardı.

**HACI ABBASIN ÇAYIRI** – İbiş kəndindədir. Kəndin keçmiş varlısı Hacı Abbas ağaya aid olduğu üçün elə demişlər.

**HACI ABBASOĞLUNUN BİÇƏNƏYİ** – İbiş kəndində böyük bir düzün adıdır. Həmin sahə 1918-1919-cu ildə Qars hökuməti milli şurasının üzvü olmuş Kərbəlayi Məhəmməd bəyin atasına məxsus torpaq sahələri olmuşdur.

**HACI ALIOĞLUNUN ÇAYIRI** – Qara Namaz kəndinin cənub-şərqində, Arpaçayın sol tərəfində olan biçənək.

**HACI BAYRAM TƏPƏSİ** – Göllü kəndinin qərb tərəfindəki dağın adıdır. Hündürlüyü 1100 metr olan bu dağa nədənsə təpə demişlər. Həmin adla orada mal-qoyun arxacı da vardır.

**HACI ƏHMƏDOĞLUNUN QƏBRİ** - Balıqlı kəndinin söykəndiyi dağda tək qəbrin adı idi.

**HACI HƏSƏNİN ÇAYIRI** – İbiş kəndinin keçmiş varlılarından olan Hacı Həsənin biçənəyi imiş. Ona görə də belə adlanır.

**HACI İMANIN ÇAYIRI** – Oxçuoğlu kəndinin sol

tərəfində Arpaçayın axdığı dərədə olan çayırlığın adı idi.

**HACI İMANIN DƏYİRMANI** – Oxçuoğlu kəndində, Arpaçayı dərəsində olan qədim su dəyirmanının adı idi. Keçmişdə kəndin varlısı sayılan Hacı İmana məxsus imiş.

**HACI İMANIN DÜZÜ** – Oxçuoğlu kəndinin şimal-şərqindəki əkin sahələrinə deyilərdi.

**HACI İMANIN MƏSCİDİ//HACIMANIN MƏSCİDİ** – Oxçuoğlu kəndində XIX əsrin axırlarında Hacı İman tərəfindən tikilmiş came məscidinin adı idi. 1988-ci il zəlzələsində divarları çatlamış, sonra isə ermənilər tərəfindən darmadağın edilmişdir.

**HACI QARA YALI** – Pəmbək bölgəsində, Holavar kəndindən Hacı Qara kəndinə tərəf qalxan yoxuşun adı idi.

**HACI MƏMMƏD** – İbiş kəndində dağ adı idi. Antroponim mənşəlidir.

**HACI MƏMMƏDİN YATAĞI** – İbiş kəndinin qərbində, keçmişdə Gümrüdən gəlib yaylaq həyatı keçirən varlı bir adamın yatağının adı olmuşdur.

**HACI SALMANIN TAPI** – Mağaracıq kəndinin cənubundakı düzənlikdə olan əkin sahəsinin adı idi.

**HACILAR MƏHƏLLƏSİ** – Güllübulaq kəndində məhəllədir. Bu tayfanın adamlarından 4 nəfər həcc ziyarətinə getdiyi üçün məhəlləyə Hacılar demişlər.

**HAÇA** – Ələyəz dağının ən uca (3879 m) zirvələrindən birinin adıdır. Erməni mənbələrində Aça kimi yazılır. Xalq arasında belə bir bayatı da vardır [24, 6]:

*Ələyəz başı Haça,*
*Əlim dolaşdı saça.*
*İyid odur, səvdiyin*
*Xəlvət götürüf qaça [7].*

**HAÇA ÇINQIL** – Ellərkənd kəndinin şimalında, başı haça olan çınqıllı dağın adı idi.

**HAÇA DAĞ** – Düzkənd kəndinin cənub-şərqindəki dağın adıdır. Dağın başı doğrudan da haça olduğu üçün elə demişlr.

**HAÇA QAYA** – Arpa çayı dərəsində, Qaraçanta kəndi ərazisində haça formada olan sıldırım qayalığa deyirdilər.

**HAÇA QAYA** – Qara Namaz kəndinin şimalında, başı haça olan iri qayanın adı idi.

**HAÇA YURD** – Dızman kəndində dağ və yaylaq yerinin adı idi.

**HALAYIN ÇAYIRI** – Qönçəli kəndinin şimal tərəfində, Qırmızı bulağın yanındakı çayırlığın adı idi.

**HAMZANIN ÇAYIRI** – İbiş kəndində keçmişdə yaşamış Həmzə ağanın biçənəyi və otlaq yeri imiş.

**HASANBİÇƏN** – Saral kəndində çox da dərin olmayan qobunun və oradakı biçənəyin adı idi.

**HAVILLI QƏBİRSƏNNİYİ** – Qursalı kəndinin şimal tərəfindəki qədim qəbiristanlığın adı idi.

**HAYDARAQ//HAYDARAX** – Qara Namaz kəndinin şərqindəki əkin yerlərinə deyilirdi. Məhsuldar olmadığı üçün haydaraq demişlər. Ağbaba şivəsində "Haydaraq" biabır olmaq mənasını bildirir.

**HELLƏNDİ** – Hallavar kəndində yaylaq adı idi. Sərt yoxuşu olduğu üçün elə demişlər.

**HƏLƏB** – Boz Abdal dağ silsiləsindəki dağlardan birinin adı idi. Erməni mənbələrində hündürlüyü 3016 metr göstərilir.

**HƏNİFƏ YAYLAĞI** – Saral kəndindən xeyli aralı olan yaylağın adı idi.

**HƏPİFİN ARXACI//HƏBİBİN ARXACI** – Təpəköy kəndindən 2 km şimalda olan arxacın adı idi. Kənd adamları həmin arxaca Həbibin arxacı, arxacın yerləşdiyi dağa isə Arxac deyərdilər. Uzun müddət kolxozun qoyun sürüləri bu arxacda gecələmişdir.

**HƏSƏNVURULAN** – Qursalı kəndinin cənubunda yer adı idi. Deyilənə görə keçmişdə Həsən adlı kənd sakinini düşmənləri burada güllə ilə vurub öldürmüşlər.

**HƏVİLLƏRİN YURDU** – Qursalı kəndinin cənub-şərqində, keçmişdə həvillər tayfasına aid olan yurd yerinə

deyirdilər.

**HƏVİLLİNİN YURDU** – Qursalı kəndinin cənub-şərqində "Kürdün yalı" deyilən yaylağın yanındakı düzənliyə deyirdilər. Etnonim mənşəlidir.

**HODEMƏZLƏR//HODEMƏZDƏR** – Çivinli kəndinin şimal-şərqində yumuşaq torpağı olan əkin sahəsinin adı idi. İnformatorların dediyinə görə bu əkin sahəsində torpaq yumşaq olduğu üçün öküzlərə "hö" deməzlərmiş.

**HOLLAVAR DƏRƏSİ** – Pəmbək bölgəsində, cənub-şərq tərəfə uzanan böyük dərənin adı idi. Hallavar, Mollaqışlaq, Haydarlı, Yuxarı Kilsə, Aşağı Kilsə kəndləri və onlarla yaylaq, yurd yerləri həmin dərədə yerləşir.

**HÜMMƏTBİÇƏN** – Qaraçanta kəndinin şimal-qərbində biçənək adı idi. Bura Mustoölən deyərdilər.

**HÜMMƏTİN ARXACI** – Qarabulaq kəndinin şimal tərəfindəki dağda arxac adı idi. Keçmişdə Hümmət adlı varlı adamın mal-qoyun arxacı olmuşdur.

**HÜMBƏTİN ÇAYIRI** – Qarabulaq kəndinin şimalında çayırlıq.

**XALDÜŞƏN** – Hallavar kəndində təpə adı idi.

**XALXALIN DƏRƏSİ** – Qara Namaz kəndinin şimalındakı arxacın-xalxalın yanındakı dərənin adı idi.

**XAMLAR** – Böyük Təpəköydən Amasiya rayon mərkəzinə gedən yolun 3-cü kilometrində, yolun sağ və sol tərəflərində əkilməyən sahələrə deyirdilər.

Bir xalq deyimində "xam" coğrafi termin kimi xatırlanır:

*Əkdin xam, doldurdun dam,*
*Əkdin herik, oldun fərik,*
*Əkdin xozan, dalınca uzan ha uzan![13]*

**XAMLAR** – Oxçuoğlu kəndində biçənəyə deyilirdi.

**XAMOYUN OBASI** – Dızman kəndində yaylaq adı idi.

**XANCALLININ ÇAYIRI** – Kiçik Təpəköyün şimalında Xancallı kəndinə gedən yolun solundakı çayırlığa deyərdilər.

**XANCALLININ QALAÇASI//XƏNCƏRLİNİN QA-**

**LAÇASI** – Xancallı kəndinin şimal tərəfdən söykəndiyi qaladır. Ağbabada ən böyük qalaça idi. Son vaxtlara qədər qalırdı. Kənd adamları traktor lafetləri ilə ora çıxıb daşlarını söküb gətirər və fərdi evlərinin tikintisində istifadə edərdilər.

**XANIMIN YERİ** – Çaxmaq kəndində əkin sahəsinin adı idi. Kolxoz quruluşundan əvvəl Xanım adlı dul qadının əkin yeri imiş. Amma yenə də o əkin yerinə "Xanımın yeri" deyərdilər.

**XANMƏDİN TAPI** – Saral kəndinə aid əkin yeri və biçənək sahələrinə deyilirdi. Düz sahədə olan bu əkin yeri keçmişdə Xanməmməd adlı bir şəxsə aid olduğuna görə belə deyilmişdir.

**XANYERİ** – Oxçuoğlu kəndinin şərq qırağında, qədim karvansara yerinin xarabalığına deyilərdi.

**XARABA//XƏRƏVƏ** – Qursalı kəndi ərazisindəki Daşoyların komu və Nəcəfin komu deyilən yerə yaxın əraziyə deyilirdi.

**XARABALAR** – Qarabulaq kəndinin cənub-qərbində xaraba kənd yeri. Erməni mənbələrində bu xaraba kəndin adının Ağbaba olduğunu yazırlar [2, 211].

**XARABALAR** – Güllübulaq kəndinin şimalında, köhnə kənd yerinə deyilirdi.

**XATINOĞLU TƏPƏSİ** – Çivinli kəndinin cənub tərəfində, xaraba Söyüdlü kəndinin yanında təpəlikdir. Etnik mənşəli oronimdir.

**XƏLİLİN DƏYİRMANI** – Quzukəndin şimalında, Çivinli suyunun üstündə qurulmuş dəyirman olmuşdur.

**XƏLİLİN TƏPƏSİ** – Sultanabad kəndinin şərq tərəfində, Arpaçayın sağ sahilində olan qayalığa deyirdilər.

**XƏLYƏRDİNİN DƏRƏSİ** – Qursalı kəndinin şərqindəki dərənin adı idi. Etnooronim mənşəlidir.

**XIDIRIN YURDU** – Qursalı kəndinin cənubunda

**XIDIR NƏBİ OCAĞI** – Göllü kəndindən Qara Namaza gedən asfalt yolun sol qırağında olan ocağın adı idi.

**XIRMANLAR** – Kiçik Təpəköy kəndinin şimal-şərq

təərfində, qəbiristanın yanındakı çəmənliyə deyirdilər. Keçmişdə kənd adamları həmin yerdə taxıllarını gəmlə döyərdilər.

**XIRMAN YERİ** – Düzkəndin ortasındakı çəmənliyə deyilirdi. Keçmişdə ora kəndin xırmanı olmuşdur. Burada taxıl gəmlə döyülüb və sovrulurmuş.

**XOZEYİN YERİ** – Öksüzün şimalında, Qocabəy (Boqdanovka) rayonunun Qorlovka kəndində yaşamış varlı duxobor rusa aid əkin-biçin sahəsi imiş.

**İBRAHİMİN YATAĞI//İBRAHIMIN YATAĞI** – Öksüz kəndinin şimalındakı təpəlikdə olan, mal-qoyun yatan arxaca deyilirdi. Keçmişdə İbrahim adlı sahibkara aid olduğu üçün elə deyilmişdir.

**İKİQAT** – Təpəköy kəndi ilə Balıqlı kəndinin sərhədi arasında olan dağın adı idi. Dağın üst silsiləsi iki qat (yan-yana) olduğu üçün elə adlandırmışlar. Həmin «qat» adlanan qobu düzən və daşsız çəmənlikdən ibarət idi.

**İLANLI** – Qızılörən kəndinin ərazisində biçənək və otlaq sahəsinə deyirdilər. Zoonim mənşəlidir.

**İLANLI BULAQ** – Amasiya rayon mərkəzindən Bəndivan dərəsinə enən enişin sol tərəfindəki qayalıqda olan bulağa deyərdilər. Deyilənə görə, çay yaxın olduğuna görə orada çoxlu su ilanı olarmış. Buna görə də bulağa elə ad vermişlər.

**İLANLI QAYA** – Mağaracıq kendinin qərbindəki qayalığın adı idi.İnformatorlar qeyd edirlər ki, güney olduğu üçün orada çoxlu ilan olarmış.

**İLANLI YER** – Mağaracıqda İlanlı qayanın yanındakı əkin yerinə deyərdilər.

**İLDIRIMVURAN** – Mağaracıq kəndinin qərbində, Türkiyə sərhədində olan qayalığın adı idi. Həmişə ora ildırım düşdüyü üçün İldırımvuran demişlər.

**İLLİ DƏRƏSİ** – İlli kəndinin yerləşdiyi dərəyə deyərdilər. 1920-ci ildən kənddə ermənilər yaşayırlar.

**İLLİ YOLU** – Amasiya rayon mərkəzindən İlli (Elli) kəndinə gedən yolun (9 km) adı idi. Əslində elli səsdəyişməsi ilə

illi olmuşdur. Ellər, Ellərkənd toponimlərində də el tayfa adı vardır.

**İMAMYERİ** – Qara Namaz kəndinin şərqində olan əkin yerinin adı idi. Deyilənə görə, həmin əkindən çıxan məhsulu satıb bütün kənd üçün imamçörəyi (ehsan) verərlərmiş.

**İNCƏ DƏRƏ** – Oxçuoğlu kəndi ilə Bacıoğlu kəndinin arasındakı dərənin adı idi. Dərəninin eni az olduğu üçün İncədərə demişlər.

**İNƏK ÇAYIRI** – Çivinli kəndində, yumşaq və otlu sahə olduğuna görə kənd maldarlarının inəklərinin otladığı çayırlığın adı idi.

**İNƏK DAĞI** – Düzkənd kəndinin cənubunda olan dağ adıdır. İnformatorlar qeyd edirdilər ki, dağın otlaq sahəsi daşsız və yumşaq olduğu üçün kəndin inək naxırı həmişə orada otlayarmış. Buna görə də dağa İnəkdağı demişlər.

**İNƏK TƏPƏSİ** – Civinli kəndinin şimalında, İnəkçayırı adlanan otlağın yanındakı təpənin adı idi. Bu toponim maldarçılıqla bağlı yaranan zootoponimdir.

Şair Avtandil Ağbabanın bir şeirində bu oronim xatırlanır:

*Gəl gedək enək dağı,*
*Dolanıb dönək dağı.*
*Yolumuzu gözləyir,*
*Bozyoxuş, İnək dağı.*

**İSGƏNDƏR AĞANIN ÇAYIRI** – Kiçik Təpəköyün qərb tərəfində olan çayırın adı idi. Keçmişdə bu çayırlıq 1920-ci illərdə Türkiyəyə mühacirət etmiş İsgəndər ağaya məxsus olduğu üçün elə deyilmişdir.

**İSƏ(Ə) KƏN // İSƏKƏN** – Balıqlı kəndinin cənubunda düz adı idi. Deyilənə görə, həmin düzdəki xam yeri keçmişdə ilk dəfə İsa adlı qoçaq, cavan bir oğlan öküz kotanı ilə əkdiyi üçün İsə(ə)kən demişlər.

**İSGƏNDƏRVURULAN** – Elləroyuğu kəndinin şimalında arxacın adı idi. Keçmişdə burada İsgəndər adlı bir cavan oğlanı düşmənləri tərəfindən öldürüldüyü üçün

İsgəndərvurulan demişlər. Deyilənə görə, Aşıq Şenlik onun dəfnini görüb və şer söyləmişdir.

**İSGƏNDƏRYATAĞI** – Mağaracıq kəndinin qərbindəki mal-qoyun yatağının adı idi.

**İSMAYILIN GORSU** – İlanlı kəndinin qərb tərəfindəki əkin yerinin adi idi. Oronimin tərkibindəki «kors» şırım-əkin şırımı mənasını bildirir.

**İSMAYILYURDU // İSMEYİLYURDU** – Arçut kəndindən xeyli aralı olan yurd yerinə adı deyərdilər.

**İSRAFİLİN YERİ // SİRƏFİLİN YERİ** – Kiçik Təpəköy qəbiristanlığının arxa tərəfinə - söykənən bu əkin yeri keçmişdə İsrafil adlı sahibkarın olduğuna görə elə demişlər.

**İTÖLƏN** – Dızman kəndində kiçik bir dərənin adı idi. Deyilənə görə, keçmişdə canavar sürüsü burada kəndin bir neçə itini boğub öldürdükləri üçün elə demişlər.

**KALDAĞ** – Çivinli kəndinin qərbində, qarı gec əridiyi üçün ot bitməyən dağa deyərdilər. Dağın başqa adı isə Keçəldağdır.

**KALDAĞ** – Öksüz kəndindən Ellərkəndə tərəf uzanan dağın adı idi. El arasında həmin dağa Kallo da deyərdilər. 2865 metr hündürlüyündədir. Dağın başında qar gec əridiyi üçün bitki örtüyü bitmir. Ona görə də Kaldağ demişlər.

**KALVAYI QƏHRƏMANIN YERLƏRİ** – Qaraçanta kəndinin ərazisində, Ömər dərəsinin şərqindəki əkin yerlərinə deyilirdi. Bu yerlər keçmişdə kəndin varlı sakini Kalvayı Qəhrəmana aid imiş.

**KANKAH** – Çivinli kəndinin şimalında, Qalaça adlanan dağda mağaranın adı idi.

**KAREİT OCAĞI** – Güllücə kəndində əski pirin adı idi. Ocaq kareitlər adlanan tayfanın yaşadığı məhəllədə idi.

**KARTOFLU YURD** – Yuxarı Kilsə kəndinə yaxın olan yaylaq yerinin adı idi. Orada ənənəvi olaraq kənd adamları kartof yetişdirdikləri üçün elə deyilmişdir.

**KARTOF YERİ//QARTOL YERİ** – Kiçik Təpəköy

kəndinin qərbində, Arpa çayın qırağındakı yerə deyirdilər. Bu yerə keçmişdə kartof əkərlərmiş

**KARXANA** – Qursalı kəndinin şimal-qərbində, dəmir yolunun sol tərəfindəki düzənliyə deyilirdi. Bura Şorax da deyirdilər.

**KAZIM DƏRƏSİ** – Qaraçanta kəndinin ortasında, Amasiya istiqamətində olan keçən dərənin adı idi.

**KEÇİ QALASI** – Baş Şörəyel (Türkiyə) kəndi yaxınldığında dağ və qala adıdır. Erməni mənbələrində 1583-cü ildə olan İran-türk müharibələrinin təsvirində xatırlanır [2, 115].

**KEŞ DƏRƏSİ** – Oxçuoğlu kəndinin lap yaxınlığında, Arpaçay axan dərin daş kanyona deyilirdi. Keş xalq coğrafi termini olaraq kanyona deyilir.

**KƏBLƏ ƏSGƏRİN SÖYÜDLÜYÜ** – Oxçuoğlu kəndinin ortasındakı dərədə olan söyüdlüyün adı idi.

**KƏBLƏ ƏŞRƏFİN DƏYLƏYİ** – İlanli kəndi ərazisində yurd yeri idi. Antroponim mənşəlidir. Dəylək yaylaqda müvəqqəti düzəldilmiş yaşam yerinə deyilirdi.

**KƏBLƏ NAMAZIN DƏYİRMANI** – Oxçuoğlu kəndində olan qədim dəyirmanın adı idi.

**KƏBLƏ NAMAZIN YERİ** – Oxçuoğlu kəndindən Gümrüyə gedən yolun sol tərəfindəki əkin yerlərinin adı idi. Keçmişdə həmin ərazi kəndin varlısı Kərbəlayi Namaza məxsus imiş.

**KƏBLƏ VƏLİNİN QOBUSU** – Oxçuoğlu kəndinin cənub-qərbində çökəklik – qobu adı idi. Keçmişdə Kərbalayi Vəlinin əkin sahəsi olduğu üçün kolxoz vaxtı da elə deyilmişdir.

**KƏLƏÖLƏN** – Qursalı kəndinin cənubundakı biçənəyə deyirdilər. Zoonim mənşəlidir.

**KƏMƏND DAĞ** – Arçut kəndi ərazisində dağ adı idi. Dağın üstündən əyilmiş formada nazik dərə aşağıya tərəf uzandığı üçün Kəmənd dağ demişlər.

**KƏMƏNDİN ALTI** – Haydarlı kəndi tərəfdəki mağaraya deyilirdi.

**KƏNDİRBAZ** – Hallavar kəndinə yaxın olan ərazidə yaylaq yerinin adı idi.

**KƏNGƏR** – Ağbabanın şimal-şərqində, Gürcüstan sərhədində dağ adıdır. M.Xorenasi (V əsr) Quqar ölkəsi haqqında yazarkən Kanqark formasında həmin dağ adını xatırlatmışdır. «Ermənistan və ona yaxın olan ərazilərin toponimik lüğəti»ndə nədənsə həmin dağ haqqında çox səthi məlumat verilir [2, s.415].

**KƏRBƏLAYI ABBASIN DƏYİRMANI** – Oxçuoğlu kəndində, Arpaçayı dərəsində keçmişdə Kərbalayı Əskərə aid olan su dəyirmanı adı idi.

**KƏRBƏLAYI ƏSGƏRİN YERİ** – Oxçuoğlu kəndinin cənub-şərqində böyük əkin sahələrinə deyərdilər.

**KƏRƏM KEÇİDİ** – Oxçuoğlu kəndinin yanında, Arpaçayı dərəsində keçid adı idi. Deyilənə görə, Qaçaq Kərəm əsrin əvvəllərində buradan keçib Türkiyəyə gedibmiş. Bu barədə rəvayət də söylənilir [7, 213].

**KƏRƏM QAYASI** – Pəmbək bölgəsində, Arxaşan dağının döşündə qayalıq adı olmuşdur.

**KƏRƏM QAYASI** – Erməni mənbələrində İlli kəndinin cənubunda Şörəyel dağ silsiləsində göstərilir. Qayalığın Qaçaq Kərəmlə bağlı olması təbiidir. Qaçaq Kərəm kəsə yolla buralardan İran və Türkiyəyə gedib gələrmiş.

**KƏRƏMÖLƏN** – Təpəköy – Amasiya istiqamətində gedən yolun yoxuşunda, 1979-cu ildə Qönçəli kənd sakini Seyid Kərəm borana düşərək orada donub öldüyünə görə elə demişlər.

**KƏRƏNTÖKÜLƏN BİNƏSİ** – Yuxarı Kilsə kəndində yaylaq, həm də təpəlik adı idi.

**KƏRİMİN HERİYİ** – Kiçik Təpəköy kəndinin "Düz" adlanan geniş sahədə kənd sakini Kərim kişiyə aid olan əkin yerinin adı olmuşdur. Herik şivə söz olaraq əvvəlcə əkilən, sonra isə əkilməyən sahələrə deyilir. Belə bir Ağbaba bayatısı da vardır:

*Herikdən gəl, herikdən,*
*Sana pişirim ərikdən.*

*Nə tez yönnü döndərdin,*
*Məni kimi fərikdən [7].*

**KƏRİMLİ QƏBİRSƏNNİYİ** – Qursalı kəndinin şimalında, Həvilli qəbiristanlığının yanındadır.

**KİÇİK DÜZ** – Qızılörən kəndinin yaxınlığında əkin və biçənək sahələri olan düzə deyirdilər.

**KİÇİK QUZEY** – Arçut kəndində dağ adı idi. Kəndin quzey tərəfi kəndin görkəmində olduğu üçün elə deyilmişdir. Düzənliyin sahəsi o biri Böyük tapdan kiçik olduğu üçün elə deyilmişdir.

**KİÇİK TAP** – Aşağı Kilsə kəndində düzənlik adı idi.

**KİÇİK TƏHMƏZ** – Qursalı kəndində qobu (biçənək) adı idi.

**KİÇİK TƏPƏKÖYÜN QƏBİRİSTANLIĞI//KİÇİK TƏPƏKÖYÜN QƏBİRSƏNNİYİ** – Kəndin qərb hissəsindədir. Qarapapaqlara aid bir neçə qədim qəbirlər də vardır.

**KOXANIN YURDU** – Arçut kəndi yaxınlığında qədim yurd yerinin adı idi.

**KOMARXASI** – Mağarcaq kəndində kolxozun qoyun komlarının arxasındakı əkin sahələrinin adı idi.

**KOMLAR** – Amasiya kəndindən şimalda, keçmişdə varlı adamlara aid qoyun saxlanılan komlar olmuşdur. Son vaxtlar orada heç bir tikinti olmasa da, əraziyə "Komlar" deyərdilər.

**KOROĞLU QALAÇASI** – Bozqala kəndi yaxınlığında, Arpaçayın sağ sahilində olan möhtəşəm qalaçaya deyilərdi.

**KOROĞLU QALASI** – Pəmbək bölgəsinin ətəklərində, Şahalı kəndinin şimal-qərbindəki qayalığın və həmin qayalıqdakı xaraba qalanın adı idi. 1920-ci ildən kənddə ermənilər yaşamasına baxmayaraq həmin qalaya Koroğlu qalası deyirdilər.

**KOROĞLU YATAĞI** – İlanlı kəndi ərazisində sahəsi 5 ha olan əkin sahəsinə deyilirdi. Qalaçaya və qoyun yatağına yaxın olduğu üçün elə deyilmişdir.

**KOSALARIN XIRMANI** – Qaraçanta kəndinin əkin

sahəsinin adı idi.Keçmişdə bu ərazi kosalar tayfasının xırman yeri olubmuş. Deyilənə görə, Kosalar tayfası təqribən 300 il əvvəl Qazax ərazisindən bura gəlmişlər.

**KOSALAR MƏRZİ** – Əzizbəyov (Qaraçanta) kəndində əkin yerinin adı idi. Oronimin tərkibindəki «mərz» sərhəd mənasını bildirir.

**KOSALARIN ARXACI** – Amasiya kəndinin şimal-şərqində kəndin köklü sakinləri kosalara aid mal-qoyun arxacı olmuşdur.

**KÖHNƏ DƏYİRMAN** – Qursalı kəndində, Nəsiblinin çalası deyilən ərazidəki su dəyirmanının adı idi.

**KÖHNƏ YAYLAQ** – Qaraçanta kəndinin qərbində yaylaq yerinin adı idi.

**KÖKSÜ GÖZƏL // KÖHSÜ GÖZƏL** – Oxçuoğlu kəndinin cənubunda olan təpənin adı idi . Güney olduğuna görə, mayıs çiçəkləri ilk dəfə burada baş qaldırdığı üçün Köksügözəl demişlər.

**KÖNDƏLƏN** – Qara Namaz kəndinin cənubunda kəndin əks istiqamətində olan əkin yerinə deyərdilər.

**KÖNDƏLƏNLƏR** – Qaraçantadan Mağaracıq kəndinə gedən yolun sol tərəfindəki əkin yerlərinə deyilirdi.

**KÜRDÇAPAN** – Mollaqışlaq kəndindən cənubda, Qıllıyurdun yanında olan yaylaq yerinə deyərdilər.

**KÜRDOĞLU ZAĞASI** – Balaqlı kəndinin şimalında zağa (mağara) adı idi.

**KÜRDÜN QƏBRİ** – Mağaracıq kəndinin cənub-qərbində olan tək qəbrin adı idi.

**KÜRDÜN YATAĞI** – Düzkəndin şərqindəki mal-qoyun yatağının adı idi.

**KÜRDÜN YURDU** – Mağaracıq kəndinin qərbində yurd adı idi.

**QABAX TƏPƏ** – Talin rayonunda çox da hündür olmayan təpənin adı olmuşdur.

**QABAQ ÇAYIR** – Çivinli kəndinin şərq tərəfindəki

böyük çayırlığın adı idi. Kəndin qabağında olduğu üçün ' Qabaqçayır' demişlər.

**QABAQ ÇAYIR** – Qara Namaz kəndinin cənubunda (ön tərəfində) olan böyük çayırlığın adı olmuşdur.

**QABAQ TƏPƏ** – Talin rayonunun Zeyvə kəndinin qabağındakı təpəyə deyilmişdir.

**QABAQ YERİ** – Quzukəndin şərq tərəfində, kəndin qabağında olan əkin yerlərinə deyilərdi.

**QABAQ DAĞ** – Sultanabad kəndlinin cənub tərəfində – kəndin önündə olduğu üçün Qabaqdağ demişlər.

**QALACA** – Elləroyuğundan cənub-qərbdə olan qala xarabalığının adıdır.

**QALAÇA** – Balıqlı kəndinin söykəndiyi şiş dağın zirvəsindəki qalanın adıdır. Güllücə kəndində olan qala ilə eyni formadadır. Ümumiyyətlə, Ağbabanın hər bir kəndinin söykəndiyi dağda belə qalalar vardır.

Avtandil Ağbaba dostu Elləzin vaxtsız vəfatı münasibətilə yazdığı bir şeirdə bir neçə oronimlə birlikdə Qalaçanı da xatırlayır:

*Gəldi gözlərimə Qalaça, Şişdağ,*
*Hanı Qızılqaya, hanı Göybulaq?*
*Ağladı içimdə bir fağır uşaq,*
*Üstümə daş-divar yeridi, Elləz.*

**QALAÇA** – Güllücə kəndinin şimalında dağın və oradakı qədim qalanın adı idi. Zirvədəki qalanın hasarı və hasar içərisində qəbiristan vardır. Qəbiristandakı at və qoçheykəlli qədim qəbirlərə əsasən deyə bilərik ki, Oğuz qalalarıdır.

**QALAÇANIN TAXTI** – Qarabulaq kəndinin ərazisində, Qalaça olan dağın döşündəki düzən yerə deyirdilər.

**QANNI YER** – Ellərkəndin şimalında, 1942-ci ildə bir nəfəri ildırım vurub öldürdüyü üçün elə demişlər.

**QAPI YERİ** – Balıqlı kəndindən 1940-cı ildə ləğv olunmuş Xəncərli//Xancallı kəndinə dar dərədən keçən yola deyərdilər.

**QAPILIZAĞA** – Qaraçanta kəndinin cənub-şərqində, Arpaçayı dərəsinin sağ tərəfindəki sıldırımlıqda olan zağanın adı idi. Zağanın eni 5-6 metr, uzunluğu isə 9-10 metr olduğu söylənilir. Zağanın açılıb bağlanan daşdan qapısı olduğu üçün belə adlandırılmışdır. Yerli şivədə "Qarpızağa" da deyərdilər.

Qaraçantalı Baxşəli Əskərovun vətən həsrətli bir şeirində "Qapılı zağa" oronimi xatırlanır:

*Mənzərədir "Məmmədağa"*
*Min sirlidir "Qapılı zağa".*
*Həsrət qaldım Göy bulağa*
*Daşlı dərədən keçəydim.*

**QARA ARXAC** – Mağaracıq kəndinin qərbindəki Saqqızlı dağda olan mal-qoyun arxacının adı olmuşdur.

**QARA ARXAC** – Quzukəndin qərb tərəfindəki dağ yüksəkliyində olan qoyun arxacının adı idi.

**QARA ARXAC** – Güllücə kəndinin şimalındakı dağda olan qoyun arxacının adı olmuşdur. Arxacın ətrafı iri qayalarla əhatə olunmuşdur. Qara böyük mənasındadır.

**QARA ARXAC** – Mağaracıq kəndinin qərbindəki Saqqızlı dağda olan mal-qoyun arxacının adı olmuşdur.

**QARA ARXAŞ // QARA ARXAC** – Güllücə kəndindən şimal-şərq tərəfindədir. Böyük arxac mənasındadır.

**QARA ARĞAC** – Güllücə kəndinin şimalındakı dağda olan qoyun arxacının adı olmuşdur. Arxacın ətrafı iri qayalarla əhatə olunmuşdur.

**QARABULAĞIN QALAÇASI** – Qarabulaq kəndinin cənub-qərbindəki dağ yüksəkliyində, sahəsi 1 hektar olan müdafiə xarakterli qala.

**QARABULAQ MEŞƏSİ** – Qarabulaq kəndinin cənubunda, Arpa gölün sahilində meşəlik sahəsidir. 1960-cı illərdən sonra burada meşə zolağı salınmışdır.

**QARAÇOBAN MEŞƏSİ** – Qursalı yaxınlığındakı meşəliyə deyirdilər. Meşəliyin şərq tərəfində Qaraçoban kəndi

vardı.

**QARAÇOBAN YERİ** – Hallavar kəndi ərazisində yaylaq və əkin yeri olmuşdur.

**QARA ÇAYIR** – Duzkənd yaxınlığında, Arpaçayın sağ tərəfindədir. Çayır otunun rəngi qara rəngə çaldığı üçün elə demişlər.

**QARADAĞ** – Ələyəz dağının dörd uca zirvələrindən birinin adıdır. Ermənistanda çap olunan sonuncu xəritələrdə həmin zirvənin adı tərcümə edilərək Sevler ("sev"-qara, "ler"-dağ) yazılır.

**QARADAŞ** – Amasiya kəndində, Arpaçayı dərəsinin qaşındakı qayalığın adı idi.

**QARA DAŞ** – Hallavar kəndinin içindəki daşlı təpəyə deyərdilər.

**QARA KAHA YOLU** – Amasiya rayon mərkəzindən Gümrü şəhərinə gedən yol 17 kilometr idi. Burada relyef çox sərt idi. 4 döngə ilə maşın dərəyə enər və 4 döngə ilə yuxarı çıxardı. Burada dəfələrlə avtomobil qəzaları olmuşdur.

**QARA KARXANA** – Mağaracıq ərazisində qara rəngli tuf daşdan ibarət olan karxanaya deyərdilər.

**QARA GÜNEY** – Quzukəndin cənub-şərqində dağ adı idi. Burada "qara" böyük mənasındadır.

El şairi, güllücəli Məcnun Ağbabalı eldən-obadan uzaq düşməsini dağlara üz tutaraq belə söyləyirdi:

*"Qara güney", üzü döndü zamanın*
*"Dərin dərə", kəsilibdir gümanım.*
*"Çoban qaya", yandı dinim-imanım,*
*Ayrılıram, bir də baxım, incimə.*

**QARA GÜNEY** – Güllücə kəndində, başında qalaca olan dağdır. Yenə də burada qara böyük mənasında işlənmişdir.

**QARA GÜNEY // QARA GÜNƏY** – Qaraçanta kəndinin şimal-qərbindəki dağın adı idi.

**QARAXAN DAĞI** – Hallavar və haydarlı kəndləri arasındakı dağın adı idi. Etnonimmənşəlidir.

**QARAXAN KEÇİDİ** – 1903-cü ilin hərbi-topoqrafik xəritəsində Qızılqoçdan Voronsovka (Kalinin) rayonuna gedən keçidin adı kimi göstərilir. Lakin erməni kitab və xəritələrində təhrif edilərək Qaraxac kimi yazılır. Vorontsovka qəsəbəsinin əvvəlki adı Muğanlı olmuşdur.

**QARAXAN YERİ** – Hallavar kəndində yaylaq adı olmuşdur. Yaylaq Qaraxan kəndi yaxınlığında olduğu üçün belə deyilmişdir.

**QARA KAHAL** – Qaraçanta kəndinin cənubunda, Arpaçayı dərəsindən Gümrü şəhərinə gedən yolun sol tərəfindəki kahalığa deyirdilər.

**QARA KOĞUŞ** – Hamamlı rayonunun Qızılörən kəndi ərazisində mağara adı idi.

**QARA KÖPRÜ** – Gümrünün qərbində, Arpaçayı üzərində olan dəmir körpünün adı idi. 1880-ci illərdə Çar hökuməti Qars ərazisini zəbt etdikdən sonra həmin körpünü 1880-ci illərdə tikdirmişdir. Ermənilər "SEVKAMURC" deyərdilər. "Sev" qara, "kamurc" körpü deməkdir.

**QARA QAYA** – İlli (Elli) kəndinin cənubunda hündür qayalığın adı idi.

**QARAQULA//QARA QÜLLƏ//QARA QALA** – Aleksandropol qalasının əvvəlki adı olmuşdur. Bu qala Gümrüdən 2 km cənub-qərbdə, uca təpəlikdə – Arpaçayın sol tərəfindədir. Oxçuoğlu kəndinin yaşlı sakinləri də Qara qula deyirdilər. Erməni mənbələrində Sevqula (Qara qula) formasında tərcümə edilmişdir.

**QARALLARIN ÇÖKƏYİ** – Saral kəndinin şərqində dərə adı idi. Keçmişdə kənddə yaşayan qarallar tayfasına aid torpaq sahəsi olduğu üçün həmin dərədəki əkin yeri və biçənəyə Qaralların çökəyi demişlər.

**QARA MƏƏL** – Dızman kəndinin şərqində yastı dağın adı idi. Dağın alt tərəfindən axan suyun qırağına qoyun-quzu toplaşdığı üçün dağa da Qaraməəl (Böyük məəl) demişlər. Günortanın istisində qoyun-quzu və mal-qaranın toplaşdığı su

yerinə məəl deyirlər. "Məəl" təqlidi sözdür.

**QARA MƏMMƏD YAYLASI** – Çivinli kəndinin ərazilərinə yaxın, Şörəyeldəki Qara Məmməd kəndinin yaylaq yerləri idi.

**QARA NAMAZIN QƏBİRSƏNNİYİ // QARA NAMAZ QƏBİRSTANLIĞI** – Kəndin cənubunda, Göllüyə gedən yolun sol tərəfindədir.

**QARANQUNUN QOBUSU** – Dızman kəndi ərazisində, Qaranqu dağındakı çökəkliyin adı idi.

**QARANLIQ** – Xancığaz kəndində dərə adı idi. Quzey olduğu üçün elə demişlər.

**QARANLIQ** – Pəmbək dağ silsiləsinin Göyçə tərəfə uzanan istiqamətdə hündürlüyü 3445 metr olan dağın adıdır.

**QARA NOVRUZUN DƏYİRMANI** – Hallavar kəndində olan qədim su dəyirmanının adı idi. Dəyirmanın keçmiş sahibi Qara Novruzun adını əks etdirir.

**QARA ORUC** – Xancığaz kəndi ərazisində otlaq və biçənək adı idi.

**QARA USUBUN ARXACI** – Amasiya kəndinin şimal-şərqindəki təpəliklərdə Qara Yusifə aid olan arxac olmuşdur.

**QARA POST//QARA POŞT** – Güllübulaq kəndi ərazisində, Arpaçayı dərəsinə yaxın yerdə düzün adı idi. Keçmişdə sərhəd məntəqəsi olduğu üçün həmin əraziyə Qarapost demişlər.

**QARA YURD** – Maymaq dağında Saral kəndinə aid olan yaylaq yerinin adı olmuşdur.

**QARA YURD** – Saral kəndinin yaylaq yerinə deyirdilər.

**QARƏMMƏD DƏRƏSİ** – Oxçuoğlu kəndindən Qara Məmməd kəndinə tərəf uzanan dərəyə deyirdilər.

Göründüyü kimi, qara komponentli yer-yurd adları daha çoxdur. Qara sözü az miqdarda toponimlərdə rəng çoxunda isə "böyük" mənasında işlənmişdir. Bütün türk ellərində belədir.

**QAROVUL DAĞ** – Qursalı kəndinin cənub-şərqində dağ adı idi. İnformatorlar kəndin hündür yerində olduğu üçün dağa

belə deyildiyini söylədilər.

**QAROVULUN YALI** – Qursalı kəndində kəndin şimalında olan biçənək və otlaq sahəsinə deyirdilər.

**QARŞI** – Amasiya kəndinin cənub-qərb tərəfində, Gümrüyə gedən yolun sağ tərəfindəki dağın adı idi. Rayon mərkəzinin qarşısında olduğu üçün Qarşı demişlər.

**QARTALLI DAĞ//QARTAL DAĞI** – Qaraçanta kəndinin şimal-qərb tərəfində, həmişə qartallar uçuşan dağa deyərdilər.

Baxşəli müəllimin bir şeirində bu zooronim xatırlanır:

*Çıxıb "Maral yatağı"na,*
*Baxaydım "Qartal dağı"na.*
*Enib Bostan bulağına*
*Bircə ovuc su içəydim.*

**QASIMIN XARABASI** – Düzkənddən Təpəkəndə gələn qara yoldakı kənd xarabalığına deyərdilər.

**QATAR QAYA** – Göllü kəndinin arxasındakı dağda, sıra ilə düzülmüş qayalığa deyərdilər.

**QAVAXLI//QABAXLI** – Qızılörən kəndinin ön tərəfindəki otlaq sahələrinə deyirdilər.

**QAYI QULU DÜZÜ** – Ağbabanın şərq tərəfi – Gümrüdən Axırkələyə gedən yolun 30-cu kilometrindən başlayır və 55-ci kilometrdə sona çatır. Qayı Qulu Qazançı, Qayı Düzkənd, Qayı Qulu Çiftəli kəndləri də bu düzdə yerləşir.

**QAYQULUDAĞ//KAYI KULU DAĞ** – Ağbabanın şimal-şərqində, Qayı Qulu düzündə olan dağın adıdır. Oğuzların Kayı tayfasının adı ilə bağlıdır. Həmin oronimi ermənilər Aşoskla əvəz etmişlər.

**QAZAX QALASI** – Pəmbək bölgəsində, Vardana kəndinin şimalındakı əski qalaya deyilirdi.

**QAZAX POSTU** – Gümrü şəhərinin cənub-qərb hissəsində 1840-cı illərdə tikilmiş əskəri kazarmalar yerləşən ərazilərə deyərdilər.

**QAZANÇI YOLU** – Sultanabad kəndindən Qızılqoç rayonunun Qazançı kəndinə gedən şose yolun adı olmuşdur. O yol Hərbi Gürcüstan yoluna birləşir. 18 km-dir.

**QƏDİMİN DƏYİRMANI** – Hallavar kəndində dəyirman adı idi. Keçmişdə onun sahibi Qədim adlı şəxs olduğu üçün elə demişlər.

**QƏMƏRƏ** – Güllübulaq kəndində xaraba kənd yerinə yaxın olan və buğda əkilən düzün adı idi.

**QƏMƏRƏ KARXANASI** – Güllübulaq kəndinin şimal tərəfindəki qara və qırmızı tuf daşı kəsilən qədim karxananın adı idi. Xaraba Qəmərə kəndinin yanında olduğu üçün Qəmərə karxanası demişlər.

**QƏMƏRƏ TƏPƏSİ** – Mağaracıq kəndinin cənub-qərbində olan təpənin adı idi. Kənddən 3 km aralı idi.

**QƏNBƏRİN ÇAYIRI** – Öksüz kəndinin cənub-qərbində 20-30 ha olan çayır sahəsi. Keçmişdə Qənbər kişiyə aid olduğu üçün elə demişlər.

**QƏNŞƏR** – Qursalı kəndinin ön tərəfindəki dağa deyirdilər. Xanım Dəmirçiyevanın bir şeirində bu oronimlə bərabər bir neçə yurd yeri də xatırlanır:

*Söyüdlü yol, Qənşər, Saral binəsi*
*Hallavar, Haydarlı, Ayrum dərəsi.*
*Söyüdü, palıdı, şamı, vələsi,*
*Xəzan vurmuş xəzanım var, xəzanım.*

**QƏRİB MƏZAR** – Quzukəndin şimalındadır. Deyilənə görə, keçmişdə bir nəfər qərib yolçu Çıldıra gedərkən burada borana düşüb ölüb. Meyidi qarın altında qalıb. Yazda onu tapıb elə oradaca dəfn edirlər.

**QILLI YOLÇU** – Çaxmaq kəndin şimal tərəfində olan çayırlığın bir hissəsinin adı idi. Bu biçənək keçmişdə Qıllı Yolçu deyilən bir şəxsin biçənəyi olubmuş.

**QILLIYURD** – Dızman kəndində dağ və yaylaq yer adı idi.

**QIMILI YOLU** – Oxçuoğlu kəndində, keçmişdə Türkiyədəki Qımılı kəndinə gedən yola və yolun hər iki tərəfində olan əkin yerlərinə deyilirdi.

**QIMILI YURDU** – İlanlı kəndinin şərqindəki yaylaq yerinin və yastı dağın adı olmuşdur. İnformatorların dediyinə görə, 1918-ci ilədək Türkiyə sərhəddi daxilində qalan Qımılı kəndinin əhalisi burada yaylaq həyatı keçirərlərmiş.

**QIPÇAQ DÜZÜ** – Artıq rayonu ərazisində və Abaran rayonunadək uzanan düzün adıdır. Erməni mənbələrində də “Qıpçakivayr” kimi qeyd edilir. “vayr” düz deməkdir.

**QIPÇAQ QALASI** – Əştərək//Üçtərək rayonu ərazisində qala kompleksinə deyilirdi. Buradakı karvansaraya isə Qıpçaq karvansarası adlanırdı.

**QIRX BULAQ** – Qursalı kəndinin cənubunda yaylaqda bir neçə bulağın olduğu yerə deyirdilər.

**QIRX OYUXLAR** – Qaraçanta kəndində, Ömər dərəsinə yaxın yerdə əkin yerlərindən zaman-zaman toplanıb bura yığılan daş yığınlarına deyirdilər.

**QIRIX TƏPƏ** – Ağın rayonunda, Ani kəndinin yanındakı təpənin adı olmuşdur.

**QIRMIZI QUMLUX** – Balıqlı kəndinin şimal tərəfindəki dağın qərb hissəsində olan qırmızı çınqıl yatağına deyirdilər. Yol inşaatında istifadə edilirdi.

**QIRMIZI YAL** – Ələyəz ətrafında olan dağlardan birinin adıdır. Dağda qırmızı daş suxurlar çox olduğu üçün belə demişlər.

**QIRROYLARIN ÇAYIRI** – Qara Namaz kəndi ərazisində, keçmişdə Qırroylar adlanan tayfaya məxsus olan çayırın adı idi. Kolxozun istifadə etməsinə baxmayaraq, hələ də Qırroyların çayırı deyilirdi.

**QIŞQAN TƏPƏSİ** – Arçut kəndinin şimal-şərqindəki təpəliyin adı idi. Təpədəki kolluqda qışqan adlanan giləmeyvə daha çox bitdiyi üçün belə deyilmişdir.

**QIZDARBAXAN** – Quzukəndin görkəmində olan əkin yerləri.

**QIZDARBAXAN//QIZLARBAXAN** – Həm Böyük Təpəköy, həm də Kiçik Təpəköy ərazilərində kəndin görkəmində olan əkin yerlərinin adı idi. Deyilənə görə, keçmişdə əkin işləri ilə məşğul olan, kotan sürən, kotana hodaxlıq edən, kotanın məcini tutan və ya səpilən toxumu öküz dırmığı ilə malalayan, yaxud da taxılı biçib toplayan kənd cavanlarının bu ağır işlərinə kənd qızları baxdığı üçün "Qızdarbaxan", əkin sahəsi bir neçə parça olanda isə "Qızdarbaxannar" demişlər. Maraqlısı odur ki, digər kəndlərdə də belə mikrotoponimlər vardır.

Təpəköylü el şairi Bəxtiyar Xəlilov bu oronimi "Qızbaxan" formasında şeirlərinin birində işlətmişdir:

*Dağı, daşı ömür payım,*
*Dağ çayları hay-harayım.*
*Qızbaxanım, Arpaçayım*
*Arpa gölüm yerindəmi?*

**QIZILKİLSƏ DƏRƏSİ** – Qarabulaq kəndi ilə Quzukəndin arasındakı dərəyə deyilirdi. Qızılkilsə kəndi 1948-ci ildə Göyçaya köçürüldükdən sonra kənd ləğv edilmişdir.

**QIZIL ZİYARƏT // QIZIL ZİYARAT** – Ələyəz dağının uca zirvələrindən birinin adıdır. Hündürlüyü 3900 metr olan bu zirvənin də adı ermənilər tərəfindən dəyişdirilərək xəritələrdə "Tirinqatar"la əvəz edilmişdir [2, s.411].

**QIZILBURUN** – Ələyəz ətrafında olan dağlardan birinin adıdır. Burada qırmızı tuflu qayalıq irəli çıxdığı üçün belə demişlər.

**QIZIL DAĞ** – Təpəköyün şərqində, kənddən 3 km aralı olan qırmızı suxurlu dağın adıdır. Hündürlüyü 2116 metrdir. BU dağ Düzkəndə də yaxındır. Dağın başında ziyarətgah var. Kənd adamları diləkləri hasil olanda orada qurban da kəsərdilər.

**QIZILDAŞ** – Güllübulaq kəndinin qərbində, Türkiyə sərhəddində dağ adıdır. Dağın ətəyində eyniadlı kənd də vardır.

**QIZILDAŞ YAYLAĞI** – Hacı Qara kəndinin cənub-şərqində, qırmızı daş süxurları daha çox nəzərə çarpan yaylaq yerinə deyilirdi.

**QIZILKİLSƏNİN QALAÇASI** – Qarabulaq kəndinin cənub-qərbindəki yüksəklikdə, sahəsi 1,5 ha olan qalaya deyərdilər.

**QIZILKİLSƏ QƏBİRSƏNNİYİ** – 1948-ci ildə Göyçayın Alpout kəndinə köçürülən kəndin qəbiristanlığına deyilirdi.

**QIZILQAYA//QIZILQA:** – Mağaracıq kəndinin qərb tərəfində olan qırmızı daşlı qayalığın adı idi. Burada da qızıl qırmızı mənasındadır.

**QIZIL MƏZAR** – Qarabulaq kəndinin qərbində qədim yurd yerinin adı idi. İnformatorlara görə İrəvan xanlarının yaylaq yeri olubmuş. Burada qırmızı daşdan hazırlanmış qoçheykəlli qəbirlər vardır.

**QIZIL YAR** – Pəmbək bölgəsində dağ adıdır. Üçkilsə rayonunda da eyniadlı oronim vardır. Burada coğrafi termin olaraq "yar" dərə mənasındadır. Bir çox yerlərdə bu formada toponimlər vardır. Məsələn: Krasnoyarsk, Beloyarsk və s.

**QIZ QALASI** – Oxçuoğlu kəndinə yaxın, Arpaçayın sıldırımlı dərəsində qala xarabalığına deyərdilər.

**QIZOYLAR//QUZEYLƏR** – Balıqlı kəndində, İkiqatın şimal tərəfindəki əkin sahələrinə deyirdilər. 30 hektar idi. Dağın quzey tərəfində olduğu üçün belə demişlər.

**QOBULAR** – Amasiya kəndinin şimalında Birinci qobu, İkinci qobu, Üçüncü qobu adlı biçənəklər olmuşdu. Yanyana olan həmin çökəkliklər sadəcə olaraq "Qobular" adlanardı.

**QOCA ƏHMƏDİN YERİ** – Oxçuoğlu kəndi ərazisində, keçmişdə Qoca Əhmədə aid olan əkin yerinə deyilirdi.

**QOCANIN ÇAYIRI** – İlanlı kəndinin şimal tərəfindəki çayırlığın adı idi. Keçmişdə qocalar tayfasına məxsus biçənək imiş.

**QOÇDAŞI//QOŞDAŞI** – Ellərkəndin orta hissəsindəki meydançada olmuşdu. 1975-ci ildə rayona aparsalar da, yenə də o meydana "Qoşdaşı" deyərdilər.

**QOÇDAŞI//QOŞDAŞI** – Öksüz kəndinin şimal-şərqində, Balıqlı kəndinin sərhədində qoçheykəlli qəbirüstü abidələrin olduğu əkin sərnəsinin adı idi. Dağdakı qədim qalaçanın yanında da həmin qoçheykəlli qəbir daşları vardı.

**QOLTUQ//QOLTUX** – Balıqlı kəndinin şərqində İkiqat dağı ilə Güneydağın birləşdiyi döngəyə deyilirdi. Metaforik oronimdir.

**QRELLƏRİN NAPZARI** – Daşkörpü kəndinin qərb tərəfindəki əkin yerlərinin adı olmuşdur. Bu sahə kənddəki qrellər tayfasına aid olduğu üçün belə deyilmişdir.

**QULA DƏRƏSİ** – Oxçuoğlu ilə Bacıoğlunun arasındakı dərə. Dağdakı qülləyə görə elə deyilmişdir.

**QULAMÖLƏN** – Öksüz kəndinin şimal-şərqində əkin sahəsi və biçənək. Keçmişdə düşmən olduqları üçün əsilləri qaranamazlı olan Səməd kişi qardaşını öldürdüyünə görə Qulamı mal otardığı yerdə burada güllələmişdir. Buna görə də o ərazi belə adlandırılmışdır.

Məcnun Ağbabalının daha bir şeirində Qulamölən bir neçə oronimlə birlikdə xatırlanır:

*El-obanın çəkilibdi ayağı,*
*Durnaların daha gəlmir sorağı.*
*Qəribsəyir Qulamölən, Kal dağı,*
*Ay, Lilparlım, Buz bulağım, incimə.*

**QULAÜSTÜ** – Oxçuoğlu kəndində qurulan qüllənin üst tərəfindəki yerlərə deyilirdi.

**QULU AĞANIN ÇAYIRI** – Təpəköy kəndindəki təpənin şərq tərəfindəki çayırlığın adı idi. Həmin çayırlar 1921-ci ildə Türkiyəyə mühacirət edən Qulu ağaya məxsus imiş.

**QULUNUN ARXACI** – Balıqlı kəndində, İkiqatda Qulu ağaya aid olan arxacın adı idi.

**QUMDAĞI** – Təpəköy kəndindən 1 km cənub-qərbdə,

hündürlüyü 1200 metr olan dağın adıdır. Dağ qumdan ibarət olsa da, ancaq yaz, payız aylarında yamyaşıl olar, alp çəmənliyi ilə örtülərdi.

Dağın adı Aslan Bayramovun bir şeirində xatırlanır:

*Qızıldağ, Qumdağı, Gəlinqayası*
*Qaraxan, Baş Güney aran yaylası,*
*Gözəllərdir bu yerlərin sonası*
*Ağbaba, Ağbaba, gözəl Ağbaba.*

**QUMLU TƏPƏ** – Düzkəndin şərqində, Qızıldağın yanındakı təpəliyə deyərdilər.

**QUMLUQ//QUMLUX** – Ağbabada, Təpəköy kəndi yaxınlığındakı Qumdağında olan qumluğun adı idi. Demək olar ki, 8 rayon həmin qumluqdan tikinti materialı üçün istifadə edərdi.

**QURD TƏPƏ** – Ağin rayonunda, Ələyəz silsiləsinə daxil olan, hündürlüyü 1748 metr olan dağın adıdır (2. 401).

**QURUBOĞAZ** – Abaran ərazisində dağ adıdır. Metaforik oronimdir.

**QURU DƏRƏ** – Qaraçanta kəndində, Kazım dərəsi deyilən dərənin şərq tərəfindəki dərəyə deyilirdi.

**QURU DƏRƏ** – Hamamlı rayonunun Qızılörən kəndinə tərəf uzanan dərəyə deyirdilər.

**QURU YURD** – Vardanlı kəndinin yaxınlığındakı qışlaq yerinə deyirdilər. Erməni mənbələrində göstərilir ki, 1926-cı ilə qədər bura azərbaycanlılar yaşayan kənd olmuşdur [2, s.410].

**QUŞ QAYASI** – Amasiya kəndinin şimal-şərqində, qartal və qızılquş yuvaları olan hündür qayalığa deyilirdi. Zootonimdir.

**QUŞ QAYASI** – İbiş kəndinin qərb tərəfindəki qayalığa deyərdilər. Fototoponimdir.

**QUTNİ QIŞLAQ** – Artik rayonunda, Ələyəz silsiləsinə daxil olan, hündürlüyü 1748 metr olan dağın adıdır.

**QUYULU QALA** – Oxçuoğlu kəndinin cənub-şərqindəki

dərədə köhnə qala yerinə deyirdilər.

**QUYU TƏPƏ** – Aşağı Kilsə kəndində təpəlik adı idi. Təpənin başında qədim istehkam yeri və su quyusu olduğu üçün elə deyilmişdir.

**QUYU QAYA** – Balıqlı kəndinin şimal-qərbindəki qayalığın adı idi.

**QUZU DAĞI** – Oxçuoğlu kəndinin cənub-qərbində yastı dağ. Əsasən kəndin quzuları otarıldığı üçün elə demişlər.

**QUZUKƏNDİN QALAÇASI** – Kəndin qərb hissəsində, Dərin dərə çayının sağ tərəfindəki sıldırımlıqda olan qalanın adıdır.

**LAÇIN QAYASI** – Pəmbək bölgəsinin Qızılörən kəndi ərazisində qayalıq adı idi. Həmin qayalığa ermənilər "Laçinikar" deyərdilər. "Kar" ermənicə daş mənasındadır.

**LEYDAĞI** – Hallavar kəndinin söykəndiyi dağın adıdır. Pəmbək dağ silsiləsinə daxil olan dağlardan sayılır. Burada ley şahının bir növü olan quşun adıdır. Zooronimdir.

El şairi, hollavarlı Bəxtiyar Abdullayevin vətən həsrətli bir şeirində Ley dağı xatırlanmaqdadır:

*At belində yaylaqlarda gəzdiyim*
*Ley dağı, Cırcırdı, ən çox sevdiyim.*
*Ətəyində el qurbanı kəsdiyim,*
*Müqəddəs ocaqlar, salamat qalın.*

**LEYLİ DAĞI** – İ.Şopenin tədqiqatında Qızılqoç ərazisində, Dərəköy kəndi yaxınlığında qeyd edilmişdir. Hündürlüyü 3157 metrdir. Bu dağın bir tərəfi Hollavar kəndinə tərəf uzanır.

**LƏPİKLİK** – Göllü kəndinin şimal tərəfində olan kiçik daş karxanasının adı idi. Ev tikmək üçün həmin sal daşlardan (ləpiklərdən) istifadə edərdilər. Bu ləpiklərdən tövlənin döşəməsinə də döşəyərdilər.

**LƏPİKLİK** – Xozu (Quzukənd) kəndinin qərbində daş karxanasının adı idi. Buradan tikinti üçün qat-qat sal daşlar çıxarılardı. Hətta keçmişdə tövlənin üstünü də həmin daşlarla

örtərdilər.

**LÜLDAĞ** – Amasiya kəndinin şimal-şərqində, dağın başı konusvari olduğu üçün elə demişlər.

**LİLPARLIQ** – İlanlı kəndinin şərqində dağ və dərə adı olmuşdur. Həmin dərədən qaynayan bulaqların ətrafında lilpar bitkisi çox bitdiyi üçün lilparlıq demişlər. Fitotoponimdir.

**LORİ DƏRƏSİ** – Pəmbək bölgəsinə yaxın, Borçalıya tərəf uzanan dərənin və bölgənin adıdır. Qarışıq relyefinə görə elə Loru//Lori demişlər.

**LÜLDAĞ** – Daşkörpü kəndinin şimalında olan dağ adı idi. Oronimin birinci tərəfindəki «lül» leksik vahidi sivri mənasını bildirir. Orada qədim Lori qalası da var.

**MAHMUDUN ARXACI** – Bozqala ərazisində, kəndin keçmiş varlısı olan Mahmud ağaya aid olduğu üçün elə deyilmişdir.

**MAHMUDUN ARXACI** – Düzkənd kəndinin cənub-qərbində yataq adı idi.

**MANSIRIN ÇALASI** – Qursalı kəndinə yaxın ərazidə, Pəmbək çayının sahilində bağ sahəsi idi. Bura yaxın olan Qaraboğaz oğlunun çalası, Məşədi Ələsgərin çalası, Xıdırın çalası oronimləri də vardır. Burada çala bağ-bostan əkilən sahələrə deyilirdi. Coğrafi termin olaraq çala çökəklik mənasındadır.

**MANSIRIN ÇAYIRI** – Qarabulaq kəndinin yaxınlığında çayırlığın adı idi. Keçmişdə Mansır adlı varlı bir adamın biçənəyi olsa da, yenə də elə deyilirdi.

**MARALDAĞ** – Erməni mənbələrində Düzkənd (Axuryan) rayonundakı Cacur kəndinin söykəndiyi dağın adı kimi göstərilir [2, 234].

**MARAL DAŞI** – Elləroyuğu kəndinin şimalındakı qayalığa deyirdilər. El şairi Zahid Əziz qaçqınlıq dövründə yazdığı bir şeirdə bu oronimi xatırlayır:

*Gediş-gəliş kəsilibdi yaylaqdan,*
*Gəlmir köhlən kişnərtisi oylaqdan.*
*Qız-gəlinlər su götürmür çaylaqdan,*

*Mamırlayıb Maral daşı, Dik qaya,*
*Alan yoxdu biz yazığı heç saya.*

**MARAL QAYASI** – Elləroyuğu kəndinin şimal tərəfində, dağ döşündə olan hündür, sivri və oval formada olan qayaya deyərdilər.

**MARAL QAYASI** – Çaldaş yaylağında hündür qayaları olan dağa deyilirdi.

**MARAL YATAĞI** – İbiş kəndində qoyun yatağına deyilərdi.

**MARAL YATAĞI** – Düzkənd ərazisindəki Səngər dağda olan mal-qoyun yatağına deyilərdi.

**MARAL YATAĞI** – Güllücə kəndində mal-qara yatağının adı idi. Ağbabada son vaxtlar maral yaşamasa da, ancaq qazıntı işləri zamanı maral buynuzları aşkar edilmişdir. Hal-hazırda buralarda maral yaşamasa da, ancaq niyə belə adlandırıldığı məlum deyil.

**MARALYATAĞI** – Qaraçanta kəndinin qərbində Yayla dağı tərəfdə olan tənha yatağa deyilirdi.

**MAYMAQ** – Pəmbək dağ silsiləsinə daxil olan, hündürlüyü 3082 metr olan dağın adıdır. Quqar ərazisində olan bu dağ erməni xəritələrində «Maymex» kimi qeyd edilir. Bir sıra qədim, eləcə də müasir türk dillərinin bir çoxunda maymaq «barmaq» mənasında işlənir. Başındakı çıxıntılara görə metaforik oronim kimi formalaşmışdır.

Pəmbək kəndlərindən topladığım bir bayatıda qaçqınlıqla bağlı olaraq Maymaq dağı xatırlanır:

*Durnam uçur Loruya,*
*Qanad çalır oruya.*
*Maymaxdan dönüb gəlsin,*
*Xəbər versin geriyə [7].*

Bu bayatının başqa variantı da vardır.

**MEHRİOĞLU ARXACI** – Mağaracıq kəndi ilə Çaxmaq kəndinin arasındakı təpəlikdədir. Etnonim mənşəli oronimdir.

**MEHTİBİÇƏN** – Qursalı kəndinin cənub-qərbində, keç-

mişdə Mehti adlı kişinin biçənəyi olduğu üçün elə deyilmişdir.

**MEHTİNİN DƏRƏSİ** – Bu dərə Çaxmaq kəndinin yaxınlığındadır. Keçmişdə Mehdi adlı sahibkarın biçənəyi olmuşdur.

**MEŞƏLİK** – Sultanabad kəndinin cənubunda, Arpagölün şərq tərəfində 1960-cı ildən salınan meşə zolağına deyilərdi. Sahəsi 300 hektardan çox olan bu meşə Ağbabada ilk meşə zolağı idi.

**MƏDƏDİN KOXU** – Öksüz kəndində böyük bir biçənəyin adı idi. Keçmişdə əkin-biçin vaxtı Mədəd adlı sahibkar burada müvəqqəti kox (müvəqqəti yaşam yeri) qurduğuna görə elə demişlər.

**MƏHƏMMƏDİN MƏSCİDİ//MƏMMƏDİN MƏSÇİDİ** – Oxçuoğlu kəndində XIX əsrin sonlarında kənd sakini Məhəmməd tərəfindən tikilmiş məscidə deyərdilər.

**MƏHƏRRƏMİN ARXACI** – Çivinli kəndinin şimal-qərb tərəfində, keçmişdə Məhərrəm kişiyə aid olan qoyun yatağının adı idi.

**MƏLƏKQAÇAN** – Arçut kəndində arxac adı idi. Yəqin ki, keçmişdə buradan Mələk adlı bir qızı qaçırdıqları üçün elə demişlər.

**MƏMMƏDABAD DÜZÜ** – Oxçuoğlu kəndində, Türkiyə sərhəddinə yaxın olan əkin sahələrinin adları idi.

**MƏMMƏDAĞA DƏRƏSİ** – Qaraçanta kəndinin qərbində yaz aylarında gül-çiçəyə bələnən bir dərənin adı idi.

**MƏMMƏDCANIN DƏRƏSİ** – Mağaracıq kəndi ilə Qaraçanta kəndinin anasındakı dərəyə deyilirdi. Keçmişdə Məmmədcan kişinin biçənəyi olduğu söylənilir.

**MƏMMƏDİN ÇAYIRI** – Güllücə kəndinin cənubi-şərq hissəsindədir. Keçmişdə Məmməd adlı kənd sakinin biçənəyi olduğu üçün elə deyilmişdir.

**MƏMMƏDÖLƏN** – Amasiya kəndinin qərbində qobu (biçənək) adı idi.

**MƏRRƏ DƏRƏSİ** – Düzkənd kəndinin cənubunda dərə

adı idi.

**MƏSİMİN DƏYİRMANI** – Hallavar kəndindəki qədim su dəyirmanlarından birinin adı idi. Deyilənə görə, bu dəyirman keçmiş sahibinin adını daşıyır.

**MƏŞƏDİ ƏLƏSKƏRİN ÇALASI** – Qursalı kəndinin şimal tərəfində bağ-bostan yeri idi. Orada həm də mineral su bulağı vardı.

**MƏŞƏDİ HASANIN ARXACI** – Çivinli kəndində, ən böyük arxaclardan birinin adı idi. Onun sahibi Məşədi Hasan dövrünün sayılan adamlarından olmuşdur. 1920-ci illərin axırlarında NKVD tərəfindən tutulub Gümrü şəhərinə aparılmış və bir daha geri qayıtmamışdır.

**MƏŞƏDİ QARANIN ARXACI** – Güllücə kəndində, Güney dağda olan arxacın adı idi.

**MƏŞƏDİ QARANIN ÇİMBİZLİYİ** – Güllücə kəndinin qərbində çayırlıq adı idi. Çayırlıq top-top çumbuzdan ibarət idi.

**MƏŞƏDİ NAMAZIN ARXACLARI** – Qaraçanta kəndinin qərbində, yan-yana olan arxaclara deyilirdi. Kolxozun, sonralar sovxozun sürüləri bu arxacda dincələrdi.

**MƏŞƏDİLƏRİN YURDU** – Arçut kəndindən xeyli aralı,məşədilər tayfasına aid olan yaylaq yerinin adı idi.

**MƏZAR TƏPƏ** – İbiş kəndinin cənubunda qədim qəbiristanlıq. Deyilənə görə, xristian qıpçaq türklərinə aiddir.

Məzar təpəyə aid bir Ağbaba bayatısı da vardır:

*Eləmi, Məzar təpə*
*Hardasan, Məzar təpə?*
*Ayrılıq Zərnişana,*
*Eylədi azar təpə. (19)*

**MİNGÖLLƏR** – Ağbabanın şimal-qərb tərəfində, Gürcüstan, Ermənistan və Türkiyə sərhədlərinin birləşdiyi yerdə eyniadlı gölün yanındakı dağın adı idi.

Avtandil Ağbabanın bir şeirində yurd yeri kimi xatırlanır:

*Yığılıb taya başı,*
*Ucalıb göyə başı.*

*Yaddan çıxmaz heç zaman,*
*Mingöllər, Qayabaşı.*

**MİR ABDULLA OCAĞI** – Güllübulaq qəbiristanlığının yanında olan seyid qəbrinə deyərdilər. Kənd adamları bura nəzir-niyaz gətirib paylayardılar.

**MIRÇALIQDAĞ** – Mağaracıq kəndində dağ adı idi. Həmin dağda daha çox mırçalıq bitkisi bitdiyi üçün Mırçalıqdağ demişlər.

**MİRİLİLƏRİN ARXACI** – Çivinli kəndindən 2 km qərbdə Mirili tayfasının mal-qoyun arxacı olmuşdur.

**MİRZƏÖLƏN** – Qursalı kəndinin cənubunda otlaq və biçənəyə deyirdilər. Antroponim mənşəlidir.

**MİSXANA** – Pəmbəkdə dağ adı olmuşdur. Ermənistanda çap olunan xəritələrdə həmin dağın adı dəyişdirilərək «Dzaxkun» kimi qeyd edilir. Burada mis mədənləri mövcuddur.

**MİSKİN ABDAL OCAĞI** – Mollaqışlaq kəndindən cənub-qərbdə olan pirin adı idi. İnamlı pir olduğu üçün Borçalı, Ağbaba və Şörəyel kəndlərindən bura Miskin Abdal ocağı ziyarətə gələrdilər.

**MODATƏPƏ** – Yuxarı Kilsə kəndində təpə adıdr.

**MOLLA AVDININ TƏPƏLİYİ** – Qarabulaq kəndinin qərbindəki təpəliyə deyərdilər. Keçmişdə Molla Avdının əkin sahəsi olubmuş.

**MOLLA CƏFƏRİN YERLƏRİ** – Qara Namaz kəndinin cənubunda, keçmişdə Molla Cəfərə aid olan əkin yerlərinə deyirdilər.

**MOLLA QASIMIN DƏRƏSİ** – Güllücə kəndinin cənubunda dərənin adı idi. Buradakı biçənək keçmişdə kəndin varlı sakinlərindən biri olan Molla Qasıma aid olduğu üçün elə adlanmışdır.

**MOLLA MUSA YAYLASI** – Qarabulaq kəndinin qərbində, Düzkənd rayonunun Molla Musa kəndinə aid yaylaq yerlərinə deyilərdi.

**MOLLADAĞI** – Düzkənd ərazisində, cənub-şərqdə dağ

adı idi. Antroponimmənşəlidir.

**MOLLANIN ÇAYIRI** - İlanlı kəndinin şimalında keçmişdə kənd mollasına aid çayır adı idi.

**MOLLANIN XIRMANI** – Ellərkəndin qərb hissəsində, keçmişdə kənd mollasının xırman yeri olmuş düzən bir sahəyə deyilirdi.

**MORUXLUX** – Qursalı kəndinin şimal-qərbindəki biçənəyə deyirdilər. Fitonim mənşəlidir.

**MÖVLƏMQULU ARXACI** – Amasiya kəndinin şimalında, kəndin keçmiş varlısı Mövləmqulunun biçənəyinin yanında olduğu üçün elə deyilmişdir.

**MURADIN ÇAYIRI** – Amasiya kəndinin qərbində Murad kişiyə aid çayırlığın adı idi.

**MURADIN TƏPƏSİ** – Amasiyada, Muradın çayırı deyilən biçənəyin yanında olduğu üçün elə demişlər.

**MUSALARIN NAPZARI** – Amasiya kəndinin şimal tərəfində, keçmişdə Musalar tayfasına aid pay torpağının adı idi. Tədqiq etdiyimiz ərazilərdə napzar coğrafi termini daha çox işlənərək keçmişdə ayrı-ayrı adamlara aid olan, kənd önündəki pay torpaqlarını bildirmişdir.

**MUSALARIN YATAĞI** – Amasiya kəndindən şimali-qərbdə keçmişdə musalar tayfasına aid olan mal-qoyun yatağı olmuşdur.

**MUSTAFABUĞAVURAN** – Yuxarı Kilsə kəndi ərazisində yaylaq adı idi. Keçmişdə Mustafa adlı kənd sakinini burada buğa vurduğu üçün elə deyilmişdir.

**MUSTAFAÖLƏN** – Qaraçanta kəndinin cənubundaki düzün adı idi. Keçmişdə orada Mustafa adlı bir gənc düşmənləri tərəfindən burada öldürüldüyü üçün elə demişlər.

**MUSTAFATALA** – Quqar rayonunda, Şahalı kəndi ərazisində tala adı idi. Azərbaycan toponimiyasında belə talalar əsasən meşə sahəsində nəzərə çarpır.

**MUSTUQLU DÜZÜ** – Mustuqlu kəndinin şərq tərəfindən, Qumdağınadək uzanan biçənək və əkin sahələrinin adı idi.

**MUSTUQLU TƏPƏSİ** – Ağbabadakı Mustuqlu kəndi yanındakı təpənin adı idi. Kənd demək olar ki, həmin təpənin üstündə salınmışdır, 1940-cı ildə kənd ləğv edilmişdir.

**MUSTUQLU YOLU** – Sultanabad kəndindən Arpagölün cənub sahili ilə Mustuqlu kəndinə gedən torpaq yola deyərdilər.

**MÜRÜDÜN TƏPƏSİ** – Quzukəndin qərb hissəsində, keçmişdə Mürüd Söyünün əkin yeri olduğu üçün elə deyilmişdir.

**NAÇAROĞLU DƏYİRMANI** – Öksüz kəndindən Balıqlı kəndinə doğru axan çayın üstündə olmuş qədim dəyirmanın adı olmuşdur. Dəyirmanın xarabalığı qalmaqda idi.

**NADİRXANLAR//NƏDİRXANNAR** – Mağaracıq kəndinin cənub-şərqindəki böyük əkin sahələrinin adı idi. İnformatorların dediyinə görə, Nadir şahın Tiflisə yürüşü zamanı yaralı əsgərlərdən bir neçəsi bu kənddə məskunlaşaraq həmin torpaq sahələrini də becərmişlər. Oronimin tarixlə bağlılığı ondadır ki, həqiqətən Nadir şah Tiflisə ancaq bu kəsə yolla hərəkət edə bilərdi.

**NAXOŞ DAĞ** – Qarabulaq kəndinin qərbində olan dağın adıdir. Orada həm çoxlu bulaq olduğu üçün, həm də həmin dağa tez-tez yağış yağdığı üçün Naxoşdağ demişlər.

**NAMAZ DƏRƏSİ** – İlanlı kəndinin cənub-şərqində dərə adı idi.

**NAMAZ OĞLUNUN ÇAYIRI** – Çivinli kəndinin şimalında, keçmişdə Namazoğlu tayfasının biçənəyi olduğu üçün elə demişlər.

**NAMAZƏLİ ƏKƏN** – Daşlı dağla Qum dağının arasında, keçmişdə Sultanabad sakini Namazəli kişiyə aid torpaq sahəsi olmuşdur.

**NAMAZIN ADASI** – Öksüz kəndinin cənubunda, sulu çayırlıqda olan biçənəyin adı idi.

**NAMAZOĞLUNUN ÇAYIRI** – Çivinli kəndinin şimalında, keçmişdə Namazoğlu tayfasının biçənəyi olduğu üçün elə demişlər.

**NAPZAR** – Rayonun bütün kəndlərində, kəndin önündə olan pay torpaqlarına Napzar (Məsimin napzarı, Kərimin nazparı və s.) deyərdilər.

**NAPZARLAR** – Qızılörən kəndinin önündəki əkin yerlərinin ümumi adı idi.

**NAZİK DƏRƏ // NƏZİX′ DƏRƏ** – Daşkörpü ərazisində, Göydağın ətəyindəki ensiz bir dərəyə deyərdilər.

**NƏDİRALI** – Hallavar kəndi ərazisində dağ və yaylaq adı idi. Keçmişdə Nədiralı adlı sahibkarın yaylaq yeri olduğu üçün elə deyilmişdir.

**NƏSİBLƏRİN DƏYİRMANI** – Pəmbək çayın sol sahilində "Nəsibin çalası" deyilən yerdə qurulmuş köhnə su dəyirmanına deyilirdi.

**NƏSİBLİLƏRİN YERİ** – Pəmbək çayın sol sahilində Nəsiblinin çalası deyilən yerdə olan köhnə su dəyirmanına deyirdilər.

**NİSƏ DƏRƏSİ** – Mağaracıq kəndindən qərbə tərəf uzanan dərənin adı idi. Antroponimmənşəlidir.

**NOVRUZUN ÇÖKƏYİ//NAVRIZIN ÇÖKƏYİ** – Saral kəndində olan dərənin adı idi. Həmin dərədəki otlaq və biçənək də Novruzun çökəyi adlanırdı.

**NOVRUZUN XAMI** – Təpəköy kəndində xam otlağın adı idi. Kolxoz quruluşunadək Novruz kişinin biçənəyi olubmuş.

**NURƏHMƏD DAĞI** – Qara Namaz kəndinin şimal-şərqində, Təzəköy kəndindən qərb tərəfdə olan dağın adıdır. Hündürlüyü 2779 metr olan bu dağın da adı dəyişdirilərək xəritələrdə Aşosk kimi qeyd edilməkdədir.

**OCAX QAYASI//OCAQ QAYASI** –Vardana kəndinin şimal-şərqində, Ocaq dərəsi deyilən yaylaqda qayalığa deyilirdi.

**OCAXQULU TAPI** – Oxçuoğlu kəndinin cənubunda, Bacıoğlu kəndinin düzənliyində olan əkin yerlərinə deyilirdi.

**OCAQ QAYA//OCAX QAYA** – Mağaracıq kəndi ərazisində ziyarət yeri. Digər kəndlərdən də gəlib burada qurban kəsər, nəzir-niyaz paylayardılar.

Tanınmış el şairi Sultan Orucoğlu "Ocaq qaya" poeması̇nda Ağbaba və Şörəyeldə çox məşhur olan bu ziyarət yerinə müraciət edərək gözəl bir üslubi məqam yaratmışdır:

*Ocaq qaya, təsəlli ver, kəlam de,*
*Hanı yurdum, hanı yarım, balam, de?*
*Bizim eldən kimi görsən, salam de.*
*Orucoğlu de ki, qəmnən yaşadı,*
*Həsrətini qəbrə qədər daşıdı.*

**OCAQ YERİ//OCAXYERİ** – İbiş kəndində təpəlikə olan ziyarətin adi idi. İbişlilər oravda nəzir paylayar və qurban kəsərdilər.

**OXÇUOĞLU MƏSCİDİ** – Kənddəki köhnə camiya deyilirdi.

**ORDU YERİ** – Oxçuoğlu kəndinin şərq tərəfindəki xarabalığın və oradakı əkin sahələrinin adı idi. Deyilənə görə, keşmişdə həmin ərazidə Qars pasasının ordusu, yəni əsgərləri yaşayarmış.

**ORTA PAYLAR** – Qaraçantadan Amasiyaya gedən yolun sol tərəfindəki pazı (çuğundur) əkilən yerlərə deyirdilər.

**ORTA QARABULAQ** – Xancığaz kəndinin ərazisində dağ adı idi.

**ORTA QILIC** – Qarabulaq kəndi ərazisində, iki dağın başının yuxarı silsiləsini bir-birinə birləşdirən silsilənin adı idi. Qılıc coğrafi termindir.

**ORTA TAP** – Qursalı kəndinin cənubunda yaylaq, həm də biçənək adı idi.

**ORTA TƏPƏ** – Qaraçanta kəndində təpənin adı idi. İki təpəlik arasında olduğu üçün Orta təpə demişlər.

**ORTA YAL** – Ellərkənddə dağ yalıdır. Yal iki dağın arasında olduğu üçün elə demişlər.

**ORTA YAL** – Quzukəndin qərbində, III zastavanın alt tərəfində olan yala deyərdilər.

**ORTA YURD** – Arçut kəndi ərazisində yaylaq adı idi. İki dağın ortasında olduğu üçün elə demişlər.

**ORUC KİŞİNİN ARXACI** – Keçmişdə Çivinli kəndində yaşamış Oruc kişiyə aid mal-qoyun arxacı imiş.

**ORUCUN HERİYİ** – Kiçik Təpəköydə əkin sahəsinə deyirdilər. Keçmişdə bu əkin sahəsi Oruc kişiyə aid olubmuş.

**OTUZ ALTI** – Öksüz kəndinin şimalında, 50-ci illərdə satın alınmış hökümət torpağı. 36 hektar idi. Belə yerlərə, “kazyonnu zemlya” (Xəzinə torpağı) deyilirmiş.

**OYANTAY** – İlanlı kəndinin şimalında, Arpaçayın o biri sahilində olan çayırlığın adı idi. Burada tay tərəf mənasında işlənmişdir.

**OYUQLU DAĞ** – Qaraçanta kəndindən qərb tərəfdə dağ adı idi.

Mağaracıqlı İbrahim Şəfiyevin həsrət dolu bir şeirində bir neçə oronimlə birlikdə Oyuqlu dağı xatırlanmaqdadır:

*Göy təpədən asta-asta çıxaydım,*
*Oyuxludan kəvşənlərə baxaydım.*
*Şişdən enib Tap yerinə çataydım,*
*Bir doyunca qoxlayaydım kəndimi.*

**OYUQLU TƏPƏ** – Mağaracıq kəndində təpəlik adı idi.

**OYUQLU // OYUXLU** –Quqar rayonunun Haydarlı kəndində yaylaq adı idi. Burada piramidaşəkilli tikililərə görə Oyuxlar və ya Uyuxlar demişlər.

**ÖKSÜZ OCAĞI//ÖYSÜZÜN OCAĞI** – Öksüz kəndinin qəbiristanlığının yanında, hündürlüyü 2,5 metr, eni 1 m. olan, qəbirdaşına bənzər daş. Deyilənə görə, burada bir övliya dəfn edilib. Çox məşhur ocaq idi. Ziyarətçilər bura gəlib qurban kəsərdilər. Hətta burada ermənilərin də qurban kəsdiklərini görmüşəm.

**ÖKSÜZÜN QALAÇASI** – Bu qalaça Kallo adlanan dağın bir zirvəsindədir. Tikintisi qismən qalmışdır.

**ÖKSÜZÜN QƏBİRİSTANLIĞI//ÖYSÜZÜN QƏBİRSƏNNİYİ** – Öksüz kəndinin cənub ətəyindədir. Orada qarapapaq qəbirləri də vardır.

**ÖKÜZ ARXACI** – Amasiya kəndinin şimalında olan

arxacın adi idi.Keçmişdə həmin arxacda bəslənilən öküzləri gecələr yatırdarlarmış.

**ÖKÜZ DAĞI** – Düzkəndin cənubunda dağ adı idi. Deyilənə görə, keçmişdə kəndin öküzlərini otarmaq üçün xüsusi qoruq imiş. İnəkdağın yaındadır.

**ÖMƏR DƏRƏSİ** – Qaraçanta kəndində dərə adı idi. Biçənək, həm də otlaq kimi istifadə edilərdi. Bu dərə Quru dərənin yanında idi.

**ÖMƏR DƏRƏSİNİN YATAĞI** – Qaraçanta kəndində qoyun yatağının adı idi. Quru dərənin şərqində idi.

**ÖMƏRİN ÇAYIRI** – Ellərkəndin şimal-qərbində çayırlıq adı idi.

**ÖMƏRÖLƏN//OMARÖLƏN** – Təpəköy kəndinin cənubunda, Amasiyaya gedən yolun 5-ci kilometrliyində olan dərənin adı idi. Deyilənə görə, göllülü Qaçaq Yusifin qohumu Öməri Təpəköydə yaşayan Kosalar tayfasının adamları burada öldürüblərmiş. Ona görə də elə deyilirdi.

**ÖRƏNƏ** – Balıqlı kəndinin şimal-şərqində, Xancallı dağının ətəyində otlaq yeri.

**ÖRTÜLÜ** – 1903-cü ilin xəritəsində, hündürlüyü 950 metr göstərilən bu dağ Qara Namaz (Yeniyol) kəndinin arxa tərəfində - şimal tərəfində göstərilir.

**ÖRTÜLÜ** – Ellərkənddə qayalıq adı idi. Şimal tərəfdə olan bu qayalığın üst tərəfi irəli çıxdığı üçün Örtülü demişlər.

**PALANTÖKÜLƏN DAĞ** – Dızman kəndində kəskin yoxuşu olan dağın adı idi. O yoxuşu çıxan atlının altındakı palan, yəhər tökülərmiş. Cənubi Qafqazda bir neçə yerdə Palantökən toponimləri vardır.

**PALAXLIX//PALAXLIQ** – Düzkəndin qərbindədir. Palax // palaq alağabənzər bitkidir.

**POLİQONLAR//PALQONNAR** – Gümrü şəhərinin şimalında, Amasiya rayonuna gedən yolun sağ və sol tərəfindəki məhəlləyə deyilərdi. Keçmişdə bura şəhərdən uzaq əskəri – atəşgah yeri olduğuna görə elə deyilmişdir.

**PAPAQXANA//PAPAQXANA** – Gümrü şəhərindən Amasiya rayonuna tərəf başlanan yolun ətraf məhəlləsinə deyilirdi. Ermənilər də o formada işlədərdilər.

**PAŞA NAPZARI** – Amasiya kəndinin şimalındakı əkin yerlərinin adı idi. Keçmişdə bu napzar Qars paşalığına aid torpaq sahəsi olub.

**PAŞADÜŞƏN** – Dızman kəndində yaylaq adı idi. Deyilənə görə, qədimlərdə Türkiyə paşası bu yaylaqda dincələrmiş.

**PAŞAKÖRPÜSÜ** – Oxçuoğlu kəndində körpü adı idi. Deyilənə görə, rus-türk müharibələrində bu körpüdən türk paşası keçdiyi üçün, başqa bir rəvayətdə isə həmin körpünü ağır topların keçməsi üçün tikildiyinə görə Paşa körpüsü demişlər.

**PAZIYERİ** – Güllübulaq kəndində şəkər çuğunduru (pazı) əkilən böyük düzün adı idi. Ağbaba və Şörəyeldə çuğundura «pazı» deyərdilər. Bir çox kənddə "Pazı yeri" oronimləri vardır.

**PAZIYERİ** – Təpəköy kəndində kənd ilə fermanın arasında olan pazı (yem çuğunduru) əkilən əkin sahəsinə deyilərdi. Fitooronimdir.

**PƏMBƏK DAĞ SİLSİLƏSİ** – Bozabdal dağ silsiləsindən cənubda şimal-qərbdən cənub-şərq istiqamətində ona paralel olaraq Pəmbək dağ silsiləsi uzanır. Bu silsilə öz qolları ilə birlikdə Kür və Araz çayları arasında mühüm suayrıcı hesab olunur. Şırşır (Cacur) dağ keçidindən başlamış Göyçə gölünədək Pəmbək dağ silsiləsi (85 km) uzanır. Tej (3101 m) və Maymax (3082) m) bu silsilənin ən hündür dağlarıdır. Bu silsilənin bir sıra qolları var. Onlardan ən hündürü Misxana silsiləsidir. Bu silsilə cənub-şərqə - Zəngi çayı vadisinədək uzanır. Mərmərik çayı dərəsi ilə ayrılır. Silsilənin cənub-qərbində Ara dağı (2577 m) yerləşir. Silsilənin şərq qurtaracağında Dərəçiçək yerləşir. "Kitabi-Dədə Qorqud"da xatırlanan Altuntaxt zirvəsi də oradadır [6, s.163].

Qaçqınlıq dövrünü əks etdirən bir bayatıda Pəmbək oronimi xatırlanır:

*Durnam uçur Loruya*
*Qanad çalır oruya.*
*Pəmbəkdən çönüb gəlsin,*
*Xəbər versin geriyə.*

**PƏMBƏK DƏRƏSİ** – Uzunluğu 85 km olan Bozabdal və Pəmbək dağ silsilələri arasında yerləşir. Pəmbək dağ silsiləsinin Pəmbək və Hamamlı dağ keçidlərindən İrəvan Qarakilsə şose yolu, Göyçə (Semyonovka) dağ keçidindən İrəvandan Dilicana gedən şose yolu keçir.

**PƏNAH ARXACI//PƏNAHIN ARXACI** – Quzukəndin qərbində arxac adı idi.

**PƏNAHIN ÇAYIRI** – Balıqlı kəndinin şərqindəki çayırlığa deyirdilər.

**PITRAXLIX** – Amasiya kəndinin şimal-qərb tərəfindəki əkin yerlərində pal-paltara yapışan pıtraq bitkisi çox bitdiyi üçün sahəyə elə ad verilmişdir. Bununla əlaqədar olaraq belə bir bayatı da vardır:

*Bulaq başı pıtırax,*
*Gəlin, qızlar, oturax.*
*Otumaxdan nə çıxar.*
*Ərgənnikdən qurtarax [7].*

**PİR DAĞI** – Düzkəndin şimalında dağ adıdır. Dağın təpəsində ziyarət olduğu üçün Pirdağı demişlər.

**PİRİNDÖŞÜ** – Xancığaz kəndində yastana adıdır. Həmin yastana alçaq Pirdağın döşündədir.

Pəmbəkli Dursun İsmayıl oğlunun bir şeirində Pirdağı oronimi xatırlanır:

*Nəzər salam Pirdağına,*
*Girəm daim qucağına.*
*Qəribliyin bucağına,*
*Bir daha dönmərəm, dağlar.*

**PİSRƏYİN DƏRƏSİ** – Qursalı kəndində dərə adı idi.

**PİŞİKÖLƏN** – Təpəköy kəndində, Göllüyə gedən yolun üst tərəfindəki əkin sahəsinin adı idi.

**PORSUQ DƏLMƏYİ** – Qarabulaq kəndinin şimal-qərbindəki tapəliyin adı idi. Təpədə çoxlu porsuq yuvaları olduğu üçün də demişlər.

**PORSUQEŞƏN** – Təpəköydə, Qumdağının arxa hissəsinədək təpəlikdə olan porsuq yuvalarına deyərdilər.

**POSTUQLUQ//POSTUXLUX** – Şahalı kəndi tərəfdə, Pəmbəkçayın sol tərəfində keçilməz olan kolluğa deyilərdi.

**POSTUN ARASI** – Qara Namaz kəndindən Dəli çaya qədər uzanan əkin yerlərinə deyərdilər. 1920-ci illərə qədər burada türklərin hərbi sərhəd postu olub.

**RAMAZANIN ARXACI** – Güllücə kəndinin güneyində, keçmişdə kənd sakini Ramazana aid olan mal-qoyun yatağına deyilərdi.

**REYHANLI DƏRƏ** – Xancığaz kəndində dərə adı idi. Dərə adının şəxs, yoxsa bitki adından törənməsi aydınlaşmadı. Amma daha çox fitonimdən törəndiyi ehtimal olunur.

**RƏHİM DƏRƏSİ** – Mağaracıq kəndinin qərbində, Qum dağında olan dərənin adı idi.

**RƏHİMİN ARXACI** – Böyük Təpəköyün cənub-qərbində, kəndin köhnə sakinlərindən olan Rəhim kişinin mal-qoyun yatağına deyərdilər. Kənddə "Rəhimovlar" soyadı daşıyan adamların ulu babaları olmuşdur.

**RƏŞİDİN YERİ // İRƏŞİDİN YERİ** – Qaraçanta kəndinin cənubunda, yolun alt tərəfindəki əkin yerinə deyilirdi. Keçmişdə Rəşid adlı şəxsə aid olduğu üçün belə deyilmişdir.

**RUM QƏBRİ** – Göllü, Təpəköy, Şiştəpə, Güllübulaq və s. kəndlərdə olan qədim qəbiristanlıqların adı idi. Yazı və işarələri olmayan bu qəbirlər iri, ağır sal daşlardan ibarət idi. Deyilənə görə, bu qədim qəbirlər hələ müsəlman olmayan qıpçaq türklərinə aiddir.

**RUS YALI//URUS YALI** – Arçut kəndinin şimal tərəfində olan, Lermantovda yaşayan malaqan rusların biçənəklərinin adı idi.

**RZABİÇƏN//IRZABİÇƏN** – Qaraçanta kəndinin

qərbində qobu adı idi. Keçmişdə bu qobu Rza kişinin biçənəyi olduğu üçün belə demişlər.

**RZALARIN ÇAYIRI** – Qara Namaz kəndində, keçmişdə Rzalar tayfasına aid çayırlığın adı idi.

**SAATLI//SAHATLI//SAKATLI** – Ermənistanın kiçik-masştabli metroloji xəritəsində Ellərkəndin şimal-qərbində göstərilir. Dəniz səviyyəsindən 3000 metr yüksəkdə olan bu dağ adını türk mənbələrində sak tayfası adı ilə əlaqələnldirirlər.

**SAQQIZLI//SAQQIZDI** – Güllübulaq kəndinin ərazisində olan dağın adıdır. Kəndin qərbində olan bu dağın hündürlüyü 1236 metrdir. Bu dağda saqqız bitkisi çox bitdiyi üçün Saqqızlı demişlər.

**SALLAMALAR** – Quzukəndin cənub-qərbindəki təpəliklərdə – üzüaşağı sallamada olan bir neçə əkin yerinin adı idi.

**SALLIQ//SALLIX** – İlanlı kəndinin şərq tərəfindədir. Kənd adamları buradan sal daşlar çıxarıb mal pəyəsinə döşəyərdilər.

**SALLIQ//SALLIX** – Qaraçanta kəndinin cənubunda olan əkin sahələrinin adı idi. Orada torpaq qatı çox azdır. Torpağın altı tuf qatlarından ibarətdir.

**SAMAQARRILARIN BİÇƏNƏYİ** – Amasiya kəndinin şimal tərəfində, 1920-ci illərdə İrəvanın Samaqar kəndindən gələnlərin əkin-biçin sahələrinin adı idi.

**SARI BƏY** – Qursalı kəndinin cənubundakı yurd yeri idi. Antroponim mənşəlidir.

**SARI DAĞ** – Daşkörpüdən Sınıq kəndinə tərəf gedən yolun sağ tərəfindədir. Yolun kəskin, sarıgilli yoxuşuna isə “Sarı yoxuş” deyərdilər.

**SARI ÇAYIR** – İbiş kəndinin alt tərəfində, otu qısa və sarıya çalan çayırlığın adı idi. Burada su çox olduğu üçün ot saralar və qısa olardı.

**SARI ÇAYIR** – Təpəköy kəndinin şərqində Arpaçayın sol tərəfində, otu qısa və sarı təhər olan çayırlığın (40 hektar) adı idi. Ərazini su basdığı üçün çayır saralırdı. Ağbaba kəndlərində

çayırla bağlı belə bir bayatı da qeydə alınmışdır:

*Çayır biçilir, çayır,*
*Otunnan bulul qayır.*
*O alma yanağınnan,*
*Mənim payımı ayır (7).*

**SARI DAĞ** – Güllücə kəndinin şimalında olan dağın adı idi. Dağın süxuruna görə belə adlandırılmışdır.

**SARI DAĞ** – Qaraçanta kəndində, torpağı sarı gilli olan dağın adı idi.

**SARI KARXANA** – Mağaracıq kəndinin cənubunda olan sarı rəngli daş karxanasının adı idi. Son dövrlərə qədər Güllübulaq və Mağaracıq kəndlərinin ərazilərində daş karxanaları fəaliyyət göstərərdi. Daşkəsən peşəsini bacaran insanlar vardı.

**SARI QAYA** – Qaraçanta kəndinin şimal-şərqində qayalıq adı idi. Qayaların rəngi sarı təhər olduğundan elə demişlər.

**SARININ ARXACI//SARILIĞIN ARXACI** – Balıqlı kəndinin ərazisində, Sarı çayın üst tərəfində olan arxacın adı idi. Sarı çaya görə elə deyilmişdir. Daha doğrusu, oronim substantivləşmişdir.

**SARI YAL** – Güllücə kəndinin şimal-qərb tərəfində dağa qalxan yüksəkliyə deyirdilər.

Məcnun Ağbabalının daha bir şeirində "Sarı yal" oronimi xatırlanır:

*Ay Sarı yal, Çətin dərə, Göy bulaq,*
*Ziyaratdan dünənimi al soraq.*
*Qayalardan bayraq endir, bayraq tax*
*Enən endi, qalxan qalxdı bu yerdə.*

**SARI YAR** – Güllübulaq kəndinin cənubunda – gilli sarı torpaqdan ibarət olan yastı dağın adıdır.

**SARI YOXUŞ** – Daşkörpü kəndinin qərbində, Sarı dağın ətəyindəki yoxuşun adı idi. 1960-cı illərdən əvvəl burada Ağbabanın dağ kəndlərinə işlək yol gedirdi. Sonralar yolu kəsələşdirib Daşkörpü kəndinin altından saldılar.

**SELOYLAR//SELOVLAR** – Amasiya qəsəbəsində -

şimal-şərqdə otlaq sahəsinin adı idi. Dağlardan gələn sel suları buranı ovub keçdiyi üçün elə demişlər.

**SEYİD ABBASIN OCAĞI** – Mağaracıq kəndində yaşamış seyidlərdən olmuşdur. Onun cəddinə inananlar gətirib burada nəzir-niyaz paylayardılar.

**SEYİD AĞANIN GÜNBƏZİ** – Qaraçanta kəndinin qəbiristanlığında gümbəz adı idi.

**SEYİDAĞANIN ZAĞASI** – Qaraçanta kəndinin cənubunda, Arpaçayın kanyonundakı mağara – zağaya deyilirdi. Deyilənə görə, keçmişdə bu zağada qoyun saxlanılırmış.

**SEYİD MƏHƏMMƏDİN GÜMBƏZİ** – Qaraçanta kəndində inamlı bir seyidin gümbəzinin adı idi. Ətraf kəndlərin adamları həmin gümbəzdən ocaq ziyarət yeri kimi istifadə edir, ora ziyarətə gələrdilər. Qoyun-quzu qurban kəsərdilər.

**SEYİD NƏBİNİN DƏRƏSİ** – Daşkörpü kəndinin qərb hissəsində olan kiçik dərəyə deyirdilər.

**SEYİD URQİYƏNİN OCAĞI//SEYİD RUQİYYƏNİN OCAĞI** – Oxçuoğlu kəndinin qəbiristanlığında künbəz adı idi. Bu qəbir-künbəz həm də kənd adamlarının ziyarət yeri idi.

**SEYİDBİÇƏN** – Quzukəndin şərqində, Arpagöldə olan adaya deyərdilər. 1948-ci ildə Arpa gölünün sahəsi genişləndirilərkən həmin təpə gölün içində adaya çevrilmişdir.

**SEYİDLƏRİN ÇAYIRI** – Qaraçanta kəndinin cənubunda, Arpaçayı dərəsində - çayın qırağında olan çaylığa deyirdilər.

**SƏFİNİN TƏPƏSİ** – Hallavar kəndinin qurtaracağında olan təpənin adı idi.

**SƏMƏDİN ARXACI** – Quzukənd kəndinin qərbində, Qalaçanın yanındakı arxacın adı idi.

**SƏMƏDİN YURDU** – Qursalı kəndinin cənub-şərqindəki yurd yerinə deyirdilər. Antroponim mənşəlidir.

**SƏMƏNDİN QAYASI** – Qara Namaz kəndinin arxasındakı Qalaçaya gedən yolda olan böyük qayaya deyilirdi. Antroponim mənşəlidir.

**SƏNƏMSÜRÜNƏN** – Dızman kəndində dağ adıdır. Həmin dağa Sənəmsürünən yal da deyirdirlər. İnformatorlar mikrotoponimin mənasını aydınlaşdıra bilmədilər.

**SƏNGƏR** – Düzkəndin cənubunda dağ adı idi. Dağın üstündə qədim oğuz qalasının izləri vardır. Qalanın yanında isə at və qoçheykəlli qəbirlər qalmaqda idi.

**SƏNGƏR** – Hallavar kəndinin ərazisində, üstündə qədim oğuz qalaçasının xarabalığı qalan təpəliyin adı idi. İnformatorların dediyinə görə, vaxtı ilə həmin qalanın hündür hasarı var imiş.

**SƏNGƏR DƏYİRMANI** – Güllücə kəndində, Səngər dərəsindən Ellərkənd tərəfdən axan güclü bulaq sularının üstündə qurulmuş qədim su dəyirmanının adı olmuşdur. Son dövrlərdə xarabalığı qalmaqda idi.

**SİMUZƏRIN QIRI//SİMİZƏRİNQIRI** – Qara Namaz kəndinin ərazisində olan xam otlaq adı idi.

**SINIQ DƏRƏSİ** – Amasiya kəndindən Sınıq kəndinə gedən yolun yanında uzanan dərənin adı idi. Sınıq kəndinin əhalisi 1920-ci illərdə Qars tərəfə keçmişlər. Kəndin xarabası qalmaqdadır.

**SOĞANAQ//SOĞANAX** – Quzukənd kəndində qobu adı idi. Çöl soğanağı bitkisi burada çox bitdiyi üçün əraziyə Soğanaq demişlər.

**SOYUQBULAQ DƏRƏSİ** – Dızman kəndində dərə adı idi. Dərənin adı orada bulaqla əlaqədar yaranmışdır.

**SÖYÜDLÜ DƏYİRMANI//SÖYÜDDÜ DƏƏRMANI** – Xaraba qalmış Söyüdlü kəndinin yanında olan qədim su dəyirmanının adı olmuşdur. Söyüdlü kəndinin adamları da 1920-ci illərdə Qars tərəfə köçüb getmişlər.

**SÖYÜNPAŞANIN ÇAYIRI** – Çivinli kəndinin cənub ətəyində Keçmişdə Söyünpaşaya aid olan biçənəyin adı idi. Antroponim mənşəlidir.

**SUQARIŞAN** – Amasiya qəsəbəsi ərazisində Mövləqulu arxacı ilə Əliyar arxacındakı bulaq sularının birləşdiyi yerə

deyərdilər.

**SULTANABAD QƏBİRİSTANLIĞI** – 1948-ci ildə Göyçaya köçürülmüş Sultanabad kəndinin qəbiristanlığı. Arpagölün sahəsi genişləndirilərkən qəbiristanlıq gölün suları altında qalmışdır.

**SUTÖKÜLƏN** – Göllünün şimalında, Güney dağdan gələn bulaq sularının şəlalə kimi töküldüyü yerin adıdır.

**SÜDDAŞI** – Çivinli kəndində ocaq adı idi. Uşağı olan qadınların döşündə südü olmayanda bura nəzir-niyaz gətirərdilər ki, südlənsinlər.

**SÜLEYMAN DAĞI** – Qızılörən kəndinin yaxınlığındakı dağın adı idi. Antroponim mənşəlidir.

**SÜLEYMANIN QOBUSU** – Böyük Təpəköy ərazisində, Qum dağının ətəyində keçmişdə kənd sakini Süleyman kişiyə aid olan biçənəyə deyirdilər.

**SÜLEYMAN KİŞİNİN DƏYİRMANI** – Çivinli suyunun üstündə, keçmişdə Süleyman kişiyə aid olduğu üçün elə demişlər.

**SÜNNÜ TƏPƏSİ** – Güllübulaq kəndində təpə adı idi. Güllübulaq kəndi əsasən şiə məzhəbli insanlar idi. Yəqin ki, kənddə süni məzhəbində də sakinlər yaşamışlar.

**SÜPÜRGƏLİK** – Düzkənd kəndinin şərqində süpürgə bitən düzün adı idi.

**SÜSƏNBƏR OBASI** – Dızman kəndində yurd yeri və dağ adı idi.

**ŞABANNAR MƏHƏLLƏSİ** – Amasiya kəndində, Arpa-çayı dərəsinin başında Şabannar tayfasının yaşadığı məhəlləyə deyərdilər.

**ŞAH ARX** – Ələyəz dağının yuxarısında XVII əsrdə çəkilmiş arxın yanındakı yastananın adı idi.

**ŞAMİLİN ARXACI** – Göllü kəndinin şimal tərəfində arxac adı idi.

**ŞAMLIQ** – Qursalı kəndindən cənubda meşəlik adı idi.

**ŞEŞƏ** – Göllü kəndinin şimalında olan qabarıq qayalığın

adı idi.

**ŞEŞƏNQAYA** – Hallavar kəndində qayalıq adı idi. Qayanın üst tərəfi qabarıq olduğu üçün elə deyilmişdir.

**ŞEYTAN YATAĞI** – Düzkənd kəndinin şimalında olan qabarıq qayalığın adı idi.

**ŞƏHƏRİN QAŞI** – Oxçuoğlu kəndinin cənub-şərq tərəfində, kənddən 4-5 km məsafədə olan Gümrü şəhərinə gedən yoldadakı yüksəkliyə deyirdilər.

**ŞƏMİLİN HERİYİ** – Çivinli kəndinə yaxın, Göydağın ətəyində, sahəsi 10 ha olan əkin sahəsi idi.

**ŞƏRİFİN QAYASI** – Qızılörən kəndinin ərazisindəki qayalığın adı idi. Antroponim mənşəlidir.

**ŞƏRİFİN QOBUSU** – Amasiya kənd sakini Şərif kişinin keçmişdə biçənəyi olubmuş.

**ŞİRİNBULAQ** – Yuxarı Kilsə kəndinin başqa bir adı olmuşdur.

**ŞİŞ DAĞ** – Qara Namaz kəndinin şimalında, başı sivri və iti olan dağın adı idi.

**ŞİŞ DAĞ** – Xaraba qalmış Mumuxan kəndinin cənubundakı dağa deyirdilər.

**ŞİŞ DAĞ** – Mağaracıq kəndinin qərbindəki dağın adıdır.

**ŞİŞ DAĞ** – Öksüz kəndindən şimalda olan dağın adı idi.

**ŞİŞ DAĞ** – Amasiya qəsəbəsinin şərqində dağ adı idi. Amasiya yaxınlığındakı Şişdağda 1973-cü ildə teleqüllə qurulmuşdur.

Avtandil Ağbabanın bir şeirində bu dağda yayda belə əriməyən qar arzulanır:

*Gül üstdə arı ola,*
*Pətəkdə barı ola.*
*Tanrı burda bir ovuc,*
*Şişdağın qarı ola.*

**ŞİŞ DAŞ** – Mollaqışlaq kəndinin şərqində yaylaq və qayalıq adı idi. Həmin qayalığın ortasındakı böyük qayanın sivri ucu göyə ucalırdı.

**ŞİŞİN CÖKƏYİ** – İlanlı kəndinin ərazisində, Şişdağın ətəyində otlaq yeri idi.

**ŞİŞİN DİBİ** – Mağaracıq kəndində əkin sahələrin adı idi.

**ŞİŞİN ZİYARATI // ŞİŞİN ZİYARƏTİ** – Mağaracıq kəndinin yanındakı Şiş dağda olan ziyarətgaha deyərdilər.

**ŞİŞİN ÇƏHLİMİ** – Mağaracıq kəndinin qərbindəki dağda olan çəhlim.

**ŞİŞ TƏPƏ** – Qızılqoç rayonu ərazisində, Arpaçayın sağ tərəfində olan təpənin, həm də kəndin adı idi.

**ŞİŞTƏPƏ OCAĞI** – Ağbabada Şiştəpə kəndinin söykəndiyi Şiştəpə dağında olan inamlı ocağın adı idi. Göstərilən oronimlərdə Şiş coğrafi termin olaraq dağın və ya təpənin sivri, iti təpəsini əks etdirir.

**ŞORAX** – Hallavar kəndi yaxınlığındakı xaraba kənd yerinə deyirdilər. Mənbələrdə 1926-cı ildə burada 32 nəfər azərbaycanlının yaşadığı qeyd olunur.

**ŞORAXLAR** – Oxçuoğlu kənddən rayon mərkəzinə gedən yolun sol tərəfində, 100 hektarlıq əkin sahəsi. Torpağı şoran olduğu üçün elə demişlər.

**ŞÖRƏYEL DAĞ SİLSİLƏSİ //ŞÖRƏYEL DAĞLARI** – Boz Abdal dağ silsiləsinin qərb tərəfindən başlanan və qərbə tərəf uzanan (30 km) dağ silsiləsinin adıdır. Arpaçaya qədər uzanan bu dağın adı qədim türkmənşəli tayfa olan sirak//şiraklarla bağlıdır.

**ŞÖRƏYEL DÜZÜ** – Boz Abdal, Ələyəz və Şirak dağları arasında olan vadinin adıdır. Bu vadinin bir tərəfi - qərbə tərəf uzanaraq Arpaçayı keçir və Türkiyə ərazisinə çatır.

**ŞÜKÜRQIRAN** – Elləroyuğu kəndinin şimal-qərbində əkin yerləri. Keçmişdə Şükür adlı bir rəncbər buranı ilk dəfə öküz kotanı ilə əkdiyi üçün belə demişlər. Burada "qırmaq" xam yeri əkmək mənasındadır.

**ŞÜKÜRÜN ARXACI//ŞÜYÜRÜN ARXACI** – Böyük Təpəköyün cənub-şərqində, keçmişdə kənd varlısı Şükür kişiyə aid mal-qoyun yatağı olduğu üçün belə demişlər.

**ŞÜKÜRÜN GÜNEYİ** – Güllücə kəndinin şimalında kəndin keçmiş sakini Şükür kişiyə aid olan biçənək.

**TAXÇALAR** – Qursalı kəndinin ən ecazkar yaylaqlarından biri olmuşdur. Burada taxça xalq coğrafi termin olaraq dağ döşündə olan düzənliyi bildirir. Sona Qursalı taxçalar yaylağını şeirlərinin birində belə xatırlayır:

*Həsrətəm yarpıza, şehli bulağa,*
*Taxçalar, Dəliyurd, Qarovul dağa.*
*Yatıb göyüş çalır qabaq-qabağa,*
*Hifz et bizi, Kərəməli, gözəldi.*

**TAĞI DƏRƏSİ** – Qönçəli kəndinin cənubunda dərə adı idi. Antroponimmənşəlidir.

**TAXÇA QAYA** – Ellərkəndin şimalındakı qayalığın adı idi. Qayalığın ortasında bir neçə taxça olduğuna görə elə demişlər. Burada "taxça" qayalıqda yonularaq nə isə saxlamaq üçün şkafabənzər bir yerə deyirdilər.

**TAXTAKÖRPÜ** – Şahalı kəndində, Pəmbəkçayın üstündəki körpünün adı idi.

**TALA YAYLA** – Saral ərazisindəki meşəlikdə olan yaylağın adıdır. Toponimiyada tala, əsasən, meşəlik ərazilərdə olan boş sahələrə deyilir.

**TANIŞ** – Ələyəz dağının uca zirvələrindən birinin adıdır.

**TANRIVERDİ OĞLUNUN DƏYİRMANLARI** – Gümrü şəhərinin cənub-qərbində, Arpa çayının sol tərəfində, keçmişdə Tanrıverdi oğlu adlı tacirə aid 12 dəyirman yerinə deyərdilər.

**TANRIVERDİ OĞULLARININ KARVANSARASI** – Gümrü şəhərində, keçmişdə Tanrıverdi oğullarına aid olan karvansara. Bu bina indi də qalmaqdadır. Lakin erməni tikilisi kimi təqdim edilir.

**TAP** – Hallavar kəndinin şimal-şərqindəki düzənliyin adı idi.

**TAPILAR** – Çivinli kəndinin qərbində, Göydağın ətəyindəki təpəliklər arasında olan bir neçə düzənliyə deyərdilər.

**TAPIN DÜZÜ** – Pəmbək bölgəsinin Yuxarı Kilsə kəndində düz adı idi.

**TAYA QAYA** – Ağbabanın qərbində, Çivinli kəndindən 5-6 km qərbdə, Türkiyə sərhəddində dağ adıdır. Dəniz səviyyəsindən 2250 metr hündürlükdə olan bu dağın başında ot tayalarına bənzər iri qayalıqlar vardır. Bir Ağbaba bayatısında bu oronim xatırlamaqdadır:

*Eləmi, Tayaqaya*
*Ucalır Aya qaya.*
*Dərdimi təzələmə,*
*Yetişsən haya, qaya. (7)*

**TAZIUÇAN** – Amasiya kəndinin arxasında, Arpaçayı dərəsinin sıldırımlı bir yeri idi. Deyilənə görə, keçmişdə ovçuların tazısı buradan uçub öldüyü üçün elə demişlər.

**TELLİ QAYA** – Quqar rayonu Haydarlı kəndi ərazisində yaylaq adı idi. Qayalığın başından bir neçə sivri qaya irəli çıxdığı üçün elə demişlər. Bu qayalıqda həm də böyük mağara vardır.

**TEYYUBUN ARXACI//TEYİVİN ARXACI** – Təpəköy kəndindən 1 km şimalda təpəlikdə olan arxacın adı idi. Həmin təpəliyə Teyyubun qayası da deyərdilər. Arxac iri daşlarla çəpərlənmişdir. Deyilənə görə, bu arxac, 1920-ci illərdə Qars tərəfə köç edən Kiçik Təpəköylü Qulu ağaya aid olubmuş.

**TƏHMƏZLƏR** – Qursalı kəndinin səfalı yaylaqlarından biri olmuşdur. Şəxs adı ilə bağlı oronimdir.

Pəmbəkli el şairi Nəsib müəllim Pəmbək dərəsindəki yaylaqları belə vəsf edir:

*Pəmbək ellərinə gələndə bahar*
*Sazlı-sözlü dərələri gözəldi.*
*Təhməzlər, Çökəlik, şəbnəm Gödəklər,*
*Sarı yarğan mənzərəsi gözəldi.*

**TƏHMƏZİN KOLU** – Təhməzin güneyi, Bala Təhməz – Qursalı kəndinin cənub tərəfində bir-birinə yaxın olan yaylaq yerlərinin adları idi.

**TƏK GÜNEY** – Daşkörpü kəndinin qərbində, uca və üzü gündoğana baxan tək dağın adı idi.

**TƏMRAZIN ARXACI** - Təpəköy kəndindən 1 km şimalda olan arxacın adı idi. 1920-ci illərədək bu arxac təpəköylü İskəndər ağanın olmuşdur.

**TƏPƏBAŞI** – Quzukəndin ortasında, təpədə olan məhəllənin adı idi. Bəzən orada yaşayanlara "Təpəbaşılar" da deyərdilər.

**TƏPƏ MƏHƏLLƏSİ** – Böyük Təpəköydə təpəyə söykənən evlərə deyərdilər.

**TƏPƏ MƏHƏLLƏSİ** – Düzkənd kəndinin təpəlikdə olan köhnə məhəlləsinə deyilərdi.

**TƏZƏ DƏYİRMAN** – Qursalı ərazisində, Pəmbək çayının sol sahilində (köhnə dəyirmanla üzbəüz) 1930-cu ildən sonra qurulan su dəyirmanına deyilirdi.

**TİKMƏDAŞ** – Ellərkəndin şimalında qaya adı idi. Bir-birinə söykənən daşlar tikişə bənzədiyi üçün Tikmədaş adlandırılmışdır.

**TODAR DAĞ//TURŞALIX** – Pəmbək dağ silsiləsinə daxil olan dağ adıdır. Arçut kəndinin qərbindədir. Dağın iki adı olmuşdur.

**TOF DAŞ** – Böyük Təpəköydən Düzkəndə tərəf gedən torpaq yolun 4-cü kilometrində iri, təpə kimi qalaqlanan daş topasına deyilirdi.

**TOPAL HACI XƏLİLİN ÇAYIRI//TOPAL HAŞXALILIN ÇAYIRI** – Kəndin şimal hissəsindəki dağın arasında olan əkin yeri və çayırlığa deyilirdi.

**TOP DAŞ//TOFDAŞ** – Təpəköy kəndindən 2 km şərqdə çox da hündür olmayan qayalığın adı idi. Həmin təpəlik Qızıldağın qərb ətəyindədir.

**TOPDAŞ//TOF DAŞ** – Xancığaz kəndinin ərazisində qayalıq adı idi.

**TOP QAYA//TOFQAYA** – Göllü kəndinin qərb hissəsində top halda olan qayalığa deyilərdi.

A.Ağbabanın bir şeirində xatırlanır:

*Göllünün Top qayası,*
*Sıldırım, sarp qayası.*
*Haçansa göydən düşüb*
*Qüdrətdəndir mayası.*

**TOP QAYA** – Qaraçanta ərazisində, Köhnə yayla deyilən yerdə, Maral yatağından aşağıda olan top qayalığa deyilərdi.

**TOPQAYA** – Quzukəndin qərbində olan qayalığın adı idi.

**TORFUN QABAĞI** – Xaraba qalmış Torf yaşayış məntəqəsinin şimal-qərb tərəfindəki 50 hektarlıq əkin sahəsinin adı idi.

**TORFUN ÜSTÜ** – Təpəköy kəndinin ərazisində, Torf adlanan yaşayış məntəqəsinin cənub tərəfindəki əkin sahəsinin adı idi.

**TORFÜN BÖYRÜ** – Torf yaşayış məntəqəsinin şərq tərəfində 40 hektarlıq əkin sahəsinin adı idi.

**TOSMAQ TƏPƏ** – Hallavar kəndində balaca və yastı təpənin adı idi. Tosmaq alçaq mənasındadır.

**TOSTƏPƏ** – Arçut kəndində təpəlik adı idi. Oronimin birinci tərəfindəki «tos» alçaq və iri mənasını ifadə edir.

**TOZLUQ // TOZDUQ** – Xancığaz kəndində toz ağacı bitən yerə deyilərdi.

**TUŞKEÇİDİ** – Gürcüstan sərhəddində, Çivinli kəndinin şimal-qərbində dağ keçidi adıdır.

**TÜLKÜ TƏPƏSİ** – Balıqlı kəndinin ön tərəfində, tülkü yuvaları olan təpəyə deyərdilər.

**TÜLKÜ TƏPƏSİ** – Haydarlı kəndi ərazisində tülkü yuvaları olan təpəlik adı idi.

**TÜLKÜEŞƏN** – Təpəköy kəndi ərazisində, Qum dağının cənub yamacındakı yarğanın adı idi. Orada tülkü eşmələri çox olduğundan elə deyilmişdir.

**TÜLKÜ TƏPƏSİ** – Təpəköydən Göllü kəndinə gedən yolun sağ tərəfində, tülkü yuvaları olan təpənin adı idi.

**TÜRPƏKLİK//TÜRPƏX'LİX'** – Kiçik Təpəköydə,

Balatəpənin sol tərəfindəki əkin yerinə deyilərdi. Orada türpək bitkisi çox bitdiyi üçün elə adlandırılmışdır.

**UNNUCALIX** – Qızılörən kəndində, arxaca yaxın olan yerin adı idi. Ağbaba kəndlərində də unnuca çox bitən yeməli bitkinin bir növüdür. Unnucaya aid bir bayatıda onun yaşam üçün gərəkli bir bitki olduğu qeyd edilir:

*Unnucaydı – unumuz,*
*Yağlıçaydı – yağımız.*
*Unnucuya qurt düşüf,*
*Noolacax halımız [7].*

**URQİYƏNIN OCAĞI** – 1931-ci ildə Urqiyə adlı bir seyid qızının dəfn edildiyi gümbəzin adı idi. Gümbəz Oxçuoğlu qəbiristanlığındadır. İnamlı pir kimi ətraf kəndlərdən gəlib burada qurban kəsərdilər.

**URUM QƏBİRSƏNNİYİ // RUM QƏBİRSTANLIĞI** – Öksüz kəndinin qərb tərəfindəki dikdə, sal daşlardan ibarət olan qədim qəbiristanlığa deyirdilər. Deyilənə görə, xristian qıpçaqlara aiddir.

**URUS YATAĞI//RUS YATAĞI** – Öksüz kəndindən şimalda, Qorlovkada yaşayan duxobor rusların mal-qoyun yatağına deyərdilər. Qorlovkanın keçmiş adı Buğdaşen olmuşdur.

**URUSTAMIN XAMI** – Böyük Təpəköydə, kəndin sakini Rüstəm kişinin keçmişdə biçin sahəsi olmuşdur.

**USUFLUNUN YERİ** – Qara Namaz kəndində böyük bir düzün adı idi. Usuflular Qara Namaz və İlanlı kəndlərində yaşayan tayfalardan biri olmuşdur.

**USUFÖLƏN** – Ellərkəndin şimal-şərq tərəfindəki qayalağın adı idi. 1912-ci ildə Ağbabalı Qaçaq Usubun burada kazaklar tərəfindən güllə ilə vurulduğu söylənilir (7).

**UZUNDAŞ YAYLAĞI** – Saral kəndinin yaylaqlarından biri idi. Orada bir təbii coğrafi obyekt – uzun daş olduğu üçün elə deyilmişdir.

**UZUNDAŞ YATAĞI** – Uzundaş yaylağında olan qoyun yatağına deyərdilər.

**UZUN YERLƏR // UZUN YERRƏR** – Mağaracıq kəndinin qərbində, uzununa düşən bir neçə parça əkin sahələrinə deyilirdi.

**ÜÇQARDAŞ PİRİ** – Çivinli kəndində pir (ocaq) adı idi. Ziyarət yeri üç dənə hündür qara daşdan ibarət idi. Deyilənə görə, bu daşlar iman əhli olan dərviş qəbirləridir.

**ÜÇTƏPƏ** – Göllü kəndinin şimal-şərqində, yan-yana olan təpələrin adı idi.

**ÜÇTƏPƏLƏR** – Türkiyə, Ermənistan və Gürcüstan sərhədlərinin birləşdiyi yerdən 10-12 km aralı, sərhəd zolağında yerləşən dağın adıdır. Rusiya ilə Türkiyə arasında 16 mart 1921-ci ildə bağlanan Qars müqaviləsinin xəritəsində də hündürlüyü 2948 metr olan həmin təpəliklər bu adla qeyd edilmişdir.

**ÜRÜŞDÜNÜN TƏPƏSİ** – Quzukəndin şimal-qərbində təpəlik adı idi.

**ÜSKÜKİTƏNİN BİNƏSİ** – Dızman kəndində yaylaq yerinin adı idi.

**VƏLİNİN CİLLİYİ** – Qursalı kəndinin cənubunda, keçmişdə Vəli adlı mülkədara aid olduğu üçün elə deyilmişdir.

**VƏLLƏZDİNİN RƏNDİ** – Saral kənd ərazisində böyük bir biçənəyin adı idi.Oronimin tərkibində coğrafi termin kimi işlənən "rənd" sərhəd,yəni xüsusi torpaq mülkiyyətçiliyi kimi başa düşülmüşdür.

**VƏRDƏNƏ TAPI** – Oxçuoğlu kəndinin cənub-qərbində, xaraba Vərdənə//Vardana kəndi yaxınlığında böyük əkin yerinin adıdır. 1918-ci ildə sərhəddə olan bu kəndi ermənilər yandırmışlar.

**VƏRDƏNƏ//VARDANA DƏRƏSİ** – Pəmbək bölgəsində, Qarakilsə şəhərinin şimal-şərq qurtaracağında – Vərdənə/Vardana kəndinin yerləşdiyi dərənin adıdır.

**VOSKROSENOVKA** – Pəmbək bölgəsində, Qarakilsə-Dilican yolunda Quqar rayonuna aid olan kəndin yanındakı düzənliyə deyilirdi. 1828-ci illərdə malakan təriqətli rusları çar hökuməti bu ərazidə yerləşdirmiş və kənd salınmışdır. Həmin

kənd 1941-ci ildən Lermantovo adlandırılmışdır.

**YABIQIRILAN** – Amasiya kəndindən simalda, Sınıq dərəsində uçurum adı idi. Deyilənə görə, keçmişdə kəndin at ilxısından bir neçəsi hürkərək buradan tullanıb öldüyü üçün elə demişlər.

**YAĞDAŞAN** – Saral kəndində yaylaq və yüksəkli adı idi.

**YALAQLI // YALAXLI** – Balıqlı kədinin şimalında olan yastı dağın adı idi. Daşların üstündə müxtəlif çuxurlar olduğu üçün elə demişlər. Yağış yağanda bu yalaqlar su ilə dolardı. Dağın yalında olduğu üçün elə deyilmişdir.

**YAL YURD** – Arçut kəndində, dağ yalında olan yurd yerinin adı idi.

**YANIXLAR** – Qara Namaz kəndinin cənubunda, daşlı, qumlu otlaq adıdır. Otu tez solduğuna görə elə demişlər.

**YANIXLAR** – Mağaracıq kəndi ərazisində, güneydə olan sahələrə deyərdilər. Buranın otu tez saralıb söndüyü üçün elə demişlər.

**YANIQ DAĞ // YANIX DAĞ** – Güllübulaq kəndinin cənubunda dağ adı idi. İnformatorların dediyinə görə, dağın torpağı şoran olduğu üçün otu da tez solur. Otu tez puç olduğu üçün Yanıqdağ demişlər.

**YANIQ YERLƏR // YANIX YERRƏR** – Qaraçanta kəndinin şimalında olan əkin yerlərinin adı idi. Əkin yeri sarı gillik olduğu üçün taxıl da tez sönüb puç olurmuş. Oronimdəki «yanmaq» sözü məhsulun vaxtsız quruyub puç olmasını bildirir.

**YARIMDÜNYA** – İlanlı kəndinin cənub-şərqində, 90 ha sahəsi olan əkin yeri. Məhsuldarlığına görə elə demişlər.

**YASAUL DAĞI // YASOYUL DAĞI** – Şörəyel vadisində, Yasaul kəndinin şərqindəki dağın adıdır. Şörəyel (Şirak) dağları silsiləsinə daxildir. Oronimin tərkibindəki Yasaul (yasa - avul) qədim türk dilinin leksik vahidi olub «qanun keşikçisi» mənasının əks etdirir. Bu dağın ətəyi Gümrü qarnizonunun atəşgahı idi. Antroponimmənşəlidir.

**YASAUL DÜZÜ //YASOYUL DÜZÜ** – Gümrü-

Amasiya yolunun 8-ci kilometrliyində, sağ tərəfdə Şörəyel dağlarına tərəf uzanan düzə deyirdilər. Yasaul kəndi də bu ərazidə yerləşir.

**YASININ BAĞI** – Oxçuoğlu kəndində salınmış ilk bağlardan birinin adı idi. Keçmişdə bəzək ağacı bitməyən kənddə 1970-ci ildə suvarma kanalı çəkiləndən sonra meyvə bağları salındı. Yasın adlı kənd sakininin gərgin əməyi nəticəsində müxtəlif meyvələr yetişdirən bu bağ demək olar ki, bütün Şörəyel vadisində məşhur idi.

**YASTANA** – Qara Namaz kəndinin 'şimal tərəfindəki Qaragüney dağının döşündəki yastı və hamar bir səthin adı idi. Belə bir Ağbaba bayatısında yastana coğrafi termini xatırlanmaqdadır.

**YASTANA** – Quzukənd kəndinin şimal-qərb tərfində, Qalaça adlanan dağın güney tərəfindəki yamacın düzən yerinə deyilərdi. Belə bir Ağbaba bayatısında yastana coğrafi termini xatırlanmaqdadır:

*A yastana, yastana,*
*Keçilər girib bostana.*
*Qorxuram yağış yağa,*
*Motal papax istana [7].*

**YAYLANIN ÜSTÜ** – Quzukəndin qərb tərəfində olan yaylaq yerlərinin üst tərəfindəki alçaq dağ silsiləsinə deyilirdi.

**YAYLI ÇAYIR** – Qara Namaz kəndinin cənubunda çayırlıq adı idi. Çayırlığın altı torflu bataqlıq olduğu üçün insan yeriyəndə çayır yay kimi qalxıb endiyi üçün elə demişlər.

**YAZILI YATAQ** – Şahalı kəndi ərazisində arxac adı idi. İnformatorlara görə,həmin arxacın yanında olan böyük qayalarda müxtəlif cizgili yazılar olduğu üçün Yazılı yataq demişlər.

**YEDDİBÖLÜK** – Qara Namaz kəndinin qərbində olan bu dağın bir gövdəsi üzərində yeddi kiçik və alçaq dağlar var.

**YEDDİLƏR** – Çivinli kəndinin cənubunda, sərhəd zastavası yanında, sahəsi 32 ha olan yeddi parça əkin yerinin adı idi.

**YELLİ YURD** – Hamamlı rayonunun Qursalı kəndinin cənub-şərqində həmişə küləkli olan yaylağa deyirdilər.

**YEMİŞƏNLİ YURD//YEMŞANNI YURD** – Pəmbək bölgəsində, Saralbinəsi adlanan dağda yaylaq adı idi. İnformatorlara görə, həmin yaylaqda yemişan çox bitdiyi üçün Yemişanlı yurd və ya Yemşannı demişlər. Fitonimmənşəlidir.

**YEMLİKLİ** – Güllücə kəndinin şimalında alçaq və yastı dağın adı idi. İnformatorlara görə, o dağda yeməli yemlik bitkisi çox bitdiyi üçün elə deyilmişdir.

**YEMLİKLİK//YEMLİX'LİX'** – Kiçik Təpəköy tərəfdə, Bala Təpənin yanındakı əkin sahəsinə deyilərdi. Orada enliyarpaq yemlik (buna at yemliyi də deyərdilər) çox bitdiyi üçün əkin sahəsi elə adlandırılmışdır. Fitooronim mənşəlidir.

**YOLAQLAR//YOLAXLAR** – Daşkörpü kəndinin şimal-qərbindəki biçənəklərə deyilirdi. İnformatorlara görə, bu biçənəkdən dağa bir neçə yolaq (yol) çıxdığı üçün elə demişlər.

**YOLAQLAR//YOLAXLAR** – Güllübulaq kəndinin şərqindəki Arpaçayı dərəsinə enmək üçün bir neçə yol düzəldilmişdir. Həmin yollara və ora yaxın olan əkin sahələrinə Yolaqlar deyilirdi.

**YOLÇUNUN BEŞ HEKTARI** – İlanlı kəndinin şərqində əkin yerinin adı idi. Hələ kolxoz quruluşundan əvvəl Yolçu adlı bir varlının əkin yeri imiş.

**YOLKEÇƏN** – Oxçuoğlu kəndi ilə Qara Məmməd kəninin arasındakı sərhədboyu keçən yolun ətrafındakı əkin yerlərinə deyilirdi.

**YUXARI CEYİLLİK** – Göllü kəndinin şimalındakı sulu və otlaq yerə deyirdilər.

**YUXARI TAP** – Haydarlı kədində düz adı idi. Tap yerli coğrafi termin olaraq düzənlik mənasındadır.

**YUMRU ÇAYIR** – Amasiya kəndinin şimal-qərbindəki dairəvi formada olan çayırlığın adı idi.

**YUMRU QAYA // YUMRU QAA** – Göllü kəndinin şimalında təbiət hadisəsi olan qayalığın adı idi.

**YUMRU TƏPƏ** – Düzkənd kəndinin cənub tərəfində olan daşlı təpənin adı idi.

**YUMRU TƏPƏ** – Güllübulaq kəndinin cənubundakı təpənin adı idi.

**YUNUSUN TƏPƏSİ** – Qara Namaz kəndinin yaxınlığındakı yastı təpəliyə deyilirdi. Kəndin şimal-qərbində olan bu təpəlik keçmişdə Yunis adlı bir kişinin biçənəyi imiş.

**YURDLAR // YURDLAR** – Daşkörpü ərazisində, Göydağın hövzəsində olan yaylaq-yurd yerlərinin və biçənəyin adı idi.

**YURDLAR//YURDDAR** – Qaraçanta kəndinin qərbində qədim yurd yerinin və həmin ərazidə olan əkin yerlərinin adı idi.

**ZAĞA** – Güllübulaq kəndinin şərqində, Arpaçayı dərəsinin qarşısnda olan mağaraların adı idi. Yerli şivədə ora Zazalar da deyilərdi. Qədim dövrlərdə insanlar tuf lavalarını yonub yaşayış üçün məskənlər düzəltmişlər. Deyilənə görə, hər biri 500 qoyun tutan bu zağalarda keçmişdə mal-qoyun da saxlayarmışlar.

**ZAĞA** – Yuxarı Kilsə kəndi ərazisindəki qayalıqda olan böyük mağaraya deyilirdi.

**ZAMANLI DAĞ** – Pəmbək bölgəsində, Boz Abdal dağ silsiləsində, hündürlüyü 2038 metr olan dağ kimi erməni mənbələrində göstərilir. Xəritələrdə həmin Zamanlı dağ keçidi «Puşkin dağ keçidi» kimi qeyd edilir.

**ZAMANLIOĞLU ARXACI** – Balıqlı kəndinin şimalında iri qayalarla hörülmüş arxacın adı idi. Həmin qayaları ancaq Oğuz igidləri dikəldə bilərdilər.

**ZAZALAR** – Oxçuoğlu kəndinin yaxınlığındakı Arpaçay dərəsində olan mağaralar. Bu zağalarda keçmişdə qoyun saxlayarlarmış. Oronimdəki g > z əvəzlənməsi ilə zağa ***"zaza"*** kimi deyilir.

**ZEYNALABDİNİN BİÇƏNƏYİ** – Təpəköy kəndinin cənub-şərqində keçmişdə Zeynalabdin ağaya aid olan biçənəyin adı olmuşdur.

**ZEYNALABDİNİN YERİ** – İbiş kəndinin şərqində böyük biçənəyin və onun yanında olan əkin sahəsinin adı idi.

**ZEYNALIN ÇAYIRI** – Güllücə kəndinin şimal-qərbində, keçmişdə Zeynal kişiyə aid olan çayırlığın adı idi.

**ZEYNƏB TƏPƏSİ // ZEYNABTƏPƏSİ** – Hallavar kəndinin ərazisində təpənin adı idi.

**ZƏHRABƏYİM OCAĞI** – Mağarcıq kəndinin qəbiristanlığında seyidlər tayfasından olan Zəhrabəyimin gümbəzinin adı idi. Ağbaba və Şörəyel kəndlərindən bura ziyarətə gələrdilər.

**ZƏRGAR DƏRƏSİ // ZƏRGƏR DƏRƏSİ** – Balıqlı kəndindən şimala doğru uzanan dərənin adı idi.

**ZƏYƏRƏKLİK // ZƏYRƏKLİK** – Böyük Təpəköy kəndinin ərazisində, Qum dağının ətəyində, güneydə həmişə zəyərək bitkisi əkilən əkin sahəsinə deyilirdi.

**ZƏYƏRƏK YERİ // ZƏYRƏK YERİ** – Mağaracıq kəndinin cənubunda, zəyərəyi (dənli və yağlı bitki) daha yaxşı yetişdirən qara torpaq əkin sahəsinin adı idi.

**ZİYARƏT** – Çaxmaq kəndində, Türkiyə sərhəddində, hündürlüyü 2257metr olan dağın adıdır. Sərhəd zolağında olduğu üçün heç kəsi ora buraxmazdılar.

**ZİYARƏT** – Təpəköydən Qönçəli kəndinə gedən yolun sol tərəfindəki təpədə – ziyarət edilən yerin adı idi. Kənddə toy olanda gəlini maşınla həmin ziyarət yerinə aparıb başına dolandırar, sonra isə bəy evinə aparardılar.

**ZİYARƏT//ZİYARAT** – Çivinli kəndinin cənubunda,Türkiyə sərhəddində olan dağın adı idi. Həmin dağ Böyük Ağbaba dağının özüdür Dağın başındakı qədim ziyarətə görə həmin dağa Ziyarət də demişlər. Sərhəddə olduğu üçün ağbabalılar ora ziyarətə gedə bilməzdilər. Erməni xəritələrində dağın adı dəyişdirilərək Qukasyan (inqilabçı) kimi yazılırdı. İndi isə Aşosk yazılır.

**ZİYARƏTİN ALTI** – Təpəköy kəndində, Ziyarətin şimalında, sahəsi 40 ha olan böyük əkin sahəsinin adı idi.

**ZİYARƏTİN DÖŞÜ** – Qarabulaq kəndinin cənub qərbin-

də Ziyarət dağının döşündəki otlaq sahəsinə deyilərdi.

**ZİYARƏTİN ÇÖKƏYİ** – Qarabulaq kəndinin cənub-qərbində, Ağbaba dağının ətəyində köhnə kənd yerinə deyirdilər. Burada "Ziyarət" deyəndə Ağbaba dağındakı ziyarət yeri nəzərdə tutulurdu.

**ZİYARƏTİN ÜSTÜ** – Təpəköy kəndində, Ziyarətin üst tərəfində -cənubunda, sahəsi 55 hektar olan əkin sahəsinin adı idi.

**ZORUQ** – Ellərkəndin şimalında qobu adı idi. Otu çətin biçildiyi üçün elə demişlər.

**ZÖHRƏBƏYİM** – Daşkörpü kəndinin şimal-şərqində-Lüldağın döşündəki ziyarətgahın adı idi. Ağbabalıların çox inamlı pirlərindən sayılardı.

# II FƏSİL. LİNQVİSTİK SƏVİYYƏDƏ HİDRONİMLƏRİN LEKSİK-SEMANTİK VƏ QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Qərbi Azərbaycanda çayların fəaliyyəti onun relyefinin mürəkkəb quruluşa malik olmasına çox təsir göstərmişdir. Relyefin dağlıq olması çayların çox sürətlə axmasına səbəb olmuşdur. Bunun nəticəsində çaylar öz yataqlarını dağıdaraq dərinləşdirmiş və çox dərin dar dərələr – kanyonlar əmələ gəlmişdir. Bir çox yerlərdə, məsələn, Arpa çayının axdığı dərənin 105 kilometri dərin kanyondan ibarətdir. Pəmbək, Dərəçay və Gözəldərə çayı da belə kanyonlardan axır. Pəmbək dağ silsiləsi Kür və Araz çaylarının suayrıcısı hesab olunur. Dərə çay və Pəmbək çaylarının qolları da dərin daşlı dərələrdən axır. Bəzi yerlərdə çayın yatağı düz yerə çıxsa da, yenə də kanyona daxil olur. Həm bulaq sularının, həm də yüksəkliklərdə yay aylarınadək qalan qar sularının yaratdığı kiçik və böyük çayların, eləcə də saysız-hesabsız bulaqlar, həm də mineral su mənbələrinin hər birinin adı olmuşdur. Əkin-biçin işlərində, yaylaq-qışlaq həyatında bu hidronimlərin çox böyük əhəmiyyəti olmuşdur. Çox heyif ki, Azərbaycan türkləri ermənilər tərəfindən deportasiyalara məruz qaldıqları üçün o hidronimlər də işlənməz olmuşdur. Yəni məhv olmuşdur. Su coğrafi obyektlərini əks etdirən hidronimləri də ermənilər uydurma erməni adları ilə əvəz etmişlər.

Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində mikrooronimlər kimi, mikrohidronimlərlə də zəngindir. Ərazilərin relyefi dəniz səviyyəsindən 1300-dən 2100 metrədək yüksəklikdədir. Bu bölgələrdə zəngin su mənbələrinin olması saysız-hesabsız hidronimlərin (çay, bulaq, gözə, axmaz, göl və s.) yaranmasına səbəb olmuşdur.

Bu ərazilərdə də Azərbaycan türklərinin məişəti, yaşam tərzi və təsərrüfat həyatları ilə bağlı olaraq su mənbələrinin

adları – hidronimlər də aktiv işlənmişdir. Coğrafi obyekt kimi mövcud olmuş hidronimlər linqvistik səviyyədə, leksik-semantik mənalarına görə müxtəlif sintaksis konstruksiyalar modelində formalaşmışlar. Bunlara ayrılıqda nəzər salaq:

**1. Birinci tərəfi rəng, istiqamət, miqdar, yer, tərəf, əlamət, keyfiyyət və s. semantik mənalı sözlərdən, ikinci tərəfi hidronimik terminlərdən ibarət I növ ismi birləşmə konstruksiyasında olan mikrohidronimlər.**

***Ağbabada:*** Böyük bulaq, Qarasu, Köhnə su (İlanlı), Ağbulaq, Göy bulaq, Qaya bulaq, Qoşa bulaq (Düzkənd), Kirli su, Kirli göl (Ağlağan d.), Güney bulaq, Ayrannı bulaq, Göybulaq, Qaya bulaq (Güllücə), Buz bulaq, Təndir bulaq, Sarı bulaq (Öksüz), Min göllər, Qırmızı bulaq (Ellərkənd), Qırx gözə, Qarabulaq, Tək bulaq, Qoşa bulaq (Göllü), Dəli çay (Qazançı), Göl gözə, Qara su (Təpəköy), Qaynar bulaq, Süddü bulaq (Ördəkli), Təndir bulaq (Sınıq), Dərə bulaq (Qönçəli), Daşlı sulaq (Qönçəli).

***Şörəyeldə:*** Ağ bulaq (Oxçuoğlu), Ara su (Qaraçanta), Qara göl, Qızılgöl (Ələyəz), Kor bulaq (İlli), Daş kəhriz, Narın bulaq (Oxçuoğlu), Üçgözələr (Qaraçanta), Qaynar bulaq (Cələb), Sallı bulaq, Qotur çay (Ələyəz), Qara kəhriz (Güllübulaq), Sarı bulaq, Sallı bulaq (Çaxmaq), Göy bulaq (Qaraçanta) və s.

***Pəmbəkdə:*** Ağbulaq (Holavar), Qoşa bulaq, Sarı bulaq, Nöyütdü bulaq, Böyük bulaq (Xancığaz), Qırx bulaq, Qoşa bulaq, Qotur çay (Ələyəz), Süddü bulaq, Arı bulaq, Qara göl, Qırx bulaq, Şirin bulaq (Qursalı) və s.

**2. Birinci tərəfi fitonim və zoonim mənşəli sözlər, ikinci tərəfi hidronimik terminlərdən ibarət olan I növ ismi birləşmə konstruksiyasında olan mikrohidronimlər.**

***Ağbabada:*** Durna göl, Sağlam gözə//Şağlam gözə (Quzukənd), Qurd bulaq (Sult.), Dovşan bulaq (Göllü), İnək bulaq (Çiv.), Quzubulaq, Qanqal bulaq, Baldırğannı bulaq (Xancallı), Qanqallı bulaq (Balıqlı), Dana sulağı (Qara Namaz), Qurdlu bulaq (Sınıq), Yarpızlı bulaq (Mumuxan), Çilli gözə,

Qurbağalı göl, Göl gözə (Təpəköy) və s.

***Pəmbəkdə:*** Baldırğan bulaq (Dızman), İlan-bulaq, Laçın çay, Qurbağalı bulaq, (Qızılörən), Ayqır bulaq (Vərdənə k.), Güllü bulaq, İlanlı bulaq (Xancığaz)

***Şörəyeldə:*** Armudlu çay, Şonqarlı çay, Camışlı çay, Tərəli bulaq (Qönçəli), Dovşanlı bulaq (Mumuxan), Dana keçidi (Güllübulaq), Dana sulağı (Oxçuğlu), Dana sulağı (Qara Namaz) və s.

**3. Birinci tərəfi fitonim, zoonim mənşəli sözlərdən, ikinci tərəfi hidronimik terminlərdən ibarət II növ ismi birləşmə modelində olan mikrohidronimlər:**

***Ağbabada:*** Ördəkli gölü (Ördəkli), İnək bulağı (Çivinli), Dana sulağı (Göllü), Durna gölü (Qara Namaz) və s.

***Şörəyeldə:*** Dana keçidi (Güllübulaq), Dana sulağı (Oxçuoğlu), Anqut gölü (Qızıldaş), dana sulağı (Qara Namaz) və s.

**4. Birinci tərəfi etnik mənşəli şəxs, tayfa, nəsil adları ilə, II tərəfi III şəxsin mənsubiyyətini bildirən hidronimik terminlərlə ifadə olunan II növ ismi birləşmə modelində olan mikrohidronimlər.**

***Ağbabada:*** Ağakişi bulağı, Alpaşa kəhrizi (Çivinli), Alı bulağı (Balıqlı), Baytar suyu (Baytar), İlli suyu (İlli), Qaraxan çayı (İbiş), Ağəmməd bulağı (Bozqala), Aydın bulağı (Təpəköy), Əşrəf bulağı (Mustuqlu), Təhməz bulağı (Amasiya), Arpa gölü, Arpa çayı, Qayı Qulu suyu (Qızılqoç) və s.

***Şörəyeldə:*** Bayandır suyu (Bayandur), Abaran suyu, Abaran bulaqları (Ərtik), Arıx Vəli çayı (Arıxvəli), Cızıxlar çayı (Cızıxlar), Abbas arxı (Güllübulaq), Qınık suyu (Ərtik) və s.

***Pəmbəkdə:*** Balı bulağı, Boz Abdal çayı (Xanciğaz), Bayat bulağı (Bayat), Quqar//Göyər çayı (Goran), Zamanlı bulağı (Şahalı), Xəlil bulağı (Arçut), Şahalı bulağı (Xancığaz) və s.

**5. Birinci tərəfi oykonim, hidronim və ya oronimlərdən, II tərəfi hidronimik terminllərdən ibarət olan II növ**

**ismi birləşmə modelində olan mikrohidronimlər.**

***Ağbabada:*** Ağbulaq çayı, Axırkələklinin bulağı (Ellərkənd), Artik bulağı (Çaldaş), Baytar suyu (Baytar), Balıqlı suyu (Balıqlı), Balıqlı çayı (Talin), Bəzirxan batdağı (İbiş), Çaldaş bulağı (Çaldaş), Göl yeri (Təpəköy) və s.

***Şörəyeldə:*** Arpaçay dəryaçası (Bayandur), Baqu çayı, Baqu gölü (Ələyəz), Bacıoğlu çayı (Bacıoğlu), Bəzəkli çayı (Talin), Qarabulaq suyu (Ələyəz), Qızılqoç çayı (Qızılqoç), Əsnək çayı (Əsnək), Gümrü çayı (Gümrü), Gözəldərə çayı (Ələyəz), Cələb suyu (Cələb), İlli suyu (İlli) və s.

***Pəmbəkdə:*** Ağdaş bulağı (Holavar), Artik suyu // Ərtik çayı, Camışlı çayı (Camışlı), Qara bulaq suyu (Yuxarı Kilsə), Qaradaş su-yu (Ələyəz), Qarasu bulağı (Qursalı), Çatağın bulağı (Qursalı) və s.

***6.* Birinci tərəfi şəxs, tayfa və digər etnik mənşəli adlardan, ikinci tərəfi III şəxsin mənsubiyyətini bildirən hidronimik terminlərdən ibarət III növ ismi birləşmə modelində olan mikrohidronimlər.**

***Ağbabada:*** Abdullanın bulağı (İbiş), (Ellər.), Abbasın bulağı, Həmzənin bulağı, Asdan ağanın bulağı (Öksüz), Ağəmmədin bulağı, Alpaşanın kəhrizi (Çivinli), Alının bulağı (Balıqlı), Alı kişinin gözəsi (Təpəköy), Aşğalının bulağı // Hacı Xəlilin bulağı (Qara Namaz), Balakişinin bulağı (Ellərkənd), Zöhrənin gölü (Balıqlı), Kəlbə Rzanın qara suyu (Düzkənd), Məşədi Həsənin bulağı (Çivinli), Məşədi Zaloyun bulağı (Qara Namaz), İmanqulunun bulağı, Sarının bulağı, Güllüoğlunun bulağı (Ellərkənd) və s.

***Şörəyeldə:*** Mir Ələkbər ağanın bulağı (Gözəldərə), Qara kahanın bulağı (Qaraçanta), Bacıoğlunun suyu (Bacoğlu), Qarəmmədin suyu // Qara Məmmədin suyu (Qara Məmməd) və s.

***Pəmbəkdə:*** Hümbətin bulağı, Namazın bulağı, Çələbinin bulağı, Duzdağın bulağı, Məmmədxanın bulağı, Qaraçanın bulağı (Xancığaz), Əmrahın bulağı, Alışın bulağı (Saral), Mamacanın bulağı (Vərdənə), Mədədin bulağı, Səməndin bulağı,

Dəmirçilərin qoruğu (Qursalı), Xanvəlilərin biçənəyi (Aşağı kilsə) və s.

Göründüyü kimi, sahiblik və mənsubluq bildirən bu mikrohidronimlər coğrafi obyektin kimə aid olduğunu daha düzgün əks etdirir.

**7. Coğrafi nomensiz, feili sifət modelində və digər substantivləşən sözlərlə ifadə edilən mikrohidronimlər. Bu tipdə olan mikrohidronimlər əsasən elliptik formada deyilir və yazılır.**

a) Coğrafi nomensiz, yəni hidronimin növünü bildirən terminlərin işlədilmədiyi mikrohidronimlər. Məsələn:

***Ağbabada:*** Baldırğan (İbiş), Əyri, Yarpızlı (Təpəköy), Lilparlı (Qarabulaq), Tunklu (Bozqala), Muncuqlu (Qönçəli) və s.

***Şörəyeldə:*** Bulanıx (Güllübulaq), Batdağ (Çaxmaq) və s.

***Pəmbəkdə:*** Tanış (Ələyəz), Cırcır (Haydarlı), Ayrıca (Aşağı Kilsə), Nefitdi (Xancığaz), Qara çoban, Oyuxlu (Qursalı) və s.

b) Feili sifət modelində olan mikrohidronimlər

***Ağbabada:*** Burğan – Burulğan (Təpəköy), Əhmədölən (Qara Namaz), Seldağılan (Qarabulaq), Lalaxan (Sınıq), Ayaqaçma (Ellərkənd), Talıbvurulan (Çivinli), Usufölən (Öksüz) və s.

***Şörəyeldə:*** Suqovuşan (Çaxmaq), Suqarışan (Güllübulaq), Sukeçən (Oxçuoğlu) və s.

***Pəmbəkdə:*** Qoçtökülən (Xancığaz), Sutökülən (Vərdənə), Su-batan (Molla Qışlaq), Sutökülən (Qızılörən), Subasan (Dızman) və s.

Tədqiqata cəlb etdiyimiz ərazilərdə feili sifət modelində olan hidronimlərin də iki tipi mövcuddur:

a) Təbiət hadisələri bağlı olan mikrohidronimlər: Burulğan (Təpəköy), Lalaxan (Sınıq), Suqovuşan//Suqavışan (Çaxmaq), Suqarışan (Güllübulaq), Subatan (Molla Qışlaq), Sutökülən (Xancığaz), Sukeçən (Oxçuoğlu), Atüzən (Qönçəli) və s.

b) Müəyyən bir tarixi hadisə ilə bağlı olan

mikrohidronimlər: Əhmədölən (Qara Namaz), Ayaqaçma (Ellər-oyuğu), Talıbvurulan (Çivinli), Qoşunkeçən (Təzəköy) və s.

Apardığımız araşdırmalar onu göstərir ki, coğrafi obyekt olaraq hidronimlərin tərkibində, yəni I, II və III növ ismi söz birləşmələri modellərində olan hidronimlərin ikinci tərəfində çay, su, kəhriz, batdağ, bulaq, sulaq, göl, gözə, arx, keçid və s. yerli hidronimik terminlər işlənərək hidronimləri formalaşdırmışdır.

Söz birləşmələri modellərində olan mikrohidronimlərin də əsas tərəfi müxtəlif leksik-semantik mənalı sözlərdən ibarət olur. Hidronimin əsas tərəfində işlənən sözlərə görə onları aşağıdakı qaydada təsnif etmək mümkündür:

a) Antroponim əsaslı sözlərdən törənən antropohidronimlər: Alpaşa kəhrizi, Abbas arx (Çivinli), Abdullanın bulağı (Ellərkənd), Ağakişi bulağı (Amasiya), Aslan ağanın bulağı (Öksüz) və s.

b) Etnonim əsaslı sözlərdən törənən etnohidronimlər: Bayandur bulağı, Bayandur suyu, Kınıq suyu (Şörəyel), Qaraqoyun bulağı (Oxçuoğlu), Bacıoğlu suyu (Bacıoğlu), Calaloğlu çayı (Calaloğlu), Əlləzoğlu bulağı (Ellərkənd) və s.

c) Oykonim, orinim əsaslı sözlərdən törənən mikrohidronimlər: Balıqlı suyu (Balıqlı), Qazançı suyu (Qızılqoç), Artik suyu (Ərtik), Gözəldərə çayı (Şörəyel), hallavar çayı (Pəmbək), əşnək çayı (Talin) və s.

ç) Zoonim əsaslı sözlərdən törənən mikrohidronimlər: Heyvan bulağı (Hallavar), Ayqır gölü (Şörəyel), Dana keçidi (Güllübulaq, Göllü), Qurdlu bulaq (Qarabulaq, Güllücə), Tünklü bulaq (Bozqala).

d) Fitonim əsaslı sözlərdən törənən mikrohidronimlər: Qanqallı bulaq (Balıqlı), Lilparlı (Qarabulaq, Güllücə), Üləşik suyu (Pəmbək), Yarpızlı bulaq (Sultanabad) və s.

Bu toposistem türk xalqları yaşayan bütün ərazilərdə mövcuddur.

## HİDRONİMLƏR SÖZLÜYÜ

**ABARAN BULAQLARI** – Abaran rayonu ərazisində zəngin yeraltı suları olan qaynama bulaqların adıdır.

**ABARAN SUYU** – Kasak çayının yuxarı axarına, yəni Abaran rayon mərkəzindən keçən hissəsinə deyilirdi. H.Hubşman da bu ərazilərə aid tərtib etdiyi xəritədə Abaransu kimi qeyd etmişdir.

**ABBASARX** – Çivinli kəndində sal daşlardan düzəldilmiş və əkin sərnələrini suvarmaq üçün düzəldilmiş qədim arxın adı idi. Bu hidronim Abbasın arxı mənasındadır.

**ABBASIN BULAĞI** – Öksüz kəndində, Qanlı arxacın yanındakı bulağa deyərdilər. Abbasın biçənəyində olduğu üçün elə demişlər.

**ABBASIN BULAĞI** – Ellərkəndin şərqində - keçmişdə Hırın oğlu Abbasa aid olan çayırlıqda olduğu üçün elə deyilmişdir.

**ABDULLANIN BULAĞI//AVDILLANIN BULAĞI** – Ellər-kəndin şimalında, Böyük Güney dağının ətəyində idi. Keçmişdə bu ərazilər Abdulla kişiyə aid torpaq sahəsi imiş.

**ADIYAMAN ÇAYI** – Mənbəyini Ələyəz silsiləsindəki bulaq sularından alaraq Molla Göyçə kəndinin yanından axıb Arpaçaya tökülür.

**AĞÁKİŞİ BULAĞI** – Amasiya kəndnin qərbindəki biçənəkdə olan məşhur bulağın adı olmuşdur. Antroponim əsaslıdır.

**AĞAMƏD BULAĞI//AĞA MƏHƏMMƏD BULAĞI** – İlanlı kəndinin şərq tərəfində –Bozqala kəndinin yanındakı məşhur bulağın adıdır. Antropohidronim əsaslıdır.

**AĞ BULAQ** – Hollavar kəndinin yanındakı dağda, məşhur və keyfiyyətli soyuq suyu olan bulağın adı idi.

**AĞ BULAQ** – İlanlı kəndinin şərq tərəfindəki qayalıqdan qaynayıb çıxan bulağın adıdır.

**AĞ BULAQ** – Oxçuoğlu kəndinin qərbindəki dərədə olan bulağın adı idi. Suyunun keyfiyyətinə görə Ağbulaq adlandırılmışdır.

**AĞBULAQ ÇAYI** – Ələyəz hövzəsində qeydə alınmışdır. Ələyəz çayına qarışan 10 kilometrlik çayın adıdır.

**AĞCA BULAQ // AĞCA BULAX** – Qızılqoç rayonunun Korbulaq kəndinin şimal-sərqindəki bulağin adi idi. Həmin kənddə ermənilər yaşasa da həmin bulağa "Axça bulaq" deyirdilər.

**AĞDAŞ BULAĞI** – Hollavar kəndinin cənubunda, Mollaqıslaq kəndinin qərbində olan bulağın adı idi. Ağdaş adlanan qayalıqda olduğu üçün o adla adlandırılmışdır.

**AĞSU BULAĞI** – Qızılörən kəndi əraisində suyunun keyfiyyətinə görə adlandırılan məşhur bulağa deyilirdi.

**AĞSULAQ//AĞSULAX** – Oxçuoğlu kəndinin qərb tərəfində bulaq sularının axdığı və yay aylarında qoyun-quzunun su içib dincəldiyi kiçik çayın adı idi.

**AĞILLAR** – Ellər kəndin şimal-şərqindəki Böyük Güney adlanan dağın güney tərəfindəki döşündə yan-yana olan bir neçə mal-qoyun arxacı.

**AXIRKƏLƏK BULAĞI** – Ellərkəndin şimalında, Axırkələk şəhərinə gedən yolun üstündə olan bulağın adı idi.

**AXIRKƏLƏKLİNİN BULAĞI** – Ellərkəndin şimal-qərbində, Dərə çayırda olan bulağın adı idi. Deyilənə görə, Axırkələkdən gəlib burada yaşamış Axsqa türklərindən birinin biçənəyi olubmuş.

**AXUREAN//AXURAN –** Urartu mənbələrində Arpaçayın Qars çayı tökülən hissəsindən Araza qədər olan hissəsinə deiyilir. Bolqarıstan ərazisində, Naxçıvan və Türkiyə ərazisində, kökündə Ahur tayfa adı olan toponimlər indi də vardır.

Aşıq Alının bir şeirində 1840-ci ildə olan zəlzələdən Axura kəndinin batması belə təsvir olunur:

*Müəmman var, Alı üçün sirr idi,*
*Şamdan qabaq dörd bir yanın yeridi.*

*Tozun qalxıb İrəvanı bürüdü*
*Etdin Axuranı zay, Ağrı dağı.*

**ALI BULAĞI** – Saral kəndinin söykəndiyi dağda bulaq adı idi. Hidronim antroponim mənşəlidir.

**ALI KİŞİNİN BULAĞI** – Çivinli kəndinin lap yaxınlığında idi. Kəndin keçmiş sakini Alı kişi düzəltdiyi üçün elə deyilmişdir.

**ALI KİŞİNİN GÖZƏSİ** – Kiçik Təpəköydən Göllü kəndinədək uzanan çayırlığın 3-cü kilometrliyində idi. Keçmişdə təpəköylü Alı kişiyə aid biçənəkdə olan su mənbəyinə deyirdilər.

**ALININ BULAĞI** – Balıqlı kəndinin şimali-şərq hissəsində, iri daşlarla hasara alınmış bir sahənin içərisindədir. Keçmişdə Alı ağaya aid olduğu üçün elə demişlər. Fitonim mənşəlidir.

**ALMALI ÇAYI** – Talin ərazisində qeydə alınmışdır. Balıxlı çaya qarışır.

**ALPAŞA KƏHRİZİ** – Çivinli kəndində kəhriz adı idi. Antroponimdən törənmişdir.

**ARA ÇAYI** – Molla Qışlaq kəndindəki bulaq sularının yaratdığı kiçik axar suya deyirdilər.

**ARA SU** – Qaracanta kəndindəki dərədən axan kiçik bulaq sularının adı idi. Kəndin ortasındakı dərədən axıb məhəllələri ayırdığı üçün Ara su demişlər.

**ARI BULAQ** – Qursalı kəndinin cənub-şərqindəki yaylaqda təmiz və şəfalı suyu olan bulağa deyirdilər. Bu hidronimdəki arı arxaik söz olaraq bulaq adında mühafizə olunmuşdur.

**ARIXVƏLİ ÇAYI** – Arıx Vəli kəndinin yanından axan çayın adı olmuşdur.Son dövrlərdə çap olunan xəritələrdə Mantaş kimi qeyd edilir. Hidronim antroponim mənşəlidir. Yəni tayfa (arıq) və şəxs adından (Vəli) törənmişdir.

**ARMUDLU ÇAYI//ARMUDDUÇAY** – Hollavar kəndinin ərazisində Böyüksu adlanan çaya qarışan kiçik çayın adıdır.

Fitonimdən törənmişdir.

**ARPAÇAY DƏRYAÇASI** – Gümrü şəhərinin cənub tərəfində Türkiyə sərhədindədir. 1970-ci illərdə Arpaçayın qabağı kəsilərək düzəldilən su anbarının adıdır. Sahəsi 54 kv. kilometr, su tutumu isə 525 milyon kub metr olan bu su anbarına Bayandır su anbarı da deyilir.

**ARPAÇAY//ARPAÇAYI** – Mənbəyini Arpagöldən və saysız-hesabsiz bulaq sularından alan bu çayın uzunluğu 220 kilometrdir. Amasiya, Qızılqoç, Düzkənd, Talin rayonları ərazisindən, Gümrü şəhərinin sağ tərəfindən keçib Araz çayına qovuşur. Hövzəsi 9700 kvadrat kilometrdir. Ermənilər xəritələrdə çayın adını Axuryan kimi qeyd edirlər. İstər Ahuran (Ahurlar), istərsə də Arpa türkmənşəli tayfa adı kimi hidronimdə qorunub saxlanılmışdır. Bu hidronimin arealı çoxdur. Çayın 150 kilometri Türkiyə-Ermənistan sərhədini əhatə edir. Tarixi mənbələrdə qıpçaq türklərindən olan Arpa xan xatırlanmaqdadır. Hidronim etnonimmənşəlidir.

Şörəyelin Karxana kəndindən olan el şairi Əfkari 1855-ci ildə çar generalı V.Behbudovun Arpaçayı boyu kəndləri viran qoyduğu həmin hadisələri belə təsvir etmişdir:

*Arpa çaydan əskər olan çəkildi,*
*Urus topu atdı, köylər söküldü.*
*Behbutov baxmadı çörəyə, duza*
*Vay-şivən yetişdi gəlinə, qıza (7).*

**ARPAGÖL//ARPAGÖLÜ** – Ağbabada sahəsi 22 kvadrat kilometr olan gölün adıdır. Həmin gölün adı erməni xəritələrində Arpiliç kimi qeyd edilir. Ermənicə «liç» göl deməkdir. 6 rayonun ərazisi bu gölün suyu ilə suvarılır. Erməni və türk mənbələrində göstərilir ki, gölün adı türkmənşəli Arpa tayfa adından törənmişdir. Qıpçaq türklərində Arpa xan adında bir xan olduğu mənbələrdə göstərilir. Mənbələrdə Elxani hökmdarı Əbu Səidin ölümündən sonra hakimiyyətə gələn Arpa xan Əmir Əli şah tərəfindən 1336-cı ildə öldürüldüyü qeyd edilir [Azərbaycan tarixi, III c., Bakı: 1989]. Gölün su tutumu 100 milyon metr $^3$-

dir. Arpa derivatlı toponim və hidronimlər Cənubi Azərbaycan və Orta Asiyada da vardır.

Bəxtiyar Xəlilovun bir gəraylısında Arpa gölün adı çəkilir:

*Könül açsan, Haçadağa,*
*Qoymaz səni qocalmağa.*
*Yaraşıqdı Ağbabaya,*
*Bizim Arpagölünə bax.*

**ARTİK BULAĞI//ƏRTİKBULAĞI** – Ağbabada, Amasiya rayonu mərkəzindən yuxarı dağ kəndlərinə gedən köhnə yolun sol tərəfində - Çaldaş adlanan yaylaqda olan çox məşhur bulağın adıdır.

**ARTİK SUYU//ARTİK ÇAYI** – Ələyəz dağın şimal tərəfindən, Artik yaşayış məntəqəsinin yanından axan çayın adıdır. 26 km. uzunluğunda olan bu çay axaraq Arıq Vəli çayına tökülür. Bəzi mənbələrdə bu çaya Camışlı suyu da deyilir [2, s.121].

**ASDAN AĞANIN BULAĞI** – Öksüz kəndində, Ağbabada çox məşhur olan bulağın adı idi. Keçmişdə kənd varlısı Aslan ağanın torpaq sahələrində olduğu üçün elə deyilmişdir.

**ATUZƏN** – Təpəköy yaxınlığında Arpaçayın dərin yerinə deyilirdi.

**ATÜZƏN** – Qönçəli, Mumuxan, Sınıq kəndləri ərazisində olan bir çox zəngin bulaq sularının bir istiqamətdə axıb çay əmələ gətirərək Tezbahar kəndi yaxınlığından Türkiyə tərəfə keçən çayın adıdır. Bəzi yerləri çox dərin olduğu üçün çaya belə ad verilmişdir.

**AŞIQ ALININ BULAĞI** – Qara Namaz kəndinin şimal-şərqində və boru ilə kəndə çəkilən bulağın adı idi.

**AYAĞAÇMA** – Ağbabada – Ellərkənd ərazisində olan ən məşhur bulağın adı idi. Kəndə təzə gətirilən gəlinlərin yazın gözəl bir günündə qohum-qardaşla ora çıxarıb quzu kəsər və beləliklə də gəlinin ayağı təbiətə açılardı. Buna seyrangah da deyərdilər.

**AYDIN BULAĞI//AYDIN BULAĞI** – Təpəköy kəndi-

nin cənubunda, Qönçəli kəndinə gedən yolun sağ tərəfindəki biçənəkdə, yastı qayalıqda olan bulağın adı idi. Deyilənə görə, bulaq Təpəköy kəndində yaşamış aydınnılar tayfasının biçənəyində olduğu üçün Aydınbulaq demişlər.

Bəxtiyar Xəlilovun bir qoşmasında “Aydın bulağı” hidronimi işlənmişdir.

*Ay Aydın bulağı, ay Cin dərəsi,*
*Deməyin ki, Sizdən doyub gedirəm.*

**AYQIR GÖLÜ** – Şörəyel vadisinin ətəklərində, Üçkilsə rayonu ərazisində,dərinliyi 10 metr, sahəsi 5 kvadrat kilometrdir. 310 $m^3$ su tutumu var. Həmin göl «Kitabi-Dədə Qorqud» dastanında adı çəkilən tarixi Ağcaqalaya çox yaxındır. Yəqin ki, hidronimin ilkin adı Ayqır gözəsi olmuş, sonra isə yenidən toponimləşmişdir.

**AYRANNI BULAX//AYRANLI BULAQ** – Güllücə kəndinin şimalında, suyunun rəngi ayrana bənzədiyi üçün elə deyilmişdir.

**AYRICA//AYRIJA** – Aşağı Kilsə kəndinin şərq tərəfindəki bulağın adıdır. Ayrıca adlanan təpəlikdə olduğu üçün Ayrıca bulağı demişlər.

**AYVAN BULAX // HEYVAN BULAĞI** – Hollavar kəndində bulaq adi idi. Xüsusilə, yaz aylarında bulağın alt tərəfindəki iri gölməçəyə kəndin naxırı və ya qoyun sürüsü yığıldığı üçün Heyvan bulağı demişlər.

**BACIOGLU ÇAYI//BACIOĞLUÇAY** – Mənbəyini Amasiya rayonunun cənub tərəfində olan kəndlərin bulaq suyundan alır və Bacıoğlu kəndinin yanından adlayıb Arpaçaya tökülür. Uzunluğu 36 kilometrdir. Hidronim tayfa adından törənmişdir.

**BAQU GÖLÜ** – Baqu zirvəsində, uzunluğu 150, eni 145 metr olan, 3200 metr yüksəklikdə yerləşmiş dağ gölünün adıdır. Hidronim yerləşdiyi zirvənin adını əks etdirən orohidronimdir. Xəritələrdə Amberdi liç (Amberd gölü) kimi qeyd edilir.

**BAQUÇAY // BAKU ÇAYI** – Mənbəyini Ələyəz dağının

Baqu zirvəsindəki göldan və bulaqlardan alan, uzunluğu 36 km. olan dağ çayının adı olmusdur. Hövzəsi 141 kv. kilometr olan bu çayın da adı dəyişdirirlərək xəritə və ensiklopedik kitablarda Amberd kimi qeyd edilir. Zirvədəki Qızqalasına görə zirvə, göl, çay və həmin Qızqalası Amberd (“amb” bulud- “bert” qala) adlandırılmışdır.

**BALAGÖL//BALAYÖL** – Quzukəndin şərqində keçmişdə göl adı olmusdur. 1948-ci ildə Arpagölün sahəsi genişləndirilərkən həmin göl su ambarına qarışmışdır.

**BALAKİŞİNİN BULAĞI** – Ellərkəndin keçmiş sakini olmuş Balakişinin biçənəyində olduğu üçün elə deyilmişdir.

**BALAKİŞİNİN ÇAYIRI** – Ellərkəndin qərbində - Dərə çayırı deyilən ərazidə kəndin keçmiş varlısı olan Balakişiyə aid olan biçənəyə deyilirdi.

**BALDIRĞAN** – İbiş kəndində olan bulaqların ən yaxşısı idi. Məşhur olduğu üçün elliptik halda, yəni «bulaq» termini olmadan işlənərdi.

**BALDIRĞANLIQ//BALDIRĞANLIX** – Xaraba Xançallı kəndinin simal-şərqində olan bulağın adı idi. Hidronim bitki adı ilə əlaqədardır. Bulağın ətrafında baldırğan çox bitdiyi ücün Baldırğannı və ya Baldırğanlıx demişlər.

**BALDIRĞANNI BULAQ** – Qara Namaz kəndinin şimal tərəfində olan bu bulağı arx ilə Göllü kəndinə çəkmişlər.

**BALI BULAĞI** – Yuxarı Kilsə kəndinin qarşısında, Ballıcanın teli deyilən dağdakı bulağın adı idi. Suyunun dadına görə Ballıca (bulaq) demişlər.

**BALIQLI ÇAYI** – Talin ərazisində, mənbəyini Ələyəz dağındakı bulaqlardan alır və Arpaçaya tökülür.

**BALIQLI SUYU** – Mənbəyin Öksüz kəndinin bulaqlarından alıb və Balıqlı kəndinin yanından keçərək Arpagölə tökülən çayın adıdır. Uzunluğu 5 kilometrdən çoxdur.

**BAYANDUR SUYU** – Bayandur kəndi yaxınlığında olan mineral su bulağının adıdır. Erməni mənbələrində göstərilir ki, 1850-ci ildən müalicə suyu kimi istifadə edilir [2, s.221].

**BAYATBULAQ** – Pəmbək ərazisində keçmiş Bayat kəndinin, son dövrlərdə pəmbəklilərin yaylaq kimi istifadə etdikləri yurdun yanındakı bulağın adıdır.Tayfa adından törənmişdir.

**BAYDARÇAY//BAYDAR ÇAYI** – Quqar rayonunun Mollaqışlaq kəndinin ərazisindən keçir. Etnonim mənşəlidir.

**BAYRAMIN BULAĞI** – Öksüz kəndinin cənub-qərbindəki bulağa deyərdilər.

**BAYTAR SUYU** – Amasiya kəndinin şimal-şərqində, Baytar kəndinin yanındakı dərədən axan bulaq sularından ibarət olan kiçik çayın adıdır. Hidronim Baydar//Baytar tayfa adı ilə əlaqəlidir.

**BƏSTİNİN BULAĞI** – Qursalı kəndində, Köhnə yolla Təzə yolun kəsişdiyi yerdə olan bulağın adı idi. Antroponim mənşəlidir.

**BƏZƏKLİ ÇAYI** – Talin ərazisindədir, mənbəyini Ələyəz dağındakı bulaqlardan alır.

**BƏZİRXANA BATDAĞI** – Erməni mənbələrində, İbiş kəndinin cənubunda - Türkiyə sərhəddindəki çayırlıqda olan bataqlığın adı kimi göstərilir. Hidronim Türkiyə ərazisindəki Bəzirxana kəndinin adı ilə əlaqədardır.

**BOSTAN BULAĞI** – Qaraçanta ərazisində, Köhnə yayla deyilən yaylaqdakı bulağa deyirdilər.

**BOZ ABDAL ÇAYI//BOZAVDALÇAY** – Boz Abdal kəndinin yanında axan və mənbəyini 2800 metr yüksəklikdə olan Boz Abdal dağındakı bulaq sularından alır. Uzunluğu 23 kilometr olan bu çay Pəmbək çaya tökülür. Çayın adı abdal, tarixi mənbələrdə eftal formasında adı çəkilən tayfa adından törənmişdir.

**BOZ ABDAL SUYU** – Boz Abdal dağının cənub-şərq tərəfindən qaynayıb çıxan mineral su mənbəyinin adı idi.

**BÖYÜK BULAX//BÖYÜK BULAQ** – İlanlı kəndinin şimal hissəsində, sahəsi 20 $m^2$ olan böyük qaynama su mənbəyi idi.

**BÖYÜK BULAQ** – Xancığaz kəndinin ən böyük bulaqlarından birinin adı olmuşdur.

**BÖYÜK GÜNEYİN SUYU** – Ellərkəndin şimal-şərqində, Güllücə kəndinin Qalaca dağına qədər uzanan dağ silsiləsindən axıb gələn suuya deyilir.

**BÖYÜKSU ÇAYI** – Pəmbək bölgəsində, mənbəyini Maymaq dağından, Qıllı yurd, Nədiralı adlanan yaylaqlardakı bulaqlardan alan və Pəmbək çaya tökülən çayın adıdır. Hallavar kəndinin ortasından axıb keçir.

**BURĞAN** – Təpəköy kəndinin qərb tərəfində, Arpaçayın köhnə yatağında olan dərinliyin adı olmuşdur. Su buruldüğu üçün Burulğan, daha sonra isə sadələşərək Burğan kimi deyilmişdir.

**CACUR ÇAYI** – Mənbəyini Şörəyel dağlarındakı bulaqlardan və şəlalədən alaraq Arpaçaya tökülür. Hidronim şır-şır sözünün dialekt variantıdır.

**CALALOĞLU ÇAYI** – Mənbəyini Ağlağan dağındakı qar və bulaq sularından alaraq Tona çayına tökülür. 67 kilometrdir. Əslində, bu Dərəçaydır. Calaloğlu qəsəbəsindən sonra çay belə adlanır.

**CANCIQ ÇAYI** – Ələyəz hövzəsində, Qaranlıq çayla paralel axaraq Karpi çaya tökülür.

**CAVADIN GÖLÜ** – Düzkənd kəndində, Arpaçayı tərəfdə müvəqqəti yaranan gölün adı idi. Onun yanındakı biçənək Cavada aid olduğundan elə demişlər.

**CİNLİ BULAQ//CİNNİ BULAX** – Balıqlı kəndindən Güllücə kəndinə gedən yolun sağ tərəfində, qayaların arasından qaynayan bulağın adı idi. Ümumiyyətlə, Ağbabada Cindağı, Cindərəsi, Cin qayası adlı onlarla toponim vardır. Bu toponimlər haqqında müxtəlif rəvayətlər söylənilsə də, ancaq Q.Qeybullayev belə toponimləri çen, çin tayfa adından törənmə hesab edir.

**CİNNİ BULAX//CİNNİ BULAQ** – Ellərkəndin şimal-qərb tərəfindəki çayırlıqda olan bulağa deyərdilər.

**CIRCIR** – Pəmbək bölgəsinin ən yaxşı yaylaqlarından birinin adı olmuşdur. Əslində bulaq sularının töküldüyü bu

şəlalə Şır-şır adlanır. Lakin Ayrım kəndlərinin bir çoxunda bu şəlaləyə Cırcır deməlləri söz önündə ***c-ş*** səs əvəzlənməsi nəticəsində olmuşdur. Ermənilər hidronimi təhrif edərək xəritələrdə cacur kimi yazırlar.

**CÜTBULAQ** – Güllücə kəndində, Qalaça adlanan dağın dibindəki bulağın adı idi.

Avtandil Ağbabanın bir şeirində bu hidronim xatırlanır:

*Bu Cüt bulaq, Tapılar,*
*Bu Sarı yer, Qapılar.*
*Təki Vətən yaşasın,*
*Mərd oğullar tapılar.*

**CÜTBULAQ** – Mağaracıq kəndinin biçənəklərində qoşa olan bulaqların adı idi.

**ÇALDAŞ BULAĞI** – Ağbabada, Çaldaş adlanan yaylanın ferması yanında olan məşhur bulağın adı idi. Sonralar bulağın suyunu yaylaqlara çəkdilər.

**ÇAMIRLI//ÇAMIRRI** – İbiş kəndinin cənubunda, torpaqdan qaynayan bulağıņ adı idi. Torpaqdan qaynadığı üçün bulağın içi həmişə çamır (palçıq) olardı. Ona görə də bulağa Çamırlı demişlər.

**ÇAYIRLIQ** – Təpəköy məktəbinin arxa – şimal tərəfində, Arpa çaya qədər olan çayırlığa deyirdilər.

**ÇIL USUBUN BULAĞI** – Ellərkənd kəndinin qərbində, ÇİL USUB adlanan yayladakı məşhur bulağın adı olmuşdur. Bulaq birinci zastavaya gedən yolun sağ tərəfindədir. Ləqəb və şəxs modelində olan antroponimdən törənən hidronimdir.

**ÇINQIL BULAQ** – İbiş kəndinin qərbindəki çınqıllıqda olan bulağın adı idi.

**ÇİVİNNİ ÇAYI** – Çivinli kəndindəki Sadıqlı dərə və Sarı çayırdakı bulaq sularından mənbəyini alaraq Arpagölə tökülür. 7-8 km-dir.

**ÇUBUXLU ÇAYI** – Mənbəyini Boz Abdal dağ silsiləsinə yaxın olan Çubuqlu yaylasındakı bulaqlardan alaraq Dərəçaya tökülür. Uzunluğu 32 kilometrdir.

**DADAŞ BULAĞI** – Oxçuoğlu kəndində bulaq adı idi. Deyilənə görə, Dadaş adlı bir şəxs keçmişdə bu bulağı tikdirmişdir.

**DAĞ GÖLÜ** – Güllücə kəndinin şimalındakı dağda olan gölün adı idi. İl yağmurlu keçəndə göl qurumazdı, il quraq olanda isə göl quruyardu.

**DAĞ SUYU** – Balıqlı kəndinin şərqində dağlardakı bulaqlardan axıb gələn suyun adı idi.

**DANA KEÇİDİ** – Güllübulaq kəndinin cənubundakı dayaz çay keçidinin adı idi. Dayaz olduğu üçün Dana keçidi demişlər.

**DANA SULAĞI** – Qara Namaz kəndinin cənubunda, Arpa çayın dayaz yatağında buzovların isti vaxtlarda dincəldiyi sulaq.

**DANA SULAĞI** – Göllü kəndinin cənubunda, Arpaçayın köhnə yatağında qoyun-quzu və buzovların isti zamanı dincəldikləri dayaz çay sahilinə deyilirdi.

**DANA SULAĞI** – Oxçuoğlu kəndində, bulaq sularının kiçik göl halında toplandığı gölməçənin adıdır. Adətən kəndin mal-qarası, qoyun-quzusu çölə gedərkən və çöldən gələrkən həmin sulaqda suvarılardı.

**DANA SULAĞI** – Arpaçayı dərəsində, Cələb kəndinin qabağındakı kiçik dərədən axan suya deyirdilər.

**DARBOĞAZ** – Qara Namaz kəndinin şimal tərəfində dar bir dərədən axan suya deyilirdi.

**DAŞGÖL** – Ələyəz dağın zirvəsində olan bu göl 3200 metr yüksəklikdədir.Daşlı dərədə olduğu üçün Daş (lı) göl demişlər. Erməni mənbələrində tərcümə edilərək Kariliç («kar» daş - «liç» göl) yazılır.

**DAŞ KƏHRİZ** – Oxçuoğlu kəndində olan qədim daş kəhrizin adı idi.

**DAŞLI PINAR** – Çivinli kəndinin qərbində, dərədəki daşlıqda olan bulağın gadı idi. Hidronimin tərkibindəki «pınar» qədim türk sözü olub bulaq mənasını bildirir. Pınar türk

onomastikasında aktiv işlənən coğrafi termindir.

**DƏLİÇAY** – Mənbəyini Ağbabanın şimal-tərəfində, hündürlüyü 2010 m olan Dəlidağdakı bulaqlardan alaraq Qara Namaz və Təzəköy kəndlərinin arasından keçib Arpaya tökülür. Uzunluğu 35 kilometrdən çox olan bu çay Qazançı kəndinin sağ tərəfindən adlayır. 1828-ci ildən ta 1878-ci illərədək bu çay Türkiyə ilə Rusiyanın sərhəddi olmuşdur.

**DƏLİ ÇAY** – Mənbəyini Ələyəz dağındakı bulaqlardan alır və Qarasu//Qaranqu çayına tökülür. Uzunluğu 20 km-dən çox olan bu çayın da adı dəyişdirilərək xəritələrdə Qexarot adlandırılmışdır. Çay sürətlə axdığı üçün Dəliçay demişlər.

**DƏLİKDAŞ ÇAYI** – Ələyəzdəki Dəlikdaş adlanan bulaqdan axıb gəldiyi üçün elə demişlər.

**DƏRƏ BULAQ** – Amasiya qəsəbəsindən Gümrüyə gedər yolun başlanğıcında, dərənin üstündəki körpünün altında olan bulağın adı idi.

**DƏRƏ BULAQ//DƏRƏ BULAĞI** – Sultanabad kəndinin yanında, Arpagöl su anbarı bəndinin yanındakı dərədə olan çox məşhur bir bulağın adı idi. Həmin bulağın suyu borularla Təpəköyə axıdılırdı.

**DƏVƏ BULAĞI** – İbiş kəndinin qərbində, Qars tərəfə gedən köhnə yoldadır. Zoonim mənşəlidir.

**DƏYİRMAN ARXI –** Təpəköydəki su dəyirmanına Arpa çaydan çəkilən su arxına deyirdilər. Uzunluğu 200 metrdən çox idi.

**DƏYİRMAN SUYU** – İlanlı kəndinin şərqində, qədim dəyirman xarabası yanından axan suyun adı idi.

**DƏYİRMAN ÇAY** – Göllü kəndi ilə Qara Namaz kəndi arasından axan bulaq sularının adı olmuşdur. Həmin dəyirmanın qədim daş novları hələ də kənddə qalırdı.

**DƏYİRMAN ÇAY** – Elləroyuğundan Güllücə kəndinə doğru axan, bulaq sularından ibarət olan çaya deyirdilər. Keçmişdə bu çayın üstündə bir neçə dəyirman olduğunu informatorlar söyləyirlər. Dəyirman xarabaları hələ də qalmaqda

idi.

**DONBA GÖZƏ** – Qara Namaz kəndinin qabaq tərəfindəki çayırlıqda, səthi yüksək olan gözəyə deyərdilər.

**DONBA BULAQ** – Çaxmaq kəndində olan bulaqlardan birinin adi idi. Bulağın ərazisi relyefi əks etdirir.

**DOVŞAN BULAĞI** – Göllü kəndində bulaq adı idi. Hidronim zoonim mənşəlidir.

**DÖYRUSUN BULAĞI//DƏRVİŞİN BULAĞI** – Ellərkəndin şimal-qərbində zastavaya gedən yolun yanındadır. Etnohidronimdir.

**DÖYRÜŞÜN ÇAYIRI** – Ellərkəndin şimal-qərbində I zasta-vaya gedən yolun alt tərəfində, keçmişdə Döyrüş (Dərviş) ağaya məxsus biçənəyə deyirdilər.

**DURNA GÖLÜ** – Qara Namaz kəndinin ərazisindəki kiçik gölün adı idi. Yaz aylarında və payızda burada daha çox durna olduğu üçün Durnagöl demişlər.

**ƏFƏNDİ ÇAYI** – Qursalı yaxınlığında, Alcəfər yaylağından axıb gələrək Pəmbək çaya tökülür. Təqribən 15 kilometrdir. Çayın adı Əfəndi kəndinin adı ilə əlaqəlidir.

**ƏHMƏDÖLƏN** – Qara Namaz kəndinin cənubunda Arpa çayın əyri və dərin yerində Əhməd adlı bir nəfəri düşmənləri batırıb öldürdüyünə görə elə demişlər. Antropohidronimdir.

**ƏLAC GÖZƏ** – Xancığaz kəndinin sərnəsində olan bulaqlardan birinin adı olmuşdur. Bulağın keyfiyyətli suyuna görə belə adlandırmışlar.

**ƏLƏKBƏRİN BULAĞI** – Gözəldərə kəndində bulaq adı olmuşdur. Deyilənə görə, bulağı Seyid Mir Ələkbər ağa tikdiribmiş. 1918-ci ilin Novruz bayramında ermənilər kəndi dağıtmış, məscidə od vurmuşlar. Mir Ələkbər ağa başda olmaqla məsciddə 220 nəfər kənd sakini həlak olmuşlar [8, 162-165].

**ƏLƏSGƏRİN GÖZƏSİ** – Qara Namaz kəndində, Arpaçayın sol tərəfindəki çayırlıqda olan gözənin adıdır. Hidronim şəxs adı ilə əlaqəlidir.

**ƏLLƏZDİNİN DƏRƏSİ** – Ellərkəndin qərbində, qonşu

Çivinli kəndinin şərqində tərəf uzanan dərə.

**ƏLLƏZOĞLU BULAĞI** – Ellərkəndin qərbindəki ən keyfiyyətli və soyuq suyu olan bulaqlardan birinin adı idi. Kəndin qədim sakini olan Əlləzoğullarına aid biçənəklərdə olduğu üçün Əlləzoğlu bulağı demişlər.

**ƏLLƏZOĞLUNUN ARXACI** – Ellərkəndin şimalında, Kalloy (Kaldağ) dağına gedən yolun sol tərəfindəki mal-qoyun arxacının adı idi.

**ƏLYARIN BULAĞI** – Amasiya kəndinin sərnəsində bulaq adı idi. Hidronim şəxs adı ilə əlaqəlidir.

**ƏMRAHIN BULAĞI** – Saral kəndinin yanındakı bulağın adı idi. Bulağın adı şəxs adı ilə əlaqəlidir.

**ƏSƏDLƏRİN GÖZƏSİ//ƏSƏDDƏRİN GÖZƏSİ** – Qara Namaz kəndinin biçənəklərində, Arpaçayın sol tərəfində olan gözəliyin adı idi. Əsədlər tayfasına mənsub olduğu üçün Əsəddərin gözəsi demişlər.

**ƏSGƏRİN BULAĞI** – Göllü kəndində, Əskər adlı şəxs bu bulağı düzəltdiyi üçün onun adı ilə adlandırılmışdır.

**ƏŞNƏK ÇAYI//ƏŞİNƏK ÇAYI** – Talin rayonunda, uzunluğu 38 kilometr olan və Arpaçaya tökülən çayın adıdır. Yay quraq keçəndə quruyur. Hidronim qədim Aşina tayfasının adından törənmədir. Hidronimin tərkibindəki k isə cəmlik bildirir. (2. 301)

**ƏŞRƏF BULAĞI** – Ağbabada ən məşhur bulaqlardan sayılır. Xaraba Mustuqlu kəndinin ətəyində, Arpagöldən 300 metr aralıdır. Bulağı Mustuqlu kəndinin keçmiş varlılarından Əşrəf ağa düzəldibmiş. Hidronim şəxs adı ilə əlaqəlidir. Bulağın suyu 2 böyük daş mustuğa tökülərdi. Həmin muştuqları 60-cı illərdə traktorla sürükləyərək Təpəköyə gətirmişdilər.

**ƏYƏR GÖLÜ** – Talin rayonunun Zeyvə kəndi yaxınlığındadır. Gölün relyefi əyri olduğu üçün elə demişlər.

**ƏYRİ** – Təpəköy kəndində. Arpaçayın keçmiş yatağının kəskin əyildiyi yerin adı idi. 1961-ci ildən çayı yeni kanalla axıtdıqdan sonra köhnə yataqdan bulaq suları axırdı.

**ƏYRİ BULAQ** – Ələyəz dağı hövzəsində, 1855 metr yüksəklikdə (Artik rayonu) olan bulağın adıdır. Erməni mənbələrində göstərilir.

**ƏYRİ BULAQ** – Qarabulaq kəndinin qərb tərəfindəki hərbi zastavanın yanındakı bulağın adıdır. Bulağın adı relyefi əks etdirir.

**GÖLGÖZƏ** – Təpəköy kəndinin şərq tərəfində, sahəsi 7-8 $m^2$ olan gözəlliyin adı idi. Vaxtı ilə Torf adlanan yaşayış məntəqəsində yaşayan hərbçilər (sərhədçilər) gözənin əsas mənbəyindən bulaq kimi istifadə etmişlər. Arpaçayın sağ tərəfində olan bu gözənin suyu çayın səviyyəsi yendikcə azalardı.

**GÖLQAT** – Artik rayonundan axıb gələn, uzunluğu 15 km olan çay. Bu hidronim də inversiya olunmuşdur. Əslində Qatgöl mənasındadır. Qat bataqlıq mənasındadır.

**GÖLQOŞUN** – Holavar kəndinin şimal tərəfində kiçik gölün adı idi. Burada söz birləşməsinin tərəfləri inversiya olunub. Əslində Qoşungöl olmalıdır. Qoşun//Qaşın türk-monqol paraleli olub turş (su) mənasındadır [4, 161].

**GÖLYERİ** – Kiçik Təpəköy kəndinin şərq tərəfində əkin sərnəsinin ortasındakı çayırlıqda olan müvəqqəti gölün adı idi. UJzunluğu 250 metr, eni isə 200 metr olan bu göl yayda quruyardı.

**GÖLZİYARƏT** – Ələyəz dağının zirvəsində həm yüksəklik, həm də orada olan gölün adıdır. 1918-ci illərdə Ələyəz ətəyi kəndlərdən qaçqın düşən yaşlı informatorlar o ulu ziyarəti xatırlayırdılar. Gölün adı qədim sintaktik konstruksiyanı əks etdirir. Hidronimin mənası Ziyarətgölü deməkdir.

**GÖMUR** – Mənbəyini Pəmbək dağ silsiləsindən alıb, uzunluğu 15 km olan çayın adı idi.

**GÖY BULAQ** – Güllücə kəndinin şimal-qərbində göyrəngli süxur-daşlardan süzülüb gələn bulağa deyərdilər. Şeirlərin birində Məcnun Ağbabalı bu hidronimi belə vəsf edir:

*Göy bulağım bərə-bərə,*
*Keçilməzdi dərin dərə.*

*Enib gedək Güneylərə.*
*Qız-gəlinin yığnağıdır.*

**GÖY BULAQ** – Ellərkəndin şərqində, Dolama yolun üstündə göy daş süxurlardan qaynayıb çıxan bulağa deyilirdi.

**GÖY BULAQ//GÖY BULAX** – Qarabulaq kəndinin cənubunda göy daşların arasından süzülüb çıxdığı üçün bulağa elə demişlər.

**GÖZDƏYƏN** – Pəmbək bölgəsində – Muncuqlu bulaq adlanan bulaqdan bir az aralıda olan bulağa deyərdilər.

**GÖZƏLDƏRƏ ÇAYI** – Ələyəz dağının 3500 metr yüksəkliklərindəki buzlaqlardan və bulaq sularından mənbəyini alaraq Arpa çaya tökülür. Uzunluğu 34 kilometr olan bu çay bəzi yerlərdə dərinliyi 400-500 metr olan dərin daşlı kanyondan keçir.

**GÜLLÜOĞLUNUN BULAĞI** – Ellərkəndin cənubunda, keçmişdə Güllüoğullarına məxsus çayırlı biçənəkdə olduğu üçün elə deyilmişdir.

**GÜLLÜOĞLU ÇAYI** – Ellərkəndin cənub tərəfindəki bulaqlardan mənbəyini alan və Güllücə kəndindən axaraq Arpagölə tökülən çayın adı idi. Güllüoğluların biçənəklərindən keçdiyi üçün Güllüoğlu çayı demişlər.

**GÜMEVİ ÇAYI** – Hollavar kəndinin şərqində, Böyüksu çayına tökülən kiçik çayın adı olmuşdur. Hidronimin adının Gümevi adlanması eyni adlı yurd yerinin adı ilə əlaqəlidir.

**GÜMRÜ ÇAYI** – Mənbəyini Şirak//Şörəyel dağlarındakı bulaqlardan alan və Arpaçaya tökülən çayın adı olmuşdur. 1928-ci ildə həmin suyu yeni tikilən Şirkanalla (Şirak kanalına) axıtdılar. Çayın adı relyef bildirən Gümrü şəhər adı ilə əlaqəli yaranmışdır.

**GÜMRÜ YAYLASININ BULAĞI** – İbiş kəndinin cənub-şərqində, keçmişdə gümrülülərin yaylaq yerləri olan ərazidəki bulağa deyərdilər.

**HACI SALMANIN BULAĞI** – Mağaracıq kəndinin qərbində, Türkiyə sərhədində olan tarixi bulağın adıdır.

**HALIŞDI** – Qursalı kəndində olan bulaqlardan birinin adı olmuşdur.

**HALLAVAR ÇAYI** – Hallavar kəndi ərazisindən axan çay.

**HƏMİDİN BULAĞI** – Sınıq kəndində olan bulaqlardan birinin adı imiş. Antroponim mənşəlidir.

**HƏMİDİN BULAĞI** – İlanlı kəndindən Amasiyaya gedən yolun sol tərəfindədir. Həmid kişi düzəltdiyi üçün elə adlandırılmışdır.

**HƏMZƏNİN BULAĞI** – İbiş kəndinin qərbində, Həmzə ağaya aid olan biçənəklərdə olduğu üçün elə demişlər.

**HIRIN BULAĞI** – Ellərkəndin şərq qutaracağında, Hır Mahmud deyilən bir çobanın bu bulağı düzəltdiyi söylənilir.

**XALXALIN BULAĞI** – Qara Namaz kəndinin şimalında, Xalxal adlanan arxacın yanındakı bulağa deyilirdi.

**XANCALLI SUYU** – Balıqlı kəndinin şərq tərəfində, Xancallı kəndindən axıb gələn bulaq sularına deyilirdi.

**XANIMANA** (bulağı) – Qursalı kəndində, keçmişdə ehsan kimi düzəldilən xatirə bulağı idi. Memorial xarakterlidir.

**XATIN BULAQ // XATIN BULAĞI** – Qara Namaz kəndinin ortasnda keçmişdə ehsan kimi düzəldilmiş bulağın adı olmuşdur. Bu bulağın adı da memorial xarakterlidir.

**XATİRƏ BULAQ** – Arçut kəndiņdə olan bulaqlardan birinin adı olmuşdur.

**XƏLİL BULAĞI** – Arçut kəndində olan bulaqlardan birinin adı idi, etnohidronimdir.

**İBOYUN BULAĞI** – Güllücə kəndinin cənub hissəsindədir. Keçmişdə bu bulağı kənddə İboy kimi çağırdıqları İbrahim düzəltdiyi üçün elə demişlər.

**İLANLI BULAQ** – Amasiya kəndinin şimal tərəfindəki biçənəkdə olan tənha bulağın adı idi. Ərazidə çoxlu su ilanı olduğu üçün İlanbulaq demişlər.

**İMANQULUNUN BULAĞI** – Ellərkəndin cənub hissəsində - İmanqulu təpəsi deyilən təpənin altındakı daşlıqdan

çıxan bulağa deyərdilər. İnformatorların dediyinə görə, İmamqulu kişi keçmişdə Türkiyəyə köçüb gedib.

**İNƏK BULAĞI** – Çivinli kəndinin şimal-qərbindəki İnək çayırı adlanan biçənəkdə olan bulağın adı idi.

**İSKƏNDƏRİN BULAĞI** – Ellərkəndin şimal-şərqində dağın ətəyində bulağın adı idi. Keçmişdə İskəndər adlı bir şəxs bulağı düzəltdiyinə görə elə demişlər.

**İSOYUN BULAĞI** – Düzkənd kəndinin yuxarı hissəsində İsa kişinin evinin yanında olduğu üçün elə deyirdilər.

**İSTİ BULAQ** – Saral kəndi ərazisində su mənbəyidir. Bu bulaqdan qaynayan su isti olmasa da, mineral olduğuna görə "İstisu" demişlər.

**KAZIMIN BULAĞI** – Çivinli kəndinin cənub-şərqində Kazım kişiyə aid olan bulağın adı idi.

**KƏLBƏ RZANIN QARA SUYU** – Düzkəndin şimalında Arpaçaydan çıxan bir qol elə adlanırdı. Deyilənə görə, bu suyun ətrafı Kəlbə Rzaya aid biçənəklər imiş.

**KƏNDİRBAZIN SUYU** – Yuxarı Kilsə (Dızman) kəndi ərazisindən axan çaya deyirdilər.

**KOR BULAQ // KOR BULAX** – Ellərkənddən Çivinli kəndinə gedən yolun qırağındadır. Yay aylarında bulağın gözü quruduğuna görə elə demişlər.

**KOR BULAQ//KOR BULAX** – İlli kəndinin yerləşdiyi dərədə yay aylarında quruduğu, yəni korlandığı üçün Korbulax demişlər.

**KOSA MƏMMƏDİN BULAĞI // KOSA MƏMMƏDİN BULAĞI** – Balıqlı kəndinin şimal hissəsindədir. Bulaq Kosa Məmmədin evinə yaxın olduğu üçün elə deyilmişdir.

**QAFARIN BULAĞI//QƏFƏRİN BULAĞI** – Güllücə kəndinin şərq hissəsindədir. Keçmişdə Qafar adlı bir kənd sakini tərəfindən düzəldildiyi üçün elə deyilmişdir.

**QANQALLI BULAQ** – Balıqlı kəndinin şimali-qərb hissəsində, ətrafı sıx qanqallıq olan bulağın adı idi.

**QANLI ÇAY // QANNI ÇAY** – Qursalı kəndinin cənub-

qərbində olan çayın adı olmuşdur. Çayın adı qanlı tayfa adındın törənən etnohidronimdir.

**QARA BULAQ** – Göllü kəndinin şərqindəki çayırlıqda olan bulağın adı idi. Bu balağın suyu qışda isti olur və donmur. Hidronimin tərkibindəki qara keyfiyyət bildirir.

**QARA BULAQ** – Xancığaz kəndi ərazisində olan bulaqlardan birinin adı olmuşdur.

**QARA BULAQ** – Elləroyuğu kəndinin şərqində, Böyük Güney dağ silsiləsinin ətəyindən qaynayıb çıxan bulağın adıdır. Keyfiyyətcə qara su olduğuna görə qış fəslində isti, yayda sərin olur.

**QARAÇI BULAĞI** – Ellərkəndin şimal-şərqindəki Böyük Güney dağının ətəyindəki gur sulu bulağa deyilirdi. Əvvəllər Axırkələk tərəfdən gələn qaraçı köçü dolama yolla gəlib bu bulağın ətrafında dincəldikləri üçün elə deyilmişdir.

**QARABULAQ ÇAYI** – Mənbəyini Qarnıyarıq dağındakı bulaqlardan alaraq (25 km) şərqdən qərbə doğru irəliləyir və Karbi çaya tökülür [2, s.310].

**QARABULAQ SUYU** – Yuxari Kilsə ilə Aşağı Kilsə kəndinin arasından axıb Böyüksuya tökülən bu çayın uzunluğu 13 kilometrdir. Çay mənbəyini Qarakilsə şəhərinin cənub-qərb tərəfindəki qaynama bulaqlardan alır.

**QARAÇOBAN ÇAYI** – Pəmbək bölgəsində, Qursalı kəndinin qədim yaylaq yerində olan bulağın adı idi. Tayfa adından törənmiş etnohidronimdir.

**QARAÇOBAN** – Qursalı kəndinin cənub-şərqindən axıb Pəmbək çaya tökülən çayın adıdır. Uzunluğu 21 km-dir.

**QARAÇORAN // QARAŞORAN** – Uzunluğu 17 kilometr olan bu çay mənbəyini Abaran ərazisindəki bulaqlardan alaraq Zəngi çaya tərəf axır və ora tökülür. Çayın adı qədim Qaraçor adı ilə əlaqədardır. Burada Qaraçoran (qara -çor-an) Qaraçorlar mənasını ifadə edir. Ağbabada da Çorlu adlı kənd adı olmuşdur. Göstərilən çayın hövzəsində də Qaraçoran adlı kənd də vardır.

**QARA DAŞ** – Haydarlı kəndi ərazisində yaylaq və bulaq idi. Təbiət hadisəsi kimi, bulağın yanında böyük qara daş olduğu üçün elə demişlər.

**QARADAŞ SUYU** – Talin ərazisində, Ələyəz dağı tərəfdən gələn kiçik çaya deyərdilər. Yaz aylarında quruyardı.

**QARA GÖL** – Ələyəz dağının bir zirvəsində dərinliyi 50 metrdən çox olan dağ gölünə deyirdilər.

**QARA GÖL** – Qursalı kəndinin şimal-şərq tərəfindəki gölə deyirdilər. Suyunun keyfiyyətinə görə qara göl demişlər.

**QARAXAN ÇAYI** – Mənbəyini Ağbaba dağındakı bulaqlardan və qar sularından alan çayın adıdır. Etnonim mənşəli oronimdir. Çayın əsas hissəsi Türkiyə ərazisinə axır və Qarsçaya birləşir. Çayın 5 kilometrlik bir qolu İbiş kəndinin altından axaraq xaraba Mustuqlu kəndinin qabağından - şərqindən Arpagölə tökülür. Bu hidrotexnik tikinti 1970-ci illərdə Türkiyə ilə razılaşdırılaraq tikilmişdir.

Güllübulaqlı Aşıq Nəsib qoşmalarının birində Qaraxan hidronimini bir neçə çay adı ilə birlikdə işlətmişdir:

*Quruyar Qaraxan, quruyar Arpa,*
*Göylərə üz tutub bircə "huy" desəm,*
*Dayanar Qaraxan, Möküz, Lalaxan,*
*Nə qədər "çay" desəm, axar su desəm.*

Bir Ağbaba bayatısında da Qaraxan hidronimi xatırlanmaqdadır:

*Əzizim, Qaraxanda,*
*Su daşar qaraxanda.*
*Elim-obam dağıldı,*
*Dağlardan qar axanda [7].*

**QARA KƏHRİZ** – Güllübulaq (Amasiya) kəndində tuf daşla hörülmüş qədim kəhrizin adı olmuşdur.

**QARANQU** – Mənbəyini Ələyəz dağındakı Qaragöldən və bulaqlardan alan,uzunluğu 38 kilometr olan çayın adıdır. Arpaçaya tökülən bu çayın adı qədim türk sözü olan qaranqudan törənmişdir. Sözün semantik mənası qara rəng anlamını ifadə

edir. Bu çayın adı da ermənilər tərəfindən dəyişdirilib gah Sevcur (“sev” qara – “cur” su), gah da Metsamor kimi xəritələrdə qeyd edilmişdir. Uzunluğu 25 km-dən çoxdur [2, s.310].

**QARA SU** – Bir çox erməni, türk, rus mənbələrində Qaranqu çayının başqa bir adı kimi qeyd edilir.

**QARA SU** – İlanlı kəndinin yaxınlığında, Arpaçayın köhnə yatağında çay döngələrini birləşdirən suyolu idi.

**QARA SU** – Təpəköyün şərq tərəfində, keçmişdə, Arpaçayın daşdığı zaman döngələrini birləşdirən, uzunluğu, 1 km. olan çay yatağının adı idi.

**QARASU BULAĞI** – Qursalı kəndindəki bulaqlardan birinin adı idi.

**QARPI ÇAYI** – Mənbəyini Maymaq və Ayqır dağlarındakı bulaqlarından alıb Pəmbək çayına tökülür.

**QAYABAŞI** – Güllücənin cənub-qərbində, Quzukəndin sərhədinə yaxın olan sıldırımlı qayalığa deyərdilər.

**QAYA BULAQ** – Güllücə kəndinin şimalındakı qayalıqda olan bulağın adı idi.

**QAYNAR BULAQ** – Ördəkli kəndinin ən məşhur bulaqlarından birinin adıdır. Bu su mənbəyi daşlıqdan qaynayaraq çıxdığı üçün elə deyilmişdir.

**QINIKSU** – Erməni mənbələrində 1691-ci ildə xatırlanan və Şörəyel vadisində göstərilən çay adıdır. Həmin çay Kinəyi (Türkiyə) kəndinin yanından axıb Arpaçaya tökülür. 1970-ci illərdə Arpaçay dəryaçası tikərkən kəndin əhalisi başqa yerlərə köçürülmüşdür. Hidronim etnik tayfa adı ilə bağlıdır (2. 468).

**QIRX BULAQ** – Arçut kəndi yaxınlığında olan qaynama bulaqlar toplusunun adı olmuşdur. Ümumiyyətlə, toponimiyada ondan çox bulaq qeyd olunduğu ərazidə qırx sayından istifadə edilməsi həm də Qırxbulaq hidroniminin yaranmasına səbəb olmuşdur.

**QIRXBULAQ SUYU** – Pəmbək bölgəsində, Qırxbulaq adlanan su mənbələrindən axıb Pəmbək çaya tökülən çayın adı olmuşdur. Uzunluğu 32 kilometrdir.

**QIRX GÖZƏ//QIRIX KÖZƏ** – Göllü kəndinin cənub tərəfindəki çayırlıqda olan gözəlliyin adı idi. Arpaçayın sol sahilindəki çayırlıqda olan gözələrin sayı qırx dənə olmasa da, ancaq çoxluğuna görə Qırxgözə və ya i saitinin artımıilə Qırıxgözə demişlər.

**QIRMIZIBULAQ** – Ellərkənd ərazisində, qırmızı daş suxurları arasından qaynayıb çıxan bulağın adı idi.

Məcnun Ağbabalının bir qoşmasında "Qırmızı bulağ"a gedib orada ocaq qalaması arzulanır:

*"Qırmızı bulaq"da ocaq qalayaq,*
*Açsın qollarını vəfalı "Göy dağ".*
*Gəlsin yanımıza alanlar soraq,*
*Bassın sinəsinə Arpagöl səni.*

**QIRMIZI BULAQ** – Qönçəli kəndinin şimal tərəfindəki dərədə olan bulağın adı idi. Bulağın qaynadığı yerdən muncuq kimi qıurmızı qum dənələri çıxdığı üçün Qırmızı bulaq demişlər.

**QIZILGÖL** – Ələyəz dağının zirvələrindən birində – Qızıl Ziyarətdə olan gölün adıdır. Burada qızıl qırmızı mənasındadır. Göl 3210 metr hündürlükdə yerləşir. Göl qırmızı tuf daşlığı ərazisindədir [2, s.414].

**QIZILKİLSƏ SUYU** – Mənbəyini Ağbaba və Tayaqaya dağlarından axıb gələn bulaq sularından alaraq Quzukand və Qarabulaq kəndlərinin arasından Arpagölə tökülür. Uzunluğu təqribən 12 kilometrdir. Qızılkilsə kəndinin sakinləri 1948-ci ildə Göyçaya köçürüldüyündən kənd ləğv olunmuşdur.

**QIZILQOÇ ÇAYI** – Ağbaba ərazisində, mənbəyini Qaraağac dağlarındakı bulaqlardan alaraq Qızılqoç kəndinin yanından ötüb Arpaçaya tökülür. Uzunluğu 28 kilometrdən çoxdur.

**QOŞA BULAQ** – Göllü kəndi ilə Qara Namaz kəndinin arasında, yaxın məsafələrdə olan bulaqların adları idi.

**QOŞA BULAQ** – Balıqlı kəndinin şimal hissəsindədir. Bir-birindən 3-4 metr aralı 2 bulaq olduğu üçün elə demişlər.

**QOŞA BULAQ** – Quqar rayonunun Hollavar kəndində keyfiyyətli suyu və qoşa olan bulaqların adıdır.

**QOTUR ÇAY**– Mənbəyini Ələyəzin şimal ətəyindəki bulaqlardan alaraq Pəmbək çaya tökülür. Uzunluğu 18 kilometrdir.

**QOTUR ÇAY** – Uzunluğu 10 kilometr olan bu çay mənbəyini Ələyəz dağlarındakı bulaqlardan alır və Araz çayına tökülür. Xəritələrdə çayın adı ermənriləşdirilərək “Araqadzotn” kimi yazılır. İnformatorlar çayın adını qudur sözü ilə əlaqələndirirdilər. Sürətli axdığı üçün Quduran çay, Qudur çay, daha sonra təhrif olunaraq Qotur çay olmuşdur.

**QUQAR ÇAYI** – Uzunluğu 10 kilometr olan bu çay Pəmbək bölgəsindədir. Bəzi mənbələrdə “Koran” kimi də qeyd edilir. Elə Goran kəndi də o çayın sahilindədir. Quqar//Qoqar// Göyər müxtəlif türk dillərində tayfa adı bildirir. Göyərli, Göyərlər, Göylər toponimləri ilə eyni kökdəndir [2, 670].

**QUQURUN YERİ** – Ellərkəndin qərbində, Dərə çayırı deyilən ərazinin yaxınlığında əkin sahəsinə deyirdilər. Keçmişdə Türkiyəyə köçüb getmiş Ququr kişinin əkin yerləri olubmuş.

**QURD BULAQ** – Sultanabad kəndinin şərqində Daşlıdağın ətəyində olan bulağın adı idi. Yay aylarında suyu azalan və gur axmayan bulaqda çoxlu qurd əmələ gəlməsini informatorlar söyləyirlər.

**QURNALI** – Ellərkənd kəndinin qərb tərəfindəki bulağın adı idi. Bulağın suyu qədimlərdə daşdan yonulmuş boruşəkilli novdan tökülür. Hidronimin tərkibindəki «qurna» boru mənasını bildirir. Qur təqlidi sözdür.

**QURTDU BULAQ//QURDLU BULAQ** – Güllücə kəndinin şimal hissəsində, yaz vaxtı içərisində kiçik qurdlar olan bulağa deyərdilər.

**QURTDU BULAX // QURDLU BULAQ** – Qarabulaq kəndindəki Əşrəf bulağının yanındakı bulağa deyilirdi. Yay aylarında suda kiçik qurdlar olduğu üçün belə demişlər.

**QURU BULAQ** – Güllücə kəndinin şimalında, Güney dağın ətəyindəki bulağın adı idi. Yay aylarında daha tez quruduğu söylənilir.

**QUZU BULAĞI** – 1878-ci ildən ermənilər yaşayan Dərəköy (Qızılqoç rayonu) kəndindəki bulağın adı idi. Ermənilər Kuzibulaq kimi tələffüz edərdilər.

**LALAXAN** – Sınıq kəndi yanındakı bulaq sularının çay şəklində birləşən axınına deyilirdi. Çay sakit axdığı üçün onun əlamətinə görə elə demişlər.

**LİLPARLI** (bulaq) – Qarabulaq kəndinin qərbindəki dərədə olan bulağın adı idi. İnformatorlara görə bulağın ətrafı lilparla zəngin olduğu üçün Lilparlı bulaq demişlər.

**LİLPARLI** – Güllücə kəndinin şimalında, ətəyində lilpar bitən bulağa deyərdilər.

Məcnun Ağbabalı şeirlərinin birində bu bulağı xatırlayır:

*El-obanın çəkilibdi ayağı,*
*Durnaların daha gəlmir sorağı.*
*Qəribsəyir Qulamölən, Kal dağı,*
*Ay Lilparlım, Buz bulağım, incimə.*

**MAMACANIN BULAĞI** – Pəmbək bölgəsində, Vardana kəndi ərazisində olan bulağın adı olmuşdur.

**MAMOYUN ARXI** – Güllübulaq kəndində keçmişdə mamoylar tayfası tərəfindən düzəldilən arxa deyirdilər.

**MARAL BULAĞI** – İlanlı kəndinin cənub-şərqində, İnəkdağda olan bulağın adı idi. Zoonim mənşəlidir.

**MEÇİDİN KƏHRİZİ** – Güllübulaq kəndindəki məsçidin yanında olan kəhrizə deyilirdi.

**MEÇİDİN QUYUSU** – Oxçuoğlu kəndindəki məscidin yanındakı su quyusuna deyilirdi.

**MƏDƏDİN BULAĞI** – Qursalı kəndi ərazisində, kəndin cənub hissəsində olan bulağa deyərdilər.

**MƏDƏN BULAĞI –** Qarakilsə şəhərinin şimal-şərqində Maymaq dağının ətəyində olan bulağın adı olmuşdur. Keçmişdə orada mis mədəni olmuşdur.

**MƏDƏN SUYU** – Maymaq dağındakı bulaqlardan mənbəyini alaraq, axıb Pəmbəkçaya tökülür.

**MƏDİNƏNİN BULAĞI** – Qara Namaz kəndində sonsuz

bir qadın ehsan üçün bu bulağı kəndə çəkdirib.

**MƏƏL** – Arpaçayın mənbəyinə yaxın olan dayaz və daşlı keçidin adı idi. Yay aylarında Təpəköy kəndinin qoyun-quzusu, mal-qarası isti düşəndə orada dincələr və sərin düşəndə yenidən otlağa qayıdardı. Hidronim qoyun-quzunun mələşməsi ilə əlaqədar yaranmışdır. Bir çox kəndlərdə Məəl adlı hidronimlər işlənərdi. Məəl təqlidi sözdür (qoyun-quzunun mələşməsi).

**MƏHƏMMƏDİN BULAĞI** – İlanlı kəndinin yaxınlığında xaraba Bozqala kəndində bulaq. Deyilənə görə bulağı Usuflu tayfasından olan Məhəmməd düzəldibmiş.

**MƏSİMİN BULAĞI** – İbiş kəndinin qərbindəki təpəliklətin ətrafında, keçmişdə kəndin sakini Məsimə aid olan biçənəklərdə olduğu üçün elə deyilmişdir. Hidronim antroponim mənşəlidir.

**MƏSİMİN BULAĞI** – Öksüz kəndinin qərb qurtaracağındakı daşlıqda olan bulağın adı idi. Antropohidronimdir.

**MƏSMƏNİN BULAĞI** – İbiş kəndində bulaqlardan birinin adı olmuşdur. Şəxs adı ilə əlaqədar olaraq yaranmışdır.

**MƏŞƏDİ HASAN BULAĞI** – Təpəköydən Qönçəli kəndinə gedən yolun sol tərəfindəki bulağın adıdır. Deyilənə görə, Məşədi Hasan Qonçalı kəndinin varlılarından olub, sonra Qars tərəfə köçüb gedib.

**MƏŞƏDİ HƏSƏN BULAĞI** – Çivinli kəndindəki bulaqlardan birinin adı olmuşdur. Məşədi Həsən adlı varlı bir şəxs düzəltdirdiyi üçün onun adı ilə adlandırılmışdır.

**MƏŞƏDİ HƏSƏNİN ARXI** – Çivinli kəndində arx adı idi. Keçmişdə kəndin sakinlərindən olan Məşədi Həsən adlı varlı bir şəxs öz pulu ilə kəndin əkin sahələrini suvarmaq üçün çəkdiribmiş.

**MƏŞƏDİ ZALOYUN BULAĞI** – Qara Namaz kəndinin qərbində, keçmişdə dəlləklər tayfasından olan Məşədi Zaloya aid bulağa deyərdilər.

**MIXBULAQ** – Ələyəz dağında, həmişəlik buz qatlarının yanında turistləri cəlb edən bulağın adıdır. Bulağın yanında buz

təbəqələrindən mismar kimi sallanan buz salxımları olduğu üçün Mıxbulaq demişlər. Elə ermənilər də “Mexbulax” deyirlər [2, s.361].

**MİNGÖLLƏR** – Ellərkəndin şimalında bulaq sularının yaratdığı kiçik göllər qrupunun adı idi. Türkiyə sərhəddinə yaxındır. Bir neçə kiçik göllərdən ibarətdir. Bu ərazidə qarın çox gec əriməsi, ardıcıl yağan yağışlar nəticəsində göllər qurumur.

**MİNGÖLLƏR** – Suyu Ellərkəndin şimal-qərbində Ermənistan, Gürcüstan və Türkiyənin sərhəd zolaqlarının birləşdiyi ərazidə kiçik çay.

**MİRİLLƏRİN ARXI** – Çivinli kəndində arx adıdır. İnformatorlar həmin arxın İmrilər//Mirillər tayfasına aid olduğunu söyləyirdilər. Mirililərin bu kənddə 1988-ci ilədək yaşamışlar. Çox qədimlərdə bu tayfanın Borçalıdan gəldikləri söylənilir.

**MÖKÜZÇAY** – Çaldaş yaylağındakı bulaq sularının toplaşaraq çay şəklində Türkiyə tərəfə axan çayın adıdır. Möküz Ağbab şivəsində yeməli bitki adıdır. Deməli, çayın adı fitonimmənşəlidir.

**MUNCUQLU BULAQ//MUNCUXLU** – Çivinli kəndinin qərb tərəfində, içində rəngli – muncuğabənzər qumlar qaynayan bulağa deyirdilər.

**MUNCUQLU//MUNCUXLU BULAQ** – Vardana kəndindəki bulaqlardan birinin adı idi. Qaynama bulaqdan muncuq kimi qum dənələri çıxdığı üçün Muncuqlu (bulaq) demişlər.

**MUSANIN BULAĞI** – Güllücə kəndinin ərazisində, Qara Güneyin ətəyində olan bulağın adı idi. Antroponimmənşəli hidronimdir.

**NALBƏND KANALI** – Pəmbək bölgəsində, Nalbənd kəndinin yanından keçən suvarma kanalının adıdır. 1960-cı illərdə istifadəyə verilib. Tayfa adından törənmiş hidronim kəndin adı ilə əlaqəlidir. Etnohidronimdir.

**NAMAZIN BULAĞI** – Qara Namaz kəndindəki bulaqların birinin adı idi. İnformatorlara görə kəndin adı ilə əlaqəsi

yoxdur. Başqa bir şəxs adı ilə əlaqəlidir.

**NARINBULAQ** – Oxçuoğlu kəndinin şərq qurtaracağında bulaq adı idi. Bulaqdan su ilə narın qum dənələri qaynadığı üçün elə demişlər.

**NAZİK SU // NƏZİX SU** – Daşkörpü kəndinin şimalından bulaq sularının axıb gəldiyi kiçik çayın adıdır. Uzunluğu 5 kilometr olan bu çay nazik yataqla axdığı üçün Naziksu çayı demişlər.

**NEFTLİ//NEFİTDI//NƏFİTDİ** (bulaq) – Xancığaz kəndindəki bulaqlardan birinin adı idi. Həmin bulaqdan yağlı su çıxdığı üçün Nefitdi və ya Nöyütdü(bulaq) demişlər.

**NƏNƏNİN BULAĞI** – Təpəköy kəndinin 105 yaşlı sakini Zəkiyə nənənin evinin yanında olduğu üçün Nənənin bulağı deyərdilər. Çünki 1960-cı ildə rəhmətə getmiş o qarıya hamı nənə deyərdi.

**NİGAR BULAĞI** – Güllübulaq kəndində olan qədim bulaqlardan birinin adı idi. Deyilənə görə, bir neçə yüz il yaşı olan bu bulaq xatirə bulağıdır. Həmin bulaq haqqında rəvayət də var.

**OXLU BULAQ** – Xancığaz kəndinin qırağındakı bulağın adı idi. Etnohidronimdir.

**ORTA BULAQ** – Xancığaz kəndinin ortasında olan bulağın adı idi.

**OSMANARXI** – Balıqlı kəndində, Balıqlı çaydan ayrılan arxın adı idi.

**OYUXLU** (bulaq) – Pəmbək bölgəsində, Hollavar kəndi yaxınlığında həm yurd yeri, həm də bulaq adı olmuşdur.

**ÖKSÜZÜN ÇAYI//ÖYSÜZÜN ÇAYI** – Öksüz kəndi ərazisindəki bulaqların yığılıb bir yataqdan axması nəticəsində yaranan çaydır. Üç 3 km uzunluğunda olan bu çay Balıqlı çaya qarışır.

**ÖRDƏKLİ GÖLÜ** – Arpagölün cənubunda, İbiş kəndinin şimalındakı gölün adı idi. 1970-ci illərdə Qaraxan çayının bir qolunu gölə birləşdirərkən göl quruduldu. İnformatorlara görə,

yaz aylarında müxtəlif quş növləri burada məskunlaşıb bala çıxarardılar. Yaşılbaş ördək daha çox olduğu üçün ördəkli gölü demişlər. Əhalisi 1920-ci illərdə Qars tərəflərə köçüb gedən Ördəkli kəndi də bura yaxındır. Ördəkli toponiminin ifadə etdiyi ərazini bilmədən onu tayfa adı ilə bağlamaq elmsiz bir yozumdur.

**ÖRTÜLÜ ÇAY** – Ələyəz hövzəsində, mənbəyini Südəhmən kəndinin bulaqlarından götürür. Çay dar bir kanyondan axdığı üçün elə deyilmişdir.

**ÖRTÜLÜ ÇAY** – İ.Şopenin tədqiqatında Qayqulu Qazançı kəndinin yanından axan çay kimi qeyd edilir. Çay mənbəyini şimal tərəfdəki Örtülü dağda olan bulaq sularından aldığı üçün elə deyilmişdir.

**PAŞA BULAĞI** – Quzukənd kəndinin cənub-qərbində olan bulağın adı idi. Deyilənə görə, bu bulağı Çıldır tərəfdən gəlib-gedən türk paşası düzəldibmiş.

**PƏMBƏK ÇAYI** – Uzunluğu 86 km. olan bu dağ çayı mənbəyini Maymaq, Boz Abdal, Maraldağ, Bayatdağ, Ley dağdakı bulaqlardan alır, Pəmbək dərəsindən axıb Dərəçaya qovuşur və Debetə birləşir. Çayın adı qədim türk dilində, eləcə də müasir türk dillərinin bir çoxunda «çətin keçilən təpəliklər» mənasını bildirən paambak//poombək oronimini əks etdirir.

**POQQUL BULAQ** – Qarabulaq kəndində, Arpagölə yaxın olan bir ərazidə bulaq suyu poqquldayaraq çıxdığı üçün elə demişlər.

**POQQUL BULAQ//POKQUBULAQ** – Çivinli kəndində ən yaxşı bulaqlardanbirinin adı idi. Poqquldayaraq qaynadığı üçün Poqqul (dayan) bulaq demişlər.

**POŞT BULAĞI//POSTBULAQ** – Qara Namaz kəndində, Qazançı kəndinəgedən yolun sağ tərəfindəki bulağın adıdır. İnformatorlara və qədim xəritələrə əsasən aydın olur ki, 1828-ci ildən 1878-ci ilədək, daha sonra isə 1918-1920-ciillərdə həmin bulağın yanında - Dəli çayın sağ sahilində Rus ordusunun kazak postu olarmış. Daha doğrusu, sərhəd nəzarət məntəqəsi orada

yerləşdiyi üçün elə deyilmişdir.

**POŞTBULAQ** – Sörəyel vadisində, Mağaracıq kəndinin cənub-şərqində Arpaçayı dərəsinin sağ sahilindəki bulağın adıdır. Həmin yerdə də 1828-ci ildən 1878-ci ilədək, daha sonra isə 1918-1920-ci illərdə sərhəd məntəqəsinin postu olduğu üçün Postbulağı demişlər. Qara Namaz kəndindəki Post bulağı ilə bu bulağın arasında 35 km. məsafə var. Lakin Qara Namazdakı Poçt bulağı Dəliçayın sahilində, bu isə Arpaçayın sahilində olmuşdur.

**SALLI BULAQ** – Mağaracıq kəndi ilə Çaxmaq kəndinin arasındadır. Dadlı suyu və qismən ağ olduğuna görə elə adlandırmışlar.

**SALLI BULAQ** – Çaxmaq kəndində, ətrafına sal daşlar döşənmiş qədim bulağın adı idi.

**SARI BULAQ** – Çaxmaq kəndində, Arxaşan dağının ətəyində olan bulağın adı idi.

**SARI BULAQ** – Güllücə kəndinin şimalında sarı gilli torpaqdan qaynayan bulağın adı idi.

**SARI ÇAY** – Arçut çayına tökülən bir çayın adı idi. Hidronimin tərkibindəki sarı leksik vahidi suyun keyfiyyətini bildirir. Ümumiyyətlə, güclü axmayan sular öz rəngini itirir və sarıya çalır.

**SARI KANAL//SARI QANAL** – Çaxmaq kəndində, bulaq sularının axdığı sarı gilli kanalın adı idi.

**SARININ BULAĞI** – Ellərkəndin şimal-şərqində, “Otay” deyilən ərazidə keçmişdə orciyalı tayfasına aid olan Sarı kişinin biçənəyində olan bulağa deyilirdi.

**SARI SU** – Xancığaz kəndində bulaq sularının axdığı kiçik arxa deyilirdi. Gilli yataqlardan durğun axdığı üçün su sarı rəngə bənzədiyini informatorlar qeyd edirlər.

Yurdundan qaçqın düşən Məcnun Ağbabalı yurdhəsrətli bir şeirində Sarı bulağı bir daha xatırlayır:

*Sarı bulaq çıxmayacaq yadımdan*
*Yerə endim su içməyə atımdan.*

*Son ayrılıq keçdi yeddi qatımdan,*
*Ziyaratda yan çırağım, incimə.*

**SELDAĞILAN ÇAY** – Ağbabanın cənub-qərbində, mənbəyini Ağbaba və Göydağ dağ silsilələrindəki bulaqlarından alaraq keçmiş Seldağılan kəndinin yanından adlayıb Arpagölə tökülür. Uzunluğu 15-17 kilometr olan çayın adıdır.

**SEYİD GÖLÜ** – Mağaracıq kəndinin qərbində-Türkiyə sərhəddində olan gölün adı idi. Həmin ərazi kənddə uzun illər yaşayan Seyidlər tayfasına aid olduğu üçün oradakı biçənəklər və əkin sahələrinə görə, gölə də Seyid(lərin) gölü demişlər. Seyidlər ən böyük tayfa kimi Ağbaba və Qars ərazisində yaşamaqdadırlar.

**SƏKİNƏ BULAĞI** – Xancığaz kəndində bulaq adı idi. Çayın adı antroponim mənşəlidir.

**SƏKİNƏNİN BULAĞI //SƏHNƏNİN BULAĞI** – Qarabulaq kəndinə yaxın bir yerdə, Oxçuoğlu kəndinin yaylasında olan bulağın adıdır.

**SƏMƏDİN BULAĞI –** Qursalı kəndində Səmədin yurdu adlanan yaylaqda olan bulağa deyərdilər.

**SƏNGƏR BULAQ** – Düzkəndin cənubundakı Səngərdağda olan bulaq adı idi. Türk tarixçi və dilçisi M.Doğru «səngər» sözünü qıpçaqlara aid edir və göstərir ki, uyğur və qıpçaqlarda bu sözün mənası «dağın alçaldığı yer» deməkdir. Çay adını dağ adından götürmüş orohidronimdir.

**SİRLİ SANDIQ//SİRRİ SANDIX** – Güllücə kəndinin şimal tərəfində, Güney dağdakı bulağın adı idi. Sandıq şəkilli daşdan qaynayan su eyni səviyyədə sandığın içində qalır, azalıb əskilmirdi.

**SOYUX BULAX** – Ellərkəndin şimal-şərqindəki dağda olan bulaq. Suyun çox soyuqluğuna görə elə demişlər.

**SOYUQ BULAQ** – Quzukənd kəndinin şimal-qərbindəki bulağın adı idi. Yay aylarında belə bu bulaq suyu kəskin soyuqluğu ilə seçilirdi.

**SOYUNQULUNUN BULAĞI** – Güllücədən, Balıqlı

kəndinə gedən yolun sağ tərəfindədir. Hüseynoğlu şəxs adından törənmişdir.

**SÖYÜDLÜ SU AMBARI** – Ağin rayonunda olan su anbarının adı idi. Keçmiş Söyüdlü kəndinin yanında olan bu su anbarının da adını ermənilər xəritələrdə «Sarnaxburi crambar» kimi qeyd edirlər.

**SÖYÜN BULAĞI // HÜSEYN BULAĞI** – İlanlı kəndinin şimal qurtaracağında bulaq adı idi. Hidronim şəxs adı ilə bağlıdır.

**SÖYÜN KİŞİNİN TƏPƏSİ** – Ellərkəndin şimalında kəndin keçmiş sakini olmuş Hüseyn kişinin biçənəyi olan təpəyə deyirdilər.

**SUBÖLƏN** – Güllücə kəndinin şimal tərəfindəki Mingöllərdən axıb gələn bulaq sularının kəndin bir hissəsindəki biçin sahəsini bir neçə yerə böldüyü üçün elə demişlər.

**SUQARIŞAN** – Güllübulaq kəndinin şimal tərəfində, Qara Məmməd kəndindən gələn bulaq suları ilə kəndin bulaq sularının qarışdığı yerin adıdır.

**SUQOVUŞAN** – Çaxmaq kəndinin qərb tərəfində kiçik çay sularının qovuşduğu yerə deyilirdi.

**SUQOVUŞAN** – Daşkörpü kəndinin cənub tərəfində Mövləqulu dərəsindən gələn su ilə Əliyar dərəsindəki bulaq suyunun qarışdığı suyun adıdır.

**SULTAN BULAĞI** – Talin rayonu ərazisindədir. 1920-ci ildən Ağbabada yaşayan əşnəklilərin xatırlamalarında qalmaqdadır. Antroponim mənşəlidir.

**SÜDDÜ BULAQ** – Qarabulaq kəndindəki qalaçanın alt tərəfində, ağrəngli daş süxurlardan qaynayan bulağa deyirdilər.

**SÜDLÜ BULAQ//SÜDDÜ BULAX** – Vardana kəndində olan bulaqlardan birinin adı idi. İnformatorlar söyləyirlər ki, bulağın suyu ağ rəngə çaldığına görə Südlü bulaq demişlər.

**SÜLEYMAN AĞANIN BULAĞI** – Öksüz kəndində, şimal-qərbində olan bulağın adı idi.

**ŞAH BULAQ** – Balıqlı kəndinin şərq hissəsindədir. Suyu

sərin və həzmedici təsiri olduğu üçün buranın qonaq-qarası çox olardı. Ona görə də Şahbulaq (bulaqların şahı) demişlər.

**ŞAHLI BULAĞI** – Xancığaz kəndində olan bulaqlardan birinin adı idi.

**ŞALĞAM GÖZƏ // SAĞLÅM GÖZƏ** – Quzukənddən 3 km. aralı, saf və keyfiyyətli suyu olan böyük su mənbəyinin adı idi. Makro arealda işlənən bu bulağın adı əslində Sağlamgözə olmuşdur. Söz önündə **S-Ş** əvəzlənməsinə görə Şağlamgözə kimi deyilir.

**ŞİRİN BULAQ** – Qursalı kəndinin şimal-şərq tərəfində və keyfiyyətli suyu olan bulağa deyirdilər.

**ŞİRİNİN BULAĞI** – Balıqlı kəndinin şərq hissəsindədir. Kəndin keçmiş sakini Şirin kişi bulağı düzəldib qaydaya saldığı üçün elə demişlər.

**ŞİRİN SU** – Vardana kəndində bulaq və Pəmbəkçaya qarışan kiçik çayın adı olmuşdur.

**ŞİRİN SU ŞƏLALƏSİ** – Ələyəz dağının cənub tərəfində, Qotursu çayının mənbəyinə yaxın yerdə olan şəlalənin adıdır. Ermənilər həmin şəlalənin də adını dəyişdirərək Kaxsracur (şirinsu) etmişlər [2, s.331].

**ŞIRNAQ//ŞIRNAX** – Çaxmaq kəndinin cənub tərəfindədir. Yuxarıdan gələn bulaq suları hündürlükdən şırıldayaraq töküldüyündən ora Şırnaq demişlər. Yayda kənd uşaqlarının çimmək yeri idi.

**ŞIR-ŞIR** – Amasiya kəndində, Arpaçayı dərəsinə tökülən bulaq sularından ibarət şəlalə.

**ŞIR-ŞIR** – Bozqala kəndində, mənbəyini bulaq sularından alaraq gözəl mənzərə yaradan şəlaləyə deyərdilər.

**ŞİŞTƏPƏ SUYU** – Şiştəpə kəndinə yaxın olan mineral su mənbəyi. Amma suyu soyuqdur. Mənbələrdə 1926-cı ildə burada 32 nəfər azərbaycanlının yaşadığı qeyd olunur.

**ŞOR BULAX // ŞOR BULAQ** – İlanlı kəndinin şimal tərəfində, duzlutəhər suyu olan mineral bulağa deyərdilər.

**ŞÜKÜRQIRAN** – Ellərkəndin şimal-qərbində cüttəpələ-

rin ətəyindəki əkin yerlərinə deyilirdi. Keçmişdə kəndin sakini Şükür kşi öküz kotanı ilə bu xam otlaq sahəsini qırmış, yəni əkmişdir. Ona görə də elə deyirlər.

**ŞÖRƏYEL KANALI** – 1920-ci illərin sonunda Şörəyel vadisini suvarmaq üçün çəkilən kanalın adıdır.

**TAĞIBULAQ//TAĞIBULAĞI** – Mağaracıq kəndinin ərazisində olan bulaqlardan birinin adı idi. Hidronim şəxs adı ilə əlaqədardır.

**TALIBVURULAN // TALIFVURULAN** – Çivinli kəndinin şimal-şərq tərəfində, Göydağın yamacında olan bulağın adı idi. Deyilənə görə, keçmişdə kəndin igid bir oğlunu bu bulağın başında düşmənləri öldürmüşlər. Ona görə də, bulağa Talıvurulan demişlər.

**TANIŞ** – Ələyəz dağının zirvəsindəki göllərdən birinin adı olmuşdur. Göl Baqu zirvəsindədir.

**TAPIN BULAQLARI** – Çivinli kəndindəki "Tapılar" adlanan əkin yerlərindəki bulaqlara deyərdilər.

**TƏHMƏZ BULAĞI//TƏHMƏZ BULAĞI** – Ellərkənd kəndində olan bulaqlardan birinin adı olmuşdur. Kəndin şimalındakı qayalıqda olan bu bulağın yanında, deyilənə görə, 1912-ci ildə Qaçaq Usubun silahdaşı Təhməz, çar kazakları tərəfindən vurulduğu üçün bulağı Təhməzbulaq adlandırmışlar.

**TƏX′ BULAQ // TƏK BULAQ** – Göllü kəndinin şərqində tək olan bulağın adı idi.

**TƏK BULAQ** – Göllü kəndinin ərazisində bulaq adı idi. Həmin ərazidə təkolduğu üçün bulağa Təkbulaq demişlər.

**TƏNDİR BULAQ** – Quzukənd kəndinin cənub-qərbində, Pənahın arxacının yanında olan bulağın adıdır. Bulaq təndir formasında olan daşlıqdan qaynadığı üçün Təndirbulaq adlandırmışlar.

**TƏPƏ BULAQ//TƏPƏ BULAĞI** – Təpəköy kəndində, Arpaçayın keçmiş yatağının sağ tərəfində, təpənin ətəyində olan qədim bulağın adı idi.

**TÜNQLÜ BULAQ** – İlanlı kəndinin yaxınlığındadır.

Deyilənə görə, bu bulağı gümrülü Alı ağa düzəldibmiş. Burada tüng saxsı boru mənasındadır.

**UŞBULAX//UÇBULAQ** – Çaxmaq kəndinin şimal-qərbində yan-yana olan bulaqların adı idi.

**ÜÇBULAQLAR//ÜŞBULAXLAR** – İbiş kəndinin cənub-şərqində, Sınıq yolunda yan-yana olan bulaqların adı olmuşdur.

**UÇUQ DƏYİRMANIN BULAĞI** – Təpəköy ərazisində, Balıqlıya gedən yolun sol tərəfində - Arpa çayın başlanğıcındakı Uçuq dəyirmanın yanındakı bulağa deyirdilər. Bu bulaqdan süd zavoduna və məktəbə su çəkilmişdir.

**ÜÇGÖZƏLƏR** – Qaraçanta kəndinin şimalında, yastı dağın döşündə yan-yana olan bulaqlara deyilirdi.

**ÜÇGÖZLƏR//ÜŞGÖZLƏR** – Qaraçanta kəndinin qərb tərəfində, Yastı dağın döşündə "Köhnəyurd" adlanan yerdəki çayırlıqda, yan-yana olan üç gözənin adı idi.

**ÜLƏŞİK BULAĞI** – Maymaq dağının şimal-qərb tərəfində eyniadlı yurd yerində olan bulağın adı idi. Üləşik bitki adıdır, fitohidronimdir.

**ÜLƏŞİK SUYU** – Üləşik suyundan başqa, daha bir neçə bulağın birləşib axdığı kiçik çayın adı idi. Pəmbəkçaya tökülür.

**YAYLA GÖLÜ** – İbiş kəndindən cənubda, "Gümrü yaylası" deyilən yaylaq yerindəki kiçik gölə deyərdilər.

**ZAĞA** – Yuxarı Kilsə kəndindəki böyük mağaraya deyilirdi.

**ZAMANLI BULAĞI** – Pəmbək bölgəsində, Şahalı kəndinin şimal-qərbindəki Zamanlı dağında olan bulağın adı olmuşdur.

**ZAVOD BULAĞI** – Təpəköy kəndindəki süd zavoduna 1940-cı illərdə Uçuqdəyirman deyilən yerdən çəkilən bulağın adı idi. Uzunluğu 1 km. olan bu bulaq gil (saxsı) borularla çəkilmişdir.

**ZAZA BULAĞI** – Oxçuoğlu kəndinin şərq tərəfindəki zağaların yanında olan bulağın adı idi. Yerli şivədə zağa əvəzinə

zaza dedikləri üçün Zaza bulağı demişlər. Burada ğ-z əvəzlənməsi vardır.

**ZƏRGARRARIN BULAĞI//ZƏRGARLARIN BULAĞI** – Balıqlı kəndinin şərq hissəsində, ətrafıkəsmə daşlarla hörülüb yonulmuş bulağa deyərdilər. Zərgarlar Balıqlı kəndində böyük tayfa idi.

**ZİBEYDƏ BULAĞI** – Amasiya kəndi ərazisində, Arpa çayı dərəsində olan bulağın adı idi. Antroponim mənşəlidir.

**ZİV BULAQ** – Öksüz kəndinin cənub-qərbindəki düzənlikdə olan bulağın adı idi. Ətrafi sürüşkən sarı gillik olduğu üçün bulağın adı yerli şivədə işlənən sivişmək//zivişmək sözündən törənmişdir.

**ZORUQ** – Ellərkəndinin şimalında otu zor biçilən biçənəkdəki bulağın adı idi. Elə biçənəyə də Zoruq deyilmişdir.

**ZÖHRƏNİN GÖLÜ** – Balıqlı kəndinin şimal hissəsindəki dağdadır. Sahəsi az olsa da, çox dərindir. Keçmişdə kəndin Zöhrə adlı bir qızı burada boğulduğu üçün elə demişlər.

# III FƏSİL. LİNQVİSTİK SƏVİYYƏDƏ MİKROOYKONİMLƏRİN LEKSİK-SEMANTİK VƏ QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Kənd yerlərində küçə adları az olduğuna görə kənd evlərini, həm də orada toplu yaşayan sakinləri məhələlərə görə tanınırlar. Məhəllələrdə qohumluq bağlılığı olan insanlar toplu yaşayaraq həm də öz tayfalarının və ya nəsillərinin adlarını məhəllələrə verməklə əsil-nəcabətini, haradan gəldiklərini və s. yaşatmışlar. Tayfa və məhəllə adları etnoqrafik bir vahid olaraq müxtəlif semantik mənalar daşıyır.

Azərbaycan toponimiyasında olduğu kimi, Qərbi Azərbaycanın şəhər və kəndlərində məhəllə adları önəmli yerlərdən birini tutur. Bu adlar elmi kitablarda urbanonim kimi yazılsa da, onları məhəllə adları kimi təqdim etməyi lazım bildik. Məhəllə adlarının müxtəlif semantik qruplu sözlərdən yarandığını yuxarıda qeyd etmişdik. Ağbaba Şörəyel və Pəmbək bölgələrinin kəndlərində çox əski tarixi olan məhəllələrin adlandırılmasında kəndin relyefi, yaşayış məntəqəsinin bir hissəsində qan qohumluğu ilə toplu yaşayan əhalinin ilkin tayfa və ya nəslinin adları ilə adlanır. Bunlardan başqa, müəyyən tarixi hadisələr nəticəsində başqa yerlərdən qaçqın kimi kəndlərə gəlib yerləşənlər də həm tayfalarının, həm də keçmiş kəndlərinin adlarını məhəllə adlarında yaşadırdılar. Bir-birinə söykək olan Ağbaba, Şörəyel və Pəmbək bölgələrində 1989-cu ilədək yaşamış tayfaların adları etnonimlər və bununla bağlı olaraq yaranan məhəllə adlarını leksik-semantik mənalarına görə aşağıdakı kimi təsnif etmək olar:

***1. Peşə, sənət və məşğuliyyətlə bağlı tayfa adlarından törənən məhəllə adları:***

***Ağbabada*:** Dəlləklər, Postalçılar (Təpəköy), Dəlləklər (Qara Namaz), Dərzili (Göllü), Nalbəndlər (Öksüz), Dəmirçilər, Zərgarlar (Balıqlı).

***Şörəyeldə:*** Əkinçilər (Güllübulaq), Başmaqçılar, Buruq-

çular, Dəlləklər (Oxçuoğlu) və s.

***Pəmbəkdə:*** Dəlləkli, Aynalılar (Holavar), Dəmirçilər (Qursalı), Oxçulu (Dızman), Qaltaxçılar (Qızılörən) və s.

**2. Böyük ənənəsi və keçmişi olan tayfa adlarından törənən məhəllə adları.**

***Ağbabada:*** Lahışlar, Siroylar (Öksüz), Arıxlı (Düzkənd, Mağaracuq, Daşkörpü), Dilbozlar, Qazaxlı, (Göllü), Qarakəllər (İbiş), Qarapapaqlar (Çivinli), Kosalar, Qaracuq, Şivillər (Təpəköy) və s.

***Şörəyeldə:*** Kosalar (Amasiya, Qaraçanta, Təpəköy), Qaraqoyunlu (Oxçuoğlu, Güllübulaq), Dığırlı (Güllübulaq), Arıxlılar (Mağaracıq), Dığırlılar (Güllübulaq) və s.

***Pəmbəkdə:*** Miskin Abdallı, Doluxanlı (Holavar), Ayrım, Şadımanlı, Kəbirlilər (Haydarlı), Dəmirçilər, Sulduzlu, Kosalı (Qursalı), Oxçulular (Dızman) və s.

***3. Müxtəlif mənalı ləqəb+şəxs, titul+ad, substantivləşən dini titul və ləqəblərdən törənən məhəllə və tayfa adları.***

***Ağbabada:*** Seyidlər (Çivinli), Xəşilyeyənlər (İlanlı), Tapansaqqallılar, Dəlilər, Tənbəllər (Balıqlı), Şeytanlar, Culuxlar (Quzukənd), Sağırlar (Qara Namaz), Tösdər (Göllü), Müridlər, Tombullular (Təpəköy). Qeyd etməliyik ki, Xəşilyeyənlər Şörəyeldəki Molla Musa kəndində yaşamış tayfalardan biri olmuşdur. Bu tayfanın adamlarının çoxu erməni vandalizmindən qaçaraq Qarsa yerləşmişlər. Şair Məmməd Aslan "Ərzurumun gədiyinə varanda" kitabında o tayfa haqqında geniş məlumat vermişdir. İlanlı kəndində 1988-ci ilədək yaşayan tayfalardan biri də xəşilyeyənlər idi.

***Şörəyeldə:*** Seyidlər (Qaraçanta), Söyləməzlilər (Oxçuoğlu), Başıçapıtlılar, Xırı Əsgərlər, Ovçu Hasanlar (Mağaracıq).

***Pəmbəkdə:*** Becanlı – macanlılar (Xancıqaz), Qolleylilər, Göyməmmədlilər (Qursalı), Göybaxanlar, Şıxalılar, Qarasaqqallılar (Saral) və s.

**4. Müəyyən bir yerdən gəlmə olduqlarını əks etdirən məhəllə adları.**

***Ağbabada:*** Əşnəklilər (Təpəköy, Güllücə), Gümrülülər, Orciyalılar (Ellərkənd), Göycəlilər (Düzkənd), Erincəlilər, Darvazlar (Quzukənd), Gözəldərəlilər, Bacıoğlular (Təpəköy), Samaqarlılar, Şındallar, Armudlular (Amasiya k.) və s.

Göstərilən məhəllələrdə yaşayan əhali, əsasən, 1918-1920-ci illərdə erməni soyqırımından can qurtarmaq üçün İrəvan xanlığının mahallarındakı kəndlərdən o vaxt Qars vilayətinə bağlı olan Ağbaba kəndlərində də yerləşmişlər. Məsələn: Əşnəklilər – Talinin Əşnək, Gümrülülər Gümrü şəhərindən, Göyçəlilər Göyçədən, Erincəlilər Axıskanın Ərincə kəndindən, Armudlular və Darvazlar Borçalının Armudlu və Darvaz kəndlərindən Gözəldərəlilər Abaran qəzasının Gözəldərə, Samaqarlılar isə Üçkilsə qəzasının Samagarlı kəndlərindən gəlmiş və kəndlərinin adlarını yeni yerləşim yerlərində, məhəllə adlarında yaşatmışlar.

Pəmbəkdə: Ərdahanlılar, Holavarlılar, Şahalılar (Xancığaz)

Göründüyü kimi, göstərilən tayfa və məhəllə adları da sakinlərin haradan gəldiklərini əks etdirir.

**5. Kəndin relyefi və salındığı dövrlə əlaqədar mövcud olmuş məhəllə adları.**

***Ağbabada:*** Ada məhəlləsi, Təpə məhəlləsi, Təzə məhəllə, Məktəb məhəlləsi, Fırının yanı və s. (Təpəköy), Otay, Yuxarı məhəllə (Ellərkənd), Köhnə məhəllə, Yuxarı məhəllə (Düzkənd), Təpə başı (Quzukənd) və s.

***Şörəyeldə:*** Aşağı məhəllə, Təzə məhəllə, Yuxarı məhəllə (Qaraçanta), Təzə məhəllə, Köhnə məhəllə (Güllübulaq).

***Pəmbəkdə:*** Aşağı məhəllə, Yuxarı məhəllə, Orta məhəllə (Holavar), Bala məhəllə, Pirətəyi (Xancığaz), Çay məhəlləsi, Təzə məhəllə (Vərdənə) və s.

**6. Nəsil və tirə adlarını daşıyan məhəllə adları.**

***Ağbabada:*** Eyiflər//Əyyublar (Təpəköy), Hacı Nəsiblər, Məşədi Qurbanlar, Məmmədvəlilər, Bayramlılar (İbiş), Məşədi Hasanlı, Məşədi Rüstəmlər (Çivinli), Kalbayı Şabanlar, Dəli

Daşdəmirli (Düzkənd), Usuflu, Qəriblər (İlanlı), Hacılı, Daşdəmirli (Güllücə), Hacı Alıoğlu, Məmmədcanlılar (Göllü), Babaoyu, Boz Alılar (Balıqlı), Qarafatmalı, Söyünlü (Öksüz), Əbdüləzimlər, Səfərlər (Qara Namaz), Muxtarlar, Məşədi-Zaloylar (Daşkörpü), şabanlar, Musalar (Amasiya), Binnətuşağı, Bəxtiyarlar (Qarabulaq), Eminlilər, Aşırlılar (Quzukənd), Əskəroğlular, Sarbanoğlular, Hacı Rəsullar (Təpəköy), Usuflu, Baxışlı (Sultanabad) və s.

***Pəmbəkdə:*** Qarakişilər, Aloylar, Əlləzdilər//Elləzlilər (Xancığaz), Xan Vəlilər, Tapdıqlı, Qədimlilər (Holavar), Mansurlular, Ağəmmədlilər//Ağa Məmmədlilər (Xancığaz), Doluxanlılar (Holavar) və s. Deyilənə görə, Tapdıq Aşıq Alının oğlu imiş.

Tayfa və məhəllə adlarının morfologiyası da ənənəvi etnik sistemə uyğundur. Bir qayda olaraq tayfa və məhəllə adlarında aidlik, mənsubluq və topluluq bildirən **-lı$^{4}$, -lar$^{2}$** şəkilçiləri əks olunur. Məsələn: Qaracalar//Qaracuqlar (Təpəköy), Şıxalılar (Saral), Seyidli (Güllücə), Çavuşlu (Hallavar), Tapansaqqallı (Balıqlı) və s.

Bölgələrdəki bəzi tayfa və məhəllə adlarının sintaksisi də ənənəvi sözyaratma sisteminə uyğundur. Ikinci növ ismi birləşmə konstruksiyasında olan bəzi tayfa və məhəllə adlarının ikinci tərəfində mənsubluq bildirən "oğlu", "uşağı", "gil" və "öyü" sözləri işlənir. Məsələn: Sona oğlugil (Mağaracuq), Xəlil uşağı (Saral), Babaöyü (Balıqlı), Alıoğlu (Göllü) və s.

Əlbəttə, göstərdiyimiz regionlardakı tayfa və məhəllə adlarının hamısını vermək mümkün olmasa da, məhəllə adı kimi işlənən mikrooykonimlərdən seçmə nümunələr verməyi lazım bildik.

# IV FƏSİL. 1988-1989-cu illərin deportasiyasınadək Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində yaşayan ailələrin və əhalinin sayı, tayfa və nəsil adları

Qars müqaviləsi bağlanandan sonra (1921) yeni yaradılan "Ermənistan"ın tərkibində, həm də ermənilərin tabeliyində qalmaq istəməyən Mumuxan, Sınıq, Tezbahar, Arpa, Böyük Şiştəpə, Kiçik Şiştəpə, Sultanabad, Söyüdlü, Mustuqlu, Baxcəli, Seldağılan, Kiçik Təpəköy, Xancallı, Bozqala, Ördəkli, Qönçəli, Təzəköy və s. Ağbaba kəndlərində yaşayan qarapapaqlar sərhədin çəkilməsinə etiraz edərək Türkiyəyə üz tutmuş, bir daha geri qayıtmamışlar. İndi Qars, Ərzurum, Cıldır, Ərdahan, Sarıqamış, İgdir və digər yerlərdə minlərlə ağbabalı yaşayır. Hətta keçmiş kəndlərinin adlarını orada yaşatmaqdadırlar. Sonralar 1920-ci illərdə Qızılqoç (1956, Qukasyan, 1990-Aşosk) rayonuna daxil edilən Böyük Şiştəpə, (1946, Medz Sepasar) və Kiçik Şiştəpə (1946, Pokr Sepasar) və Təzəköy (1956, Tazaqyuğ) kəndlərinə İran və Türkiyədən gəlmə erməniləri yerləşdirmişlər. Göstərilən digər kəndlər isə xaraba qalmaqda idi, daha doğrusu, digər rayonların erməni kəndlərinin yaylaq yerlərinə çevrilmişdir [8, 11].

1948-ci ildə Sultanabad, Daşkörpü, Qızılkilsə və Qarabulaq kəndlərinin əhalisi "köçürmə" adı ilə Göyçayın Çərəkə və Alpout kəndlərinə köçürülmüşlər. Lakin köçürülənlər isti iqlimə dözməyərək 1950-1953-cü illərdə geri qayıtmış və kəndlərini yenidən abad etmişlər. Amma çox təəssüf ki, yüzlərlə insan bu köçdən qayıtmadı, dəyişik iqlimin qurbanı oldular. Bir çox mənbələrdə bu deportasiya "könüllü köçürmə" kimi qeyd edilir. Bu köçürmə Qərbi Azərbaycanda yenə də azərbaycanlıların sayını azaltmaq məqsədi güdürdü. 1988-ci ilin qışında həmin kəndlərin əhalisi yenidən erməni zorakılığına məruz qalaraq Azərbaycan Respublikasına köç etdilər. Bu deportasiyada 270 mindən çox azərbaycanlı qaçqın düşdü, 250-dən çox azərbaycanlı müxtəlif yerlərdə erməni millətçiləri tərəfindən

vəhşicəsinə öldürüldü.

1989-cu ilin yanvarınadək Ağbabanın Xozu (1935, Quzukənd), İlanlı (1935, Çaybasar), Düzkənd, Qara Namaz (1935, Yeni yol), Göllü, Təpəköy, Sultanabad (1935, Şurabad), Daşkörpü, Amasiya, İbiş, Qönçəli, Çivinli, Qarabulaq, Ellərkənd, Güllücə, Balıxlı, Ögsüz və ona söykək olan Şörəyel vadisinin Güllübulaq, Oxçuoğlu, Çaxmaq, Qaraçanta, Mağarcıq kəndlərində 22 min Azərbaycan türkü yaşamışdır [4, 238]. Bu statistik hesabatı 1988-ci ilin 1 yanvarından sonra hər bir sovetliyin rəsmi qeydiyyat kitabından götürmüşəm [28, 238]. Azərbaycan türkləri yaşayan Qarabulaq, Quzukənd, Güllücə, Sultanabad, Balıqlı kəndləri, Arpa gölün ətrafında, Böyük Təpəköy, Kiçik Təpəköy, İlanlı, Düzkənd, Göllü, Qara Namaz, Daşkörpü, Amasiya (qəsəbə), Qaraçanta, Mağaracıq, Oxçuoğlu və Güllübulaq kəndləri, Arpa çayının hövzəsində, Çivinli, İbiş Qönçəli, Ellərkənd və Oğsüz kəndləri isə Ağbaba yaylasının yüksəkliyində yerləşirdi. Göstərilən kəndlər inzibati vahid kimi Amasiya rayonuna daxil idi.

1. Ağbaba və Şörəyel kəndlərində (Amasiya rayonu) 1989-cu ilin aprel-may aylarınadək yaşamış azərbaycanlı ailələrin sayı və tayfaların adları aşağıdakı kimi olmuşdur:

| ***Yaşayış məskəninin adı*** | ***Ailə*** | ***Əhali*** | ***Tayfalar*** |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Amasiya rayonu Amasiya sovetliyi** | | | |
| 1. Amasiya | 400 | 1830 | kosalar, şabanlar, qrellər, armudlular, samaqarlılar |
| 2. Daşkörpü | 125 | 680 | arıxlı, əşrəflər, məşədi zaloylar, samağarrılar, mux-tarlar, əmrahlar və s. |
| **Balıqlı Sovetliyi** | | | |
| 1. Balıqlı | 90 | 432 | tapansaqqallı, dəmirçilər, zərgarlar, bozalılar, hiloylar, dəllər, |

| | | | |
|---|---|---|---|
| | | | tənbəllər, vəliuşağı, naçaroğlular, babaköyü, eminalılar və s. |
| 2. Öğsüz | 42 | 220 | lahışlar, qarafatmalı, söyünlü,tatlı, şiroylu, nal-bəndlər, daşdəmirli, pə-rimlər və s. |
| **Qara Namaz sovetliyi** | | | |
| 1. Qara Namaz | 180 | 880 | söyünnü, usuflu, qrellər, sağırlar, rzalar, dəlləklər, səfərlər, dığırlı, əbdüləzimli və s. |
| 2. Göllü | 140 | 760 | sayfılı, təsdər, dərzili, tağılar, hacalıoğlu, dilbaz-lar, bozməmmədli, qazaxlı, məmmədcanlılar, hümmətlər və s. |
| **Qaraçanta sovetliyi** | | | |
| 1. Qaraçanta | 194 | 1600 | nəsiflər, kosalar, seyid-lər, şavəlatlər, süleymanlı, isoylar, alməmmədli, bəhramlar və s. |
| **Qönçəlli sovetliyi** | | | |
| 1. Qönçəli | 43 | 236 | seyidlər, usublu, kosalar və s. |
| 2.İbiş | 92 | 530 | qarakəllər, dəlləklər, isələr, hacınəsiblər, məşədiqurban-lar, məmmədvəlilər, bay-ramlılar və s. |
| **Quzukənd sovetliyi** | | | |
| 1. Quzukənd | 179 | 984 | çuluxlu, şeytanlar, erincəli-lər, ağsaqqallar, qəriblər, aşırlı, siqoylar, həşimlər, darvazlar, pirillər, mürüdlər, təpəbaşlılar, eminlər, bəxti-yarlar, pənahlar və s. |
| 2. Qarabulaq | 57 | 293 | binnətuşağı, qocalar, emin-lər, pənahlar, bəxtiyarlar, bəhrəmli və s. |
| 3. Çivinli | 95 | 534 | məşədihasanlı, mirili, bəx- |

| | | | |
|---|---|---|---|
| | | | tiyarlar, məşədirustamlar, pənahlar, bəhramlı, qara-çobanlar, məşədimanlı, qa-rapapaxlar, aşıruşağı, bay-ramuşağı, seyidlər və s. |
| **Düzkənd sovetliyi** | | | |
| 1. Düzkənd | 112 | 580 | göyçəli, mollalı, arıxlı, kal-bayı şabanlar, dəlidaşdə-mirli, şərif-lər və s. |
| 2. İlanlı | 98 | 564 | usuflu, hacıməmmədcəfərli, səfəröyü, abbaslar, dərviş-lər, xaşılyeyənlər, qəriblər və s. |
| **Güllübulaq sovetliyi** | | | |
| 1. Güllübulaq | 570 | 2875 | əkinçilər, xızanlar, əmrah-lar, söyünnü, hacımamoylu, qaraqoyunlu, dığırlı, gödək-li, hacılar, hacırəsullu və s. |
| **Güllücə sovetliyi** | | | |
| 1. Güllücə | 182 | 920 | seydili, kareitli, taclı, kar-lar, hacılı, daşdəmirli, zey-nallı və s. |
| 2. Ellərkənd | 70 | 328 | güllüoğlu, əlləzoğlu, göm-rülülər, orciyalılar və s. |
| **Mağaracıq sovetliyi** | | | |
| 1. Mağaracıq | 207 | 1010 | arıxlılar, mollahəsənli, xırı-əsgərlər, hacılar, ovçuha-sanlar, sonaoğlugil, bala-məmmədli, hacısalmanlı, kəbləhüseynli, seydili, ya-qublu və s. |
| 2. Çaxmaq | 42 | 387 | kürdlər, arıxlılar və s. |
| **Oxçuoğlu Sovetliyi** | | | |

| | | | |
|---|---|---|---|
| 1. Oxçuoğlu | 317 | 1552 | başmaqçılar, buruqçular, karvəlilər, nəruşağı, süleymanlı, hacımanlar, dəlləklər, söyləməzli, başıçapıdlı, məşədiqəriblər, qaraqoyunlu, daşdəmirli və s. |
| **Təpəköy Sovetliyi** | | | |
| 1. Təpəköy | 142 | 758 | qaracıq, nalbəndlər, dəlləklər, postaçılar, tombullular, əsgəroğlu, aydınlı, gözəldərəlilər, şarbanoğlular, dadaşlı, kosalar, eyiblər, lahıclar, şivillər, əşnəklilər, çəmənli və s. |
| 2. Sultanabad | 60 | 319 | usuflu, dəliəhmədli, baxışlı, sağamoylu və s. |

2. 1988-ci ilin payızınadək Pəmbək bölgəsinin Hamamlı (Spitak) və Quqar//Gögər (Qarakilsə) rayonlarının azərbaycanlılar yaşamış kəndlərində yaşayanların sayı, tayfa və nəsil adları.

| | | | |
|---|---|---|---|
| ***Hamamlı rayonu Saral sovetliyi*** | | | |
| 1. Saral | 370 | 1856 | muradxanlı, qaraçorlar, qaralar, şıxalılar, göyəbaxanlar, qarakərimlər, aşırlı, qarasaqqallı |
| ***2. Qursalı sovetliyi*** *Qursalı kəndi* | 500 | 2026 | quluöylü, nəsirli, məmeyli, k-ərimlər, haxverdilər, daş-doylar, oruclar, avaslar, göyməmmədlilər, dəmirçilər |
| ***Quqar (Göyər) rayonu Arcut sovetliyi*** | | | qaraboğazlı, qarakişilər, kosalı, alışlar, həvilli |
| 1. Arçut | 700 | 3750 | məmmədöyü, eminlər, dölək-lər, kovxalı, gəlmələr, məşədilər, əmralılar, qolugödəklilər |

| | | | |
|---|---|---|---|
| 2. Vardana (qəsəbə) | 215 | 1075 | seyidli, mollalı, miskinli, qara-oruclu, dərəçiçəkli, göyçəli, əliqulular |
| ***Xancığaz sovetliyi*** 1. Xancığaz | 222 | 1200 | qarakişilər, mansırlı, töstlər, a-xsaxlı, məmişli, alolu, ağəm-mədli, ayranlılar, şaha-lılar, holavarlılar, becanlı, ma-çanlılar |
| 2. Qızılörən | 37 | 188 | dəlləklər, seyidli, məmişlər, ayrımlı |
| Holavar sovetliyi 1. Holavar | 600 | 3400 | xanvəlili, talıblı, doluxanlı, qədimlilər, isgəndərlilər, sey-dili, məşədili, miskin abdallı, dəlləkli, qaralar, xamoylu, tüs-tülü, tapdıqlı |
| 2. Molla Qışlaq | 30 | 150 | dərgahlılar, hümbətli, kərəmli, holavarlılar |
| 3. Yuxarı Kilsə | 70 | 530 | tösdü, məmmədxanlı, murad-bəyli |
| 4. Aşağı Kilsə | 20 | 120 | xıdırlı, xanvəlilər, oxçulular, ismeyilli |
| 5. Haydarlı | 460 | 2300 | rzalı, seyidli, tağılar, qaralar, ayrım, miskinli, tapdıqlı |

**Əlavə.** 1886-cı ilin siyahıya alınmasında Qars vilayətinin tərkibində olan Ağbaba nahiyyəsi üç icmadan – Düzkənd (12 kənd), Qarabulaq (12 kənd) və Mağarcıq (8 kənd) kənd icmalarından ibarət olmuşdur. Nahiyyənin mərkəzi Böyük Təpəköy kəndi imiş. Nahiyyədə 845 tüstü (ailə) və 6063 nəfər türk, yəni azərbaycanın yaşamışdır. Mənbədə kənddən Qarsa qədər olan məsafə 92 km qeyd edilir. Pristav və nahiyyə rəisi Böyük Təpəköydə oturduqları göstərilir [18, s.161].

Statistik hesabatı əks etdirən bu kitab 1893-cü ildə Tiflisdə çap olunmuşdur [18, s.161].

Həmin mənbədə Azərbaycan türkləri yaşayan Ağbaba nahiyyəsində kəndlərin təsərrüfatları "tüstü" termini ilə qeyd edilmiş və əhalinin statistik sayı aşağıda kimi göstərilmişdir:

## *1. Düzkənd kənd icması*

| | *Tüstü* | *Əhali (nəfər)* |
|---|---|---|
| 1. Balıqlı | 33 | 205 |
| 2. Göllü | 31 | 204 |
| 3. Düzkənd | 50 | 348 |
| 4. İlanlı | 18 | 137 |
| 5. Qara Namaz | 37 | 285 |
| 6. Öksüz | 10 | 62 |
| 7. Sultanabad | 28 | 171 |
| 8. Təzəkənd | 17 | 129 |
| 9. Böyük Təpəköy | 32 | 199 |
| 10.Kiçik Təpəköy | 25 | 164 |
| 11. Xançallı | 31 | 178 |
| 12. Şiştəpə | 17 | 132 |
| ***Cəmi:*** | ***322*** | ***2214*** |

## *2. Qarabulaq kənd icması*

| | *Tüstü* | *Əhali (nəfər)* |
|---|---|---|
| 1. Baxçalı | 21 | 162 |
| 2. Bəzirgan | 31 | 183 |
| 3. Güllücə | 26 | 193 |
| 4. İbiş | 43 | 288 |
| 5. Qarabulaq | 26 | 185 |
| 6. Qızıl kilsə | 30 | 210 |
| 7. Mustuqlu | 24 | 150 |
| 8. Ördəkli | 30 | 253 |
| 9. Söyüdlü | 11 | 73 |
| 10. Seldağılan | 30 | 231 |
| 11. Xozukənd | 30 | 222 |
| 12. Ellər oyuğu | 31 | 232 |
| ***Cəmi:*** | ***302*** | ***2199*** |

### *3. Mağarcıq kənd icması*

| | *Tüstü* | *Əhali (nəfər)* |
|---|---|---|
| 1. Amasiya | 33 | 274 |
| 2. Daşkörpü | 37 | 246 |
| 3. Qaraçanta | 47 | 348 |
| 4. Mağaracıq | 40 | 309 |
| 5. Mumuxan | 16 | 127 |
| 6. Sınıx | 18 | 130 |
| 7. Çaxmaq | 30 | 222 |
| 8. Bəzirgan | 56 | 250 |
| ***Cəmi:*** | ***221*** | ***1650*** |

Bu inzibati-ərazi bölgüsündə Çivinli kəndinin adı yoxdur. İnformatorlara görə1912-ci elədək o kənddə yaşayış olmamaışdır.

### *4. Qars vilayətinin Şörəyel dairəsinə aid olan və Arpaçayın sağ tərəfində Azərbaycan türkləri yaşayan kəndlər*

| *Kəndlər* | *Tüstü* | *Əhali (nəfər)* |
|---|---|---|
| 1. Molla Musa | 72 | 462 |
| 2. Bacıoğlu | 50 | 391 |
| 3. Ocaq Qulu | 74 | 557 |
| 4. Qarakilsə | 64 | 410 |
| 5. Güllübulaq | 84 | 673 |
| 6. Qızıldaş | 47 | 194 |
| 7. Oxçuoğlu | 60 | 420 |
| 8. Kınık | 48 | 386 |
| 9. Böyük Qımılı | 34 | 259 |
| 10. Kiçik Qımılı | 83 | 590 |
| ***Cəmi:*** | ***616*** | ***4342*** |

"İrəvan əyalətinin kameral təsviri"ndə (1859) İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək nahiyyəsində 1859-cu ildə yaşayanların siyahısı. Siyahıda Azərbaycan türk-

lərini tatar kimi qeyd etmişlər.

| **Kəndlər** | **Ailə** | **Milliyyəti** | |
|---|---|---|---|
| Qursalı | 34 | Tatar | 229 |
| Hallavar | 58 | Tatar | 347 |
| Qızılörən | 16 | Tatar | 151 |
| Arcut | 20 | Tatar | 237 |
| Haydarlı | 10 | Tatar | 90 |
| Saral | 30 | tatar | 300 |
| Xancığaz | 18 | tatar | 130 |
| Vardana | 13 | Tatar | 114 |

# V FƏSİL. QARA, AĞ, GÖY, SARI VƏ QIZIL (QIRMIZI) KOMPONENTLİ TOPONİM VƏ HİDRONİMLƏRİN TÜRK ELLƏRİNDƏKİ PARALELLƏRİ

Tədqiq etdiyimiz ərazilərdə birinci tərəfi qara, ağ, sarı, göy, qızıl (qırmızı) komponentli oronim və hidronimlər çoxluq təşkil edir. Bu tip toponimlər Avrasiyada, türklərin tarixən yaşadıqları coğrafi ərazilərdə çox geniş yayılmışdır, türk xalqları üçün ortaq semantik mənaya malik olan, rəng və digər əlamət bildirən qara, ağ, sarı, göy, qızıl komponentli toponim və hidronimlər bütün növ coğrafi obyektlərdə eyni, bəzən də fərqli semantik məna və qrammatik formalarda özünü göstərir. Orta Asiya, Sibir, Volqaboyu, İran, İraq, Türkiyə, Suriya, Krım, Bolqarıstan, Cənubi Qafqaz, Şimali Qafqaz və türklər yaşayan digər ərazilərdə bu toponimlərin paralelləri, daha doğrusu arealları vardır. Struktur cəhətdən də bu toponimlər (oykonim, oronim, və hidronimlər) oxşardır. Ancaq kiçik fonetik fərqlərlə – dialekt və şivə fərqləri ilə nəzərə çarpmaqdadır: Xüsusilə, toponimlərin ikinci tərəfindəki coğrafi terminlər oğuz və qıpçaq qrupuna daxil olan dillərdə də müştərəkliyi əks etdirir: arık//arx, təpə//töbə, ova//oba, kənd//kət, yar//jar, çay//say, şəhər//şar, su//suu, dağ//-tay və s. Bundan başqa, Azərbaycan dilinin dialekt və şivələrində işlənən bir sıra coğrafi terminlər də (cılğa, saz, şam, bel, tap və s.) toponimlərin tərkibində areal halda türk ellərində yayılmışdır. Aşağıda qeyd olunan müqayisələrdə (rəqəmlər toponimin sayını bildirir) toponimlərin yayılma arealları və tipləri görünməkdədir [6, 4].

**Azərbaycanda:** Qarayazı (2), Qaraman, Qaramanlı (2), Qaraqoyunlu (3), Qaraqaşlı, Qarabudaq, Tap Qaraqoyunlu, Qaraqocalı (3), Qarabağ, Qarabağlı (3), Qarabağlılar, Qaralar,

Qarapapaq, Qaraməryəm, Qaracanlı, Qaradəmirçi, Qaraağac (4), Qarabaldır, Qaraqaya (3), Qaraqaşlı (6), Qaradağ (8), Qızılağac (2), Qızıldaş, Qızılqazma, Qarasu (kənd), Qara su çayı, Ağsu, Ağsu çayı, Ağyazı, Ağdam (4), Ağtəpə, Ağdərə, Ağdaban, Ağyazı, Ağcabulaq (4), Sarıqamış (2), Sarıqaya, Sarıdaş, Sarısu(2), Göybulaq, Göyyal, Göydərə, Göyçay, Göygöl, Göytəpə və s.

Ümumiyyətlə, Azərbaycan Respublikası ərazisində "qara" komponentli 130, "qızıl" komponentli 15, "göy" komponentli 15, "sarı" komponentli 30, "ağ" komponentli 10-dan çox yaşayış məntəqəsi adları vardır [5, 262].

**Qərbi Azərbaycanda (Ermənistan):** Qaraman, Qaraqoyunlu (3), Qaraxan suyu, Qaraburun, Qarabulaq (3), Qarabağlar (2), Qarabaş, Qaraqaya (3), Qaraqışlaq, Qaraqala, Qaratəpə, Qaraşam, Qaratorpaq, Qaraçimən, Qara Namaz, Qara Məmməd, Qara İsa, Qızılörən, Qaraağac, Qarayal, Qızıl xaraba, Qızılbulaq, Qızılqışlaq, Qızıldaş, Qızılyar, Qızılqoç, Qızıltəpə, Ağbulaq (2), Ağtala (3), Ağdərə, Ağkörpü, Ağbaba, Ağdaş, Ağqala, Ağkənd (2), Ağcaarx, Ağca, Ağcaqala (3), Ağcaqışlaq, Göycə, Molla Göyçə və Gögçədağ, Göydağ, Göyyoxuş, Göydüz, Göytəpə, Göykümbəz, Sarı Yaqub, Sarıyal, Sarıbaş və s. [5, 262].

Bunlardan başqa, substantivləşən sifətlərdən törəyən Saral, Qaralar (2), Qaracalar oykonimləri də mövcud olmuşdur. Qeyd edək ki, toponimlərdəki qızıl komponenti qırmızı mənasında işlənmişdir. Bir çox halda rəng bildirən sözlər kəndlərin yerləşdiyi ərazilərdəki relyefi, suxuru, ya da torpağın rəngini əks etdirir.

Qərbi Azərbaycanın relyefi dağlıq və fərqli olduğu üçün toponimik adlar daha çox olmuşdur. Çox təəssüf ki, erməni millətçiləri, həm də gürcülər zaman-zaman həmin coğrafi obyektlərə uydurma adlar vermiş və ya tərcümə etmişlər [4, 261].

**Gürcüstanda:** Qarayazı, Qaraxandərə, Qaraxanyar, Qaraqaşlı, Qaraqaş, Qaraqoyun, Qarabulaq (3), Qaralar, Qaraman

(2), Qaramanlı (2), Qaraçöp, Qaracıq, Ağdaban, Ağsu (15), Ağbulaq (7), Ağdam, Ağsuv, Ağyar, Ağməzar, Ağcaqala, Ağqaya, Aqməzar, Gögcə (2), Gögçədağ, Sarıqamış (2), Sarıdaş, Sarıxan və s. [4, 263].

**Qazaxıstanda:** Karaman, Karaqoyun gölü, Karaxan, Karabulak (3), Karabaq, Karakanlı//Karakandı, Karasu (2), Karabutaq, Karatepe, Karatap, Karayal, Katülek, Aksu (2), Akbent, Akbaqır, Akçal, Aksar, Akçadağ, Sarıoba, Sarıözək, Sarımoyun, Sarıtaş, Sarıözən (2), Goktepek və s.

**Özbəkistanda:** Karabağ, Karadərya, Karakulbazar, Karakale, Karakalpak, Karasu, Karadonlu, Aksu, Aktaş, Sarıyar, Korasuv, Kızılsuv, Sarısuv, Gükbulok, Korabulok, Kızılkom, Koksuv, Akbulak və s. [5, 263].

**Altay ölkəsində:** Qaraxan, Qaraqoca, Qarasu, Qaraşar, Karatuz, Gökbaş, Aksu, Aktöbö, Sarısu, Karataş, Karatu, Akyar və s.

**Qırğızıstanda:** Karatöbə, Karasuu, Karabaş, Karakul, Karayığac, Karakaya, Karataş, Karakulka, Karakol, Karakum, Karakıştaq, Kara kır, Kara künqoy Karakülçə, Karabel, Karasaz, Kızılyar, Kökart, Kökbel, Kızıl söök, Kızıl tuu, Ak suu, Akboğuz, , Akturpark, Akmoyun, Aktaş, Aktala, Akbulak (3), Akpara, Ak say, Akkum, Akkol, Sarıtala, Sarı özen, Sarıyazı, Sarıtaş, Sarıbel, Sarıbaş, Sarıdöbö, Sarıkamış, Sarıbulak, Göggoy, Gögsu, Gögbulak, Gögyanğak və s. Ümumiyyətlə, Qırğızıstanda 79 qara, 73 ağ, 39 göy, 35 qızıl, 33 sarı komponentli toponim vardır [5, 263].

**Əfqanıstanda:** Qarabağ, Qaraçəngəl, Qaraxan, Qızıltəpə, Ağköpruk, Ağbulaq, Ağçuy, Ağsu (2), Qızılqala, Qızıltəpə, Gögçə və s.

**Cənubi Azərbaycanda:** Qaradağ, Qarapapaq, Qaraağac, Qaradərə, Ağqışlaq, Ağca, Ağdərə, Ağqala, Ağsu, Sarıqamış, Sarıdamlı, Sarısu, Sarıyer, Sarılu, Sarıocaq, Gögçədağ, Ağkənd,

Qızılqışlaq və s. [5, 264].

**Tatarıstanda:** Ağdam, Akyaz, Aksaz, Akçura, Aktaş, Akbalcık, Akyar, Aksu, Karaqaş, Karabaş, Karatun, Karaşam, Karabay, Karakul, Aksu, Karayılqa, Karayırmak, Karanak, Göyçənqer, Göypınar, Göyçə, Sarıyar, Sarı alan, Sarıyılqa, Sarıbaş su, Sarıqamış, Sarıtaş, Sarısaz, Sarıman və s. [5, 265].

**Uyğurstanda:** Karakaş, Karaçöl, Karakızıl, Karakoca, Karakul, Aksu, Akça, Karataş, Karakum, Köktoğay, Köktaş, Sarıtaş və s.

**Türkiyədə:** Karaçayır, Karaurğan, Karapinar, Karaman (3), Karaqocalı (2), Karabağ (3), Karadağ (3), Karasu (2), Karaçay (2), Karakuyu, Karacaörən (3), Karalar, Karaçoban (2), Karakaş (2), Karahan (2), Karakala (3), Karakoyunlu (4), Ağdərə (3), Akyaka (3), Akbaba, Akyar, Akdere (3), Akcakala (4), Akörən, Sarıcalı, Sarıçoban, Sarıca, Sarıarat, Sarıçiçək, Gökçeli, Gökçə və s. [5, 264].

**Krım və Şimali Qafqazda:** Karalar, Karasu (4), Karatağ (4), Karatepe, Karakuyu, Karakoca, Akkol, Akkaya, Akmeçid (3), Aktay, Akyar, Akgöy, Kızıltaş (3), Kızılyar (2), Sarıyal, Sarıkamış, Sarılar, Göktaş, Gögağac, Gökeniş və s. [5, 264].

**Bolqarıstanda:** Qaralar, Qarabulaq, Qaraman, Qaradaş, Qızılağaz, Ağsu, Ağdam (2), Ağyar, Gögdağ, Göyyoxuş, Göydağ, Sarıqamış, Sarıtala, Sarıyar vas. [5, 265].

**Türkmənistanda:** Qaraqaş, Qaraxanlı, Qaraqoyunlu, Qarababa, Qarasuv, Aqsuv, Ağdağ, Sarıdağ, Göydərə və s. (43)

Mövzu ilə bağlı daha çox misal çəkmək olar. Rəng bildirən kiçik bir qisim toponimlər (Qaralar, Sarılar və s.) etnotoponim mənşəli olsa da, lakin rəng bildirən qara, ağ, sarı, qızıl (qırmızı), göy və s. komponentli yer-yurd adlarının əksəriyyəti relyefi əks etdirməkdədir [5, 266].

Müqayisələrdən göründüyü kimi, oronimi -relyefi və hidronimi əks etdirən toponimlərin bir çoxu ilk vaxtlar həqiqətən

relyefi (Kara-taş, Kara-kum, Sarı-yar və s.) və su mənbələrinin əlamətlərini (Kara-su, Ak-göl, Ak-su və s.) əks etdirmişdir. Sonralar həmin coğrafi obyektlərin yanında yaşayış məntəqələri salındıqdan sonra coğrafi obyektin yeni növü yaranmışdır; oronimlər orooykonimlərə, bəzi hidronimlər isə hidrooykonimlərə çevrilmişdir. Qarasu kəndi, Ağdərə kəndi, Sarıqamış şəhəri, Göygöl və s. Oronim və hidronim yenidən toponimləşmə prosesi keçirsə də, ancaq əvvəlki coğrafi obyektin müəyyən əlamətlərini özündə saxlayır. Bu bir sistem kimi türk ellərinin onomastikasında mövcuddur.

Qeyd olunan toponimlər Azərbaycan dilində olduğu kimi, göstərilən türk dillərində də I növ ismi birləşmə modelində (sifət+isim) formalaşmışdır. Kara+taş, Sarı+su, Qara+yazı, Ak+say, Ak+kum, Kara+taq və s.

Yuxarıda göstərilən toponim və hidronimlərdə qara, ağ, göy, sarı sifətləri rənglə bərabər həm də keyfiyyət bildirir. Məs: Qarayazı (böyük çöl), Ağsu (içməyə yararlı su), Qızılörən (qırmızı torpaq), Akyar (ağ yarğan), Karadərə (böyük dərə) və s.

Dağ, dərə, qaya, kənd, məscid, körpü və digər coğrafi obyektlərdə epitet kimi işlənən ağ, qara, sarı, qızıl (qırmızı), göy sözləri, əsasən rəng bildirir. Bu rənglər dağ, daş, qaya, körpü, eniş, yoxuş və s. obyektlərin rəngini əks etdirir. Hidronimlərdə isə qara, ağ, qırmızı obyektin yerləşdiyi sahədəki suxura aid olur və ya suyun keyfiyyətini bildirir. A.Kononov türk xalqları yaşayan ərazilərdəki çay, göl, nohur adlarının - hidronimlərin tərkibindəki ağ//ak sifətinin axmaq feili ilə əlaqəli olduğunu yazır. Bundan başqa, o, hidronimlərin tərkibindəki qara sözünün isə rəng yox, keyfiyyət bildirdiyini qeyd etmişdir [20, 93].

Bununla belə, əski abidələrimizdə də qara, ağ, sarı, göy leksik vahidləri müxtəlif üslubi imkanlarla işlədilərək rəng, əlamət, keyfiyyət və s. bildirmişdir. Məsələn: "Kitabi-Dədə Qorqud" dastanının boylarında həm appelyativ leksik vahid (aq südünü

əmdiyim, aq ban evin, ağ birçəkli, qara baş, sarı yılan, gög çayır, qızıl otaq-qırmızı otaq və s.), həm də onomastik vahid kimi ağ, sarı, qara, göy, qızıl, ağca, qaraca sözləri (Aq qaya, Ağ hasar, Qara dərə, Qara dəniz, Qarabudaq, Qaracuq, Qaraca çoban, Sarı çoban, Gögçə dəniz, Altun taxt və s.) işlədilmişdir [6, 266].

Qeyd etdiyimiz toponim, oronim və hidronimlərin eyni sistemdə olması onu göstərir ki, müasir türk dilləri eyni ana kökdən törəmiş və bugünkü inkişaf səviyyəsinədək yüksəlmişdir. Areal halda Avrasiyada torpaq üzərinə səpələnmiş bu toponimiər həm də türk xalqlarının tarixi birliyini əks etdirir.

# NƏTİCƏ

Tədqiqat işinin nəticəsi olaraq deyə bilərik ki, Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndləri müxtəlif dağlıq relyeflərdə yerləşdikləri üçün xalqın məişətində və təsərrüfat həyatında müxtəlif formalı minlərlə yer-yurd adı ünvan kimi işlədilmişdir. Bu oronim, hidronim və oykonimlər coğrafi obyektin müxtəlif növləri kimi Qərbi Azərbaycan türklərinin etnik yaddaşıdır. Ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyaları nəticəsində Azərbaycan türkləri gəlmə, şovinist ermənilərin terrorçu hərəkətləri ilə zaman-zaman doğma yurdlarından qaçqın düşmüş və ya soyqırıma məruz qalmışlar. Bunun nəticəsində ərazilərin toponim və hidronimləri də Azərbaycan türkcəsində danışdıran olmadığı üçün məhv olmuş – soyqırıma məruz qalmışlar. Düzdür, kənd adları müxtəlif zamanlarda "vergi dəftərləri"ndə, statistik hesabat məlumatlarında və ya hərbi – topoqrafik xəritələrdə qeydə alınsa da, lakin tarixi ərazilərdə mövcud olmuş relyef, tayfa, məhəllə və su mənbələrinin adları toplanıb tədqiqata cəlb edilməmişdir. Bu baxımdan, yuxarıda göstərilən bölgələrin kəndlərindən, hələ 80-ci illərdə topladığım materiallar əsasında hazırlanmış ***"Ağbaba, Şörəyel, Pəmbək və ona yaxın olan bölgələrin mikrooronimləri"*** kitabı yəqin ki, digər tarixi ərazilərimizin də oronim və hidronimlərinin toplanıb nəşr olunması yolunda istiqamətverici və faydalı bir iş olacağını düşünürəm.

## ƏDƏBİYYAT

1. Ağbabalı Məcnun. Kimə deyim dərdimi. Bakı, 2000, 162 səh.
2. Akopyan T.X., Melik-Baxsyan S.İ., Barsegyan Q.X. Ermənistan və ona yaxın olan ərazilərin toponimlər lüğəti. İrəvan Universitetinin nəşri, 1986, A-Q, 1090 səh. (ermənicə)
3. Avtandil Ağbaba. Qürbətin ağrısı. Bakı: 2005, 111 səh.
4. Bayramov A.Ə. Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin toponimləri. Bakı: 2003, 243 səh.
5. Bayramov A.Ə. Azərbaycan onomastikası. Bakı: 2015, 385 səh.
6. Bayramov A.Ə. Kitabi-Dədə Qorqud toponimləri və Qafqaz arealı. Bakı: 2008, 403 səh.
7. Bayramov A.Ə. Oğuz elinin söz çələngi. Ağbaba folkloru, Bakı: 2017,
8. Bayramov A.Ə. Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırım. Bakı: AM – 965, 2015, 380 səh.
9. Bayramov A.Ə., Bayramova A.A. Ağbaba şivəsi. Bakı: 2020, 625 səh.
10. Budaqov Budaq. Coğrafi adlar mənəvi sərvətimizdir. Azərbaycan gəncləri-16.VIII, 1988, N.97 (10726), səh. 2-3.
11. Ermənistan azərbaycanlılarının tarixi-coğrafiyası. Bakı: 1993.
12. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. BDU: 1991, 312 səh.
13. Əskərov B. Ağbabada qalan izlər. Bakı: Nurlan, 2004, 130 səh.
14. Ermənistan SSR-in fiziki coğrafiyası. İrəvan 1961, 97 səh. (Azərbaycan dilində).
15. Xəlilov B.Q. Ağbaba nəğmələri. Bakı: Zəka, 2017, 155 səh.
16. Mirzəyev H.İ. Dərə Ələyəz mahalının toponimləri və şivə

sözləri. Bakı: 2006, 221 səh.
17. Namazov R., Sayadoğlu V. Pəmbək mahalının Qursalı kəndi. Bakı: 2007, 424 səh.
18. Orucoğlu Sultan. Ağbabadan mağar keçidi. Bakı: 1991
19. Qurbanov Tacir (Səmimi). Gülseyran kəndi. Bakı: 2009, 180 səh.
20. Rüstəmov Ə.M. Zəngəzurun toponimləri – tarixin izləri. Sumqayıt: 22016, 446 səh.
21. Агаева Р.А. Происхождения имен рек и озер. Москва: Наука, 1985, 114 стр.
22. Мурзаев Э.М. Словарь народных географических терминов. Москва: Наука, 1984, 380 стр.
23. Никонов В.А. Введение в топонимике. Москва: 1969,
24. Пастухов А. Восхождение на Алагёз. Тифлис: 1896, 91 стр.
25. Погосян А.М. Карсская область в составе России. Ираван: 1983.
26. Секоян Б.Т., Марикян Э.Р. Ожерелье Арагатса. Игаван: 1967

# İNFORMATORLAR

–Sultan Orucoğlu (Mağaracıq), 75 yaşında
– Əskərov Şahvələd (Vardana), təqaüdçü
– Həsənov Nemət (Ardıc//Arçut), müəllim
– Qiymət Rəhim qızı (Mollaqışlaq), təqaüdçü
– Vəliyev Kazım (Qarakilsə), təqaüdçü
– Səməd Həmid oğlu (Hallavar), təqaüdçü
– Vəliyev Allahverdi (Sultanabad), SDU-nun baş müəllimi
– Ələkbərov Sabir (Daşkörpü), SDU-nun müəllimi
–Əşrəfov Rüstəm (Düzkənd), SDU-nun dosenti
– Qurbanov Tacir (İbiş), AMEA-nın elmi işçisi
– Musa İsa oğlu (Xancığaz), təqaüdçü
– İsa Oruc oğlu (Haydarlı), təqaüdçü
– Qəribov Zülfüqar Qərib oğlu (Oxçuoğlu), 70 yaşında, təqaüdçü
–Eminov Şirəli (Quzukəndi), 72 yaşında
–Vəliyev Allahverdi (Şurabad), 65 yaşında
– Molla Paşa (Güllübulaq), 89 yaşında, təqaüdçü
–Qurbanov Tacir (İbiş), 63 yaşında
–Nəcəfov Nurəddin (Çivinli), 70 yaşında, təqaüdçü
–Fərzəliyev Xanəhməd (Qönçəli), 80 yaşında, təqaüdçü
– Ramazanov Aslan (Qara Namaz), 70 yaşında, təqaüdçü
– Mustafayev Hüseyn (Göllü), 80 yaşında, təqaüdçü
– Cəfərov Rüstəm (Amasiya), təqaüdçü
– Qəribov Yaşa (Qarabulaq), 60 yaşında
– Əhmədov Mehralı (Öksüz), 89 yaşında
– Namazov Şahin (İlanlı), 58 yaşında
– Xəlilov Vahid (Elləroyuğu), 60 yaşında
– Rəsulov Məcnun (Təpəköy), 60 yaşında
– Ramiz Əskər (Qaraçanta), 70 yaşında
– Qafar Çaxmaqlı (Çaxmaq), 70 yaşında

# MÜNDƏRİCAT

Qərbi Azərbaycan İcması binasında
Prezident İlham Əliyevin Qərbi Azərbaycandan
olan bir qrup ziyalı ilə görüşü zamanı etdiyi
çıxışından seçmələr.................................................................. 3
Ön söz. Tarixi-coğrafi yaddaş ............................................... 6
Giriş. Qərbi Azərbaycanın Ağbaba, Şörəyel, Pəmbək
bölgələri və ona yaxin olan ərazilərin relyefi ..................... 10
I fəsil. Linqvistik səviyyədə oronimlərin leksik-
semantik və qrammatik xüsusiyyətləri ............................... 15
Oronimlər sözlüyü ............................................................... 31
II fəsil. Linqvistik səviyyədə hidronimlərin leksik-
semantik və qrammatik xüsusiyyətləri .............................. 124
Hidronimlər sözlüyü ........................................................... 130
III fəsil. Linqvistik səviyyədə mikrooykonimlərin
leksik-semantik və qrammatik xüsusiyyətləri .................... 165
IV fəsil. 1988-1989-cu illərin deportasiyasınadək
Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin kəndlərində
yaşayan ailələrin və əhalinin sayı, tayfa və nəsil adları ...... 169
V fəsil. Qara, ağ, göy, sarı və qızıl (qırmızı)
komponentli toponim və hidronimlərin türk ellərindəki
paralelləri ............................................................................ 178
Nəticə ................................................................................... 184
Ədəbiyyat ............................................................................. 185
İnformatorlar........................................................................ 187
Əlavələr................................................................................. 189

# Əlavələr



Ələyəz dağındakı
Qız qalası X--XIII əsr



Pəmbək dərəsi



Loru dərəsi



Qara kaha(Amasiya rayonu)



Gümrü. Tanrıverdi oğullarının karvansarası.1875



Bəzirxana



QIPÇAQ QALASI (XII-XIII ƏSR)



Ayqırgözə gölü



Çoraq-Gümrü şəhəri yanında Qaynama bulaq



Bozqala şəlaləsi



Gümrü Qalası (IX-XI)



Seyidbiçən təpə



Ələyəz dağ silsiləsindən bir görünüş



Arpaçay körpüsü



Təpəköy kənd orta məktəbi



Seyidbiçən təpə


Arpagöldəki Keçəl təpə


Arpagöl mənzərəsi


Arpagöl bəndi


Arpagöl qoruğu

**ASLAN BAYRAMOV**
**YASƏMƏN BAYRAMOVA**

# *AĞBABA, ŞÖRƏYEL, PƏMBƏK və ONA YAXIN OLAN BÖLGƏLƏRİN MİKROTOPONİMLƏRİ*

Format 60x84 $^{1}/_{16}$. F.ç.v. 12,25

"Zəka Print" MMC